NİZAMİ QAFAROV

# AQRAR İSTEHLAK BAZARININ FORMALAŞMASI VƏ İNKİŞAFININ İQTİSADİ PROBLEMLƏRİ

MONOQRAFİYA



**NİZAMİ QAFAROV**

# AQRAR İSTEHLAK BAZARININ FORMALAŞMASI VƏ İNKİŞAFININ İQTİSADİ PROBLEMLƏRİ

**M O N O Q R A F İ Y A**

“Kooperasiya” nəşriyyatı
Bakı – 2023

Azərbaycan Kooperasiya Universitetinin Elmi Şurasının 20 fevral 2023-cü il tarixli iclasının qərarı ilə (protokol № 03) çap edilir.

**Elmi redaktor:** Azərbaycan Kooperasiya Universitetinin elm və innovasiyalar üzrə prorekroru, iqtisad elmləri doktoru, professor, Əməkdar elm xadimi **Bəyalı Xanalı oğlu Ataşov**

**Rəyçilər:** Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadiyyat və texnoloji elmlər" kafedrasının professoru, iqtisad elmləri doktoru, Əməkdar elm xadimi **Arif Şəkərəli oğlu Şəkərəliyev,**

Bakı Biznes Universitetini kafedra müdiri, iqtisad elmləri doktoru, professor, Əməkdar kənd təsərrüfatı işçisi **İslam Hacı oğlu İbrahimov,**

Azərbaycan Kooperasiya Universitetinin "İqtisadiyyat" fakültəsinin dekanı, iqtisad elmləri doktoru, **Elşən Əli oğlu İbrahimov**

**Nizami Cəlal oğlu Qafarov. "Aqrar istehlak bazarının formalaşması və inkişafının iqtisadi problemləri".** Monoqrafiya. Bakı, 2023, Kooperasiya" nəşriyyatı, 320 səh.

*Monoqrafiyada Azərbaycan Respubilkasında aqrar istehlak bazarının formalaşmasının nəzəri-metodoloji aspektləri nəzərdən keçirilir, aqrar istehlak bazarının iqtisadi mexanizminin zəruriliyi əsaslandırılır, aqrar istehlak bazarının inkişafında beynəlxalq təcrübə araşdırılır, istehlak bazarının iqtisadi müayinəsinin aparılması prinsipləri və müasir üsulları müəyyənləşdirilir, aqrar istehlak bazarın inkişafı və əhalinin aqrar-ərzaq məhsulları ilə təminatı, eləcə də əsas növ aqrar-ərzaq malları üzrə ixracın təşviqi və dəstəklənməsi məsələləri tədqiq edilir.*

*Kitabda həmçinin, aqrar istehlak bazarının tənzimlənməsində qiymət siyasəti və vergi mexanizmi, aqrar sahədə kreditləşmə mexanizminin tətbiqi formaları və mənbələri qiymətləndirilir, kreditləşdirmənin aparılmasının beynəlxalq təcrübəsi ümumiləşdirilərək Azərbaycanda tətbiqi variantları, həmçinin sığorta mexanizminin tətbiqinin tənzimlənməsi istiqamətləri, aqrar istehlak bazarının iqtisadi inkişafında rəqabət qabiliyyətli məhsulların rolu, aqrar istehlak bazarının inkişafı istiqamətində yaşıl aqrar-ərzaq təchizatı zəncirlərinin tətbiqinin zəruriliyi və aqrar sahə istehsalçıların beynəlxalq bazarlara çıxışının zəruriliyi və asanlaşdırılması istiqamətləri əsaslandırılaraq araşdırılır.*

*Monoqrafiya öz əhatə dairəsi, tədqiqatın dərinliyi və aktuallığı baxımından əhəmiyyətli olmaqla, aqrar sahədə və istehlak bazarında çalışan mütəxəssislər, sahibkarlar, maliyyə-bank işçiləri, eləcə də doktorant və magistrlər tərəfindən istifadə edilə bilər.*

Q $\frac{0503229412-211}{124-2023}$

© "Kooperasiya" nəşriyyatı - 2023
© Nizami Qafarov

**Monoqrafiya Azərbaycan Respubilkasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Azərbaycan Kooperasiya Universitetinin Tədbirlər Planının icrası ilə əlaqədar "Aqrar sahənin və sənayenin iqtisadiyyatı" kafedrasında hazırlanmışdır.**

**Monoqrafiya Ulu Öndər**

# HEYDƏR ƏLİYEVİN

**100 illiyinə həsr olunur.**

# MÜNDƏRİCAT

**Giriş**.................................................................... 6

**I FƏSİL. AQRAR İSTEHLAK BAZARININ FORMALAŞMASININ İQTİSADİ ƏSASLARI**

1.1. Aqrar istehlak bazarının formalaşmasında iqtisadi mexanizmlərin rolu və onların mahiyyəti.................... 12
1.2. Aqrar istehlak bazarına dair mövcud konsepsiyalar və nəzəriyyələrə baxış............................................... 34
1.3. Aqrar istehlak bazarının formalaşması və inkişafı xüsusiyyətləri........................................................... 59
1.4. Aqrar istehlak bazarının formalaşmasında beynəlxalq təcrübədən istifadə.................................. 73

**II FƏSİL. AQRAR İSTEHLAK BAZARININ MÖVCUD DURUMU: TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ**

2.1. Aqrar istehlak bazarın inkişafı və əhalinin ərzaq məhsulları ilə təminatı məsələləri..................... 84
2.2. Aqrar-ərzaq məhsullarının idxalı və ixracının mövcud durumu və dövlət dəstəklənməsi.................. 102
2.3. Aqrar istehlak bazarının inkişafının zəruriliyi, mövcud durumunun təhlili və qiymətləndirilməsi....... 127

**III FƏSİL. AQRAR SAHƏDƏ İSTEHLAK BAZARININ MAKROİQTİSADİ TƏNZİMLƏNMƏSİ MƏSƏLƏLƏRİ**

3.1. Aqrar istehlak bazarının tənzimlənməsində qiymət siyasəti və vergi mexanizmi....................................... 151
3.2. Aqrar istehlak bazarında kənd təsərrüfatı məhsullarının qiymət tənzimlənməsi mexanizmləri.... 169

**IV FƏSİL. AQRAR İSTEHLAK BAZARININ İQTİSADİ TƏNZİMLƏNMƏSİ VASİTƏLƏRİ**

4.1. Aqrar istehlak bazarının iqtisadi tənzimlənməsində kreditin rolu.......... 178
4.2. Aqrar istehlak bazarının iqtisadi tənzimlənməsində sığortanın yeri.......... 201
4.3. Aqrar istehlak bazarının tənzimlənməsində investisiyaların rolu.......... 211

**V FƏSİL. AQRAR İSTEHLAK BAZARININ İQTİSADİ VASİTƏLƏTLƏ TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI VƏ BEYNƏLXALQ BAZARA ÇIXIŞ**

5.1. Aqrar istehlak bazarının iqtisadi inkişafında rəqabət qabiliyyətli məhsulların rolu.......... 234
5.2. Aqrar istehlak bazarının inkişafı istiqamətində yaşıl aqrar-ərzaq təchizatı zəncirlərinin tətbiqi zəruriliyi.... 248
5.3. Aqrar istehlak bazarının inkişafı və aqrar məhsulların beynəlxalq bazara çıxışı.......... 268

İstifadə olunmuş ədəbiyyat siyahısı.......... 296

# GİRİŞ

**"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir".**
***Ümummilli lider Heydər Əliyev***

Ölkəmiz müstəqillik qazandıqdan sonra ulu öndər Heydər Əliyev tərəfindən qəbul edilmiş fərman, qanun və digər hüquqi normativ aktlar Azərbaycanda torpaq islahatlarını həyata keçirməyə əsaslı zəmin yaratdı və aparılan torpaq islahatları nəticəsində Azərbaycan vətəndaşları torpaq mülkiyyətçisinə çevrildi. Ərazimizin 20 faizinin erməni vandalları tərəfindən 30 ilə yaxın dövrdə işğalda saxlanılmasına baxmayaraq ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi dövründə uğurla həyata keçirilən regional inkişaf proqramları, habelə kənd təsərrüfatının inkişafı və kənd təsərrüfatı məhsullarının satışı, xammal və qida bazarlarının tənzimlənməsi üzrə dövlət proqramlarının qəbulu, sonrakı tənzimləmə tədbirləri, iqtisadi mexanizm elementlərini çətin iqtisadi şərtlərə və dəyişikliklərin məqsədyönlü təbiətinə uyğunlaşdıraraq iqtisadiyyatın aqrar sahəsindəki vəziyyəti xeyli yaxşılaşdırdı.

Hazırda ölkədə həyata keçirilən iqtisadi islahatlar müasir elm-biznes tərəfdaşlığına söykənir və müvafiq sahələrdə innovativ tədqiqatların inkişaf etdirilməsinə əsaslanır. Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ölkə prezidentinin tamamilə elmi əsaslara söykənən müasir aqrar sahənin inkişafına göstərdiyi yüksək diqqət və qayğısından irəli gəlmişdir.

Ölkə iqtisadiyyatının inkişafının başlıca məqsədi əhalinin sosial-iqtisadi tələbatının hərtərəfli ödənilməsi və dövlətin iqtisadi qüdrətinin gücləndirilməsidir. Ölkə əhalisinin aqrar-ərzaq məhsulları ilə təmın edilməsində aqrar sahə mühüm əhəmiyyət kəsb edir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, dayanıqlı aqrar sahə formalaşdırmadan ölkə əhalisinin kənd təsərrüfatı məhsullarına

olan tələbatını daxili istehsal hesabına təmin etmək mümkün deyil. Ona görə də aqrar sahənin hərtərəfli inkişaf etdirilməsi, xüsusən bununla bağlı respublikamızda formalaşan aqrar istehlak bazarının iqtisadi mexanizminin təkmilləşdirilməsi qeyd etdiyimiz məqsədə xidmət edir və istehlak bazarının hərtərəfli araşdırılması bu günümüzün ən vacib problemləri olmaqla xüsusi bir aktuallıq kəsb edir.

İstehlak bazarı mürəkkəb və rəngarəng bir sistem olmaqla iqtisadi inkişafa təsir etməklə bərabər bütünlükdə əmtəə bazarının formalaşmasını və inkişafının əsasını təşkil edir. Ölkə iqtisadiyyatının inkişafı gedişini təhlil edərkən görürük ki, respublikamızda aqrar istehlak bazarının məhsullarının istehsalı, pərakəndə mal dövriyyəsi, əmtəələrin idxalı və ixracı kimi məsələlərin araşdırılması və problemlərinin həlli yollarının ortaya çıxarılması zərurəti qarşıda durur. Belə ki, aqrar istehlak malları bazarına iqtisadi mexanizmlərin səmərəli tətbiqi, tələb və təklifin quruluşu, həcmi, tarazlığı, istehlak bazarında əmtəə istehsalçıları ilə istehlakçıların hüquqlarının müdafiəsi, tərəflər arasında rəqabət mühitinin formalaşması və inkişafı əmtəə istehsalçıları olan kənd təsərrüfatı və emal sənayesi ilə ticarət arasında qarşılıqlı əlaqələrin formalaşacağı mürəkkəb bir sistemi ifadə edir. Bu prosesi tədqiq etmək hər bir dövr üçün zəruridir və xüsusi aktuallıq kəsb edir. Bu baxımdan aqrar istehlak bazarının səmərəli inkişafına nail olmaq üçün problemi elmi baxımdan araşdırmaq və həll etmək lazım gəlir.

Problem həmçinin ona görə də aktualdır ki, o dünyəvi problem olan ərzaq təhlükəsizliyi probleminin tərkib hissəsidir. Bunun üçün respublikamızda aqrar sahədə istehlak bazarının iqtisadi mexanizmin formalaşması və inkişafının mahiyyətini bu prosesin mövcud konsepsiya və nəzəriyyələrin ümumiləşdirilməsi, həmçinin aqrar istehlak bazarının mövcud durumunu təhlil etmək, aqrar sahədə istehlak bazarının iqtisadi mexanizminin tənzimləmə vasitələri və metodlarını araşdırmaq, istehlak bazarının iqtisadi mexanizminin təkmilləşdirilməsi yollarının elmi cəhətdən qiymətləndirmək əsa-

sında ümumi prosesin gedişi baxımından konkret nəticə və təkliflər işləyib hazırlamaqdan ibarətdir.

2003-2022-ci illərdə qarşıda duran vəzifələr Prezident İlham Əliyev tərəfindən aparılmış uğurlu siyasətlə müəyyənləşdirilmiş iqtisadi islahatından aqrar islahatına keçid strateji inkişaf vektoru ilə təyin olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsi" qeyd edilən istiqamətlər üzrə əsas strateji məqsəd və hədəfləri, perspektivdə olan tədbirlərin qiymətləndirməsi və maliyyələşdirməsinə dair mexanizmləri müəyyənləşdirir.

Hazırda Azərbaycanın aqrar sahəsi və istehlak bazarının investisiya fəallığının artırılması ilə bağlı, xüsusilə ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından idxalı əvəzetmə sahəsindəki prioritetlər əsasında iqtisadi inkişafın müasir tələblərinə cavab verən iqtisadi mexanizmin daha da təkmilləşdirilməsinə, davamlı və uzunmüddətli inkişafa yönəlmiş iri təsərrüfatların təşkilinə ehtiyac yaradır. Bu baxımdan iqtisadi mexanizmin transformasiyasına nəzəri və metodoloji yanaşmaların inkişafı, eyni zamanda ölkə səviyyəsində fəaliyyət xüsusiyyətlərinin müəyyənləşdirilməsi aqrar sahədə istehlak bazarının fəaliyyətinin iqtisadi vasitələrlə tənzimlənməsi məsələləri müasir dövrdə çox aktualdır və yüksək nəzəri və praktiki əhəmiyyətə malikdir.

Aqrar istehlak bazarının formalaşması və inkişafının iqtisadi problemləri ilə bağlı qeyd olunmalıdır ki, son dövrlərdə aqrar sahənin iqtisadi mexanizminin inkişafı və fəaliyyətinin səmərəliliyinin müxtəlif problemləri bir çox alimlərin tədqiqat mövzusu olmuşdur. Aqrar sahənin, həmçinin istehlak bazarının və onun iqtisadi mexanizminin ayrı-ayrı elementləri ilə əlaqəli inkişafı problemləri yerli iqtisadçı alimlərdən Z.Ə.Səmədzadə, E.A.Quliyev, B.X.Ataşov, Ə.Ç.Verdiyev, A.Ş.Şəkərəliyev, İ.H.İbrahimov, İ.H.Alıyev, V.H.Abbasov, A.H.Vəliyev, S.V.Salahov, M.C.Hüseynov, M.C.

Atakişiyev, T.N.Əliyev, R.Ə.Balayev, F.F.Fikrətzadə, H.A.Xəlilov, A.F.Abbasov, A.E.Quliyeva, E.M.Hacızadə, Ş.T.Əliyev, E.Y.Məmmədov, N.H.Əhmədov, A.H.Əliyev xarici iqtisadçı alimlərdən N.A.Borxunov, Z.K.Qerasimova, M.Q.Lapaeva, E.S.Maskin, V.V.Maslova, A.S.Narinbayeva, D.A.Polzikov, A.B.Smirnov, L.B.Sulpovar, N.N.Tereşenko və bir sıra digərlərinin əsərlərində araşdırılmışdır.

Bu müəlliflərin əsərləri tədqiqatın nəzəri əsasını təşkil etmişdir. Eyni zamanda, müasir kənd təsərrüfatı istehsalının davamlı inkişaf tələblərinə cavab verən istehlak bazarının səmərəli iqtisadi mexanizmin formalaşdırılmasına dair bir sıra nəzəri-metodoloji və elmi-praktik məsələlərin tədqiqinin günümüzün tələbləri səviyyəsinə uyğun olaraq ehtiyac duyulur. Tədqiqat mövzusunun seçilməsi məhz bu zərurətdən irəli gəlmişdir.

Ölkəmizin gələcək iqtisadi inkişafı baxımından işğaldan azad edilmiş ərazilərin təbii ehtiyatları, xüsusilə də kənd təsərrüfatı potensialı mühüm əhəmiyyətə malikdir. Bu ərazilərdə aqrar sahənin inkişaf potensialını qiymətləndirmək üçün işğala qədərki dövrdə 1988-ci ilin statusuna uyğun olaraq həmin ərazilər vaxtilə yüksək aqrar inkişaf göstəricilərinə malik idilər. Qeyd edilən tarixdə ölkədə istehsal olunan üzümün 31,5%-i, yunun 19,3%-i, südün 17,1%-i, baramanın 17%-i, ətin 14,5%-i, taxılın 14,3%-i, kartofun 6,3%-i, yumurtanın 3,6 faizi, pambığın 3,3%-i bu ərazilərin payına düşürdü.

İşğala qədərki dövrdə respublika üzrə xırdabuynuzluların 19,2%-i, iribuynuzlu mal-qaranın isə 15%-i bu ərazilərin payına düşürüdü. Laçın, Ağdam və Füzuli rayonlarında iribuynuzlu heyvandarlığa, Laçın, Ağdam, Kəlbəcər, Füzuli və Cərbayıl rayonlarında isə xırdabuynuzlu heyvandarlığın aid göstəriciləri yüksək olmuşdur. Qeyd edilən göstəricilərlə bərabər, işğaldan azad edilmiş ərazilərin relyefini, iqlim şərtlərini və s. bu kimi təbii imkanlarını nəzərə almaqla Qarabağ və ətraf rayonlarda aqrar sahənin prioritetlərini müyyən etmək mümkündür.

İşğaldan azad olunmuş bütün şəhər və kəndlərin bərpası müasir tələblərə uyğun olmaqla həyata keçirilməsi planlaşdırılıb. Ərazilərdə infrastruktur, məşğulluq, iqtisadiyyatın bərpası və s. bu kimi istiqamətlər nəzərə alınmaqla, işğaldan azad olunmuş torpaqların bərpası və inkişafı ilə bağlı konsepsiya işlənib hazırlanıb və həyata keçirilməkdədir. Həmin ərazilərin bərpası və inkişafına yönəlik dövlət tərəfindən həyata keçirilməsi planlaşdırılan tədbirlər və həmin rayonların sosial-iqtisadi potensialı ölkəyə, xüsusən də qeyri-neft sektoru istiqamətinə yeni yerli və xarici sərmayələrin cəlbinə zəmin yaradacaqdır.

2021-ci ilin 7 iyul tarixində ölkə Prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərman imzalanıb. Burada zəruri məqam işğaldan azad edilmiş ərazilərdə Qarabağ iqtisadi rayonu və Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılmasıdır. Əsas məqsəd işğaldan azad edilmiş ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadəni və inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasından ibarət olmaqla, həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılmasına xidmət edəcək.

Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdə qeyd olunduğu kimi: *"qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcəkdir"* [18].

Bununla yanaşı, ölkə Prezidenti İlham Əliyevin sərəncamına uyğun olaraq 2022-ci ilin 16 noyabrında işğaldan azad edilmiş ərazi-

lərimizə böyük qayıdışın başlanması ilə bağlı I dövlət proqramı təsdiq olunub. Təsdiq olunmuş bu Dövlət Proqramında öz əksini tapmış tədbirlər sırasına: "*işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri, mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, (infrastrukturun bərpası, iqtisadiyyatın yenidən qurulması, sosial inkişaf və ətraf mühitin tarazlı inkişafı) Dövlət Proqramının prioritet istiqamətləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri*" [220] daxil edilib.

Təbii ki, quruculuq işləri reallaşdırıldıqdan, insanlar o torpaqlara döndükdən, torpaqlarda quruculuq işlərinin aparılmasından, sosial-iqtisadi infrastrukturun təməlinin qoyulmasından sonra biz həmin ərazilərimizin bütövlükdə ölkəmizin inkişafına hansı müsbət təsirlər göstərəcəyinin şahidi olacağıq.

# I FƏSİL. AQRAR İSTEHLAK BAZARININ FORMALAŞMASININ İQTİSADİ ƏSASLARI

## 1.1. Aqrar istehlak bazarının formalaşmasında iqtisadi mexanizmlərin rolu və onların mahiyyəti

İqtisadi mexanizmin təkamülü əsasən ictimai inkişafın ümumi qanunauyğunluqları, iqtisadiyyatın qloballaşması, BMT tərəfindən bəyan edilmiş davamlı inkişafa yeni yanaşmalarla bağlıdır. Davamlı inkişaf iqtisadiyyatın bütün sahələrində fasiləsiz inkişafın təmin olunmasını resurslardan səmərəli istifadə edilməsini və onun gələcək nəsillərə effektiv və optimal formada ötürülməsini nəzərdə tutur.

Professor, Əməkdar elm xadimi A.Ş.Şəkərəliyev qeyd edir ki, "*Davamlı inkişafın əsas mahiyyətini insanların tələblərini ödəməyə qadir olan və onların tələbatlarının ödənilməsinə mane olmayan iqtisadi inkişaf və insan fəaliyyətinin icra edilməsinin yeni forması təşkil edir. Bu tələblər isə yalnız ətraf mühitin qorunması, təbii sərvətlərdən və enerji ehtiyatlarından səmərəli istifadə edilməsi, bunun üçün isə yeni texnologiyaların yaradılması və onların istehsalatda geniş tətbiq olunması zəminində həyata keçirilə bilər*" [99, s. 513].

AMEA-nın müxbir üzvü, professor Ə.X.Nuriyevin fikrincə, *"davamlı inkişaf konsepsiyasının, o cümlədən davamlı insan inkişafı konsepsiyasının mərkəzində davamlı iqtisadi inkişaf, ərtaf mühitin mühafizəsi və işsizlik probleminin həlli durmalıdır. Bu problemlərin həlli mexanizmləri aydın müəyyənləşdirilməlidir"* [92, s. 20].

Bizim fikrimizcə, davamlı inkişaf öz növbəsində bir sıra mexanizmlərlə reallaşdırılır. Bu mexanizmlər içərisində iqtisadi mexanizmlər əhəmiyyətli rol oynayır. İqtisadiyyatın mühüm və strateji

əhəmiyyətli sahəsi olan kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqəyə malik sahəsi olan aqrar sahə də davamlı inkişaf və onun iqtisadi mexanizmi xüsusilə ölkənin ərzaq təhlükəsizliyi baxımından mühüm rola malikdir. Davamlı inkişaf məqsəd, iqtisadi mexanizm isə məqsədə çatmaq üçün vasitədir. İqtisadi mexanizm nəinki ölkənin ərzaq təhlükəsizliyinin, eyni zamanda ölkənin ekoloji təhlükəsizliyininin təmin edilməsi baxımından prioritetliyə malikdir.

İqtisadi mexanizm təsərrüfatçılıq mexanizminin mühüm tərkib hissəsi olub bazar münasibətləri şəraitində sosial-iqtisadi proseslərə qeyri-müstəqim müdaxilənin prioritet istiqamətini təşkil etməklə əsas etibarilə maliyyə-kredit, qiymət, vergi, büdcə ödənişləri, sığorta və s. (dotasiyalar, subsidiyalar, subveksellər) vasitəsilə gerçəkləşdirilir.

AMEA-nın müxbir üzvü, professor Z.Ə.Səmədzadə qeyd edir ki, *iqtisadi mexanizmlər iqtisadiyyatın idarə edilməsi alətləridir bunlar, qiymətlər və tariflər sistemini, maliyyə-kredit vasitələrini, vergiləri və s. ehtiva edir. Mexanizmlər adı belə bir faktı əks etdirir ki, onlar obyektin iqtisadi vəziyyətinin dəyişdirilməsi, iqtisadiyyatda dönüş edilməsi üçün vasitə kimi istifadə olunur. Müxtəlif və ya eyni növ iqtisadi vasitələr bütövlükdə iqtisadiyyatın tənzimlənməsi və müəssisələr firma səviyyəsində iqtisadi proseslərə təsir göstərməsi üçün istifadə edilir. İqtisadi vasitələt təsərrüfat mexanizminin ayrılmaz hissəsidir* [37, VI c. s. 630].

Aqrar sahənin iqtisadi mexanizmi kənd təsərrüfatı və onunla sıx qarşılıqlı əlaqəyə malik sahələrin (istehlak bazarının) davamlı inkişafının təmin edilməsində mühüm rola malikdir. Aqrar sahənin strukturunda kənd təsərrüfatı mühüm xüsusi çəkiyə malik olduğundan iqtisadi mexanizm adı çəkilən strukturun spesifik xüsusiyyətlərinin nəzərə alınması mühüm strateji əhəmiyyətə malikdir.

Beynəlxalq təşkilatların qiymətləndirilmələrinə görə onların spesifikliyi bundan ibarətdir ki, bir ölkənin inkişaf strategiyasını və iqtisadi mexanizmin formalaşmasını qida əlçatanlığının təmin edil-

məsi, ekologiyanın və təbii ehtiyatların qorunması, əhalinin sayının məhdudlaşdırılması kimi universal amillərlə əlaqələndirmək tövsiyə olunur. Mənfəətin, faydalılığın, inkişafın yüksək surətlərin meyarları göstərilmir. Vurğulanır ki, gələcək inkişaf insanın təbiətlə, onun yaşadığı dünya ilə münasibətinin uyğunlaşdırması ilə əlaqəli olmalıdır. Məhsulların istehsalı təbiətin təbii qanunlarına müqavimət göstərməməli, yalnız insan ehtiyaclarını təmin etməlidir. Sosial dəyərlər ön planda olmalıdır. Təbiətdən istifadənin bütün sahələrində əsas resurslardan istifadəni azaltmaq və resursları qənaət edən texnologiyalara keçmək lazımdır [78, s. 21].

İqtisadi mexanizm iqtisadi tarazlığın qorunub saxlanılmasında əhəmiyyətli rol oynayır. Bu baxımdan bəzi müəlliflər onun tarazlı sistemin xüsusiyyətlərinə malik olduğunu qeyd edirlər. Digərləri göstərirlər ki, bu proses dinamik sistemdir və inkişafın qeyri-bərabərlik şərti ilə xarakterizə olunur.

Ümumi şəkildə iqtisadi tarazlıq iqtisadi resursların balanslaşdırılmış vəziyyətini təsvir edir və xarici təsirlər olmadıqda iqtisadi dəyişənlərin (balanslaşdırılmış) kəmiyyətləri dəyişmir. İqtisadiyyata təsir edən müxtəlif amillər və ya qüvvələr mövcudluğu, onu hərəkətə gətirir və bununla da tarazlıq vəziyyətindən çıxarır. N.D.Kondratyev, V.B. Zang, J.Sapir bu nəzəriyyənin tərəfdarları idilər.

J.Şumpeterin nəzəriyyəsinə görə, tarazlıq vəziyyəti nə təkmil, nə qeyri-təkmil rəqabət şəraitində, nə də bazarda oliqopoliyanın və inhisarın mövcudluğu şəraitində mümkün deyil.

K.Marksın nəzəriyyəsinə görə, bazar iqtisadiyyatının çoxcəhətli təbiətində tarazlıq təsadüfi bir fenomendir. A.Smit, A.Kournot, L.Valras, V. Pareto, J. Keyns və digərləri də tarazlıq nəzəriyyəsinə böyük diqqət yetirilmişlər. Rus müəllifləri arasında iqtisadiyyatın qeyri-tarazlığını obyektiv olaraq xarakterik bir vəziyyət olaraq təyin edən O.V.Kojevina, iqtisadi sistemin parametrlərini zaman və məkandakı tarazlıqdan inkişaf dinamikasında qeyri-xətti dəyişikliklər nəticəsində kənarlaşma ilə xarakterizə etmişdir [133, s. 98].

Akademik, AMEA-nın müxbir üzvü Z.Ə.Səmədzadənin fikrincə, *iqtisadiyyatın tarazlığı cəmiyyətdə iqtisadi proseslərin uzlaşdırılmış şəkildə inkişaf etməsidir. İqtisadiyyatın tarazlığı iqtisadiyyatın tənasübsüzlükləri toplamamaq, mövcud potensialı uğurla səfərbər etmək və yaranmış tarasızlıqdan mümkün qədər tez çıxmaq, həyatın yeni tələblərinə dinamik şəkildə köklənmək qabiliyyəti deməkdir. Cəmiyyətin təsərrüfat strukturunun mürəkkəbliyi tarazlıq prosesinin çoxcəhətli olmasını şərtləndirir* [37, VI c. s. 633].

Cəmiyyətdə meydana gələn sosial, iqtisadi və texnoloji proseslər daxili və xarici səbəblərdən iqtisadi sistemin təsiri altında daim dəyişən bir kompleksdir. Bu sistemin idarəçiliyi xüsusi vasitələr və metodlardan istifadə edərək əvvəlcədən təlim tələb edən mürəkkəb bir məsələyə çevrilir. Məhz bu məqamda sistemin elementi formalaşmağa başladı ki, bunun da vasitəsilə cəmiyyətdə iqtisadi münasibətlər müəyyən prinsip və qaydalar əsasında qurulmağa başladı. Bu element məhsulların istehsalı, bölgüsü, mübadiləsi və istehlakından yaranan iqtisadi prosesləri tənzimləyən əsas hərəkətverici qüvvəsinə çevrilmiş bir iqtisadi mexanizm halına gəlib.

İdarəetmə prosesində "mexanizm" anlayışını istifadə edən ilk alimlərdən biri L.İ.Abalkindir. İqtisadi mexanizmin strukturunda o, ictimai istehsalın təşkili formaları, iqtisadi əlaqələrin formaları, planlaşdırmanın və təsərrüfat rəhbərliyinin strukturu, forma və metodları, istehsala və təsərrüfat fəaliyyətinin iştirakçılarına təsir edən, iqtisadi fəaliyyətin əlaqələndirilməsinə və stimullaşdırılmasına kömək edən iqtisadi rıçaqların və stimullaşdırıcıların məcmusu kimi struktur elementləri ayırdı [102, s. 135].

İqtisadi ədəbiyyatda bu anlayışın müxtəlif şərhlərinə rast gəlinir. İqtisadi mexanizm, həmçinin, əhalinin rifahının yaxşılaşdırılması məqsədi ilə istehsal prosesinin mütərəqqi inkişafına, tənzimlənməsinə və stimullaşdırılmasına təsir göstərən istehsal üsuluna uyğun olan iqtisadi vasitələr və alətlər sistemi kimi nəzərdən keçirilir. Eyni zamanda, tədqiqatçılar iqtisadi mexanizmin aşağıdakı element-

lərini müəyyənləşdirirlər: qiymət sistemi, büdcə sistemi, vergi sistemi, maliyyə və kredit sistemi, sosial təhlükəsizlik sistemi, sığorta sistemi. Eyni zamanda, maliyyə və kredit sisteminə investisiya və lizinq daxildir, büdcə sisteminə isə qrant və kompensasiyalar da daxildir [138, s. 35].

V.A.Svobodin təşkilati-iqtisadi mexanizmi iqtisadi mexanizmin daha geniş bir anlayışı olaraq qiymətləndirir. Eyni zamanda, bir çox alt sistem kimi təqdim edir: funksional və təşkilati-iqtisadi. Birinciyə: texnoloji, sosial və ekoloji alt sistemləri; ikinciyə - iqtisadi, təşkilati və idarəetmə aiddir [163, s. 39].

L.Hurvitz, R.Mayerson və E.Maskin tərəfindən hazırlanmış iqtisadi mexanizmlər nəzəriyyəsi iqtisadi mexanizmlər haqqında təsəvvürləri dəyişdirmək cəhdi idi. Onların fikirlərinə görə, iqtisadi subyektlər arasında hər hansı bir qarşılıqlı münasibətdə tətbiq oluna biləcək ən ümumi təsəvvür bu cür qarşılıqlı əlaqəni strateji bir oyun kimi qiymətləndirir və mexanizmin özünü oyun forması adlandırırdılar. Oyun oyunçuların (iqtisadi subyektləri) hərəkət edə biləcəyi və hərəkətlərin hər hansı bir hissəsinə gətirib çıxara biləcəyi təsviridir. L.Hurvitz tərəfindən təklif olunan xülasəyə görə, mexanizm subyekt ilə mərkəz arasında qarşılıqlı əlaqəni təyin edən üç mərhələdən ibarətdir: hər bir subyekt xüsusi olaraq mərkəzə xəbər göndərir, bütün xəbərləri qəbul edən mərkəz gözlənilən nəticəni hesablayır; mərkəz nəticəni elan edir və zəruri hallarda onu tətbiq edir [143, s. 21]. Həmin tədqiqatçılara 2007-ci ildə optimal mexanizmlər nəzəriyyəsinin əsaslarını yaratdıqlarına görə Nobel mükafatı təqdim olunub.

İqtisadi mexanizmin iqtisadi sistemin bir törəməsi olduğu nəzərə alınmaqla, onun struktur elementləri də iqtisadi sistemin özünə malik olan xüsusiyyətlərinə sahibdir. Bazarın fəaliyyət göstərdiyi şəraitdə iqtisadi mexanizm həm özünü tənzimləmə xüsusiyyətlərinə, həm də dövlət tənzimləməsinə və ya onun əsas elementlərinə təsir göstərməyə başlayır.

Müasir tədqiqatçılar hazırda əsas iqtisadi nəzəriyyənin neoklassik paradiqma (dünyaya baxış üslubu) olduğunu vurğulayır. Buna görə, ilk növbədə, iqtisadi proseslərə təsir göstərən dövlət mexanizmlərinin mövcudluğunu göstərən öz fəaliyyətinin əsas rejimi kimi özünü tənzimləməyə yönəldilmişdir və bütün iqtisadi sistemlər isə bazar iqtisadi sistemlərinə daxil edilir və onların arasındakı fərq həmişə vurğulanmır. Bu mövqeyi qəbul edərək, kənd təsərrüfatı müəssisələrinin mövcud iqtisadi mexanizmin təsirinə məruz qaldığını qeyd etmək lazımdır.

Bütün hallarda "mexanizm" anlayışı onun daxili elementləri arasında yüksək səviyyədə qarşılıqlı əlaqəni göstərir. Sistemin tam olması üçün onun hissələri bir-biri ilə davamlı qarşılıqlı əlaqədar olmalıdır. Elementlərin hər hansı birində dəyişiklik bütün iqtisadi mexanizmdə dəyişikliyinə gətirib çıxarır və dolayısı ilə iqtisadi əlaqələr müəyyən dəyişikliklərə məruz qalır.

Eyni zamanda, iqtisad elmləri doktoru N.A.Borxunovun qeyd etdiyi kimi, aqrar sahədə iqtisadi mexanizm onun alt sistemlərinin qarşılıqlı təsirinin balanslaşdırılması zərurəti ilə bağlıdır və struktur, dinamika və s. bu kimi kəmiyyət xüsusiyyətləri ilə həyata keçirilir [108, s. 10].

"İqtisadi mexanizm" konsepsiyası kənd təsərrüfatının iqtisadiyyatı ilə məşğul olan alimlər tərəfindən ətraflı şəkildə nəzərdən keçirilmiş və belə qənaətə gəlinmişdir ki, iqtisadi mexanizm kənd təsərrüfatının fəaliyyətini təmin edən, bir-biri ilə qarşılıqlı əlaqədə olan qiymət, büdcə, kredit, vergi, sığorta və gömrük-tarifi altsistemlərinin məcmusundan ibarətdir [181, s.10]. Bu mexanizmlər istehlak bazarının davamlı inkişafına və səmərəli fəaliyyətinə mane olan problemlərin həllində əhəmiyyətli dərəcədə rol oynayır (şəkil 1.1.1).

| İqtisadi mexanizmlər | | | | | |
|---|---|---|---|---|---|
| Büdcə altsistemi | Qiymət altsistemi | Kredit altsistemi | Vergi altsistemi | Sığorta altsistemi | Gömrük-tarif altsistemi |

**Şəkil 1.1.1. Aqrar sahədə təkrar istehsal prosesində iqtisadi mexanizm**
*Mənbə: Şəkil müəllif tərəfindən tərtib edilmişdir.*

Bu şərh iqtisadi mexanizmin iqtisadi sistemdə fəaliyyətinin əsasını təşkil edir, onun müfəssəl ifadəsini vurğulayır. İqtisadi mexanizmin ən vacib funksiyası aqrar sahənin inkişafı üçün əlverişli şərait yaratmaq, geniş təkrar istehsalı təmin etməkdir. "İqtisadi mexanizm" anlayışını, iqtisadi sistemdə rolunu müəyyənləşdirərək, onlardan hər birinin müəyyən vasitələr dəstinə malik olan əsas elementlərini nəzərdən keçirək. Bunların vasitəsilə kənd təsərrüfatında əmtəə istehsalçılarının və aqrar emal sahələrinin inkişaf üçün lazımi şərait yaratmaq mümkündür.

Paritetliyə əməl olunması və ya pozulması bütövlükdə iqtisadi mexanizmin bütün alt sistemlərinin fəaliyyətindən asılıdır. Paritet münasibətlərinin tənzimlənməsi üzrə tədbirlər həm qiymət, həm də maliyyə, kredit və sığorta ilə bağlı ola bilər [66, s. 23]. Onlar sahələrarası mübadilədə disproposiyaların aradan qaldırılmasının dolayı formalarıdır, əhəmiyyəti ildən-ilə artmaqdadır. İqtisadi mexanizmin altsistemlərinin iqtisadiyyatın aqrar sahəsində paritet vəziyyətinə təsirinin təhlili 1.1.1 saylı cədvəldə göstərilmişdir.

**Cədvəl 1.1.1**

**İqtisadi mexanizmin alt sistemlərinin iqtisadiyyatın aqrar sahəsində paritet vəziyyətinə təsirinin təhlili**

| Alt-sistemlər | Müsbət təsir | Mənfi təsir |
|---|---|---|
| Qiymət | - kənd təsərrüfatı məhsullarına üstün qiymətlər artımı;<br>- məhsul satışından gəlir həcmlərinin artması. | - sənaye məhsulu istehsalına üstün qiymətlər artımı;<br>- satılan kənd təsərrüfatı məhsullarının az gəlirliliyi və zərərliyi |
| Büdcə | - bütün səviyyədəki büdcələrdən ayrılan vəsaitlərin köməyi ilə qiymətlərin paritetliyinin mənfi nəticələrini aradan qaldırılması;<br>- müəssisələrinin məcmu mənfəətinə dövlət maliyyələşmə vəsaitlərini daxil etməklə rentabelliyin artırılması. | - inflyasiya prosesləri və ixrac resurslarının əsas növlərinin dəyərinin azalması ilə əlaqədar ölkənin büdcəsinə daxil olan vəsait həcmlərin azaldılması. |
| Vergi | - kənd təsərrüfatı istehsalçılarına vergi imtiyazları verilməsi | - vergi qanunvericiliyində müntəzəm dəyişikliklər nəticəsində yüksək vergi riskləri;<br>- vergi yükünün artması. |
| Kredit | - kənd təsərrüfatı istehsalçılarının maliyyə resurslarının və investisiyalarının müvəqqəti artırılması və əlavə məhsul və mənfəət əldə edilməsi. | - kredit resursları üzrə faiz dərəcələrinin artması;<br>- kənd təsərrüfatı təşkilatlarının maliyyə resurslarında kredit payının artması (kənd təsərrüfatı təşkilatlarının öz vəsaitlərinin payının azalması); |

| | | |
|---|---|---|
| Sığorta | - sığorta şirkətlərinin itkilərin kompensasiyası ilə məhsulun çatışmazlığı halında mənfi nəticələrin azaldılması. | - sığorta haqlarının ümumi həcmində sığorta ödənişlərinin aşağı hissəsi;<br>- fəlakətli risk halında bitkilərin zərər və ya çatışmazlığı üçün kompensasiya. |
| Gömrük və tarif | - idxal olunan malların idxalının məhdudlaşdırılması;<br>- İdxal olunmuş malların dəyərinin artırılması və yerli məhsulların rəqabət qabiliyyətinin təmin edilməsi. | - daxili bazarda kənd təsərrüfatı məhsullarının rəqabətinin azaldılması. |

*Mənbə: Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.*

Qiymət altsisteminin fəaliyyəti və kənd təsərrüfatı münasibətlərinin pariteti arasında birbaşa əlaqə meydana çıxır. Münasibətlərin dispariteti adətən satılan kənd təsərrüfatı məhsullarının aşağı gəlirliliyi və zərərsizliyi, eləcə də istehlakçıların əldə etdiyi kənd təsərrüfatı məhsullarının nisbətən aşağı qiymətlərində üzə çıxır. Mübadilənin ekvivalentliyi pozulur, nəticədə kənd təsərrüfatı istehsalçılarının ödəmə qabiliyyəti azalır. Qiymət elə bir amildir ki, onun dəyişməsinə bütün iqtisadi mexanizm cavab verir. Qiymət dəyişməsi müəssisələrin maliyyə və iqtisadi fəaliyyətinin planlaşdırılmasında, büdcə planlaşdırılmasında, vergi yığımında çətinlik yaradır.

Azərbaycanın iqtisadçı alimi, prof. İ.H. İbrahimov özünün 2022-ci ildə nəşr etdirdiyi "Regionların və işğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətləri" adlı monoqrafiyasında qeyd edir ki: *"Büdcə aqrar bazarın formalaşmasında mühüm əhəmiyyətə malikdir. Büdcə vəsaiti hesabına ərzaq fondunun yaradılması, ərzaq fonduna büdcə vəsaiti ayırmaqla texnika və texnologiyaların inkişafı, elmin inkişafı, torpağın münbitliyinin yaxşılaşdırılması, meliorasiya işləri aparılması, baytarlıq xidməti, fitosanitar xidməti, cins heyvanlar alınması, toxumçuluğun yaxşılaşdırılması, quşçuluğun inkişafı,*

*kənd ərazilərinin infrastrukturunun yaxşılaşdırılmasına dövlət büdcəsi vəsaiti ayrılır və güzəştli şərtlərlə köməklik göstərilir. Bu, kənd təsərrüfatı istehsalçılarına istehsalın artırılmasına və xidmətlərin yaxşılaşdırılmasına böyük təsir göstərir"* [51, s. 21].

Büdcə altsistemi qiymət disparitetinin mənfi nəticələrinin bütün səviyyələrdə olan büdcələrdən ayrılan vəsaitlərin köməyi ilə yumşaldılmasını təmin edir: uçot qaydalarına əsasən demək olar ki, dövlət dəstəyi tamamilə müəssisələrin ümumi mənfəətinə daxil edilir. Müxtəlif dövrlərdə subsidiyaların ayrı-ayrı növləri istehsalçıların əldə etdiyi sənaye məhsullarını (yanacaq, mineral gübrələr və s.) ucuzlaşdırılmış, satılmış məhsul vahidinə görə ödənilmişdir. Bu da qiymət dispariteti probleminin yumşaldılmasına misaldır. Əlaqələndirilməyən dəstək formaları, faiz dərəcəsinin subsidiyalaşdırılması büdcə altsisteminın aqrar sahəsində iqtisadiyyatın digər sahələri ilə münasibətləri üzrə paritetinə dolayı təsirin nümunəsi kimi çıxış edir.

Kredit altsistemı iqtisadi mexanizmin qiyməti və büdcə altsistemləri ilə sıx əlaqədə olur. Büdcə vəsaitlərinin köməyi ilə kredit resursları ucuzlaşır, kredit vəsaitlərinə çıxış artır. Bu xüsusilə faiz dərəcəsinin bir hissəsinin büdcə vəsaitləri hesabına kompensasiya mexanizminin ilkin fəaliyyət dövründə böyük əhəmiyyət kəsb edir. Bu səmərəlilik əvvəl yüksək idi, sonradan kreditin ödənilməsi prinsipinə əməl olunmasına yönəldilmiş mexanizmin nəzərdə tutulmasına baxmayaraq azalmışdır. Bu halda büdcə vəsaitləri aldıqları kreditləri zamanında ödəyən təsərrüfatlara göndərilirdi [145, s. 69]. Kənd təsərrüfatı təşkilatlarının kredit qabiliyyətliyinin qiymətlərlə müəyyənləşdirildiyini, özünü rentabellikdə göstərdiyini, ödəniş müddətində kredit müqavilələrinin yerinə yetirilməsində gecikmiş borcların olmamasını nəzərə alaraq, o həmçinin qiymət alt sistemində dəyişikliklərə məruz qalır.

Professor İ.H.İbrahimov araşdırmalarında qeyd edir ki, *"...aqrar bazarın formalaşmasında dövlətin kənd təsərrüfatını kreditləşdir-*

*mə siyasətinin böyük rolu vardır. Kreditlərin güzəştli, qısa və uzun müddətə verilməsi sahibkarların kənd təsərrüfatı məhsulları istehsalı, emal və xidmət müəssisələri yaratmalarına əlverişli şərait yaradır. Kənd təsərrüfatı istehsalçılarına dövlət və qeyri – dövlət bankları tərəfindən verilən kreditlər ildən – ilə artır. Hazırda ölkədə səmərəli fəaliyyət göstərən kredit bazarı yaranmışdır. Dövlət kənd təsərrüfatı və sahibkarlığın inkişafı üçün kredit siyasətini müntəzəm olaraq təkmilləşdirir və bu məqsədlə kreditlərin həcmi artırılır, kredit verilməsinin əhatə dairəsi genişləndirilir. Hesab edirik ki, İAEƏ - in inkişafı üçün həyata keçiriləcək kredit siyasəti öz təsirini qısa müddətdə göstərəcəkdir”* [51, s. 21].

Vergi altsisteminin aqrar münasibətlərin paritetliyi ilə əlaqəsi özünü onda göstərir ki, vergi yükünün azalması və kənd təsərrüfatına vergi imtiyazları kənd təsərrüfatı münasibətlərinin paritetinə təsir edən amillərdir. Vergi yükü gəlirlərin formalaşmasına və kənd təsərrüfatı məhsullarının qiymətlərinə təsir göstərir. Kənd təsərrüfatı müəssisələri tərəfindən kredit alınması və hökumətin dəstək proqramlarından iştirakı mənfəətfən asılıdır. Buna görə də, vergi sistemi dolayı yolla iqtisadi mexanizmin bütün alt sistemlərini təsir edir və mövcud iqtisadi şəraitdə dövlət aqrar siyasətinin inkişafında nəzərə alınmalıdır.

Nəticədə, vergi sisteminin vergi funksiyasının yerinə yetirilməsini təmin edən vergi mexanizmi onun stimullaşdırıcı rolunu ən yaxşı şəkildə ortaya qoyur: bir tərəfdən, vergilərin ümumi strukturu iqtisadi inkişafı stimullaşdırır, digər tərəfdən, ümumi struktur çərçivəsində resursların səmərəliliyinin stimullaşdırılması və sosial problemlərin həlli artırılır. Əlavə dəyər vergisi ödəmə sisteminin pozulmasına bağlı olaraq əks nəticələr mümkündür. Bu, alınan sənaye məhsullarının qiymətinin artmasına və mənfəətin, gəlirliliyin azalmasına gətirib çıxarır.

Professor İ.H.İbrahimovun təbirincə: *“Aqrar bazarın formalaşmasında vergi siyasəti kənd təsərrüfatının inkişafında və istehsal-*

*çıların stimullaşdırılmasında böyük rol oynayır. Ölkənin kənd təsərrüfatında tətbiq olunan 9 növ vergi və ödəmələrdən 8- i 1999-cu ildən başlayaraq ləğv edilmiş (torpaq vergisi istisna olmaqla) və bu prosesin 2024 – cü ilədək davam etdirilməsi nəzərdə tutulur. İAEƏ - in inkişafı üçün yeni vergi siyasəti müəyyənləşdirilməli və həyata keçirilməlidir”* [51, s. 21].

Sığorta altsistemində paritetliyə təsir özünü onda göstərir ki, aqrar sahə investorlar üçün daha cəlbedici olur və dövlət vəsaitlərinin sığortada iştirakı isə sığorta mükafatlarının ödənilməsində sığorta şirkətlərinin imkanlarını artırır. Sığorta şirkətləri tərəfindən zərərin kompensasiyası yolu ilə məhsulların çatışmazlığı halında mənfi nəticələr azaldılır.

Professor İ.H.İbrahimovun qeyd etdiyi kimi: “*aqrar bazarın formalaşmasında dövlətin sığorta siyasətinin əhəmiyyəti az deyildir. Sığorta sistemi kənd təsərrüfatı məhsulları istehsalçılarının stimullaşdırılmasında, onların istehsal risklərinin tənzimlənməsində böyük rola malikdir”* [51, s. 22].

İqtisadçı alimin göstərdiyi kimi: *“...gömrük-tarif altsistemi sayəsində daxili bazarın qiymətlərinə, yerli məhsulların rəqabət qabiliyyətinə, qiymətlərin paritetinə təsir edilə bilər. Hətta təcrübə göstərir ki, bu zaman idxal məhsullarına qadağa qoyula bilər ki, bu da yerli kənd təsərrüfatı xammalına və ərzağa tələbi yüksəldir.*

*Aqrar bazar münasibətləri şəraitində istehsal, emal və xidmət sahələrində kooperasiya əlaqələri, istehsalın idarə edilməsi, gəlir və zərərin bölüşdürülməsi istiqamətində fəaliyyət və məsuliyyət ehtiyatlardan səmərəli istifadə edilməsinə yönəlmişdir. Bu, istehsalın qarşılıqlı fayda əsasında təşkilinə məhsul istehsalının istehlakçıya çatdırılması, yeni sahələrin və infrastrukturun yaradılmasına imkan verir”* [51, s. 22-23].

Professor İ.H.İbrahimov qeyd edir ki, *İAEƏ – də aqrar sahənin formalaşdırılması və inkişafı üçün aqrar bazar amilləri, xüsusən qiymət, sığorta, idarəetmə, investisiya və digər iqtisadi amillər yeni*

*müəssisə, infrastrukturlar və sahibkarlığın yaradılmasına, daxili istehsalın inkişafına əlverişli zəmin yaradır* [51, s. 22-23].

İqtisadi mexanizmin elementləri arasında qarşılıqlı əlaqənin gücləndirilməsində ölkədə dövlətin kənd kəsərrüfatının inkişafı ilə bağlı hazırlayıb həyata keçirməkdə olduğu müvafiq Strateji Yol Xəritələrinin, proqramların, strateji inkişaf planlarının, tədbirlər sisteminin əhəmiyyəti böyükdür. Onların həyata keçirilməsi aqrar iqtisadiyyatın geriləməsinin qarşısını almağa, kənd təsərrüfatı istehsalının artımını təmin etməyə, sənayenin dövlət dəstəyi üçün xərclənən dövlət vəsaitlərinin istifadəsinə nəzarət sisteminin yaradılmasına imkan yaratmışdır.

İqtisadi mexanizmlərin hər birinin tətbiqi zamanı kənd təsərrüfatı məhsullarının istehsalçıları aqrar bazarın digər subyektləri olan dövlət, kredit və sığorta təşkilatları, sənaye məhsullarının istehsalçıları, kənd təsərrüfatı məhsullarının emalçıları və ticarət müəssisələri ilə qarşılıqlı fəaliyyət göstərirlər.

Dövlətin aqrar bazarın subyektləri arasında münasibətlərin tənzimlənməsində rolu yüksəkdir. Müxtəlif üsullarla dövlət qiymətlərə, gömrük rüsumları və vergi ödə-mələrinin miqdarına təsir göstərir. Dövlət həmçinin kənd təsərrüfatı təşkilatlarının kredit və sığorta təşkilatlarının əlaqələrinin tənzimləyicisi kimi çıxış edir.

Kənd təsərrüfatı istehsalçılarının fəaliyyəti birbaşa iqtisadi mexanizmlə əlaqəldir. Fəaliyyətin bütün mərhələlərində (istehsal, daşınma, saxlanma, emal, satış) qarşılıqlı təsir forması, daxil olan (müsbət) və çıxan (mənfi) maliyyə (pul) axınları vasitəsilə tamamlanır. Pul axını - iqtisadi fəaliyyətin və ya fərdi əməliyyatların nəticəsi olaraq yaranan nağd pul vəsaitlərinin zamana görə bölüşdürülmüş axınıdır. Müəssisənin pul vəsaitlərinin axını nəzərdən keçirilən dövrün müəyyən intervallar üzrə bölüşdürülmüş, hərəkəti vaxt, risk və likvidlik amilləri ilə bağlı olan təsərrüfat fəaliyyətindən əldə edilmiş pul vəsaitlərinin daxilolmaları və ödənişlərinin məcmusundan ibarətdir [171, s. 29].

Risk, vaxt və likvidlik əmsalları puldan istifadənin bütün formalarının ən vacib xüsusiyyətidir. Nağd puldan istifadə riskinin səviyyəsi gözlənilən pul axını effektinin səviyyəsindən asılıdır. Risk səviyyəsi amili subyektivdir, onun obyektivlik dərəcəsi isə mövcud pul vəsaitlərinin axını statistikası əsasında proqnozlaşdırılmış dinamikanın dəqiqliyindən, vəsait mənbələrinin qiymətindən asılıdır. Vaxt amili göstərir ki, bugünkü və gələcək vəsaitlərin dəyəri qeyribərabərdir. O, maliyyə meneceri üçün əsaslardan biridir, belə ki, ona müxtəlif vaxt dövrlərində yaranan pul vəsaitlərinin hərəkətini təhlil etmək lazımdır. Pul axınlarının likvidliyi şirkətin pul ehtiyatlarının tələb olunan səviyyəsini saxlamaq üçün onun konkret forma və növlərinin formalaşmasını müəyyən edən obyektiv amildir. Şirkətin aktivlərinin strukturunu onun pul axını likvidliyinin təmin edilməsi baxımından formalaşdırarkən onların tərkibində zəruri hallarda tez bir zamanda öz real dəyərində pul formasına çevrilə biləcəyi növlərin yetərli həcmi təmin edilməlidir.

Maliyyə-təsərrüfat fəaliyyəti nəticəsində meydana çıxan daxili proseslərin əks olunması pul vəsaitlərinin mənbələri və onların istifadəsi istiqamətində araşdırma aparmaqla mümkündür. Göstərilən məlumatlar 4 saylı “Nağd pul vəsaitlərinin hərəkəti haqqında hesabat” mühasibat formasında əks olunur. Bu, kənd təsərrüfatı təşkilatlarının iqtisadi mexanizminin kompleksdə, onun elementləri arasındakı qarşılıqlı əlaqəni nəzərə almaqla araşdırılması şərtinə uyğun gəlir. Kənd təsərrüfatı təşkilatlarında pul axınlarının səmərəli idarə edilməsinin mürəkkəbliyi maliyyə-təsərrüfat fəaliyyəti riskinin səviyyəsinin yüksək olması, pul vəsaitlərinin xərclənməsi və daxilolmalarında uzun müddətli laqların olması, eləcə də onların daxilolma proqnozlaşdırmasındakı çətinliklər ilə əlaqədardır [66, s.26].

Kənd təsərrüfatı müəssisəsinin fəaliyyəti üç əsas növə bölünür: cari (əməliyyat), maliyyə və investisiya. Onların həyata keçirilməsinə uyğun olaraq, müəssisə bu və ya digər dərəcədə iqtisadi mexa-

nizmlə qarşılıqlı fəaliyyət göstərir. Müəssisələrin pul axınlarının əsas istiqamətləri [66, s. 27] 1.1.2 saylı cədvəldə təqdim olunur.

**Cədvəl 1.1.2**
**Kənd təsərrüfatı müəssisələrinin pul axınlarının istiqamətləri**

| Pozitiv pul axını | Mənfi pul axını |
|---|---|
| ***cari fəaliyyət*** | |
| - məhsulların, işlərin, xidmətlərin satışından əldə edilən gəlirlər;<br>- icarədən daxilolma;<br>- müştərilərdən və sifarişçilərdən avanslarının alınması;<br>- sığorta ödənişləri; | - satın alınan malların, işlərin, xidmətlərin, xammalın ödənilməsi üçün xərclər;<br>- əmək haqqı;<br>- dividendlərin, faizlərin ödənilməsi, vergi üzrə xərclər;<br>- büdcədənkənar fondlarla hesablamalar. |
| ***investisiya fəaliyyəti*** | |
| - əsas vəsaitlərin və digər uzunmüddətli aktivlərin satışından əldə edilən gəlirlər;<br>- qiymətli kağızların satışından və digər maliyyə investisiyalarından gəlirlər;<br>- maliyyə investisiyaları üzrə dividendlər və faizlər;<br>- digər təşkilatlara verilmiş kreditlərin ödənilməsindən daxilolmalar. | - əsas vəsait obyektərinin əldə edilməsi, maddi qiymətlilərə gəlir gətirən investisiyalar;<br>- qeyri-maddi aktivlərin alınması; qiymətli kağızlar və digər maliyyə investisiyalarının alınması;<br>- digər təşkilatlara verilmiş kreditlər. |
| ***maliyyə fəaliyyəti*** | |
| - səhmlərin və ya digər qiymətli kağızların buraxılışından əldə edilən daxilolmalar;<br>- digər təşkilatlar tərəfindən verilən borclardan və kreditlərdən daxilolmalar;<br>- məqsədli maliyyələşmədən daxilolmalar. | - kreditlərin qaytarılması;<br>- maliyyə lizinqi üzrə öhdəliklərin ödənilməsi;<br>- veksellərin ödənilməsi;<br>- dividendlərin ödənilməsi. |

*Mənbə: Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.*

Cari (əməliyyat) fəaliyyət, bir qayda olaraq, mənfəətin əldə edilməsinə yönəldilir. Maliyyə axınları əməliyyatların və xalis mənfəətin tərkibinə daxil olan hadisələrin nəticəsidir. Daxil olan maliyyə axınları məhsulların, işlərin, xidmətlərin, sığorta ödənişlərinin, müştərilərin avanslarının alınmasından əldə edilən gəlirlər hesabına formalaşır. Gedən maliyyə axını satın alınan malların, işlərin, xidmətlərin, xammalın, əməyin ödənilməsi, dividendlərin ödənilməsi, büdcədənkənar fondlarla hesablaşmalar və vergi xərcləri ilə bağlıdır.

Maliyyə fəaliyyəti və ya vəsaitlərin cəlb edilməsi fəaliyyəti cari kredit borcları istisna olmaqla, öz kapitalının ölçü və strukturunda dəyişikliklərə səbəb olan bir sıra əməliyyatların məcmusunu təşkil edir. Daxil olan maliyyə axını - səhmlərin və digər səhm qiymətli kağızlarının buraxılmasından gəlir, digər təşkilatlara verilmiş kreditlər və kreditlərdən əldə edilən gəlirlər, hədəf maliyyələşmədən əldə edilən gəlirlərdir.

Gedən maliyyə axınları - kreditlərin qaytarılması, maliyyə lizinqi üzrə öhdəliklərin ödənilməsi, valyuta alışlarının ödənilməsi, dividendlərin ödənilməsidir.

Araşdırmalar göstərir ki, kənd təsərrüfatı müəssisələrinin maliyyə axınlarının həcmindəki dəyişikliklərə təsir edən əsas xarici amillər aşağıdakılardır:

- əmtəə bazarının konyunkturası: onun dəyişməsi məhsulların satışından əldə olunan gəlirlərə, yəni iqtisadi mexanizmin qiymət alt sisteminə təsir edir;
- müəssisənin vergitutma sistemi: gedən maliyyə axınının əhəmiyyətli bir hissəsini əks etdirir. Müvafiq olaraq, vergi sistemində dəyişikliklər gedən maliyyə axınının həcmi və xarakterində müvafiq dəyişiklikləri müəyyənləşdirir;
- müəssisələrə kredit vermək üçün mövcud şərtlər: kredit resurslarının mövcudluğu;
- pulsuz hədəflənmiş maliyyələşdirmə üçün vəsait almaq imkanı:

bütün səviyyələrdən olan büdcədən büdcə vəsaitlərinin alınması.

Kənd təsərrüfatı müəssisələrinin maliyyə axınını müəyyən edən daxili amillər aşağıdakılardır:

- məhsulların, işlərin və xidmətlərin satışı. Müəssisəni idarə edərkən istehsal mövsümünü nəzərə almaq lazımdır:
- müəssisənin amortizasiya siyasəti. Aktivlərin sürətlə amortizasiyası ilə amortizasiya payı artır və müvafiq olaraq şirkətin xalis mənfəətinin payı azalır;
- müəssisənin idarə olunması siyasəti.

İqtisadi mexanizmin elementlərinin hər birinin daxili məzmununu daha ətraflı nəzərdən keçirək.

Qiymət altsistemi məhsulların və xidmətlərin alqı-satqısı nəticəsində təkrar istehsalın mübadilə mərhələsində yaranan təsərrüfat subyektlərinin münasibətlərini əhatə edir. Bu münasibətlər müəyyən qiymətlərlə və tariflərlə ifadə olunur. Aydındır ki, qiymət mexanizmi bazar iqtisadiyyatında daha böyük inkişaf tapmışdır. Hesab edilir ki, bazarın hesabına tələb, təklif və qiymətlər müvazinətləşir.

Qiymətlərin bölgü və stimullaşdırıcı funksiyaları həm plan, həm də bazar iqtisadiyyatları üçün xasdır. Lakin, onların daxili məzmunu bir qədər fərqlidir. Plan iqtisadiyyatında bölgü funksiyası qiymətləri bu və ya digər istiqamətə yönəltməklə müxtəlif sektorlar, müəssisələr arasında gəlirlərin yenidən bölüşdürülməsindən ibarətdirsə, bazar iqtisadiyyatında sahə istehsalçılarını dəstəkləmək məqsədilə onların məhsullarına qiymətləri tənzimləməkdə ifadə olunur. Bazar münasibətləri şəraitində stimullaşdırma funksiyası istehsalçıların tələb olunan məhsulların buraxılışına yönəldilməsidir. Məhsulların və xidmətlərin qiymətlərinin müəyyən edilməsi prinsipləri və üsullarından asılı olaraq dövlətin qiymət siyasəti formalaşır. Metod və prinsiplər öz əksini hökumət tərəfindən təsdiq edilmiş normativ-hüquqi aktlarda tapır.

Azərbaycan iqtisadiyyatının aqrar sahəsində qiymət münasibət-

lərinin formalasması və inkişafının təhlili bizə bu münasibətlərin geniş və dar mənada dövlət tənzimlənməsi haqqında nəticə çıxarmaqa imkan verir.

Geniş mənada, dövlət tənzimlənməsi planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid şəraitində qiymətlərin inzibati idarəetmə üsullarından bazar qiymətəmələgəlməsinə qədər prioritetdir. Məhz dövlət qanunvericiliyi bazar qiymətəmələgəlməsi prinsipini, xüsusilə də iqtisadi münasibətlərin əsas forması kimi aqrar bazarına münasibətdə qabaqcadan müəyyən edir. Sözün dar mənasında qiymətlərin dövlət tənzimlənməsi özünü onda göstərir ki, dövlət bazarda birbaşa iştirak edir və onun tərəfindən satın alınan kənd təsərrüfatı məhsullarının son hədd qiymətlərinin səviyyəsini müəyyən edir. Bu, satınalma və əmtəə müdaxilələri zamanı qiymətlərin müəyyənləsdirilməsində çox vacibdir.

Qiymətlərin tənzimlənməsi üsullarından biri dövlət satınalmaları və əmtəə müdaxilələridir. Birincilər kənd təsərrüfatı məhsullarının bazar qiymətləri satınalma müdaxilələrinin aparılması üçün müəyyən edilmiş səviyyədən aşağı olduqda həyata keçirilir. İkincilər isə kənd təsərrüfatı məhsulları bazarında çatışmazlıq və əmtəə müdaxilələrinin aparılması üçün müəyyən edilmiş səviyyədən yüksək olan bazar qiymətlərinin artması halında həyata keçirilir.

Qiymət altsistemi stimullaşdırıcı rolunu yerinə yetirir: məhsulların satışından istehsalçılar pul ehtiyatlarının böyük hissəsini alırlar. Qiymətlərin müəyyən rolu kənd təsərrüfatı təşkilatları tərəfindən alınmış sənaye məhsullarının qiymətinin artmasını ödəməyə yönəlmiş tədbirlər sistemi vasitəsilə artırıla bilər (enerji resursları). Satılan kənd təsərrüfatı məhsullarının qiymətlərinin artmasına təbii sərhəd - istehlakçıların ödəmə qabiliyyəti tələbidir.

Bizim fikrimizcə, mövcud iqtisadi vəziyyətdə ən mürəkkəb proseslərdən biri kimi bir sıra əhəmiyyətli məhsulların qiymətlərinin formalaşmasına dövlətin təsirini gücləndirmək lazımdır. Bunlar kredit fondları, elektrik, dizel yanacağı, benzin və taxıl kimi beş

növ resursdan ibarətdir. Onlar üçün qiymətlərin dinamikası aqrar sahədə inflyasiyanı və qiymətlərin paritetliyini müəyyənləşdirir.

Büdcə altsistemi maliyyə sisteminin bir hissəsidir, onun əsas funksiyası kənd təsərrüfatına dövlət dəstəyinin mexanizmlərini aktivləşdirməkdir. Dövlət büdcəsinin formalaşması - dövlətin və yerli özünüidarəetmənin vəzifələri və funksiyalarının maliyyələşdirilməsi üçün nəzərdə tutulan pul vəsaitlərinin yaradılması və xərclənməsinin əsasını təşkil edir.

Azərbaycan Respublikasının dövlət strukturunun xüsusiyyətləri büdcə sisteminin üç səviyyəsi ilə müəyyən edilir: Azərbaycan Respublikasının dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələr. Dövlət büdcəsinə həmçinin Azərbaycan Respublikasının dövlət büdcədənkənar fondlarının büdcələrini və ərazi vahidinin büdcədənkənar fondlarının büdcələrini daxil olunur: Azərbaycan Respublikasının Pensiya Fondunun büdcəsi, Azərbaycan Respublikasının Sosial Müdafiə Fondunun büdcəsi, Məcburi Tibbi Sığorta Fondlarının büdcəsi [13].

Kənd təsərrüfatı istehsalçılarını dəstəkləmək üçün əsas vasitə subsidiyadır. Dünya təcrübəsində kənd təsərrüfatının inkişafı və kənd təsərrüfatı məhsullarının, xammal və ərzaq məhsullarının tənzimlənməsi ilə bağlı subsidiyalar aşağıdakılardır:

- sığorta haqlarının ödənilməsi üçün kənd təsərrüfatı istehsalçılarının xərclərinin bir hissəsinin ödənilməsi;
- kreditlər və borclar üzrə faiz dərəcəsinin bir hissəsinin ödənilməsi;
- heyvandarlıq və bitkiçilik sahələrinə dövlət dəstəyi;
- kiçik təsərrüfat formalarına dövlət dəstəyi;
- iqtisadi cəhətdən əhəmiyyətli regional proqramların dövlət tərəfindən dəstəyi;
- texniki və texnoloji modernizasiya, innovasiyalı inkişaf.

Kənd təsərrüfatı istehsalçılarını dəstəkləmək üçün ayrılan vəsaitlərin həcminin illik artımını nəzərə alaraq, onların istifadəsinin sə-

mərəliliyinin artırılması məsələsi yaranır. Büdcədən səmərəli istifadənin prinsipi büdcə prosesində iştirak edən büdcə prosesinin iştirakçıları tərəfindən büdcənin hazırlanması və icrası zamanı ən aşağı məbləğdə və ya büdcə müəyyən edilmiş məbləğlərdən istifadə edərək ən yaxşı nəticəyə nail olmaqla müəyyən edilmiş nəticələrə nail olmaq deməkdir [6].

Kənd təsərrüfatı təşkilatlarının büdcə və qeyri-büdcə fondları ilə qarşılıqlı münasibətləri özündə əmtəə istehsalçılarının dövlət dəstəyi, vergi ödənişi, dövlət sosial sığorta fondlarına ayırmalar, pensiya və tibbi fondlara ayırmalar ilə bağlı ən əhəmiyyətli maliyyə əməliyyatlarını ehtiva edir. Büdcədən kənd təsərrüfatı müəssisələrinə gələn daxilolmalar artır.

*Vergi altsistemi.* Vergi altsisteminin inkişaf səviyyəsindən ölkənin investisiya cəlbediciliyi və investisiya mühiti birbaşa asılıdır. Vergi qanunvericiliyində mütəmadi dəyişikliklər, ziddiyyətlərin mövcudluğu - investorların qərarına mənfi təsir edən amillərdəndir. Hazırda kənd təsərrüfatı istehsalçıları torpaq vergisi istisna olmaqla bütün vergilərdən azaddır [2]. Bu 8 növ ödəmələr və vergilər 22 mart 1999-cu ildən başlayaraq 2024-cü ilə qədər qüvvədədir.

Əlverişli iqtisadi və maliyyə şərtləri yaratmaq, həmçinin kənd təsərrüfatı istehsalçıları daxil olmaqla, təşkilatlar və fərdi sahibkarlar üçün vergi yükünün azaldılması üçün xüsusi vergilər rejiminin yaradılmasına ehtiyac vardır. Burada əsas üstünlüyə vergitutma elementlərini (vergitutma obyekti, vergi ödəyiciləri, vergi bazası, vergi dövrü, vergi dərəcəsi, hesablama proseduru, ödəniş proseduru və şərtləri) müəyyənləsdirmək üçün xüsusi prosedurların tətbiqidir.

Araşdırmalar göstərir ki, xüsusi vergi rejimi aşağıdakılardan ibarətdir:

- kənd təsərrüfatı istehsalçıları üçün vergitutma sistemi
- vahid kənd təsərrüfatı vergisi (VKTV);
- sadələşdirilmiş vergitutma sistemi (SVS);
- müəyyən fəaliyyət növlərinə görə gəlir vergisi üzrə vahid vergi

şəklində vergitutma sistemi;

- məhsulların pay bölgüsü sazişlərinin həyata keçirilməsində vergitutma sistemi;
- patent vergitutma sistemi.

Qeyd edək ki, ümumi vergi sistemindən istifadə edərkən kənd təsərrüfatı istehsalçıları da fayda əldə etmək hüququna malikdirlər.

Vergi yükü hesablanan zaman formalizmə və məsuliyyətsizliyə yol verilməməsi üçün vergi ödəyiciləri ilə ziddiyyət yaradılmamalıdır [54, s.147].

Vergi yükünün iqtisadi sistemin formalaşdırdığı reallığa uyğun müəyyən olunması bütün dövrlər üçün həlli çətin olan problemlərdən biridir. Bu onunla bağlıdır ki, vergi sistemi bir tərəfdən dövlətin maliyyə ehtiyatlarına olan tələbatını ödəməli, digər tərəfdən isə vergi ödəyicilərinin sahibkarlıq fəaliyyətinə olan maraqlarını stimullasdırılmalıdır. Bu mənada vergi yükü göstəricisi ölkənin vergi sisteminin və bütövlükdə biznes mühitinin keyfiyyət ölçüsü hesab edilir [88, s. 444].

Kreditləşmə altsistemi kreditlərin alınması və geri qaytarılması ilə əlaqədar bankların (borc verənlərin) kənd təsərrüfatı təşkilatları və digər istehsal strukturları (borcalanlar) ilə əlaqəni təsvir edir. Kredit altsistemi özündə bir sıra həlqələri birləşdirir: mərkəzi bank və dövlət bankları, kommersiya, əmanət, ipoteka, ixtisaslaşmış banklar; ixtisaslaşdırılmış qeyri-bank maliyyə təşkilatları: sığorta şirkətləri, pensiya fondları, kredit ittifaqları və kooperativlər. Kredit münasibətləri aqrar iqtisadiyyatın inkişafının əvəzsiz bir atributudur.

Kredit bazarının əsas funksiyası iqtisadi istehsal prosesinin fasiləsizliyini təmin etmək üçün kifayətedici həcmdə pul vəsaiti ehtiyatı yaratmaqdan ibarətdir [33, s. 202].

Aqrar sığortası altsistemi əmtəə istehsalçılarının pul vəsaitləri sığorta haqlarının ödənilməsi yolu ilə məhsul və heyvanların itirilməsi halında onlara davamlı inkişafı təmin etmək üçün sığorta haqları şəklində səfərbər olunduğu maliyyə sisteminin elementidir. İq-

tisadi mexanizmdə sığortanın rolu zərərin təsirini zərərsizləşdirmək üçün geri qaytarma fondunu yaratmaq, genişləndirilmiş bərpa üçün vəsaitləri səfərbər etməkdir [166, s. 42].

Azərbaycan Respublikasında büdcədən və sığorta ödənişlərindən birbaşa ödənislər şəklində dövlət dəstəyinin istifadəsi təbii fəlakətlərdən zərərlər çox yüksək olduğu halda sığorta şirkətləri dövlətin iştirakı olmadan ödənişləri müstəqil şəkildə təmin edə bilmədiyi ilə eyni vaxtda baş verir. Hazırda ziyana görə kompensasiya sxemi belədir: zərərin 30%-i sığorta olunanın məsuliyyətinə, qalan hissəsi isə sığorta şirkətlərinin məsuliyyətinədir. Lakin sonuncular geniş risklər siyahısına görə böyuk itkiləri ödəyə bilmirlər. Buna görə də, fövqəladə hallarda dövlət qoşulur, lakin bunu hansı vaxtdan etibarən etməyin lazımlığını qanunvericilik müəyyənləşdirmir.

V.V.Nazarenko qeyd edir ki, azad bazar prinsiplərinin üstünlük təşkil etdiyi beynəlxalq nəzəriyyədə hər bir Qərb ölkəsi bu və ya digər formada yerli istehsalçının xarici ticarətdə qorunmasını həyata keçirir [148, s.10]. Bu qorunma gömrük-tarif alt sistemi vasitəsilə həyata keçirilir. O, ölkə sərhədindən keçən məhsulların idxalı və ixracının dövlət tənzimlənməsinin vasitə və üsullarından, habelə müxtəlif növ məhsul və xidmətlərə dərəcələri sisteminin diferensiasiyası və tənzimlənməsini həyata keçirən normativlər kompleksindən ibarətdir. Gömrük və tariflərin tənzimlənməsi xarici ticarət sferasının dövlət tərəfindən tənzimlənməsinin əsas metodudur.

Əsas funksiyalar yerli istehsalçıları xarici istehsalçıların rəqabətindən qorumaq və dövlət büdcəsinə vəsaitin alınmasını təmin etməkdir. Bu funksiyalar gömrük tariflərinin müəyyən edilməsi yolu ilə həyata keçirilir.

Müasir iqtisadi şəraitdə gömrük və tarif üsulları yalnız ölkənin daxili qanunvericiliyi ilə deyil, həm də beynəlxalq müqavilələrlə tənzimlənir. Yuxarıda göstərilən dəyişikliklər nəticəsində qeyri-müəyyən bir vəziyyət yaran mış və iqtisadi mexanizmin alt sistemlərinin fəaliyyətinə dair müzakirələr yeni bir təkan almışdır. Bu xü-

susilə qiymət tənzimləməsinin forma və üsulları ilə bağlıdır. İqtisadiyyatın sahələrində qiymət və əlavələrin tənzimlənməsi zəruriliyini müdafiə edən iqtisadçıların mövqeyi güclənmişdir.

İqtisad elmləri doktoru V.V. Maslovanın fikirincə, iqtisadi mexanizmin həyata keçirilməsi mürəkkəb bir funksiya sistemi vasitəsi ilə həyata keçirilir ki, bunlar da əsasən aşağıdakılardır [144, s. 38]:

- hər bir mülkiyyət və idarəetmə formasının sosial-iqtisadi potensialının və onların rəqabətinin həyata keçirilməsi üçün bərabər iqtisadi şəraitin yaradılması;
- bütün təsərrüfat sisteminin aqro-sənaye kompleksinin iqtisadi qanunvericiliyin tələblərinə uyğun olaraq özünü tənzimlənməsinin təmin edilməsi;
- aqrar sahənin bütün strukturlarının səmərəli fəaliyyət göstərməsi üçün bazar münasibətləri şəraitində əlverişli olan daxili və xarici iqtisadi mühitin yaradılması.

Tədqiqatımız göstərir ki, hazırda iqtisadi mexanizmin alt sistemləri aqrar bazarın subyektləri arasında əlaqələrin tənzimlənməsində böyük əhəmiyyət kəsb edir. Altsistemlərin hər birində kənd təsərrüfatı məhsullarının istehsalçılarının və aqrar sahədə maliyyə-təsərrüfat vəziyyətinə təsir göstərmək və paritetliyi təmin etmək üçün kifayət qədər vasitələr mövcuddur [66, s. 21-33]. Əgər nəzərə alsaq ki, mövcud şəraitdə iqtisadi mexanizmin əsas vəzifəsi istehlak bazarında qida təhlükəsizliyinin və idxal əvəzlənməsini təmin etməkdir, onda iqtisadi mexanizmlərə diqqətlə yanaşma vacibliyi qənaətinə gəlmiş olarıq.

## 1.2. Aqrar istehlak bazarına dair mövcud konsepsiyalar və nəzəriyyələrə baxış

Son illərdə respublikamızda həyata keçirilən iqtisadi islahatlar ölkə iqtisadiyyatında yüksək makroiqtisadi nəticələrin əldə olunmasına əlverişli zəmin yaratmısdır.

Ölkədə iqtisadi inkişafın sürətləndiyi müasir şəraitdə dövlətin qarşısında duran başlıca vəzifələrdən biri də iqtisadiyyatın digər sahələri ilə yanaşı strateji sahələrdən hesab olunan aqrar sahənin dayanaqlı inkişafını təmin etməkdir. Bu istiqamətdə uğurlu nəticələrin əldə olunması üçün həyata keçirilməsi vacib olan məsələlərdən biri sahənin səmərəli fəaliyyət mexanizminin formalaşdırılmasıdır. Aqrar istehlak bazarının məqsədyönlü təşkili ilk növbədə bazarın iqtisadi vasitələrin köməyi ilə tənzimlənməsini nəzərdə tutur. Kənd təsərrüfatı və ərzaq məhsulları üzrə bazar infrastrukturu təkmilləşdirilməlidir. Məhz bu yolla aqrar məhsullarının istehsalçıları ilə istehlakçılar arasında qarşılıqlı iqtisadi əlaqələr mexanizmi genişlənər, bütövlükdə aqrar istehlak bazarının ölkə iqtisadiyyatına uyğun formada qurulmasına nail olunar.

Professor E.A.Quliyev tərəfindən 2013-cü ildə nəşr etdirilən "Etibarlı ərzaq təminatı sistemi: kooperasiya və inteqrasiya problemləri" adlı monoqrafiyada alim qeyd edir: *"Bazar və ticarət ərzaq kompleksinin vahid təkrar istehsal silsiləsində tamamlayıci həlqə olaraq onun iqtisadi mexanizminin fəaliyyətinə güclü təsir göstərir ki, bu da ilk növbədə öz təzahürünü ərzaq malları istehsalına çeşidi və həcminin operativ tənzimlənməsində,həmçinin onların gecikdirilmədən satışına təminat yaratmasında tapır"* [78, s. 47] və *"respubilkanın xalq təsərrüfatının sahələri arasında fəaliyyət mübadiləsi əmtəə dövriyyəsi şəklində bazarda alış-satış yolu ilə baş verir"* [78, s. 39].

İstehlak bazarı konsepsiyası elmi ədəbiyyatda geniş istifadə olunur, dünyada istehlak bazarının göstəriciləri ölkənin sosial-iqtisadi inkişafının statistik qiymətləndirilməsində böyük əhəmiyyət kəsb edir. Son illər ərzində ümumi bazar anlayışının müəyyənləsdirilməsində ortaya ciddi mübahisələrin meydana çıxması istehlak bazarı tədqiqini çətinləşdirdi. İqtisadi münasibətlər sistemi kimi çıxış edən bazar əmtəə, kapital, işçi qüvvəsi kimi alqı-satqı proseslərinin elementləri vasitəsilə istehsal və istehlak arasında qarşılıqlı əlaqəni tə-

min edir. O həm də, yüksək məhsuldarlığa malik səmərəli əməyə iqtisadi məcburiyyəti, təşəbbüs və işgüzarlığı həvəsləndirməyi, elm-texniki yeniliklərə cəhd göstərmək sistemini özündə ehtiva edir.

Başqa sözlə, keyfiyyətin başlıca ünsürü kimi ictimai məhsulun əmtəə formasının pul formasına, habelə pulun əmtəəyə dəyişməsini özündə ehtiva edən iqtisadi məkan məhz bazardır. "Bazar" anlamını müəyyənləşdirmək əksər hallrda aparılan arasdırmanın təyinatından asılı olur. Bazar hər bir əmtəə alıcısı və satıcısı tərəfindən malların qiymətlərinin eyni olmağa cəhd göstərildiyi sıx informasiya əlaqəsində yerləşən sfera kimi də təqdim olunur. Göründüyü kimi, burada bazarın fəaliyyət mexanizmi onun iqtisadi kateqoriya kimi mahiyyətindən önə çəkilmişdir.

Bəzi iqtisadçılar bazarı mövcud və potensial əmtəə alıcılarının məcmusu kimi [135], digərləri isə ayrı-ayrı əmtəə və xidmət alıcılarının bir yerə toplandığı institut və ya mexanizm kimi təqdim edirlər [181].

Bazarı iqtisadi kateqoriya olaraq nəzərdən keçirən müasir iqtisadi nəzəriyyənin müddəalarına əsasən bazar alıcı və satıcı, eləcə də əmtəə və pulun dövriyyəsi ilə bağlı ticarət vasitəçiləri, bazar münasibətləri subyektlərinin mənafeyini əks etdirən və əmək məhsulları mübadiləsini təmin edənlər arasındakı müəyyən iqtisadi münasibətlər və əlaqələr toplusudur. "Dar" mənada bazar - əmtəə tədavülü, pulun əmtəəyə mübadiləsi və əmtəənin pula mübadiləsi sferasıdır.

İstehlak bazarlarının tədqiqi müstəvisindən asılı olaraq, onları regionların genişlənmək və qovuşmaq hüdudlarına görə ərazi sərhədləri kontekstindən nəzərdən keçirmək mümkündür. Təcrübədə istehlak bazarlarının elə tiplərinə rast gəlmək olur ki, onların ərazi sərhədləri məhsul, zaman və lokal tipdə olmaqla, istehlak prosesində malların bir-birini əvəzləmək qabiliyyəti vardır, ərazinin sərhədləri isə müəyyən hallarda malların xarakterik cəhətlərindən və təhlilin məqsədindən asılı olur.

İctimai əmək bölgüsünün dərinləşməsi və əmtəə istehsalının inkişafı bazar anlayışının şərhini daha da mürəkkəbləşdirir. Bazar dedikdə heç də hər hansı bazar sahəsi yox, bütövlükdə alıcıl və satıcıların sərbəst münasibətlərinin formalaşdığı və qiymətlərin asan və tez tarazlaşdığı istənilən ərazi başa düşülür. Göründüyü kimi, burada mübadilənin azadlığı və qiymətlərin təyinliyi bazarın müəyyən edilməsinin meyarı kimi təqdim edilir.

İqtisadi ədəbiyyatlarda bazara bəzən azad alqı-satqı prinsipləri əsasında fəaliyyət göstərən iqtisadi subyektlərin təsərrüfatçılıq münasibətlərinin təşkilati və fəaliyyəti üsulu olaraq yanaşılır, bəzən isə istehsal və istehlakın birbaşa və əks təsirinin, onların qarşılıqlı təsirinin təmin olunduğu ictimai fəaliyyət forması kimi şərh edilir.

Aqrar istehlak bazarının araşdırılması hər bir aqrar-istehsal müəssisəsindən, istər aqrar sahə istehsalçılarından, istərsə də onun ticari prosesini icra edənlərdən, eyni zamanda, dəqiq və çevik bazar amilləri üzrə fəaliyyətə uyğunlaşmaq qabiliyyətinin, digər tərəfdən isə müxtəlif komleks araşdırma metodlarının köməyi ilə onlara məqsədəmüvafiq təsir metodlarının araşdırılmasını tələb edir [48].

İqtisadçı alimlərin tədqiqatlarında istehlak malları bazarının tələb və təklifdən ibarət mürəkkəb iqtisadi kateqoriya kimi verilməsi xüsusilə diqqəti cəlb edir. Bu bazarı tədqiq edərkən bir qayda olaraq onun mürəkkəb struktura malik olması və iyerarxik sistem təşkil etməsi səbəbindən kompleks və sistemli yanaşmalardan istifadə olunur [98, s. 252-259].

Yuxarıda qeyd olunanlardan göründüyü kimi, aqrar sahədə istehlak bazarı onun element və kateqoriyaları aşkar edilməklə yanaşı dərin və əsaslı araşdırmaların aparılmasına zərurət yaradır. Hesab edirik ki, istehlak malları bazarı iqtisadi nəzəriyyənin həm klassikləri, həm də müasirləri tərəfindən yalnız iqtisadi kateqoriya kimi deyil, eyni zamanda hüquqi kateqoriya olaraq şərh olunmalı və tədqiq edilməlidir. Bu onunla əlaqədardır ki, istehlak bazarı əslində malların tədavülü sferası olmaqla istehsalçılarla istehlakçılar ara-

sında iqtisadi-hüquqi münasibətləri əks etdirən məkan kimi çıxış edir. Bununla yanaşı o, bazar iqtisadiyyatının və əmək bölgüsünün inkişafında, alqı-satqı əməliyyatlarının genişlənməsində, bazar qiymətlərinin formalasmasında, iqtisadi-hüquqi əlaqələrin və s. azad rəqabət mühitinə uyğun yaranmasında sağlam münasibətlərin dövri xarakterini özündə ehtiva edir. İqisadi nəzəriyyə baxımından bu bazar tələb və təklif arasında formalaşan obyektiv iqtisadi qanunlar, o cümlədən dəyər və vaxta qənaət qanunları əsasında fəaliyyət göstərir. Son vaxtlar iqtisadçı alimlərin gəldikləri qənaətə görə istehlak malları bazarı özünün inkişafında daha çox iqtisadi-hüquqi istiqamətə, ilk növbədə isə tələb və təklif arasında tarazlığın davamlı olaraq tənzimlənməsinə əsaslanmaqla əmtəə istehsalçıları və istehlakçılarının xərclərini əhəmiyyətli dərəcədə ixtisar edə və itgilərini azalda bilər. İstehlak bazarında tələb və təklifin tarazlaşdırılması sahə və ərazi çərçivəsində əmtəə istehsalının proporsional inkişafını təmin edir, habelə istehlak malları üzrə istehsal və istehlak proseslərində meydana çıxan uyğunsuzluqları nizamlayır [156].

Beynəlxalq təcrübəyə əsasən belə qənaətə gəlmək olar ki, müasir istehlak bazarı maliyyə sisteminin möhkəmləndirilməsinə və əmtəə istehsalçılarının fəaliyyətinin genişləndilməsinə əhəmiyyətli təsir göstərərək istehsal və istehlak xarakterli tələbatın ödənilməsinə imkan yaradır. Nəticədə, kommersiya firmaları tərəfindən yeni innovasiya texnologiyalarının tətbiqinə və tədavül xərclərinin aşağı salınmasına nail olunmaqla istehsal edilən istehlak mallarının keyfiyyəti yüksəlir [40, s. 35].

Ölkə iqtisadiyyatının inkişafına təsr edən əsas elementlərindən biri istehlak bazarıdır. Bazar münasibətlərinin möhkəmləndirilməsi və hakimiyyət orqanlarının bölgü funksiyalarının azaldılması şəraitində bazar iqtisadiyyatının cari inkişaf dövrü üçün ayrı-ayrı regional sistemlərin iqtisadi müstəqilliyinin artması xarakterikdir, bu zaman demokratik idarəetmə funksiyaları, bazarda fəaliyyət göstərən təşviq mexanizmləri və daim dəyişən idarəetmə metodologiyası nə-

zərə alınmaqla, istehlak bazarının formalaşması və inkişafını təmin etməyi mümkün edən idarəetmə sistemi formalaşır.

Bazar münasibətlərinin və məntiqi təfəkkürün inkişaf tarixi əsasında qeyd etmək lazımdır ki, istehlak bazarı bazar münasibətlərinin təşəkkülü və inkişafının başlanğıc nöqtəsi, bazar sisteminin formalaşmasının əsasıdır.

Əhalinin həyati fəaliyyətinin təmin edilməsində istehlak bazarının xüsusi çəkisi və rolu olduqca yüksəkdir. İstehlak bazarı vasitəsilə mal və xidmətlərə tələb və onların təklifinin bazar tarazlığı təmin edilir. Hər hansı bir istehlak bazarının formalasması və fəaliyyəti istehsalçı və istehlakçı, tələb və istehlak arasında əlaqənin strukturundan, gəlirlərin strukturundan və istehlak xüsusiyyətlərindən (onun səviyyəsi və quruluşundan), gəlirlərdə əmanətlərin payından və s. asılıdır.

Müxtəlif bazar proseslərində bazarın əhəmiyyəti və yeri barədə qərb alimi P.Hillin apardığı araşdırmalar da diqqəti cəlb edir. Onun yazdığına görə 1891-ci ilin ticarət rüsumları və qaydaları üzrə Britaniya Kral Komissiyasının yekun hesabatında ticarət məkanı kimi təqdim olunan bazarın tərifli hələ də öz əhəmiyyətini itirməmişdir. Belə ki, burada bazar termini müəyyən ərazidə daha az və ya çox dərəcədə ciddi konkret sərhədlərlə təqdim edilməklə, qabaqcadan göstərilən zamanda görüşən mal alıcıları və satıcılarının icazəli şəkildə açıq toplandığı məkan kimi verilir.

Lakin hesab edirik ki, burada verilən fikirlərin bir qədər dəqiqləşdirilməsinə ehtiyac vardır. İlk öncə, satışa çıxarılan malların növlərə ayrılması lazımdır, belə ki, çörək və digər əmtəə birjaları həmin vaxtdan ayrılmalı olurlar; ikincisi, bazarda satıcıların sayı alıcılardan çox üstün olmalıdır, satıcıların sayı alıcıları sayı ilə müqayisə edilə bilinməməlidir; üçüncüsü, bazar ancaq gündüzlər fəaliyyət göstərdiyinə görə onun açılıb bağlanma vaxtı mövcuddur; dördüncüsü, bazarın fəaliyyətində hansısa ahəngdarlığın və yaxud dövriliyin olması onun əsas xüsusiyyətlərindəndir; beşincisi, bazar-

da mal təklifindən əlavə ayrı-ayrı xidmətlərin də təklifi də istisna deyildir; altıncısı, satıcıdan vergilərin tutulması, bir qayda olaraq, mallara görə rüsumların toplanması və yaxud da ticarətin aparıldığı yer müqabilində icarə haqqının verilməsi kimi müəyyən edilir; sonuncusu, bazar heç də onun ayrı-ayrı iştirakçılarının fəaliyyət göstərdiyi ticarət yeri deyildir [180, s. 517-518].

Digər bir qərb iqtisadçısı U. Şarpın fikrincə, *"bazarın formal surətdə təşkil edilmiş yaxud hər hansı sahə hədləri ilə məhdudlaşdırılmış olması heç də mütləq deyil. Müxtəlif təyinatlı istehlak malları əksər hallarda jurnallarda, bukletlərdə yerləşdirilən elan və ya reklamlarla satın alınır və ya satılırlar, evlər isə daşınmaz əmlak satışı agentliyinin vitrinində fotoqrafiya şəklində satışa qoyulurlar. Keyfiyyəti ofisdən çıxmadan qiymətləndirilə bilən xarici valyuta, qızıl, metal filizlər, pambıq və digər mallar bəzən telefonla və ya internetlə, elektron ticarət saytlarının köməyi ilə satıla bilinir"* [177, s.47-70].

İqtisadi ədəbiyyatda bazarın tədqiqatlarının onun əsas kateqoriyaları vasitəsilə aparılması halları mövcuddur. A.Marşall qeyd edir ki, *"...əsas bazar kateqoriyaları tələb və təklifdir. Tələb haqqında danışarkən, yadda saxlamaq lazımdır ki, tələb təlabatlatlara bərabər deyil, təklif isə istehsal edilmiş mallara tam uyğun deyil. Tələb həqiqətən təlabatdan asılıdır, lakin pulla təmin olunmuş, yəni alıcılıq qabiliyyətli tələbatlardan asılıdır. Tələbatlardan başqa tələb gəlir səviyyəsindən, qənaət normasından və mal və xidmətlərin qiymətləri səviyyəsindən asılıdır. Təklif - bütün istehsal edilmiş məhsul deyil, ancaq bazara çatdırılan və satın alınmaq üçün təklif edilən məhsuldur. Təklifin tələbə uyğunluğunu bazar tarazlığının vəziyyəti təmin edir"* [142, s.185-195].

Bundan başqa, bazar özünütənzimləyən sistem kimi də nəzərdən keçirilir, onun fəaliyyət mexanizmi şəkil 1.2.1-də verilir.




**Şəkil 1.2.1. Bazarın özünütənzimləmə mexanizmi sistemi.**

Bazarın özünütənzimləmə mexanizmi sistemində göründüyü kimi alıcıların tələbatının artması, bazarın digər özünütənzimləmə mexanizmlərinin - tələb və təklifin artmasına birbaşa təsr edir, qiymətlər qalxır, mənfəət norması çoxalır, kapital daxil olması genişlənir, istehsal amillərinin daxil olması artır, istehsalın artması və

təklifin artması prosesləri baş verir. Bu da öz növbəsində ölkə iqtisadiyyatının inkişafına, əhalinin maddi rivah halının yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Professor E.Y.Məmmədova görə, *"...hazırda diskussiyalı problem kimi bazar strukturuna yanaşmalar qalmaqdadır. Belə ki, bir sıra alimlər bazarlar strukturunu aşağıdakı şəkildə nəzərdən keçirirlər: ilk mərhələlərdə bazarları topdansatış və pərakəndəsatış bazarlarına, daxili və xarici bazarlara bölürdülər. Sonralar bu bazarlar predmet və sahə əlamətlərinə görə qruplaşdırıldı, xüsusilə, onlar xammal, qeyri-ərzaq, ərzaq, sənaye bazarlarına və s. ayrıldılar. Sonrakı mərhələdə bazarların diferensiasiyası ayrı-ayrı məhsullar, məsələn, yanacaq, meyvə-tərəvəz, şəkər tozları və s. üzrə aparıldı"* (Cədvəl 1.2.1).

**Cədvəl 1.2.1**

**Bazar münasibətlərinin strukturu və sahəsi**

| **Bazarların funksional strukturu** / **Bazarların predmet sahəvi strukturu** | **Satış bazarları** | **Tədarük bazarları** | **Maliyyə bazarları** | **Alış bazarları** | **Bazar sövdələşmələrinin vastəçiləri** |
|---|---|---|---|---|---|
| Daxili bazar<br>Xarici bazar | BAZAR SUBYEKTLƏRİ ARASINDA BAZAR MÜNASİBƏTLƏRİ SAHƏSİ ƏMTƏƏ-PUL – PUL-ƏMTƏƏ | | | | |
| Topdansatış bazarı<br>Pərakəndə satış bazarı | | | | | |
| Xammal (qaz, neft, kömür, filiz, ağac və s.) bazarı | | | | | |
| Ərzaq bazarı (taxıl, ət, balıq, tərəvəz, meyvə, içkilər və s.) | | | | | |
| Hazır məmulatlar bazarı (maşın, cihaz, metal, binalar, qurğular, paltar, ayaqqabı, dərman və s.) | | | | | |

*Mənbə: [84]*

Rus iqtisadçısı Y.B.Dvoryadkin isə hesab edir ki, *"sahibkarlar da öz tərəfindən, satış bazarlarını və alış bazarlarını fərqləndirirlər. Fəaliyyət göstərən müəssisələr təkcə malgöndərənlər deyil, onlar eyni zamanda həm də mal kütləsinin: xammalın, materialların, maşınların və avadanlığın və s. istehlakçılarıdırlar. Satınalma bazarlarının vəziyyətindən hər bir müəssisə firma işinin uğurlarından çox asılıdır"* [123, s. 100-104].

Bazarın morfoloji strukturu da böyük əhəmiyyət kəsb edir; bu struktur malgöndərənlərə və mal kütləsinin istehlakçıları arasındakı nisbət kimi təşəkkül tapır (Cədvəl 1.2.2)

**Cədvəl.1.2.2**

**Bazarda təchizatçıların və istehlakçıların nisbəti**

| **Təchizatçılar** | **İstehlak** | | |
|---|---|---|---|
| | **Xeyli** | **Cüzi** | **Normadan yuxarı** |
| Daxil olma | Böyük miqdar | Cüzi miqdar | İri istehlak |
| Orta partiyalar | Məhdud miqdar | Təchizatçı və istehlakçı tərəfindən kvota | İstehlak inhisarının məhdudlaşdırılması |
| İri partiyalar | Təchizatçıların əlində cəmlənməsi | Təchizatçının məhdudlaşdırılmış inhisarı | Qarşılıqlı istehlak |

İngilis iqtisadçıları K.R.Makkonnell və S.L.Bryu özlərinin "Экономикс: принципы, проблемы и политика" əsərində qeyd edirlər ki: *"...daxili bazar obyektlərinin strukturunda onların aşağıdakı qruplarını fərqləndirir: istehsal vasitələri və istehsal fəaliyyəti növləri bazarı; istehlak malları, xidmətlər, mənzil bazarı; qeyri-istehsal təyinatlı binalar və tikililər bazarı, iş qüvvəsi bazarı; qiymətli kağızlar, valyuta bazarı; informasiya və innovasiyalar bazarı. Göstərilən bazarlar iriləşdirilmiş şəkildə verilmişdir, onları predmetcə öyrənərkən xırdalamaq olar. Belə ki, istehlak malları,*

*xidmətlər və mənzil bazarı strukturunda aparıcı rolu istehlak malları bazarı oynayır, çünki istehsal olunmuş məhsul onun kanalları vasitəsilə şəxsi istehlaka daxil olur. Bununla yanaşı, ictimai təkrar istehsal prosesi tamamlanır və onun yenidən başlanması üçün zəruri şərait yaranır* [180].

Daha sonra qeyd edilir ki, *"...bazarların təsnifatında onların subyektləri xüsusi yer tutur. Bazar əmtəə-pul münasibətlərinə alqı-satqı vasitəsilə daxil olan üç əsas iqtisadi subyektin fəaliyyət yeri kimi xidmət göstərir. Bunlar dövlət, müəssisələr və ev təsərrüfatlarıdır"* [180].

Cədvəl 1.2.3-də bazar subyektləri tərəfindən alqı-satqı predmeti rolunda çıxış edən əsas əmtəələr (xidmətlər) göstərilmişdir.

**Cədvəl 1.2.3**

**Tədavül sferasında bazar subyektlərinin qarşılıqlı münasibətləri**

| Subyektlər | Satış predmeti | Alış predmeti |
|---|---|---|
| Dövlət | Dövlət təşkilatlarının və müəssislərinin xidmətləri torpaq, təbii, resurslar, mənzil, lisenziyalar | Milli müdafiə, dövlət idarə-etməsi ictimai qaydanın qorunması, mədəni irsin saxlanması üçün nəzərdə tutulmuş ictimai, dövlət istifadəsində mallar |
| Müəssisələr | Müəssislərə məxsus mallar, xidmətlər əmlak qiymətliləri intellektual mülkiyyət | İşçi qüvvəsi, torpaq, təbii resurslar, xammal, yarımfabrikatlar, mallar, pul, qiymətli kağızlar |
| Ev təsərrüfatları | Əmək, əmlak qiymətliləri, mallar, xidmətlər | İstehlak malları, xidmətlər, əmlak qiymətliləri |

*Mənbə: [180].*

Qərb alimlərinin bazar strukturuna bir qədər başqa cür yanaşması mövcuddur. Belə ki, M.R.Baye *"...bazar struktur dedikdə, bazar fəaliyyətin müəyyən edən elementlər məcmusu başa düşülməlidir; bura bazarda fəaliyyət göstərən və bir-birilə rəqabət aparan firmaların sayı, bu firmaların (təmərgüzləşdirilmələrin) nisbi ölçüsü, texnoloji və dəyər göstəriciləri, tələbat şəraiti, təklif şərtləri, habelə bazarda yeni firmaların əmələ gəlməsi üçün aralıq dərəcəsi və ya ondan əvvəlki iştirakçıların getməsi dərəcəsi daxildir (bu, xususilə şirkətlərin ölçüsü haqdakı məsələlərə aiddir)"* [180].

İqtisadçı alim Polli Hilli "İqtisadi nəzəriyyə" kitabında "Bazarlar ticarət yeri kimi" bölməsində yazır ki: *"Bazar strukturunun əsası - mal bazarı infrastrukturdur. Mal bazarı infrastukturu dedikdə, vəzifəsi mal hərəkətinin səmərələşdirilməsi, əmtəə-pul dövriyyəsinin bazar tənzimlənməsi olan müəssisələrin uyğun qruplarının tədavül sferasındakı fəaliyyət növlərinin kompleksi başa düşülür. Bazar strukturu ilə bazar konyukturu sıx qarşılıqlı əlaqədə olurlar. Bazar konyukturu - müəyyən vaxt anına bazarda yaranmış konkret iqtisadi vəziyyətdir, eləcə də onun vəziyyətini şərtləndirən səbəblərin məcmusudur"* [156].

Rus iqtisadçısı Y.Y.Rumyantseva tərəfindən 2008-ci ildə tərtib edilmiş "Yeni iqtisadi ensiklopediya"da bazar konyukturuna aşağıdakıların müəyyənedici təsir göstərdiyini iddia edir: *"milli iqtisadiyyatın inkişaf meylləri; dövlətin maliyyə, kredit, vergi və gömrük siyasəti; səmərəli dövlət xarici siyasəti və xarici-iqtisadi əlaqələrin vəziyyəti; ölkədə və ya regionda demoqrafik vəziyyət"* [160]. O hesab edir ki, *"bazar konyukturunun tərkib hissəsi müəyyən vaxt anına sahə kimi ticarətin vəziyyətini əks etdirən ticarət konyunkturu sayılır. Ticarət konyunkturunun göstəriciləri aşağıdakılardır: əmtəələrin dövriyyə sürəti, müəssisələrin mal resursları ilə təminatı; əmtəə qiymətləri dinamikası və tələbat dinamikası arasındakı nisbət; tədavül sferası maddi-texniki bazasının dəyişmə meylləri; ticarət müəssisələrinin gəlirliyi; kommersiya riski dərəcəsi; sahədə ça-*

*lışanların sayının dinamikası”* [160].

İqtisadçı alimlər M.G.Lapayeva və O.A.İnevatovanın əsərlərində istehlak bazarı müəssisələrinin daha ətraflı quruluşu öz əksini tapıb: *“Hər hansı bir ölkənin istehlak bazarı təşkilati olaraq, bir tərəfdən kiçik topdansatış və pərakəndə satış mağazalar şəbəkəsi ilə, topdan və vasitəçi təşkilatlarla, eləcə də iaşə və xidmət müəssisələri şəbəkəsi ilə, digər tərəfdən, fərdi alıcılar və bütövlükdə ev təsərrüfatları ilə təmsil olunur* [137, s. 9].

Əmtəə bazarı (və ya nemətlər bazarı) və xidmət bazarı istehlak bazarının strukturuna daxildir. “Antiinhisar fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununa əsasən, əmtəə bazarı digər əmtəələrlə əvəzlənməyən və ya qarşılıqlı əvəz edilə bilən əmtəə tədavülü sferasıdır. Bu sfera daxilində (o cümlədən coğrafi) alıcı müxtəlif mənşələrdən və ya ehtiyaclardan (iqtisadi, texniki və ya digər) irəli gələrək əmtəə əldə etmək imkanına malik olur və bunu kənarda edə bilməzlər [3].

Bazar qiymətləri müəyyənləşdirərək, istehsalı ehtiyacların ödənilməsinə və optimal istehsal amillərinin seçiminə yönəldərək istehsal sferası, eləcə də maddi və pul dövriyyəsi ilə bağlı elementlər qrupunu əhatə edir. Fərdi istehlak istehsala stimullasdırıcı və tənzimləyici təsir göstərir. Bir tərəfdən, istehlak bazarının köməyi ilə əhalinin real ehtiyacları ortaya çıxır, digər tərəfdən, istehlak bazarının inkişafı istehlakı stimullaşdırır. Hər bir ayrıca bazar öz müstəqil əhəmiyyətinə malikdir. Amma təkrar istehsal prosesinin səmərəli inkişafı və fəaliyyətini təmin etmək üçün istehlak bazarının digər bazar növləri ilə qarşılıqlı təsirinə nail olmaq lazımdır. Belə ki, o, təkrar istehsal prosesinin bütün mərhələlərinə xidmət edir və eyni zamanda təkrar istehsal prosesinin ayrı-ayrı subyektləri arasında iqtisadi əlaqələri tənzimləyərək vəsaitlərin dövriyyəsində fəal iştirak edir.

İstehlak bazarı ümumilikdə bazar sisteminin səmərəliliyinə və inkişafına təsir göstərməklə onun əsasını təşkil edir. Bu bazarda

mal və xidmətlərin hərəkəti sona çatır, əmtəə istehsalçılarının və müxtəlif xidmət göstərən təşkilatların qiymətləndirilməsi aparılır. Yerli və xarici elmi təfəkkür sayəsində bu iqtisadi kateqoriyanın müxtəlif aspektlərini əks etdirən, müəyyən mənada bir-birini tamamlayan və konkretləsdirilən bu anlayışın bir çox təfsiri inkişaf etdirilmişdir.

R.İ. Şniper və A.S. Novoselovun monoqrafiya və məqalələri "istehlak bazarı" anlayışının elmi tərifi verilmiş ilk tədqiqat əsərləridir. Müəlliflərin sözlərinə görə, bu iqtisadi kateqoriya *"... ölkə əhalisini minimal tədavül xərcləri ilə əmtəə-pul münasibətlərinin inkişafı əsasında mallarla təmin etməyə yönəldilmiş tədavül sferası təşkilatıdır"* [179, s. 57]. A.S.Novoselovun sonrakı əsərlərində məhsul və xidmətlərin dövriyyəsi sferasında istehsalçı və istehlakçıların mənafelərinin uyğunlaşdırılması zərurəti istiqamətində nəzərdən keçirilmiş anlayışın şərhinin dəyişdirilməsi baş verir [152, s. 14].

Hal-hazırda, "istehlak bazarı" problemlərinə və birbaşa anlayışın özünə həsr olunmuş bir çox elmi-publisist və tədqiqat məqalələri dərc edilmişdir. Bir sıra işlərdə istehlak bazarı əmtəə dövriyyəsi sferası [103, s. 19; 157, s. 8; 172, s. 49], ikinci qrup işlərdə - biznes əməliyyatları və şərtlərinin məcmusu kimi [125, s. 9; 158, s. 103; 165, s. 7], işlərin üçüncü qrupunda - istehsal və istehlak arasındakı iqtisadi əlaqələri xarakterizə edən əmtəə-pul münasibətlərinin məcmusu kimi [104, s. 8], dördüncü qrup işlərdə - əmtəə dövriyyəsinin təşəbbüskarı kimi çıxış edən alıcı ilə satıcı arasındakı qarşılıqlı əlaqələr sistemi kimi [106, s.10; 111, s. 38; 137, s. 152] nəzərdən keçirilir.

Professor E.Y.Məmmədovun fikrincə, *"istehlak bazarı sistemli yanaşma baxımından alt sistem rolunu oynayan nisbətən müstəqil elementlər dəstini (ərzaq və qeyri-ərzaq malları bazarı, iaşə bazarı, xidmət bazarı və s.) özündə ehtiva edir. Elementlərin xassəsi onların sistemdə yerini müəyyən edir və müvafiq funksiyalarda (bazarın*

*funksiyaları) reallaşdırılır”* [85].

N.N.Tereşenko istehlak malları bazarını “*ölkə bazarının vahid sistemində çox yönlü alt sistem*” hesab edir ki, bu da malların (işlərin, xidmətlərin) alqı-satqısı prosesi ilə əlaqəli subyektlər (satıcılar və alıcılar) arasındakı sosial-iqtisadi əlaqəni, tələb və təklifin öyrənilməsinə əsaslanan istehsalçılar, vasitəçilər, pərakəndə satış satıcıları arasında qarşılıqlı əlaqəni əks etdirir [169].

T.N.Çeremisina bölgənin sosial-iqtisadi alt sistemi kimi regional istehlak bazarı konsepsiyasını verir, eyni zamanda, onun vəziyyəti mülkiyyətçilər, istehsalçılar, vasitəçi strukturlar arasındakı münasibətlərin xarakteri və formaları ilə müəyyən edilir [175].

Lakin bu fikrin “məhdudluğu”, bizim fikrimizcə, malların istehlak bazarının yalnız bazar münasibətlərinin payı kimi xarakterizə edilməsindədir ki, bu da istehsalçılar və istehlakçılar arasındakı münasibətlər sistemi ilə inteqrasiya olunmuşdur, istehlak malları bazarı isə istehlak mallarının istehsalçıdan istehlakçıya keçidinin bütün əlaqələrini və infrastrukturunu özündə cəmləşdirən daha geniş bir anlayışdır. Rəqəmsal texnologiyaların böyüməsi və əmtəə dövriyyəsi prosesində onların tətbiqi nəzərə alınmaqla, indi infrastruktur konsepsiyası genişlənir.

İstehlak bazarının formalaşmasının xüsusiyyətlərini nəzərə alaraq A.V.Smirnov [162] bu kateqoriyanın konsepsiyasını mübadilə və istehlak sahəsindəki kifayət qədər mürəkkəb və daim inkişaf edən sosial-iqtisadi proseslər və münasibətlər sistemi kimi göstərmişdir ki, bu da ölkə sakinlərinin tələb olunan çeşiddə yüksək keyfiyyətli mallara (xidmətlərə, işlərə) artan ehtiyaclarını daim ödəmək üçün nəzərdə tutulmuşdur və tələb və təklif arasındakı tarazlığın təmin edilməsinə, əhalinin ödəmə qabiliyyəti və ölkə sakinlərinin həyat keyfiyyətinin yaxşılaşdırılması baxımından malların (xidmətlərin, işlərin) əlçatanlığının artırmasına yönəlmişdir.

Eyni zamanda, bu sahə ölkənin öz təkrar istehsal sisteminin inkişafında əsas rol oynamalı və yalnız digər ölkələrdən gələn malla-

rın satış bazarlarından biri olmamalıdır. Şübhəsiz ki, ölkə yalnız özlüyündə təcrid olunmamalı, lakin əhalinin mal, iş və xidmətlərlə təmin edilməsi üçün bir sistem qurarkən yerli sənayenin maraqlarını nəzərə almaq lazımdır.

Bu mövqedən ölkənin istehlak bazarı iştirakçılar arasındakı münasibətlərin dövlət tənzimlənməsi olmadan, aralarındakı münasibətləri izləmək və tənzimləmək üçün rasional və təsirli mexanizm qurmadan tamamilə mövcud ola bilməz.

"İstehlak bazarı" əksər hallarda iqtisadçılar tərəfindən ya münasibətlər sistemi, ya da subyektlərin iqtisadi fəaliyyəti kimi təqdim olunur. Lakin bu komponentlər ölkənin idarəetmə mexanizmləri ilə birlikdə və onun sosial-iqtisadi təhlükəsizliyi kontekstində nəzərdən keçirilməlidir. Bu baxımdan ölkədəki istehlak bazarı konsepsiyasına aşağıdakı kimi aydınlıq gətirmək lazımdır. Ölkənin istehlak bazarı, istehsalçı, vasitəçi, satıcı və şəxsi istifadə (istehlak) üçün mal (iş, xidmət) alan son istehlakçı arasında iqtisadi münasibətlər sistemidir ki, bu da yüksək keyfiyyətli və sərfəli mallar (iş, xidmət) satışı, əhali və eyni zamanda bölgənin sosial-iqtisadi təhlükəsizliyinin artmasına köməklik etməsi yolu ilə yaşayış səviyyəsini təmin etməli və yaxşılasdırmalıdır.

"İstehlak bazarı" anlayışının müxtəlif şərhlərini təhlil edərək belə bir qənaətə gəlmək olar ki, müəlliflərin əksəriyyəti öz tədqiqat işlərində olan bu anlayış 1995-ci ilin sentyabr ayında qəbul edilmiş "İstehlakçı hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (№1113) təsbit olunmuş anlayışla eynidir. Belə ki, burada istehlak bazarının fəaliyyətinin müxtəlif aspektlərinə toxunulur və arasdırılır: "istehlakçı - biznes fəaliyyəti ilə bağlı olmayan, malları (işləri, xidmətləri) yalnız şəxsi, ailəvi, məişət və digər ehtiyacları üçün sifariş etmək və ya əldə etmək niyyətinə malik olan və yaxud  sifariş etmiş, əldə etmiş və ya istifadə etmiş vətəndasdır" [4].

Bizim fikrimizcə, "istehlak bazarı" anlayışının özünün şərhini

aydınlaşdırmaq və xülasə etmək üçün "istehlak" anlayışına diqqət yetirmək lazımdır.

Bu konsepsiyaya diqqət yetirmək ehtiyacı qismən Marksın əsas əsərlərində təsdiqlənmişdir: *"... istehlaksız istehsal yoxdur, lakin məhz istehlak tələbatı yaradır"* [141, s. 937].

"İstehlak" iqtisadi kateqoriyası istehlak bazarının ən vacib xüsusiyyətlərindən biridir. Marjinalist inqilab dövrü istehlakçının öz maddi və mənəvi ehtiyaclarının ödənilməsinə çalışdığı istehlakçı şərtiliyi əsasında istehlak nəzəriyyəsinin formalasmasında ilkin mərhələdir.

"İstehlak bazarı" konsepsiyasını konkretləşdirmək məqsədi ilə istehlak nəzəriyyəsi ilə sıx əlaqədə olan iqtisadiyyatın müxtəlif nəzəriyyələrini nəzərdən keçirmək lazımdır.

Merkantilistlərin fikrincə, ölkədə qızıl ehtiyatı yığmaq üçün, eyni vaxtda malların idxalı qarşısını almaqla, manufaktura istehsalının və daxili ticarətin inkişafına yardım etməklə müasir Azərbaycan siyasəti üçün vacib olan xarici ticarətin inkişaf etdirilməsi lazımdır. Merkantilizm siyasəti əhalinin ehtiyaclarını təmin etmək məqsədi daşımırdı, istehlak bazarının ümumi təhlükəsizliyini təmin edən yerli istehsalın inkişafına kömək etdi [140].

Fiziokratların fikrincə, cəmiyyətin sərvətinin mənbəyi sosial-iqtisadi və demoqrafik siyasətin mühüm elementi olan istehlak bazarının və daxili iqtisadiyyatın inkişafında mühüm yer tutan kənd təsərrüfatıdır [131, s. 435-448].

İstehlak bazarına dair klassik iqtisadi nəzəriyyədə əsas fikir Azərbaycan bazarının hazırkı inkişafı şəraitində (tam dövlət tənzimlənməsi istisna olmaqla) məqbul sayılmayan iqtisadi liberalizm ideyasıdır [40, s. 23].

XIX əsrin ikinci yarısından etibarən, marginal inqilab dövründə xarici alimlərin tədqiqatlarında davranış-iqtisadi yanaşma əsasında fərdi istehlakçılara xüsusi diqqət yetirilir. Əhalinin ehtiyaclarını ödəmək məqsədilə resursların istifadəsi variantlarının təhlili aparı-

lır və malın qiymətlərinin formalaşmasına təsir qiymətləndirilir. İstehlakçının davranışı üstünlükvermə hipotezi və seçim zamanı məhdudiyyətlərin mövcudluğu ilə verilir.

Eyni zamanda, xərclərin maksimumlaşdırılması və minimumlaşdırılması üçün çalışan hipersəmərələşdirici bir varlıq kimi iqtisadi şəxsin davranışını öyrənməyə əsaslanan neoklasik iqtisadi nəzəriyyə inkişaf tapır. Bu iqtisadi nəzəriyyə çərçivəsində son hədd faydalılığı, ümumi iqtisadi tarazlıq, səmərəli gözləntilər və digər nəzəriyyələr inkişaf edir. İstehlak bazarının inkişafında fərdlərin rolu artmaqdadır, çünki o, istehsalın daha böyük əksəriyyətinin yönəldildiyi tələbi formalaşdırır [142, s. 249-263].

XX əsrin başlanğıcında kapitalist sisteminin özünütənzimləmə qabiliyyətinin olmaması səbəbindən iqtisadiyyat sferasının dövlət tənzimlənməsinin zəruriliyi ideyasını dəstəkləyən institusionalizm fəal inkişaf etmişdir. Bu nəzəriyyəyə görə təsərrüfat subyektləri əldə olunmuş davranış qaydalarına ("vərdişləri") və sosial normalar görə fəaliyyət göstərir.

Son illərdə istehlak bazarının öyrənilməsi zamanı istehlakçı davranışına dair tədqiqata xüsusi diqqət yetirilir. Alimlər istehlakçı davranışının əsas prinsiplərini öyrənirlər, satınalma zamanı qərar qəbul etmək üçün model yaradırlar. Müasir davranış nəzəriyyəsi istehlakçılara böyük ziyan vuran bəzi sahibkarlıq strukturlarının fəaliyyətini öyrənmək üçün əhəmiyyətlidir [172, s. 44-52].

"İstehlak bazarı" anlayışı yuxarıda göstərilmiş elmi nəzəriyyələrdə bölünməməsinə baxmayaraq, onun əsas komponentləri alimlərin əsərlərində (məsələn, istehlak bazarının fəaliyyətini və təhlükəsizliyini təmin edən bazar mexanizminin əsas anlayısları) vurğulanır.

İqtisadi tədqiqatlarda müxtəlif müəlliflər tərəfindən istehlak bazarının mahiyyətinin təfsirinə, onun fəaliyyət qanunauyğunluqlarına və inkişaf amillərinin müəyyənləsdirilməsinə müxtəlif konseptual yanaşmalar fərqləndirir. Əsas nəzəriyyələrin təhlili aşağıdakı

nəticələrə gətirib çıxarır:

1) nəzərdən keçirilmiş nəzəriyyələr istehlak bazarının mahiyyətinin müəyyənləsdirilməsinə öz xüsusi yanaşmalarına malikdir.

2) tədqiq olunan hadisənin çoxşaxəli və çoxölçülü xarakteri istehlak bazarlarının inkişafı nəzəriyyələri və konsepsiyaları arasındakı fərqlərin əsas səbəblərindən biridir. Hər bir nəzəriyyə və konsepsiyada tədqiqatın müəyyən məqsəd və vəzifələri müəyyənləşdirilmiş, bunun əsasında əsas metodoloji yanaşmalar seçilmiş və bu problemin aspektləri öyrənilmişdir, öz müsbət və mənfi cəhətləri də vardır.

İstehlak bazarının formalaşması və fəaliyyətinin əsas nəzəriyyələri və konsepsiyalarının müqayisəsi əsasında onun inkişafı və təşkilinin bir sıra istiqamətləri müəyyənləşdirilmişdir:

- ✓ ölkə iqtisadiyyatının bazar qurumları və təsərrüfat subyektləri arasında qarşılıqlı fəaliyyətin səmərəliliyinin artırılmasına imkan verən iqtisadi prosesin müasirləşdirilməsi;
- ✓ ticari-iqtisadi təcrübələrə əsaslanan xidmətlərin səmərəli təşkili və iqtisadi əlaqələrin ən səmərəli formalarının müəyyənləşdirilməsi;
- ✓ istehlakçı maraqlarının prioritetinə əsaslanan bazar sisteminin formalasdırılması;
- ✓ istehlak bazarının növünə əsasən əmtəə dövriyyəsinin effektiv kanallarının seçilməsi;
- ✓ logistika, informasiya, və maliyyə-iqtisadi proseslərinin optimallaşdırılması və istehlak bazarı infrastrukturunun maddi-texniki bazasının genişləndirilməsi;
- ✓ inkişafa təsir göstərən müəyyən edilmiş amillər əsasında istehlak bazarının inkişafı üçün prioritet sahələrin seçilməsi;
- ✓ istehlak bazarının inkişaf proqnozunun formalaşdırılması.

Ümumiyyətlə, istehlak bazarının mahiyyətini müəyyən edən konsepsiyalar isthelak bazarının universal idarəetmə forması olmadığı, cəmiyyətin digər sahələrindən ayrılmadığı və təkcə dövlət tə-

rəfindən deyil, müxtəlif sosial institutlar tərəfindən də tənzimlənmə obyekti sayıldığı qənaətinə gəlməyə imkan verir.

Bunlarla yanaşı "istehlak bazarı" anlayışını müəyyən etmək üçün istehlak bazar

larının seqmentlər üzrə təsnifatı vacibdir. Elmi fikir istehlak bazarının üç əsas seqmentini ayırır: istehlak malları, istehlak xidmətləri və şəxsi mülkiyyətdə olan daşınmaz əmlak seqmenti. Müəllifin araşdırması üçün istehlak bazarının ilk iki seqmenti böyük maraq doğurur, çünki şəxsi daşınmaz əmlak bazarı öz spesifik xüsusiyyətlərinə malikdir və xüsusilə bələdiyyə səviyyəsində qısa müddətli dövrdə son dərəcə az hərəkətlidir.

"İstehlak bazarı" anlayışını daha konkret etmək üçün, istehlak bazarlarını ərazi əsasında təsnif etmək vacibdir. Məsələn, N.N. Tereşenko qeyd edir ki, *istehlak bazarının dövlət tənzimlənməsi müəyyən səviyyədə olmalıdır: respublika, regional və ya bələdiyyə. Müəllif hər səviyyə üçün həll edilməli olan problemləri müəyyən edir* [170, s. 25].

Ümumiyyətlə istehlak bazarı xarakterik və çoxcəhətli quruluşa malikdir:

*"- istehlak bazarının maddi-əşyavi quruluşu istehsal vasitələrinin və istehlak mallarının istehsalını birləşdirir;*

*- istehlak bazarının dəyər quruluşu ictimai məhsulun istehsalına sərf olunan müxtəlif növ əməyin nisbətini aşkara çıxarır;*

*- istehlak bazarının sosial quruluşu ölkənin sosial-ictimai xarakterini əks etdirir;*

*- istehlak bazarının regional quruluşu inzibati-ərazi vahidləri üzrə bazarın hansı ərazidə yerləşməsini göstərir"* [63, s. 205].

Hesab edirik ki, *"istehlak bazarına qarşılıqlı uzlaşma və dolğunluq mövqeyindən araşdırarkən, hər şeydən əvvəl, bazara əmtəənin irəlilədilməsi, mal satışının təşkili, malın bölüşdürülməsi və s. kimi onun bütün proseslərinin birlikdə diqqətdən keçirilməsi vacıbdir. Bu anda istehlak bazarının ayrı-ayrı həlqələrinin marketinq*

*tədqiqatlarına aşağıdakılar daxildir:*

*- əmtəənin hərəkətə gətirilməsi və cəlb edilməsi strategiyası;*

*- reklam işinin təşkili və əmtəə satışının reallaşdırılması strategiyası.*

*Qeyd edilən bu istiqamətlər istehsalçılar və bazarın bütün həlqələri ilə birgə əlaqələndirilməlidir"* [63, s. 206].

Bəzi tədqiqatlarda aşağıdakı bazar növləri fərqləndirilir: beynəlxalq, respublika, regional (regionlararası), vilayət, rayon (şəhərlərarası), yerli (şəhər daxilində) [167, s. 101].

Bu təsnifat iki növ yerli bazarları ayırır, bunlardan biri bələdiyyə ərazisinin ərazisində, digəri isə fərdi şəhər və kənd yaşayış məntəqələri çərçivəsində formalaşır. Bir sıra alimlərin işlərinə əsaslanaraq [123, s. 99-100; 151, s. 24-26] belə nəticəyə gəlinə bilər ki, bələdiyyə qurumu bazarı regional bazarın bir hissəsi olan və bələdiyyənin inzibati sərhədləri ilə məhdudlaşdırılan yerli bazar növüdür. Bir çox müəlliflər yerli bazarların bir-biri ilə sıx bir əlaqəli spesifik xüsusiyyətini bələdiyyənin bazarları üçün də uyğun olan xüsusiyyət kimi qeyd edirlər. Buna görə də regional bazarın bələdiyyə qurumlarının bir-birinə bağlı olan bazarlar sistemi olaraq nəzərdən keçirilməsi ədalətlidir.

Ancaq bələdiyyə bazarı bir qayda olaraq toplanmış bələdiyyə statistikası əsasında təhlil edilir. Bələdiyyə bazarının istehlakçılarının sorğuları azdır və bazarın ayrı-ayrı seqmentlərində cəmləşdilmişdir. Bələdiyyə bazarının mal və xidmətlər üzrə bütün seqmentlərinin hərtərəfli müayinəsinin olmaması müşahidə edilir.

Beləliklə, fikrimizcə, istehlak bazarı ərzaq və qeyri-ərzaq məhsullarının və şəxsi istehlak əsasında ödənişli xidmətlərin satıcılarının və istehlakçılarının arasında və inzibati-ərazi vahidlərinin sərhədləri daxilində yaranan iqtisadi əlaqələrin məcmusu kimi nəzərdən keçirilməlidir. Bu xüsusiyyət istehlak bazarını xüsusi davamlılıq və sabitlik ilə təmin edir. Kənd təsərrüfatı istehlak bazarının digər xüsusiyyətlərini onların yerinə yetirdiyi funksiyalarda görmək olar.

Aqrar istehlak bazarının digər xüsusiyyətləri öz ifadəsini yerinə yetirdikləri funksiyalarda biruzə verir. İstənilən iqtisadi sistemdə istehlak bazarının əsas funksiyaları kimi aşağıdakıları fərqləndirə bilərik:

İstənilən iqtisadi sistemlərdə istehlak bazarının aşağıdakı əsas funksiyalarını ayırd etmək olar [65, s.112].

- cəmiyyətdə sosial tələbatın ödənilməsi (bu ehtiyac əhalinin ödəmə qabiliyyətinin fəaliyyəti nəticəsində yaranır);
- məhsulların, habelə istehsal, istehlak vasitələrinin mübadilə dəyərinin təmin edilməsi

əmtəə, əmək, kapital və s. bu kimi bazarlarla qarşılıqlı əlaqədə davamlı təkrar istehsal prosesinin təmin və bərpa edilməsi;

- istehlak mallarının və xidmətlərin qiymətlərinin formalaşması və dəyişdirilməsi;
- mövcud bazarda tarazlığın təmin edilməsi (mikro və ya makrostruktur üzrə) və s.

Ən ümumi formada istehlak bazarının iqtisadiyyatda rolu bu funksiyalar vasitəsilə açılır.

Aqrar istehlak bazarının ən mühüm funksiyalarından biri ölkə üzrə ümumi daxili məhsulun (ÜDM) müəyyən hissəsinin reallaşdırılmasıdır.

İstehlak bazarının digər bir funksiyası malların istehlakçılara (müştərilərə) çatdırılmasıdır. İnsanlar pul gəlirlərini əmtəə ilə dəyişir və maddi tələbatını ödəyir, bazarla mövcud iqtisadi qanunların arasında sıx əlaqə mövcuddur. Bazarın digər funksiyası işçi qüvvəsini maddi həvəsləndirməkdir. Yalnız bazarda pulun əmtəə ilə dəyişdirilməsi prosesində bölüşdürmə təkrar istehsal prosesinin mühüm mərhələsi kimi çıxış edərək sonuncu mərhələyə daxil olur.

Beləliklə metodiki cəhətdən o mövqe düzgün hasab edilir ki, *“bazar və onunla bağlı ticarət münasibətləri ərzaq kompleksinin tərkib hissəsidir və kompleksin son nəticələri bu münasibətlərdən xeyli dərəcədə asılıdır. Müasir iqtisadi baxışlardan biri də qloba-*

*list iqtisadi təfəkkürlə səciyyələnir. Qlobal inkişaf xüsusiyyətlərinin sosial-iqtisadi mahiyyəti vacib formada insan amili ilə sıx şəkildə əlaqədardır. Bu baxımdan istehlak bazarının formalaşması və inkişafında ictimai-sosial rifah amilləri və qlobal iqtisadi amillər son dərəcə aktualdır"* [31, s. 49 ].

Bazarda mallara tələb və təklif tarazlaşdırılmayanda əhalinin pul qazanması çətinləşir. Nəticədə bütün bölgü mexanizmində pozuntu yaranır, işçi qüvvəsinin yüksək keyfiyyətə və məhsuldarlığa malik əməyinin maddi həvəsləndirilməsinin səmərəliliyi aşağı düşür. Beləliklə, kənd təsərrüfatı istehlak bazarında tələb və təklif balansı bütövlükdə iqtisadi sistemin nə qədər səmərəli işlədiyini göstərir.

İstehlakçıların yüksək alıcılıq qabiliyyəti kənd təsərrüfatı məhsulları üzrə istehlak bazarını tarazlaşdırmaq üçün vacibdir. Belə yanaşma onların gəlirləri ilə sıx bağlıdır. Qeyd edək ki, yerli istehsal potensialından tam və səmərəli istifadə edilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu, bir tərəfdən istehlak bazarında təklifin artması, digər tərəfdən isə yerli istehlakçıların gəlirlərinin artması ilə əlaqədardır [65, s. 112].

Yuxarıda göstərilən funksiyalar ölkənin iqtisadiyyatında istehlak bazarının yeri haqqında olduqca kifayət qədər təsəvvür verir. İstehlak bazarı iqtisadi, hüquqi və sosial münasibətlərin kompleks funksiyası olub, istehlakçıların ehtiyaclarını ödəmək üçün mexanizmlər və vasitələrin qurulması və inkişafı prosesində təsərrüfat subyektləri arasında qaçılmaz şəkildə meydana çıxmaqla həm də ayrı-ayrı subyektlərin inkişafının gələcək yollarını və imkanlarını, eləcə də ümumiqtisad sistemində onların əhəmiyyətini müəyyənləşdirilir.

Ölkənin istehlak bazarının inkişafının nəticəsi onun sosial-iqtisadi inkişafına təsir göstərən iqtisadiyyatının digər sahələrində multiplikativ effektdir. Bu həqiqət T.V.Uskovanın əsərlərində daha aydın şəkildə təsvir edilmişdir. [157, s. 11-13].

İstehlak bazarının yuxarıda göstərilən funksiyalarının həyata keçirilməsi onun formalaşmasına və inkişafına təsir göstərən bir sıra

amillərdən asılıdır. Alınan ayrı-ayrı amillər istehlak bazarının inkişafına həm stimullaşdırıcı, həm də müəyyən bir müddət ərzində onun imkanlarını məhdudlaşdırmaqla ləngidici təsir göstərə bilir. İqtisadi ədəbiyyatda əksər hallarda iki qrup amilləri: birbaşa və dolayı təsirləri ayırırlar [106, s. 30-49; 170, s. 24-25].

Bu amillər qrupu inteqrasiya olunmuş vəziyyətdə istehlak bazarına təsir göstərir. Eyni zamanda, hər bir amilin təsirini ayrı-ayrılıqda nəzərə alsaq, hər bir amilin təsir dərəcəsi digərindən fərqlənəcəkdir. Bütün amillər arasında aşağıdakılar ən vacib hesab olunur:

1) Əhalinin tələbatı. C.Helbreytin şərhinə görə, ən yaxşı iqtisadi sistemdə *"...insanlar onların daha çox ehtiyacı olduqları ilə maksimum dərəcədə təmin edilir..."* [122, s. 27]. Bu müddəanın əsasında belə bir nəticə çıxara bilərik ki, bütün sosial sistemlərin inkişaf mənbəyi təkrar istehsal prosesinin ilkin şərti və son nəticəsi kimi çıxış edən ayrıca fərdin ehtiyacları və onların ödənilməsi üzrə onun fəaliyyətidir. Şəxsin ehtiyacları və istəkləri məhdud deyil, lakin şəxsin imkanları məhduddur. Və tələbatın artması qanununa əsasən "hər on il ərzində istehlak mallarının və xidmət növlərinin sayı bir çox növlərin istehlak həcminin eyni vaxtda artırılması zamanı 2 dəfədən çox artır" [130, s. 122].

Buna görə də istehlak bazarının formalaşmasına və inkişafına təsir göstərən əsas amillərdən biri olan fərdi şəxslərin ehtiyaclarını müəyyən etmək lazımdır.

2) Əhalinin həyat səviyyəsi. Bu amil istehlak bazarında dəyişikliklərin təbiəti və istiqamətini müəyyənləşdirərək, əhalinin müxtəlif qrupları üçün sosial nəticələrin qiymətləndirilməsinə imkan yaradır. Nəticədə istehlak bazarında fəaliyyət göstərən tələb qanunun qiymətin funksiyası deyil, həyat səviyyəsinin funksiyası kimi qəbul edilməsi ehtimal edilir: $C = f(S_h)$.

Bu müddəa əsasında istehlak bazarının formalaşması və uğurlu inkişafı üçün əhalinin gəlirlərini artırmaq və onların diferensiallaş-

dırılmasını azaltmaq üçün şərait yaratmaq lazımdır.

3) Daxili bazarda istehlak mallarının istehsalının inkişafı. Bir tərəfdən istehlak bazarında müəyyən bir ölçü, tərkib və quruluşu ilə əmtəə təklifi formalaşır. Digər tərəfdən, yeni iş yerlərinin yaradılması təmin edilir, əhalinin gəlirlərinin artması və ödəmə qabiliyyətli tələb stimullaşdırılır.

4) İstehlak mallarının idxalı. İstehlak bazarının tarazlığı bir yerli istehsal hesabına deyil, ümumi əmtəə dövriyyəsinə nisbətən idxalın miqdar və strukturunda balansın əldə edilməsi hesabına əldə edilir. Lakin bu amil ikili təsir göstərir: istehlak bazarını daha geniş miqyasda məhsullarla təchiz edərək yerli istehsalçılara qarşı rəqabət mühiti yaradır ki, bu da ölkə iqtisadiyyatının sabitləşməsinə və əmtəə müstəqilliyinin azalmasına kömək edir.

5) İstehlak bazarının infrastrukturunun inkişafı. Dünya iqtisadiyyatında qloballasma prosesləri ictimai istehsala xidmət edən iqtisadiyyat sektorlarının yükünü artırır və ölkənin milli sərvətinin və istehsal potensialının bir hissəsi olan bu amilin vacibliyini vurğulayır. İnfrastruktur istehlak bazarının subyektləri, onun struktur elementləri arasında malların son istifadəçiyə çatdırılmasını təşviq etməklə, həm də davamlı təkrar istehsal prosesini təmin etməklə qarşılıqlı əlaqəni təmin etmək məqsədilə nəzərdə tutulmuşdur.

İstehlak bazarının və onun tərkib hissəsi olan qida bazarlarının dinamikliyinin və intensivliyinin təmin olunması məqsədilə dövlət tərəfindən zəruri tədbirlər görülməsi, qida təhlükəsizliyi sisteminin tələblərinə uyğun şəkildə qiymət tənzimlənməsi aparılmalı, qida bazarı iştirakçılarının səmərəli fəaliyyəti üçün daha münasib vergi, gömrük, kredit, maliyyə-sığorta və s. alətlərin müəyyənləşdirilməsi və tətbiqi proseslərinə ciddi önəm verilməlidir [79, s. 417-418].

Qənaətimizə görə, istehlak bazarının müəyyən inkişafı şəraitində hər bir amillər qrupunun inkişaf meylləri və xüsusiyyətlərinin təhlili, hər bir ayrıca amilin fəaliyyət dərəcəsinin və istiqamətinin müəyyən edilməsinə diqqət yetirimılidir.

Azərbaycanda kənd təsərrüfatının dayanıqlı inkişafı və bununla bağlı aqrar istehlak bazarının təşəkkülü bu günün aktual problemi və ölkənin iqtisadi siyasətinin prioritet istiqamətidir.

## 1.3. Aqrar istehlak bazarının formalaşması və inkişaf xüsusiyyətləri

Aqrar istehlak bazarının formalaşması və inkişafı, qloballaşma şəraitində ölkə əhalisinin qida normalarına münasib təmin edilməsi, aqrar sahədə iqtisadi artıma nail olunmasında həyata keçirilən tədbirlər, ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində dövlətin apardığı siyasət, beynəlxalq əməkdaşlığın yeni formalarının tətbiği çox mühüm əhəmiyyətə malikdir.

Dəqiq rasional idarəetmə altında olan ölkənin istehlak bazarı, sahibkarlıq subyektləri, istehlak bazarının infrastruktur sektorları, müəyyən ölkə sakinləri arasında təsirli və qarşılıqlı əlaqə sisteminə çevrilməlidir [169].

Dövlət tənzimlənməsinin yüksək səviyyədə olduğu iqtisadi modeldən bazar tənzimləyicilərinin üstünlük təşkil etdiyi modelə keçid zamanı müvafiq dəyişikliklər həm ərzaq istehlak bazarının formalaşmasında və həm də onunla baş verən proseslərdə özünü büruzə verir.

Bazar infrastrukturunun inkişafı iqtisadi əlaqələrin formalaşdırılması və təkmilləşdirilməsinə, xidmətlərin keyfiyyətinin artırılmasına və onların həyata keçirilməsi mexanizminin yaxşılaşmasına yardım edir. Ərzaq istehlak bazarının infrastrukturu sayəsində kənd təsərrüfatı istehsalının inkişafı üçün zəruri şərait və ilkin zəmin yaradılır.

İstehlak bazarının infrastrukturunun formalaşması və inkişafının əsas prinsiplərinə yerli ərzağın rəqabət qabliyyətinin artırılması üçün mal dövriyyəsi sisteminndə xərclərin azaldılması, malın vaxtında çatdırılması və satış müddətinin qısaldılması, mal dövriyyəsi-

nin sürətləndirilməsi və məhsulların keyfiyyətinin saxlanılması daxildir.

Bu prinsiplərin həyata keçirilməsi ərzaq istehlak bazarındakı vəziyyət haqqında məlumatların, ərzaq məhsullarının topdan ticarət sisteminin inkişaf səviyyəsi və vəziyyətinin təhlilinə əsaslanır. Eyni zamanda nəzərə almaq lazımdır ki, mal dövriyyəsi sistemində topdansatış ticarət, uçot-informasiya və maliyyə-kredit funksiyalarını yerinə yetirir.

Ərzaq istehlak bazarında mal dövriyyəsi sistemində topdansatış ticarətinin əlaqə funksiyasının mahiyyəti istehsalçı və istehlakçı arasında qarşılıqlı əlaqələrinin təşkilidir. Bu funksiyanın yerinə yetirilməsində ərzaq məhsullarının topdan satışı üzrə ixtisaslaşma əmtəə dövriyyəsi prosesində əlaqələrin sayını azaltmaq hesabına xərclərə əhəmiyyətli dərəcədə qənaət etməyə imkan verir.

Uçot-informasiya funksiyasının mahiyyəti kommersiya məlumatlarının toplanması, emalı, yığılması və əmtəə dövriyyəsi sisteminin digər bazar iştirakçılarına ötürülməsidir. Topdan ticarət müəssisələrinin kommersiya informasiya mübadiləsində vasitəçilik fəaliyyəti informasiya axınlarının istehsaldan istehlaka və əksinə kəsisməsində onların xüsusi mövqeyi ilə şərtlənir.

Maliyyə-kredit funksiyasının mahiyyəti kənd təsərrüfatı istehsalçıları, emal sənayesi müəssisələri, eləcə də topdan və pərakəndə ticarət müəssisələri arasında ticarət əməliyyatları üzrə bank xidmətləri göstərməkdir.

Ərzaq istehlak bazarının infrastrukturunun hər şeydən əvvəl, topdansatış ticarət obyektlərinin dayanıqlılıq səviyyəsi inkişaf etmiş ölkələrdə Azərbaycanda olduğundan daha yüksəkdir ki, bu da onlara məhsulu istehlakçılara daha az xərclə çatdırmağa, daxili və xarici bazarlarda öz məhsullarının rəqabət qabiliyyətini artırmağa kömək edir. Buna görə də, ərzaq bazarının infrastrukturunun inkişafı həm daxili və həm də beynəlxalq bazarlarda məhsulların rəqabət qabiliyyətinin artırılmasının ilkin şərtidir.

Müasir mərhələdə ərzaq istehlak bazarında bazar infrastrukturunun formalasmasına və inkişafına əsas yanaşmalar aşağıdakıları nəzərdə tutur:

- ərzaq məhsullarının elektron ticarət sisteminin inkişafı daxil olmaqla müasir informasiya təminatı sistemlərinin dəstəklənməsi;
- ərzaq bazarında əmtəə dövriyyəsi sistemində iştirakçıların fəaliyyətini tənzimləyən normativ-hüquqi sənədlərin işlənib hazırlanması və təkmilləşdirilməsi;
- satış sistemində xərclərin azaldılması və yerli agrobiznesin rəqabət qabiliyyətinin artırılması üçün yerli istehsalçıların topdan ticarət müəssisələri ilə qarşılıqlı əlaqələrinin təmin edilməsi;
- ərzaq fondlarının formalaşması və istifadəsi xərclərini minimuma endirmək üçün logistika sistemlərinin geniş tətbiq edilməsi;
- yeni növ məhsulların yerli və xarici bazarlara çıxış imkanlarını artırmaq üçün mövcud istehsal gücündən daha yaxşı istifadə etməyə imkan verən yarmarka-sərgi fəaliyyətinə dəstək verilməsi;
- məhsulların istehsalını və satışını genişləndirmək məqsədi ilə əmtəə istehsalçıları və emal müəssisələrinin marketinq fəaliyyətinin daha da inkişaf etdirilməsi.

İstehlak malları bazarının yaranmasına sistemli yanaşmada perspektivli və strateji istiqamətlər üzrə idarəetmə məsələlərinə xüsusi önəm verilir, bu isə tələbin həyat dövrünün fazalarına görə balanslaşdırılır və onun dayanıqlığı tədqiq edilir. Tələbin həyat dövrü özündə aşağıdakıları birləşdirir:

- doğulma - istehlak bazarı subyektləri üzrə qurulmanın aktiv mərhələsi;
- yetkinləşmə - bazarın doldurulduğu və daha çox güclərin mövcud olduğu mərhələ;
- artımı sürətləndirmək - bazarda qalmış rəqiblərin öz liderlik nəticələrindən yararlandlğı mərhələ;
- zəifləmə - tələb həcmində azalma;
- tənəzzül - təklifin tələbi qabaqladığı mərhələ [63, s. 206].

Bazar infrastrukturunun səmərəli fəaliyyət göstərməsi üçün ən əhəmiyyətli meyar mal dövriyyəsi sistemində xərclərin səviyyəsini azaltmaqdan və yerli ərzaq məhsullarının rəqabət qabiliyyətinin artırılması üçün optimal şərait təmin etməkdən ibarətdir.

Qeyd etmək lazımdır ki, ərzaq istehlak bazarı infrastrukturunun bir çox obyektləri və ilk öncə saxlama sisteminin (xüsusi anbarlar, soyuducu kameralar və s.) obyektləri beynəlxalq standartlara cavab vermir və çox hallarda səmərəsiz istifadə olunur. Səmərəli dövlət siyasətində bu obyektlər daxili və beynəlxalq bazarlarda yerli ərzaq məhsullarını təşviq etmək üçün istifadə edilə bilər.

Azərbaycanda bu obyektlərin xüsusiyyətlərindən biri odur ki, bir çox anbar müəssisələri özlərində hazır məhsulun böyük ehtiyatlarını saxlamağa məcbur olurlar ki, bu da onların saxlanma xərclərinin artmasına gətirib çıxarır. Tələb və təklifin vəziyyəti haqqında obyektiv informasiyanın olmaması, eləcə də istehsalçılar və istehlakçılar arasında iqtisadi və ticarət əlaqələrinin parçalanması və bununla əlaqədar anbar komplekslərinin və topdan ticarət obyektlərinin modernləşdirilməsi zərurəti səbəbindən bu məhsul həcmlərinin idarə olunması daha da çətinləşir.

Topdansatış ticarəti ərzaq istehlak bazarı infrastrukturunun vacib elementi olsa da, hələ də zəruri inkişaf səviyyəsinə çatmamışdır. Topdansatış ticarət müəssisələrinin sayının ilbəil artmasına baxmayaraq, onların təminatlılıq səviyyəsi hələ də çox aşağıdır, çünki kəmiyyət artımı əsasən xırda topdansatış vasitəçi strukturların və xarici ticarət şirkətlərinin artması hesabına baş verir. Bu gün Azərbaycanda topdansatış müəssisələrinin təchizatı ABŞ, Türkiyə, Çin, Yaponiya, Aİ və Pribaltika ölkələrinə nisbətən xeyli aşağıdır.

Aqrobiznes qaydalarına uyğun olan aqrar bazarın formalaşması və inkişafı, əsasən tələb və təklifin təsiri nəticəsində formalaşır. Kənd təsərrüfatı məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi, bu prosesin səmərəli və məqsədyönlü formada həyata keçirilməsi dövlətin strateji maraqlarının reallaşdırılmasına xidmət

edir [58, s. 23-24].

Həmçinin ölkədə bazar infrastrukturunun inkişaf səviyyəsinin vəziyyəti ona gətirib çıxarmışdır ki, məhsulun nəqli, saxlanması və satışı üzrə xərclərin payı onun son dəyərində çox yüksək olaraq qalır. Bu məqsədlər üçün xərclərin azaldılması, yerli istehsalçıların məhsullarının rəqabət qabiliyyətinin artırılması, əhalinin rifahın yaxşılasdırılması və həyat səviyyəsinin yüksəldilməsi üçün böyük önəm daşıyır.

Hesab edirik ki, aqrar-ərzaq bazarında yüksək səviyyəli infrastrukturun: anbar və soyuducuları, komunikasiya sistemlərini, sosial infrastruktur xidmətlərini, lizinq xidmətlərini yadadılması yerli istehsalçıların məhsullarının rəqabət qabiliyyətinin artırılmasına və əhalinin rifahın yaxşılaşdırılmasına xidmət edər.

Prof. İ.H.İbrahimov *sahibkarlığın formalaşdığı şəraitdə aqrar-ərzaq bazarı infrastrukturun təşkili məsələlərinə düzgün olaraq maddi-texniki təchizat xidmətini, nəqliyyat xidmətini, aqrotexniki xidməti, aqrokimyəvi və bitki mühafizəsi xidmətini, maliyyə xidmətini, marketinq xidmətini, damazlıq xidmətini, baytarlıq xidmətini, suvarma xidmətini, informasiya və məsləhət xidmətini aid edir* [52, s. 224-252].

Aqrar sahənin başlıca bölməsi olan kənd təsərrüfatında suvarma aparmaq, sahələri gübrələmək, heyvanları keyfiyyətli yemlərlə təmin edilməsini yaxşılaşdırmaq nəticəsində məhsul istehsalını artırmaq olar. Digər tərəfdən, müasir və çevik nəqliyyat vasitəsi tətbiq etməklə məhsulu öz vaxtında daşıyaraq çatdırmaq mümkündür. Bütövlükdə bunlar əhəmiyyətli dərəcədə istehsal və xidmət səmərəsinə təsir edir. [112, s. 902-907].

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə [6] nəzərdə tutulan mühüm prioritetlərdən biri olaraq aqrar sahədə digər bir əsas istehsal vasitəsi sayılan suvarma suyuna çıxışı asanlaşdırmaq, istehsalçıların müxtəlif növlü istehsalat texnikası, maşın və avadan-

lıqlarla təminatını yaxşılasdırmaq, toxum, habelə ting bazarını inkişaf etdirmək, bununla bərabər, yerli istehsal potensialını gücləndirmək, aqrar sahəni gübrə və bitki mühafizəsi vasitələrlə təminatını yaxşılaşdırmaq, qarışıq və qüvvəli yem istehsalı üçün nəzərdə tutulmuş tədbirləri, habelə ölkədə damazlığın, baytarlıq və fitosanitar xidmətlərin inkişafı yönündə kompleks tədbirlər görmək irəli sürülüb.

Təcrübədən aydın olur ki, cüzi əkin sahəsinə malik fermerlər tərəfindən yüksək məhsuldarlığı olan texnikalar tətbiq edilə bilmir. Bu isə onların hazırladıqları məhsulun maya dəyərində ifadə olunur. Bununla da biz heç də sahibkarların texniki təminatını yaxşılasdırmaq üçün son illər göstərilən dəstəyin əhəmiyyətini heç də azaltmaq istəmirik. Lakin bununla belə qeyd edək ki, həmin texnikanın bəlli müddətdən sonra ehtiyat hissələri üçün ehtiyac yaranır.

Tədqiqatlar göstərir ki, aqrar sahə məhsulları istehsalçılarının ixtiyarında olan texnika sayı son illər xeyli artsa da, mövcud tələbat hələ ki tam ödənilmir, lakin bu təminatın tədricən yaxşılaşması müşahidə olunur.

Hesablamalar əsasında müəyyən edilib ki, əgər hər min hektar əkin sahəsinə düşən traktorun sayı 1990-cı ildə 27, 2005-ci ildə 11,9 idisə, 2010-cu ildə bir qədər qalxaraq 13,4 traktor təşkil etsə də, 2015-ci ildə bu rəqəm 7,7 traktora enmiş, 2021-ci ildə isə 2,9 dəfə artaraq 22,2 traktora bərabər olmuşdur. Onu da vurğulayaq ki, artıq 2006-cı ildən etibarən Gəncə avtomobil zavodunda traktorların istehsalına baslanılıb. 2021-ci ilin sonuna olan məlumatlara görə, burada 651 ədəd traktor, 258 trak-tor qoşqu avadanlığı istehsal edilib. Nəticədə 2005-ci ildə 1990-cı illə müqayisədə bir traktora düşən əkin sahəsi 37 ha-dan 84 ha-ya, 2015-ci ildə isə 129 ha-ya yüksəlsə də, 2021-ci ildə bu rəqəm 2,9 dəfədən çox azalaraq 45 hektar təşkil etmişdir [22].

Oxşar vəziyyətin digər  kənd təsərrüfatı texnikaları barəsində də demək olar. Belə ki, taxıl sahəsinin min hektarına əgər 1990-cı ildə

8,0 kombayn düşürdüsə, 2005-ci ildə bu rəqəm 1,8-ə, 2015-ci ildə 0,7-yə düşmüş, 2021-ci ildə yenidən 3,7-yə qalxmısdır. Hesab edirik ki, respublikada kənd təsərrüfatı üzrə ehtiyacları ödəmək məqsədilə nəqliyyat vasitələrinin, eləcə də ehtiyat hissələrinin istehsalı təşkil oluna bilər. [22].

Bunun üçün respublikanın maşınqayırma və metal emalı sənayesinin gücündən istifadə edilməklə bu təyinatlı dövlət vəsaitinin ayrılması məqsədəuyğun sayılır.

Təhlil və araşdırmalar göstərir ki, dünyanın bir sıra dövlətlərində femerlərin xərclərinin müəyyən məbləği dövlət tərəfindən subsidiyaların verilməsi ilə ödənilir. Avropa Birliyinə daxil olan ölkələrdə fermerlərin xərclərində dövlət tərəfindən ödənilən subsidiyaların payı ortalama yarıbayarı təşkil edir. Azərbaycanın iqtisadi imkanları nəzərə alınaraq, strateji məhsullar yetişdirən sahibkarlar üçün bir hektar əkin sahəsi hesabına görə müəyyən miqdarda təqdim edilən subsidiyanı artırmaqla, həmin məhsulların yetərli qədər istehsal edilməsinə etibarlı təminat yaratmaq olur.

Aqrar istehlak bazarının mühüm infrastrukturlarından biri kimi marketinq xidməti diqqəti cəlb edir. Belə ki, torpaq payı əldə etmiş kəndli bazardakı tələbat, istehlakçı qruplar, rəqiblər, təchizatçı firmalar haqqında məlumatlara malik olmalıdırlar. Bu tip məlumatları yığmaq və araşdırmaq üçün isə istehsalçıların nə bilgiləri, nə də maddi imkanları yetərli olmur. Kəndli öz məhsulları üzrə konkret istehlakçı qruplarını tapmadığı və əsasən, bazar üçün nəzərdə tutulduğu üçün, onun istehsalçısı olduğu məhsul da fərqli keyfiyyət göstəriciləri əldə edir. Halbuki, rəqabətdə davam gətirməkdən ötrü məhsulun analoji məhsullardan hər hansı üstün xüsusiyyəti ilə fərqlənməsi tələb edilir. Dünya təcrübəsinə görə, marketinq xidmətində xammalın istehsalı, onun emalı və təkrar emalı, habelə satışı prosesləri bir-birləri ilə əlaqələndirilir, onların iqtisadi və təşkilati inteqrasiyası stimullaşdırılır. Odur ki, fikrimizcə, aqrar sahə istehsalçılarının məhsulları üzrə planlasdırılmış satışı təşkil etmək məqsə-

dilə həyata keçirilən marketinq xidməti əsas şərtlərdən birinə çevrilməlidir.

Professor İ.H.Alıyev qeyd edir ki, *“kənd təsərrüfatı və aqrar-sənaye müəssisələrində marketinq xidməti o şərtlə səmərəli ola bilər ki, bütün idarə aparatı işçiləri onunla məşğul olur və ona bütün istehsal dairəsi əməkdaşları köməklik göstərirlər. İstehlakçıların öz vaxtında tələblərinin ödənilməsi üçün şərait yaradırlar”* [29. s. 81].

Araşdırmalar göstərir ki, aqrar bazarın inkişafı və səmərəliliyin təmin edilməsinə dövlət dəstəyinin kifayət qədər yetərli olmasına baxmayaraq hələlik aqrar bazarın dinamikliyi və tarazlığına nail olunmamışdır. Aqrar bazarın inkişafı üçün kənd təsərrüfatı məhsullarının istehsalı, saxlanması, emalı, istehlakçıya çatdırılmasına kimi olan proseslərin dinamik və səmərəli təşkili üçün infrastrukturların yaradılması və tənzimlənməsinə ehtiyac duyulur. Bu prosesdə Ermənistan silahlı qüvvələri üzərində ildırım sürətli qələbə çalan və zəfərlə bitən 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad edilən torpaqlarımızda aqrar sahənin gələcək inkişafının təmin edilməsi istiqamətində nəzərdə tutulan çox böyük yenidənqurma və bərpa işləri müsbət təsir edəcəkdir. Azad edilmiş torpaqlarda yeni texnologiyalar əsasında taxılçılıq, üzümçülük, meyvəçilik, heyvandarlığın inkişafı potensiallarının dövriyyəyə daxil edilməsi bu bölgədə aqrar bazarın davamlı inkişafını şərtləndirən əsas amillərdən olacaqdır. Qeyd etmək lazımdır ki, fikrimizcə aqrar bazarın inkişafı və səmərəliliyini şərtləndirən amillərə ərzaq təhlükəsizliyi kontekstində baxılmalıdır [51, s.16].

Qeyd edək ki, aqrar islahatların aparılması və onun dərinləşdirilməsininin ilk mərhələsində aqrar bazarın formalaşması üçün zamanında bir çox mühüm təşkilati - iqtisadi mexanizmlər həyata keçirildi:

*“- bazar münasibətlərinə uyğun hüquqi baza yaradıldı;*

*- sovxoz və kolxozlarda aqrar islahatlar həyata keçirildi, həmin sahələrin torpaq və əmlakı özəlləşdirildi, pay almaq hüququ*

*olan şəxslərə torpaq və əmlak verildi;*

*- emal, tədarük, satış və xidmət müəssisələrinin əmlakı özəlləşdirildi, dövlətin inhisarı ləğv edildi;*

*- torpaq və əmlak payı hesabına ləğv edilmiş sovxoz və kolxozların əsasında özəl əsaslarda çoxnövlü təsərrüfat subyektləri yaradıldı, sahibkarlıq formalaşdırıldı və inkişaf etdirildi;*

*- maliyyə, kredit, vergi, sığorta, qiymət, idarəetmə sistemi dəyişdirildi və təkmilləşdirildi, bazar prinsiplərinə uyğun sistemli siyasət həyata keçirildi;*

*- bazar münasibətlərinə uyğun idxal-ixrac əməliyyatları üzrə gömrük siyasəti təkmilləşdirildi;*

*- aqrar sahə üzrə beynalxalq təşkilatlarla əməkdaşlıq (elmi-texniki, təcrübi, iqtisadi və s.) əlaqələr genişləndirildi;*

*- beynalxalq bazarlarda istehsal, emal və xidmət sahəsində yeni inteqrasiya əlaqələri yaradıldı;*

*- kənd təsərrüfatında sahibkarlığın inkişafına maneələr və onların işlərinə müdaxilələr aradan qaldırıldı;*

*- sahibkarlığın inkişafında əlverişli hüquqi-iqtisadi və təşkilati mexanizmlər yaradıldı, istehsalın inkişafında ardıcıl stimullaşdırma tədbirləri həyata keçirildi (vergi, subsidiyalaşdırma, kredit və s.)"* [51. s.17].

İ.H.İbrahimov bütün bunları ölkəmizdə aqrar bazarın formalaşmasına səbəb ola bilən əsas amillər hesab edir. O həm də doğru olaraq qeyd edir ki, *"aqrar bazarın yaradılması üçün ilk növbədə insanların yaşayışını təmin edən ərzaq bazarı formalaşdırılmalıdır. Ərzaq bazarının yaradılmasında sahibkarlığın inkişafı, mövcud ehtiyatlardan (torpaq, əmlak və maliyyə) səmərəli istifadə etməklə əhalini və emal sənayesini kənd təsərrüfatı xammalı və məhsulları ilə təmin etmək əsas vəzifə olmalıdır. Bunun üçün bazar münasibətlərinin inkişafı nəzərə alınmaqla maddi-texniki ehtiyatlar və xidmətlər, əmək, torpaq, maliyyə bazarları formalaşdırılır, tələb və təklif əsasında kənd təsərrüfatında münasibətlər yenidən qurulur və*

*təkmilləşdirilir. Kənd təsərrüfatı məhsulları bazarı, ərzaq məhsulları bazarı, texniki ehtiyatlar bazarı və xidmətlər bazarı bütövlükdə aqrar bazarın tərkib elementlərini təşkil edir. Hesab edirik ki, bütün bunlar İAEƏ - də aqrar bazar münasibətləri formalaşdırılarkən nəzərə alınmalıdır”* [51. s.17].

İqtisadçı alimin fikrincə, *“ölkənin daxili istehsal hesabına ərzaq təminatının yüksək səviyyəsi ölkənin aqrar siyasətinin düzgün aparılmasının əsas göstəricisi hesab edilir”* [51. s.17].

O, aqrar bazarın tənzimlənməsi amillərini aşağıdakı kimi göstərir:

*1)” təbii şərait amilləri, torpaq, su, iqlim, ekoloji amillər;*

*2) aqrar bazarın idxal - ixrac amili;*

*3) aqrar bazarın daxili istehsal amilləri (bitkiçilik, heyvandarlıq və s.);*

*4) aqrar bazarın iqtisadi amilləri”* [51. s.17].

Alimin təbirincə, *“ölkə üzrə aqrar bazarın formalaşdırılmasına və inkişafına regionların və İAEƏ - in potensialları və daxili ehtiyatların dövriyyəyə cəlb edilməsi kontekstindən baxılmalıdır”* [51, s.18].

Bu gün Azərbaycanda aqrar istehlak bazarı infrastrukturunun nisbətən zəif inkişafı əmtəə dövriyyəsi sisteminin təkmilləşdirilməsi prosesində ciddi bir maneədir. Dünya təcrübəsi göstərir ki, ərzaq bazarının səmərəli fəaliyyətinin zəruri şərti inkişaf etmiş və səmərəli fəaliyyət göstərən bazar infrastrukturudur.

Ərzaq istehlak bazarının müasir infrastrukturu tələb və təklif arasında zəruri nisbətə dəstək olmaq üçün şərait yaratmalı, aqrar məhsulların tələb və satışını qarşılama müddətini azaltmalı və dövriyyəsini sürətləndirməli, malların hərəkəti prosesində xərclərin ümumi səviyyəsini azaltmalı və sivil rəqabət mühitini formalaşdırmalıdır.

İnfrastruktur, müasir informasiya texnologiyalarına və logistikadan istifadə imkanlarına cavab verməlidir. Dövlətin bu sahədə rolu

logistika və ərzaq bazarının infrastruktur obyektlərinin inkişafına, mal hərəkəti proseslərinin sürətləndirilməsinə və yerli kənd təsərrüfatı istehsalının inkişafına daha əlverişli şərait yaratmaqdan ibarətdir.

Ərzaq istehlak bazarının infrastrukturunun səmərəliliyinin artırılması üçün ən vacib şərt mal hərəkəti sisteminin təkmilləşdirilməsi və mütəşəkkil topdansatış-vasitəçi strukturların formalaşmasıdır, çünki əmtəə istehsalçılarının böyük əksəriyyəti üçün öz satış kanallarının yaradılmasına vəsait yatırmaqdansa, bu strukturların xidmətlərindən istifadə etmək daha sərfəlidir.

Dünya təcrübəsi göstərir ki, bu sistemdə ən mühüm həlqə topdansatış ərzaq bazarları, ərzaq paylama-bölüşdürmə mərkəzləridir. Onlar saxta malların pərakəndə ticarətə daxil olmasının qarşısının alınmasına, məhsul keyfiyyətinin yaxşılaşdırılmasına və əhalinin real tələbini ödəməyə kömək edir, rəqabətin inkişafı və qiymətlərin sabitləsməsi üçün şəraiti təmin edir.

Ərzaq istehlak bazarı infrastrukturunun səmərəli fəaliyyətinin əsas vəzifələri aşağıdakılardır:

- ərzaq mallarının əmtəə dövriyyəsinin səmərəli sisteminin formalaşması əsasında xərclərin minimallaşdırılması;
- əhalinin alıcılıq qabiliyyətli tələbinin və bazarın müəyyən seqmentlərinin öyrənilməsi və proqnozlaşdırılması nəzərə alınmaqla, məhsul çeşidinin genişləndirilməsi;
- marketinq tədqiqatları əsasında ərzaq bazarının vəziyyətinə dair bütün bazar istirakçılarının məlumat əldə etməsinin təmin edilməsi;
- qarşılıqlı faydalı müqavilələrin bağlanması əsasında bütün bazar iştirakçıları arasında iqtisadi əlaqələrin yaxşılaşdırılması;
- respublika, regional və bələdiyyə ehtiyacları üçün məhsulların tədarükü və təchizatının işlək mexanizminin yaradılması;
- malların anbarlarda saxlanılması və daşınması üçün optimal şəraitin təmin edilməsi;

- keyfiyyətsiz məhsulun istehsalçıya qaytarılması və bu məhsulun istehlakçı tərəfindən alınmasına mane olmaq məsələlərinin həll edilməsi;

- ərzaq məhsullarının istehsalı və istehlakının xüsusiyyətlərini nəzərə alaraq, məhsulların qruplar üzrə çeşidlənməsinin təşkil edilməsi;

- satılan məhsulların keyfiyyətinin qorunması və daxili bazarda rəqabət qabiliyyətinin artırılması.

Bu gün bir çox topdan ticarət müəssisələri tez-tez öz fəaliyyətlərini xidmətlərin yaxşılaşdırılmasına və məhsulların keyfiyyətinin qorunmasına yönəltmədən məhsulların satış həcminin kəmiyyət artmasına çalışırlar. Bəzi topdansatış müəssisələri mal satışını malların dövriyyəsi sistemində əlavə məsrəflərə və xərclərə gətirib çıxaran digər vasitəçi qurumların köməyi ilə həyata keçirirlər.

Topdansatış ticarəti müəssisələrinin xüsusilə vacib funksiyaları əhalinin müxtəlif gəlir səviyyələrinə malik olan bütün kateqoriyalarının tələbini təmin etməli olan optimal çeşidinin formalaşmasıdır. Eyni zamanda, ərzaq məhsulları istehsalının və istifadəsinin xüsusiyyətləri ilə bağlı əsas amillər nəzərə alınmalıdır.

Aqrar istehlak bazarı infrastrukturunun inkişafını təmin edən mexanizmlərin yaradılması və istehlak bazarında sağlam rəqabət üçün zəruri təşkilati-iqtisadi şərtlərin formalaşdırılması dövlət siyasətinin prioritetlərindən biri olmalıdır.

Aqrar istehlak bazarının tədqiqindən aydın olur ki, *"o, mürəkkəb bir iqtisadi sistem olub, müasir şəraitdə bazar iqtisadiyyatının səmərəli inkişafı üzrə əhəmiyyətli istiqamətlərdən biridir. Məhz aqrar istehlak bazarının göstəriciləri ölkənin ərzaq kompleksinin təminatının və bütövlikdə cəmiyyətin sosial-iqtisadi əmin amanlığının vacib indikatoru rolunu oynayır"* [65, s. 109-117].

Aqrar istehlak bazarı infrastrukturunun formalaşmasına və inkişafına mane olan əsas amillər bu sahə üçün dövlət dəstəyinin yetərli olmaması, normativ-hüquqi bazadakı boşluqların mövcudluğu, res-

publika və bölgələr səviyyəsində vahid əlaqələndirmə siyasətinin və elmi yanaşmaların zəif təşkil edilməsidir.

Regionlararası səmərəli ərzaq əlaqələrinin formalaşması və yerli ticarət-nəqliyyat altkompleksinin dünya ticarət sisteminə inteqrasiyasına, həmçinin beynəlxalq tələblərə və ölkə qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılmasına əsaslanaraq, mövcud infrastrukturun texnoloji yenilənməsinin həyata keçirilməsini tələb edir. Bu problemi həll etmək üçün aşağıdakı tədbirlərin reallaşdırılmasını lazım bilirik:

- topdansatış ərzaq bazarının infrastrukturunun bütün iştirakçıları və təsərrüfat subyektləri arasında iqtisadi əlaqələrin formalaşdırılması və tənzimlənməsi üzrə vahid normativ-hüquqi bazanın yaradılması;
- bütün bazar iştirakçılarının maraqlarının harmonik birləşməsinə əsaslanmaqla dövlət orqanları tərəfindən tənzimlənən ərzaq, maliyyə və informasiya axınlarının hərəkət sisteminin təşkil edilməsi;
- dövlət tənzimlənməsini tələb edən müəyyən fəaliyyət növlərinin sığortalanması və lisenziyalaşdırılması;
- əmtəə dövriyyəsinin səmərəli sisteminin formalaşdırılması və inkişafı məqsədilə qida bazarının infrastruktur obyektlərinin fəaliyyətləri üzərində dövlət nəzarətinin gücləndirilməsi.

İstehlak bazarı infrastrukturunun inkişafının əsas vəzifələrindən biri ərzaq bazarı iştirakçılarına dünya bazarındakı vəziyyətə tez reaksiya vermək, iqtisadi əlaqələri inkişaf etdirmək və xərcləri əhəmiyyətli dərəcədə azaltmaq üçün imkan verəcək etibarlı informasiya təminatının yaradılmasıdır. Bu vəzifənin həllinə isə regional topdansatış ərzaq bazarları və ərzaq paylama mərkəzləri, informasiya-marketinq və logistika sistemləri şəbəkəsinin yaradılması kömək edəcəkdir.

Qeyd edək ki, informasiya infrastrukturu bir qayda olaraq topdansatış ticarəti müəssisələrinin xarici ticarət fəaliyyətinin inkişafına, xarici investisiyaların cəlb olunmasına, yerli məhsulların key-

fiyyətinin və rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə, əmtəə dövriyyəsi sistemində xərclərin azaldılmasına və yerli malların xarici satış bazarlarına çıxarılmasına kömək edir.

Bazar iştirakçılarından tez və etibarlı məlumatların əldə edilməsi məqsədilə mal və xidmətlərin yalnız daxili bazara deyil, həm də xarici bazarlara və ilk növbədə MDB ölkələrinin bazarlarına çıxarılmasına yönəlmiş informasiya və marketinq mərkəzlərinin şəbəkəsini yaratmaq üçün müvafiq xüsusi proqramın hazırlanması lazımdır. Bu proqramın tətbiqi, zənnimizcə, ölkələr arasında pozulmuş ticarət və iqtisadi əlaqələrin bərpa olunmasına və onların istehsal imkanlarından daha yaxşı istifadə olunmasına kömək edəcəkdir.

Aqrar istehlak bazarının mövcud informasiya infrastrukturu bu gün ölkənin dünya iqtisadiyyatına inteqrasiya edilməsi üçün istesalçılar və istehlakçılar arasında maariflənmə müasir tələblərə hələlik ki, tam cavab vermir. Dövlət informasiya resursları iqtisadi dövriyyəyə bütövlükdə cəlb edilmir, qeyri-dövlət informasiya resursları isə bazar iqtisadiyyatının real vəziyyətini, həmçinin ərzaq bazarının səmərəli idarə olunması və tənzimlənməsi üçün lazım olan məlumatları yetərincə əks etdirmir.

Odur ki, aqrar istehlak bazarının infrastrukturunun inkişafı üçün dövlət dəstəyinin gücləndirilməsi qloballaşma kontekstində ölkəmizin iqtisadi təhlükəsizliyinin əvəzsiz şərtidir. Hesab edirik ki, müasir bazar infrastrukturunun formalaşması həm məhsul istehsalçılarının, həm də etibarlı və ahəngdar fəaliyyət göstərən, fasiləsiz mal təchizatı sisteminə ehtiyacı olan topdan və pərakəndə ticarət müəssisələrinin maraqlarına tam uyğun gəlir.

Müasir iqtisadi şəraitdə aqrar istehlak bazarını inkişaf etdirib genişləndirimək məqsədilə aqrar sahənin əsas strateji vəzifələrinə aşağıdakıları daxıl etmək gərəkdir:

- *"dünya standartlarına uyğun kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalına nail olunması;*
- *ölkənin yüksək keyfiyyətə malik ərzaq və qida məhsullarına*

*olan tələbatının qarşılanması;*

*- geniş ixrac potensialı olan qida məhsullarının dünya bazarlarına çıxarılmasının qarşılanması;*

*- rəqabət qabiliyyətli aqrar-ərzaq mallarını "Made in Azerbaijan" brendi ilə ixracının genişləndirilməsi və s."* [68, s. 118].

Bu tədbirlərin hər birinin diqqətdə saxlanılması aqrar istehlak bazarının inkişafına əhəmiyyətli dərəcədə təsir göstərər.

## 1.4. Aqrar istehlak bazarının formalaşmasında beynəlxalq təcrübədən istifadə

Tədqiqatın gedişatında belə nəticəyə gəlmək olar ki, *"müasir şəraitdə Azərbaycanda normal aqrar istehlak bazarının formalaşması və inkişafının təmin olunması məqsədi ilə daxili istehsal potensialından tam və səmərəli istifadə hesabına ölkənin zəruri ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsinin yüksəldilməsi vəzifəsi əsas götürülməlidir"* [65, s. 115].

Odur ki, gəldiyimiz qənaətə görə, aqrar istehlak bazarının gələcək inkişafı prosesində prioritet vəzifələr kimi aşağıdakılar gündəmə gəlməlidir:

*"- istehsal müəssisələrində əlverişli fəaliyyət şəraitinin yaradılması;*

*- əhalinin getdikcə artan tələbatını daha tam və dolğun ödəmək, ölkənin iqtisadi təhlükəsizlik sisteminin formalaşmasına şərait yaratmaq;*

*- əhalinin aqrar istehlak mallarına tələbini formalaşdırmaq və istehlakın səmərəli strukturuna malik olmaq;*

*- aqrar istehlak mallarının səmərəli satışını həyata keçirmək və onların vaxtında istehlakçıya çatdırılmasını təmin etmək;*

*- tələblə mal təklifi arasında dinamik tarazlığa nail olmaq və onun daimi xarakter daşımasına şərait yaratmaq;*

*- yerli əmtəə istehsalçıları tərəfindən istehsal edilən məhsulların*

*ixracının təşkili və ixraca meyilli təsərrüfat subyektlərinin stimullaşdırılması"* [65, s. 115].

Araşdırmalar göstərir ki, daxili bazarların xarici ünsürlərdən mühafizəsində əsas istiqamət yerli istehsalın çoxaldılması, ölkənin iqtisadi maraqlarının mühafizəsi  və ərzaq təhlükəsizliyinin təmin edilməsidir [64, s. 37-41].

Qeyd etmək zəruridir ki, istehlak bazarları cəmiyyətin tərkib hissəsi olaraq, həmçinin özünə aid spesifik xüsusiyyətə də malikdir.

Bütövlükdə, yerli istehsalın çoxaldılması, istehlak bazarı və ərzaq mallarının istehsal sferasında istehsalçı marağının təmin olunması üçün bəzi tədbirlərin davamlı olaraq aparılması məqsədə müvafiq hesab olunur [64,s.39]:

- məhsul istehsalçılarına daxili və xarici bazara çıxışın asanlaşdırılması;
- rəqabətqabiliyyətli məhsulların istehsalının maksimum səviyyəyə çatdırılması;
- etibarlı ərzaq təminatının formalaşdırılması və ya mövcud ehtiyat sistemlərinin təkmilləşdirilməsi;
- məhsul istehsalı, daşınması, tədarük və emalı mərhələlərində itkilərin azaldılması;
- beynəlxalq bazarlarda yerli məhsula olan istehlakçı tələbatının tədqiq olunması;
- məhsulların beynəlxalq standartların tələbinə uyğun formada istehsal olunması;
- yerli istehsalçıların məlumatlandırılması məqsədilə bölgələrdə beynəlxalq elektron informasiya bazaların formalaşdırılması;

Yerli aqrar məhsulların istehsalının çoxaldılması, daxili ərzaq bazarlarının təkmilləsdirilməsi, respublikanın ərzaq təhlükəsizliyinin təmin olunması əhalidə etibarlı ərzaq təminatının olması ilə birbaşa əlaqədardır. Respublikanın iqtisadi gücü bölgələrin dinamik inkişaf dərəcəsi əsasında qiymətləndirilir. Respublika əhalisinin aqrar məhsullarla davamlı təminatını yaratmaq məqsədilə aqrar in-

frastrukturun təkmilləşdirilməsi çox əhəmiyyətlidir. Qeyd olunanlar bitkiçilik məhsulları ilə təminat zamanı mövsümiliyin aradan qaldırılması ilə birgə istehsalın iqtisadi səmərəliliyinin artmasına imkan yaradır.

Araşdırma göstərir ki, ölkənin aqrar bölməsində məhsulların ayrı-ayrı kanallarla fiziki şəxslərin köməyi ilə birbaşa (bura əsasən birbaşa bazar və firma mağazaları vasitəsilə satışı aiddir) satışı genişlənməkdədir.

Lakin müasir bazar münasibətlərində kənd təsərrüfatı məhsulları istehsalçının öz məhsullarını vasitəçi olmadan kommersiya qurumlarına təhvil verilməsi və başqa istehlak bazarlarında satışların təşkili hələlik istənilən dərəcədə deyildir, bunun bir neçə səbəbi vardır [64, s. 40]:

- kənd təsərrüfatı məhsulu istehsalçılarının öz məhsullarını vasitəçi olmadan həyata keçirmə imkanının məhdud olması;
- kənd təsərrüfatı məhsulu bazarı və yarmarkalarının vasitəçi (broker) inhisarında qalması;
- buğda, ət və süd məmulatlarının ölkə üçün strateji əhəmiyyətli olmasına baxmayaraq təsərrüfatda istehsal edilən bu məmulatların ümumi ehtiyac üçün lazımi qədər tədarük edilməsi;
- istehlak bazarlarında sərbəst formada satıla bilən kənd təsərrüfatı məhsulunun xərc tutumlu və tez zay olması, satışın yüksək qazanc gətirə bilməməsi, əlavə emal, bahalı daşınma xərclərinin və s. olması.

Qloballaşma vəziyyətində aqrar istehsalın inkişafı, eləcə də respubikada və dünyada bəzi iqtisadi və siyasi çətinliklərin gedişi ilə əlaqədardır.

Aqrar sektorun inkişafı ilə birgə istehlak bazarından dolğun şəkildə istifadə edilməsi yolu ilə ərzaq təhlükəsizliyi əldə etmək, beynəlxalq bazara sərbəst çıxış imkanı qazanmaq məqsədilə, düşünülən strateji siyasətin taktiki formalarda aparılmasını tələb edir. Bu məqsədlə aşağıdakı tədbirlərin görülməsini vacib hesab edilir:

- kənd təsərrüfatında vəsait potensialını təsis edənləri və emal sahəsi, torpaq məhsuldarlığı, qabaqcıl texnologiyanı, elmi texniki imkanları mühafizə etmək və tədricən aşkar etmək lazım olacaqdır.

- ərzaq məhsulları hərəkəti və xammalın istehlakçıya doğru istehsalı üçün etibarlı və sistemli mexanizm yaratmaqla keyfiyyətsiz, aşağı növ məhsul və ya yerli istehsalçı tərəfindən istehsal edilmiş bir çox növ məhsullara düşünülmüş qadağalar tətbiq etməklə, ərzaq müstəqilliyini qorumaq və s.

Aqrar sahə düşünülmüş şəkildə idarə olunmalıdır ki, o respublika əhalisinin çeşidli ərzaq tələbatı dərəcəsinə uyğun normal xarici əlaqələr yaradaraq emal sənaye sektorunun xammala olan tələbatının da ödənməsini təmin etsin. Təbii ki, bu məqsədin həyata keçirmə forması, birinci növbədə, başlıca ərzaq növləri üzrə tələbatların ödənilməsi ehtiyatlarını müəyyən etməkdən ibarət olmalıdır. Həmçinin, əsas məqsədlərdən biri indiki dövrdə respublikanın ərzaq təhlükəsizliyinə çətinlik yaradan səbəbləri askara çıxarmaqdır. Bu istiqamətdə mənfi meylləri aşkarlayaraq aradan qaldırmaq və ya bu işlərin müəyyənləşdirilmiş hüquqi əsasının işlək mexanizmini yaratmaq vacibdir.

Artıq neçə müddətdir ki, ölkəmizdə aqrar sahədə aparılan islahatların gedişi çərçivəsində kənd bölgələrində yeni iqtisadi münasibətlər inkişaf etməkdədir. Başqa tərəfdən kənd təsərrüfatının müxtəlif sahələrində reallaşan struktur dəyişikliyi müəssisə və təşkilat arasında yeni əlaqələrin yaranmasını tələb edir.

Qeyd etmək vacibdir ki, respublikamızda məhsul emalı, daşınma, saxlanılma və aqrar sektorun sənayeləşməsi məsələsi gözlənilən səviyyədə deyildir. Ona görədə, həm kənd təsərrüfatı məhsullarının toplanması, həm də saxlanılması və daşınmasında külli miqdarda itkiyə yol verilir. Həmçinin, məhsulun emalında, satışında, daşınmasında və saxlanılması sahəsində əhalinin çox az hissəsi çalışır. Ancaq xarici dövlətlərdə kənd təsərrüfatı məhsulu istehsalı sektorunda çalışanlarla müqayisə olunan zaman bu sektorda bizdə

daha çox əhali çalışır. Bu səbəbdən, məhsulların istehlakçıya çatdırılması zamanı vacib olan bu sektorların inkişafı və infrastrukturunun yaradılması məqsədilə xarici investisiyaların cəlb olunması və bazarların mühafizəsi vacib amillərdəndir.

Mərhum iqtisadçı alim G.Ə. Gənciyev doğru olaraq hesab edirdi ki, *"müasir beynəlxalq ticarət sistemində proteksionizm daha geniş yayılmışdır. Bu metod daha çox regional xarakterli iri və yeni inteqrasiya biliklərində istifadə olunur. Proteksionizm siyasəti ilə tənzimlənmədə qlobal səviyyədə yeni qaydalar meydana gəlmişdir. Bu siyasət əsasən milli sənayenin inkişafının mənafeyinə zidd olan idxala, tətbiq edilir. Artıq gömrük vergilərinin yerini taarifsiz proteksionizm əvəz edir bunlar: kəmiyyət məhdudiyyətləri, standartlar, texniki şərtlər, ekoloji təhlükəsizlik normaları və s.proteksionizm siyasətinin əsas amilləri və stimullarıdır"* [50, s.30]

Bazarları qorumaq üçün beynəlxalq dünya təcrübəsində proteksionist (idxal olunan mala görə tarif, idxal kvotası) tədbirlərdən istifadə edilir. Rəqabət azadlığının və bazar iqtisadiyyatının elan edilməsinə baxmayaraq, AB və ABŞ daxili bazarlarını digər dövlətlərin məhsul tədarükündən tamamilə bağlayır. AB daxilində də dövlətlər arasında (və Avropa dövlətlərində) tədarük kvotaları vardır. Qeyd olunanlar, həm ciddi kəmiyyət tənzimlənməsinin, həm də reallaşdırılması çətinliklə baş verən və tətbiqi məhsulları bazarlarda bahalı və rəqabətsiz edəcək mal üzrə norma və tələbin müəyyənliyi sayəsində yaranır.

Proteksionizm praktikasında aşağıda qeyd olunan fəaliyyət modellərindən istifadə edilir:

- ölkə, bölgə və bələdiyyələr səviyyəsində təkcə yerli istehsalçılarla alış-verişin edilməsi;
- istehlak bazarlarında fəaliyyət göstərmək üçün təkcə ərazi istehsalçıları, vasitəçiləri və pərakəndə ticarət təşkilatlarına icazənin verilməsi.

Hal-hazırda ərazi istehlakçı bazarlarına nəzarət aşağı səviyyədə-

dir və bu da onu yerli istehsalçı və regionların hakimiyyət orqanlarına şərtləri diktə etməyə baslayan qlobal ölkə və sərhədboyu pərakəndə şəbəkələ inhisarçılığına qarşı həssas edir.

Fikrimizcə, bu vəziyyətdə ya istehlak bazarlarının subyektlərinə tam sərbəstlik verilməli (liberal yanaşma), ya da onların fəaliyyət göstərməsinə tam nəzarət yaradılmalıdır (inzibati yanaşma). Lakin bu yanaşmaların təcrübədə reallaşdırılması mümkünsüz və hətta təhlükəlidir, bu səbəbdən ən böyük iqtisadi effekt əldə etmək və həmçinin, respublika və onun regionlarının sosial-iqtisadi təhlükəsizlik səviyyəsini artırmağa şərait yaradacaq istehlak bazarında hərtərəfli proteksionizm yanaşmasından istifadə olunmalıdır [70, s. 83].

Qeyd etmək vacibdir ki, əksər xarici dövlətlərdə bu sektorda layihələrin reallaşdırılması işləri dövlət tərəfindən dəstəklənməkdədir. Aqrar sektor üzrə daxili və xarici bazarı tədqiq edən, proqnozlaşdıran çevik informasiya sistemi yaradılaraq, fasiləsiz şəkildə xarici iqtisadi fəaliyyətlə məşğul fiziki və hüquqi şəxsin informasiya təminatları təşkil olunmalıdır. Dünyanın bir çox dövlətlərində belə bir sistem vardır: əhalinin ərzaq təminatı məqsədilə istehsal və idxal ediləcək məhsulların miqdarı öncədən proqnozlasdırılır, vacib olan valyuta vəsaiti öyrənilir və müqavilələr bir neçə ay əvvəl bağlanılır.

İstehlak bazarlarının əlverişli və qənaətcillik istiqamətlərində mövcud olan xarici praktika barədə P.Bayer qeyd edir ki, *"az əhəmiyyətə malik istisnalarla, kənd təsərrüfatı məmulatlarının ticarəti ilə məşğul olan hər bir dövlət təşkilatını iki sinifdən birinə məxsus etmək olar: onlardan biri nəzarətdə olan məhsulun satışı sahəsində ölkənin malik olduğu inhisar hüquqlarına, ikincisi isə nəzarətdə olan məhsulun tədarükü sahəsində inhisar hüquqlarına bölünmüşdür. Birinci tip müəssisələr əsasən inkişaf etmiş dövlətlərdə, ikinci tip müəssisələr isə bəzi inkişaf etməkdə olan dövlətlərdə fəaliyyət göstərir"* [109, s. 21].

Xarici praktika ilə tanışlıq göstərir ki, iqtisadiyyatı inkişaf etmiş hər birində kooperasiya və istehsal inteqrasiyası prosesləri baş ve-

rir. Bu isə onunla əlaqədardır ki, müasir biznesin reallaşdırılması kapitalın daha güclü əllərdə toplanması ilə əlaqədardır. Bu isə istehsalın hər bir amilinin - əmək, kapital və yeni texnologiya tətbiqinin daha əlverişli istifadəsinin təşkilinə şərait yaradır.

Respublikanın xarici ticarət əlaqələrinin formalaşdırılmasında kənd təsərrüfatı məhsulu istehsalı ilə birgə emal sənayesi sahəsi də vacib əhəmiyyət kəsb edir. Pambıqçılıq, tərəvəz və meyvəçilik məhsulunun xarici istehlak üçün ixtisaslaşdırılması və bu sahələrin indiki səviyyədə məqsədyönlü intensivləşdirilməsinin, bu sahəyə xidmət edən və onunla bağlı infrastruktur gələcək inkişafın, onların xarici standartlar səviyyələrinə qaldırılması böyük əhəmiyyəti kəsb edir.

Respublikanın xarici ticarətinin əsas vəzifələri dünya bazarında əsasən xammal və materiallara əsasən tutduğu mövqeləri get-gedə rəqabətqabiliyyətli hazır məhsullarla əvəzləmək, istehsal aparatını texniki tərəfdən yenidən yaratmaq yolu ilə ixrac potensialını yüksəltmək və bu əsasda xarici bazarlarda mövqelərini möhkəmləndirməkdən ibarətdir. İqtisadiyyatın ixracın artırılmasının əsas şərti isə ölkənin emal sənayesində məhsul istehsalının keyfiyyəti və məsrəflərini dünya bazarlarında rəqabətin tələb və şərtinə uyğunlaşdırmaqdan ibarətdir.

Qloballaşmada olan dünya təsərrüfatı sisteminin müasir reallıqlarının təhlil olunması belə fikir yaradır ki, indiki halda xarici-iqtisadi və ticarət münasibətinin inkişafını müəyyən edən başlıca ünsürlərdən biri təsərrüfat həyatının sürətli şəkildə beynəlmiləlləsməsidir. Bir çox hallarda beynəlxalq əlaqələr təcrübəsində iqtisadi inteqrasiya kimi qəbul edilən bu proses dövlətlərin xarici ticarət fəaliyyətlərinin genişlənməsi və qarşılıqlı faydalı əməkdaşlıqlar əsasında dünya təsərrüfatı əlaqələrinin intensivləşməsi ilə reallaşdırılır.

Hər bir dövlətin xarici iqtisadi fəaliyyət istiqamətləri və funksional quruluşu həmin dövlətin beynəlxalq əmək bölgüsündə iştirak

səviyyəsi və ixtisaslaşma dərəcəsindən əhəmiyyətli dərəcədə asılıdır. Ona görə ki, ilkin mərhələdə belə halların yaranmaması üçün dövlət quruculuğunu sürətləndirərək düşünülmüş inkişaf istiqamətləri, modeli seçmək vacibdir. İqtisadi əlaqələr sistemində xarici investisiyanın iştirakı danılmazdır. Bu işdə əlverişli istiqamətləri düşünərkən Azərbaycanın xüsusiyyətlərinin nəzərə alınması vacibdir. Təbii zənginliyimiz xaricdən cəlb olunan kapitalı cəlb edən vacib ünsürlərdən olsa da belə hal milli sahibkarlığın inkişafını təhlükəli vəziyyətə salmamalı və xarici kapitalın inhisarçılığın formalaşması üçün əsas yaratmamalıdır. Fikrimizcə, işğaldan azad edilmiş bölgələrdə xarici investorun cəlb edilməsi, innovativ texnologiya tətbiqinə yönəldilməsi istehlak bazarının inkişaf olunmasına şərait yarada bilər.

Beynəlxalq praktikadan görmək olar ki, xarici iqtisadi münasibətlər milli mənafeyə əsaslandıqda daha əlverişli olur. Əks təqdirdə bu münasibətlər strateji nöqtədən artıq uzaq düşən məqsədə xidmət edir ki, bunun da sonda xeyir qazandıracağından danısmaq olmaz. İqtisadi münasibətlər elə səviyyədə formalaşdırılmalıdır ki, onlar respublikamızı xarici dövlətlərlə güclü inteqrasiyasını təmin etsin. İqtisadi münasibətlərin qurulmasının əlverişliliyi prinsipləri həm iqtisadi mənada, həm də sosial mənada anlaşılmalıdır. Bu münasibətlərin qurulmasının strategiyası respublikanın strateji məqsədi ilə uyğunlasdırılaraq müəyyən dövlətlərin iqtisadi inkişaf dərəcəsi ilə uyğunlaşdırılmalıdır.

Bu iqtisadi münasibətlər iqtisadiyyatın ənənəvi sektorlarının daha da inkişaf etdirilməsi üçün əsas yaratmalıdır. İqtisadi münasibətlərsiz keçinmək mümkünsüz olduğu üçün onun əlverişli olmaması da qeyri-mümkündür. Təbii və geopolitik amillərə əsasən Azərbaycan dünya dövlətlərinin iqtisadi əməkdaşlığının əlverişli formalasması üçün xüsusi bir yerdir ki, bundan da səmərəli şəkildə istifadə edilməlidir.

Son zamanlarda Xəzər dənizi və Avropa dövlətlərinə çıxış məq-

sədilə nəqliyyat sistemi, Qara Dəniz ətrafı dövlətlərin və məlum olan ipək yolu sisteminin qurulması buna misal göstərilə bilər. Bu cür vacib beynəlxalq səviyyəli münasibətlərin də ən əlverişli yolu indidən xüsusi proqramlarda həm də proqnozlarda göstərilməlidir.

Professor Ş.Qafarovun təbirincə, *"Qloballaşma mühitində qabaqcıl transmilli müəssisələr gələcək inkişaflarını əldə edir. Bu mühitdə həqiqi qabaqcıl müəssisələr o müəssisələrdir ki, onlar bütün bazarı və texnoloji meyilləri diqqətlə izləyərək, daim yeni ideya və məhsul yaratmaq və onlardan qlobal miqyas nəzərə alınaraq çevik və effektiv yararlanmağı özündə daşıyan imkanlara və tədbirlərə yaradıcılıqla əhəmiyyət vermək gücündədir"* [71, s. 213].

Aqrar-sənaye istehsalının qlobal təsərrüfatçılığa uyğunlaşmasında beynəlxalq inhisarçılıqdan mühafizəsi ən mühüm əhəmiyyətə malikdir. Bu çətinliyin yaranması artıq ölkəmizin emal sənayesi təşkilatlarının bazası da beynəlxalq müəssisələrin iştirakı ilə səhmdarlar və birgə müəssisələrin formalaşmasında özünü göstərməkdədir [30, s. 107].

Deməli, beynəlxalq iqtisadi əlaqələrin formalaşmasında aqrar sektorun istirakı məsələlərinin təhlilindən aydın olur ki, aqrar sektor həm milli, həm də qlobal cəhətdən iqtisadi və ərzaq təhlükəsizliyi, müxtəlif bölgələrin inkişafı və s. məqsədə nail olunması tərəfindən istehlak bazarının inkişaf etdirilməsi də vacib əhəmiyyət kəsb edir. Bununla belə, qlobal səviyyədə beynəlxalq iqtisadi əlaqələrin, beynəlxalq əmək bölgüsünün təsirilə, əsasən ticarət məqsədi daşıyır.

Həmçinin, hər bir dövlətdə, o cümlədən respublikamızda aqrar sektor üzrə formalaşan beynəlxalq iqtisadi əlaqələrdə daha yaxından iştirak və əlverişli nəticələr əldə etmək üçün bir çox tədbirlərin reallaşdırılması vacibdir. Birinci növbədə, daxili bazarın mühafizəsi və beynəlxalq münasibətlərin yaradılması və inkişafı, beynəlxalq aqrar layihələrin yaradılması, ölkəyə cəlb olunması istiqamətində tədbirlər reallaşdırılmalıdır.

Beynəlxalq praktikadan görünür ki, istehlak bazarlarının sosial-iqtisadi təhlükəsizlik konsepsiyası üçün tətbiq olunmuş vəzifələrə uyğun olaraq, əsas tədbirlər respublika və regional proteksionizmin həyata keçirilməsi üçün ümumi yanaşma əsasında yaradılmışdır:

1) əmtəənin (işin, xidmətin) regionlar tərəfindən əhalinin ehtiyacına əsaslanaraq təmin olunmasının planlaşdırılması;

2) bölgə üzrə icra hakimiyyəti orqanının pərakəndə ticarət şəbəkəsi ilə yerli istehsalçılardan onların ümumi alışını stimullaşdırmaq üzrə işləri;

3) yerli istehsalçının məhsullarının pərakəndə ticarət şəbəkəsinin dövriyyəsindəki payının müəyyən edilməsi yolu ilə idxal edilən məhsulların və digər regionlardan məhsulların idxal edilməsi üçün məhdudlaşdırıcı tədbirlərin müəyyənləsdirilməsi;

4) idxal edilən məhsullar və ya digər regionlardan məhsulların satışı həyata keçirilərkən brokerlər üçün ərazi, çeşid, müvəqqəti qadağa, qadağanın yaradılması, bu məhsulların yerli istehsalçı tərəfindən kifayət sayda istehsal olunması şərtiylə;

5) kənd təsərrüfatı məhsulu istehsalçılarına pərakəndə satış şəbəkəsinin nümayəndələrinin iştirakı əsasında yarmarka, sərgi və konfranslar təşkil etmək, aqrar sektorun yerli nümayəndələrindən müvafiq mal siyahısını almaq üçün pərakəndə şəbəkələrlə regional müqavilə imzalamaqla məhsulların satışının həyata keçirilməsinə kömək;

6) respublika və onun regionları üzrə vətəndaşların ehtiyac və təmin normalarına uyğun ticarət mərkəzi və mağazaları olan regionların inkişaf planlaşdırılması, sosial-iqtisadi əsaslandırılması;

7) ticarət aksiyalarının mövsüm üzrə satışların tənzimlənməsi, qiymət dempinqinə nəzarət olunması.

Sərt inzibati tədbirlərlə birgə, respublikada və onun regionlarında proteksionizmin aşağıda qeyd olunan iqtisadi istiqamətlərindən istifadə olunması təklif edilər:

1) yerli istehsalçılar, kiçik və orta sahibkarların məhsulunun topdan satışı məqsədilə regional orqanların nəzarəti ilə iri logistika

mərkəzlərinin inşa edilməsi;

2) bazarlarda alverçilərin, vasitəçilərin aşkara çıxmasına qarşı çıxaraq yerli istehsalçılara nəqliyyat, hüquq və paylama xidməti göstərən real vasitəçilər şəbəkəsinin təskil olunması;

3) yerli istehsalçıların məhsullarının pərakəndə satış şəbəkəsində reklam etmək məqsədilə marketinq mexanizmlərindən istifadəsi;

4) regionlardakı istənilən pərakəndə şəbəkələrdən yerli istehsalçıların məhsullarını güzəştli qiymətlərlə əldə edəcək aşağı gəlirli əhali üçün kartlarının istifadəsi.

Onu da vurğulamaq lazımdır ki, respublika səviyyəsində artıq böyük biznesin fəaliyyətini azaltmaq və yerli biznes qurumlarını dəstəkləmək üçün bölgələrdəki icra hakimiyyəti orqanına bir çox sərbəstlik verilmişdir. Bunlar, aşağıda qeyd olunan tədbirlərdir:

- yerli istehsalçı üçün vergi güzəşti və onların subsidiyaları;
- sərbəst iqtisadi zona və inkişaf etmiş regionların tarif tənzimlənməsi və güzəştlərindən istifadə.

Lakin bir çox tapşırıqlar yalnız icra hakimiyyəti orqanının fəaliyyəti yerli istehsalçının real dəstəyinə doğru dəyişməsi zamanı həll oluna bilər. Bu fəaliyyətin məqsədi xammal yönümlü deyil, respublika istehsalını inkişaf etdirmək olmalıdır. Bazarın ümumi açıqlığı ölkə istehsalını maraqlarının müdafiəsi ilə əvəzlənməlidir.

Həmçinin, bu proqram tədbirlərinin əmtəə bazarlarında çatışmazlıq yaratmaması üçün müəyyən çevikliklə xarakterizə edilməlidir. Yerli əhəmiyyətli məhsulların bazarda təminatlılıq dərəcəsini müəyyən etmək lazımdır. Bəzi mütəxəssislər 100% və ya 75% həddində olan müəyyən məhsullar üçün belə bir maneələrin olmasının lazım olduğuna inanır. Əgər bu hədd aşılarsa, proteksionizm tədbirləri zəifləməlidir.

Ümumilikdə, aqrar istehlak bazarlarının formalaşmasında dünya praktikasında proteksionizmin bütün tədbirləri ölkə və onun regionlarının təkrar istehsal qüvvələr nisbətini formalaşdırmaq və aqraq sahə istehsalçılarına dəstək verməyə istiqamətlənməlidir.

# II FƏSİL. AQRAR İSTEHLAK BAZARININ MÖVCUD DURUMU: TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

## 2.1. Aqrar istehlak bazarının inkişafı və əhalinin ərzaq məhsulları ilə təminatı məsələləri

Ərzaq təminatı hər bir dövlətin bütövlükdə milli və iqtisadi təhlükəsizliyin tərkib hissəsidir. Belə ki, ərzaq təminatı ölkənin sosial-iqtisadi inkişafı ilə sıx bağlıdır. Ərzaq təklifi kəmiyyətcə qənaətbəxş səviyyədə olmalı, keyfiyyətcə müasir standartlara uyğun olmalı və yerli əhali ekoloji cəhətdən təmiz məhsullarla təchiz olunmalıdır. Professor E.A. Quliyev vurğulayır ki, ərzaq təhlükəsizliyi sadəcə tələb olunan qida məhsullarını təmin etmir, həm də onların keyfiyyətini, kalori tutumlarını və komponentlərini də özündə əks etdirir [78, s. 19]. Buna görə də aqrar-sənaye istehsalının inkişafı və əhalinin fizioloji normalara uyğun qida məhsulları ilə təminatı ölkənin ən vacib problemlərindən biridir. Bu istiqamətdə müstəqillik illərində ardıcıl tədbirlər həyata keçirilmişdir.

Qeyd olunduğu kimi, bu illər ərzində Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunması, əhalinin keyfiyyətli və təhlükəsiz ərzaq mallarına tələbatının təmin edilməsi istiqamətində davamlı olaraq genişmiqyaslı tədbirlər həyata keçirilmişdir:

- qlobal kasıblıq həddindən aşağı səviyyədə yaşayan əhali,
- ərzaq təhlükəsizliyi proqramlarının mövcudluğu,
- mikroqidalanmanın əlçatanlığı,
- qida təklifinin qənaətbəxş səviyyəsi və s. [238].

Əhalinin digər ərzaq məhsulları ilə təminatı istiqamətində ölkədə tədbirlər icra edilir. Xüsusi ilə də, 2020-ci il 27 iyul tarixində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı xüsusi komissiyanın formalaşdırılması kənd təsərrüfatının inkişafı, yerli istehsalın artması və ərzaq məhsulları ilə özünütəmin etmə səviyyəsinin yüksəlməsinə töhfə verəcəkdir [11, s. 234].

Bununla yanaşı, Qlobal Ərzaq Təhlükəsizliyi İndeksinin təhlili onu göstərir ki, Azərbaycan ərzaq təhlükəsizliyi göstəricisinə görə Avropa məkanında ən zəif, Asiya məkanında isə ən güclü 10 ölkədən biridir. MDB məkanında isə müvafiq göstəriciyə əsasən Azərbaycan Özbəkistanı (50,9 bal) və Tacikistanı (49,4 bal) qabaqlaya bilmişdir. Qlobal miqyasda ən yaxşı ərzaq təhlükəsizliyinə malik olan 3 ölkə Finlandiya (85,3 bal), İrlandiya (83,8 bal) və Hollandiyadır (79,9 bal). Region ölkələrindən isə Belorusiya (73,8 bal), Rusiya (73,7 bal) və Qazaxıstan (70,8 bal) ərzaq təhlükəsizliyinə daha yaxşı nail olmuş ölkələr hesab olunur [238].

Araşdırmalar göstərir ki, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün dünya təcrübəsinə istinadən beş əsas istiqamət nəzərə alınmalıdır:

- ölkədə yerli istehsal hesabına əhalinin ərzaqla özünütəminat səviyyəsi;
- ümumi ərzaq istehlakının idxaldan asılılıq dərəcəsi;
- ərzağa fiziki və iqtisadi əlçatanlığın yetərli olması;
- qidanın keyfiyyəti, müxtəlifliyi və kaloriliyinin təmin edilməsi;
- qidanın təhlükəsizliyinə ciddi nəzarət sisteminin qurulması.

Ərzaqla özünütəminat dedikdə, istənilən anda təhlükəsiz, keyfiyyət və kəmiyyət baxımından lazımi həcmdə ərzağın fiziki mövcudluğu başa düşülür.

Ərzağa əlçatanlıq dedikdə, bütün ev təsərrüfatlarının müvafiq qidanın alınması və yaxşı qidalanmanın təmin edilməsi üçün kifayət qədər vəsaitinin olması başa düşülür. Əlçatanlıq ev təsərrüfatları səviyyəsində resursların mövcudluğundan (maliyyə, iş və bilik səviyyəsi), eləcə də qidaların istehlak qiymətlərindən asılıdır.

Aşağıdakı cədvəl 2.1.1-də əhalinin bəzi kənd təsərrüfatı məhsullarına olan ehtiyacının ödənilməsi barədə məlumat verilmişdir.

Cədvəldən göründüyü kimi, bəzi ərzaq məhsulları ilə özünütəminetməni qənaətləndirici hesab etmək olmaz. Belə ki, 2021-ci ildə respublikada buğda, paxlalılar, üzüm, bütün növ ət və ət məhsulları,

süd və süd məhsulları, balıq və balıq məhsulları üzrə özünütəminetmə səviyyəsi təmin edilməmişdir, digə məhsulların göstəricilərindən aydın olur ki, əvvəlki illərlə müqayisədə 2021-ci ildə özünütəminetmə səviyyəsi göstəricilərində artım qeydə alınmışdır [20].

**Cədvəl 2.1.1**

**Azərbaycan əhalisinin 2010 – 2021-ci illərdə bitkiçilik və heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi (faizlə)**

| Məhsulların adı | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| Buğda | 48,9 | 54,8 | 58,1 | 64,8 | 57,2 | 57,1 | 61.5 |
| Paxlalılar | 65,8 | 69,3 | 73,7 | 72,0 | 76,1 | 60,3 | 56,4 |
| Kartof | 100,5 | 89,1 | 89,2 | 90,8 | 87,8 | 90,6 | 88,8 |
| Bütün növ tərəvəz | 97,6 | 103,4 | 115,2 | 115,0 | 112,0 | 110,4 | 106,6 |
| Pomidor | | 113,7 | 130,9 | 138,0 | 132,5 | 131,0 | 121,1 |
| Bostan məhsulları | 100,0 | 100,0 | 100,2 | 99,7 | 100,8 | 100,8 | 102,6 |
| Meyvə və giləmeyvə | 107,9 | 113,7 | 122,4 | 123,2 | 123,1 | 116,3 | 122,9 |
| Qoz və fındıq | | 132,5 | 152,9 | 130,0 | 138,2 | 138,0 | 136,5 |
| Nar | | 103,7 | 104,5 | 106,3 | 110,7 | 112,0 | 127,8 |
| Üzüm | 90,4 | 93,1 | 93,4 | 92,5 | 94,3 | 95,8 | 94,4 |
| Bütün növ ət və ət məhsulları | 87,7 | 94,7 | 84,7 | 82,7 | 82,5 | 84.5 | 86,4 |
| Süd və süd məhsulları | 70,4 | 84,3 | 86,1 | 86,7 | 86,3 | 83,5 | 84,8 |
| Yumurta | 97,9 | 99,7 | 100,5 | 101,5 | 101,8 | 100,0 | 99,1 |
| Balıq və balıq məhsulları | 76,6 | 77,6 | 81,2 | 83,1 | 82,2 | 81,7 | 78,2 |

*Mənbə: [221] www.azstat.org.Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı*

FAO-nın hesablamalarından görünür ki, inkişaf etməkdə olan ölkələrdə 2030-cu il ərzində möhtac olduqları taxılın yalnız 86 faizinə bərabər olan hissəni onların özlərinin istehsal etmək imkanlarında olacaqlar. Əvəzində isə, həmin dövlətlərin idxal etməyə ehtiyacı olduqları taxılın miqdarının isə mövcud rəqəmlərdən 3 dəfə

yüksək olacağı gözlənilir. Ümumən, 2000-2030-cu illər dövründə proqnozlaşdırılan tələbatın ödənməsi üçün dənli bitkilərin buraxılışını 50, ət buraxılışını isə 85 faiz artırmaq vacibdir. Bütün bunlara ərzağa olan dünya qiymətlərinin artımına səbəb olan bioyanacağın istehsalı üçün kənd təsərrüfatı xammalına artan tələbatı da əlavə etmək vacibdir [238].

Hazırda dünya iqtisadiyyatı yenidən ağır sınaq qarşısında qalıb. Budəfəki sınaq iqtisadi qanunauyğunluqdan deyil, siyasi çəkişmə, onun nəticəsi olan müharibədən qaynaqlanır. 24 fevral 2022-ci ildən başlamış Rusiya-Ukrayna münaqişəsi iki ölkə arasında olan hərbi toqquşmadan beynəlxalq probleme çevrilib. Buna səbəb dünyanın güc mərkəzlərinin mövcud vəziyyətlə razılaşmayıb balansı öz xeyirlərinə dəyişmək istəyi ilə bağlıdır.

Qərb tərəfindən tətbiq olunan sanksiyalara Rusiya da qarşılıq verir. Nəticədə dünyada yeni iqtisadi böhranın yaranmasının ilkin əlamətləri görünür. Belə davam edərsə, qlobal iqtisadiyyat yenidən ağır zərbə alacaq ki, bu da iqtisadi fəallığın azalmasına və sosial gərginliyin artmasına səbəb olacaq. Başlıca narahatlıq doğuran məsələ enerji və ərzaq qiymətlərinin sürətlə bahalaşmasıdır. Bu isə öz növbəsində birbaşa insanların sosial rifahına mənfi təsir göstərən amillərdir.

Rusiya-Ukrayna savaşı başlayandan sonra dünya bazarında buğdanın qiyməti 40 faiz artıb. Buna səbəb Rusiya və Ukraynanın dünya bazarında buğda satışında 30 faiz paya malik olmalarıdır. Birdən - birə dünya bazarına bu qədər taxıl ixracının dayanması təbii ki, təsirsiz ötüşməyəcəkdir. Rusiyanın dünya bazarına ixracına qadağa qoyduğu buğdanın həcminin 6-8 milyon ton civarında olacağı bildirilir. Bu isə çox böyük həcmdir. Digər tərəfdən Ukrayna da logistik imkanların məhdudluğu üzündən buğda ixrac edə bilmir.

Qeyd edək ki, Rusiyanın buğda ixracını tamamilə dayandırmasından təsirlənməsi gözlənilən ölkələrdən biri də Azərbaycandır. Ölkəmiz 2021-ci ildə idxal etdiyi buğdanın 90 faizini Rusiyadan alıb. Təqdirəlayiq haldır ki, 2022-ci ilin əvvəlindən buğda idxalında

bu ölkənin payı kəskin azaldılıb, Qazaxıstandan idxal isə artırılıb. Belə ki, 2022-ci ilin yanvar ayında Rusiyadan 9872,19 ton bərk, 36893,31 ton yumşaq buğda, Qazaxıstandan 34736,52 ton yumşaq buğda, meslin və digərləri, 12202,5 ton bərk buğda almışıq.

Çıxış yolu aqrar sahədə taxılçılıqda məhsuldarlığı artırmaqdır. Bununla yanaşı, yeni əkin sahələrini dövriyyəyə daxil etmək lazımdır. İşğaldan azad olunan ərazilərin ölkənin buğdaya olan tələbatının daxili istehsal hesabına ödənilməsinə müəyyən qədər töhfə vermək imkanı var. Ən başlıcası isə taxılçılıqla məşğul olan fermerlərə əlavə dövlət dəstəyinin verilməsi lazımdır.

Rusiya və Ukrayna dünya bazarına günəbaxan yağının da iri ixracatçılarındandır. Dünya bazarında bu iki ölkənin payı 31 faizdir. İndi bazarlarda həmin məhsulun da qiyməti bahalaşıb. Rusiya həmçinin şəkər ixracında payı yüksək olan ölkələrdəndir. Ümumiyyətlə, Birləşmiş Millətlər Təşkilatının mütəxəssislərinin hesablamalarına görə, dünya bazarında ərzaq məhsullarının qiymətləri növündən asılı olaraq ən azı 8-22 faiz arasında artacaq. Bu da milyardlarla insanın alıcılıq qabiliyyətinə mənfi təsir göstərəcək [15].

Respublika əhalisinin tələbatını əsasən daxili istehsal hesabına ödəmək və ərzaq təhlükəsizliyini təmin etmək məqsədi ilə görülən işlər, eyni zamanda, qeyri-neft məhsulları ixracının təşviqi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində aqrar sahədə yüksək texnologiyalara əsaslanan və rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələr açılmış, yerli tələbatın ödənilməsi ilə bərabər, bir sıra istiqamətlər üzrə ixrac potensialı güclənməyə başlanılmışdır [114, s. 26-28].

Hazırda mal əti və süd məhsullarına olan tələbatın az qismi idxaldan asılı olsada, quşçuluğun və heyvandarlığın yemə olan tələbatının bir hissəsi idxal hesabına təmin edilir. Bu da ölkə ərazisində bəslənən heyvanların yemini xarici valyutadan asılı edir.

Bu gün dünyada sağlam qida rasionu və kaloriliıliyi aktual olduğuna görə ölkə əhalisinin idxaldan asıllığının azaldılması yerli

istehsal hesabına keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi prioritet istiqamət olmalıdır. Bu istiqamətdə aparılan təhlillər və araşdırmalar balanlaşdırılmış qida rasionunun ekoloji təhlükəsizliyinə yönəldilməlidir. Bununla bağlı prof. B.X.Ataşovun fikri bizə maraqlı gəlir. O yazır: *"İnsanların sağlam həyat tərzinin təmin edilməsində, onların uzunömürlülüyünə şərait yaradılmasında istehsal olunan ərzaq məhsullarının kəmiyyət göstəriciləri ilə yanaşı keyfiyyət parametrləri də həlledici rol oynayır. Bu mənada istehlak olunan qida məhsullarının ekoloji cəhətdən təhlükəsiz olmasına dair milli strategiya həyata keçirilməlidir"* [31, s. 108].

Professor E.A.Quliyev qeyd edir ki, qlobal qida təhlükəsizliyi problemləri artdıqca dünya ölkələrinin qarşısında duran strateji vəzifələrdən biri də "istehsal-istehlak zəncirinin müxtəlif mərhələlərinin səmərəlilik problemlərinin həll edilməsindən ibarətdir. Bu, əlbəttə, kifayət qədər mürəkkəb və uzun dövrü əhatə edən bir məsələdir və bu istiqamətdə duran problemlərin öhtəsindən gəlmək üçün elmi - iqtisadi əsaslarla fundamental araşdırmalar aparılmalı, mövcud problemlər öyrənilməli və onların həlli yolları üzrə strateji hədəflər maksimum optimal olaraq müəyyənləşdirilməlidir [79, s. 35].

Bu problemlərin həll edilməsi və qoyulmuş məqsədə nail olmaq məqsədilə prioritet istiqamətlərə aşağıdakılar aiddir:

- ərzaq təhlükəsizliyinin təmini üçün lazımi məhsul istehsalı ilə məşğul olan aqrar sahəni və xidmətləri dəstəkləmək;
- ölkənin ərzaqla təminatına nail olmaq məqsədilə idxal və ixracı tənzimləmək, habelə və daxili bazarı qorumaq;
- yetərli həcmdə qida məhsulları ehtiyatı yaratmaq və onlardan maksimal effektlə, həm də qənaətlə istifadə etmək.

Birinci prioritet istiqamət üzrə aşağıdakı qruplaşma vacibdir. Bütün kənd təsərrüfatı istehsalçıları iki qrupa bölünür:

1-ci qrup: əsas növ qida məhsulları istehsalçıları;

2-ci qrup: 1-ci qrupa daxil olmayan digər növ məhsul istehsalçıları.

Dövlətin kənd təsərrüfatı dəstəkləməsi üçün ayırdığı vəsait bu qruplara uyğun bölünməlidir. Hesab edirik ki, kənd təsərrüfatı sahələrindən başqa bu məhsulları emal edən sahələr və xidmətlər də dövlət tərəfindən dəstəklənməlidir.

Bununla bərabər, əhalinin az təminatlı hissəsi üzrə aqrar-ərzaq məhsullarına, xüsusən də qida məhsullarına əlçatan olmasını təmin etmək gərəkdir. Belə olan təqdirdə xüsusən də qida məhsulları üzrə qiymətlərin yüksək olmasının qarşısı alınmalıdır.

Həmin məqsədə nail olmaq üçün prioritet istiqamətləri aşağıdakı kimi görmək olar:

- daxili istehlak bazarının sabitliyinin təmin edilməsi;
- əhalinin az təminatlı hissəsinin gəlirlərinin artırılmasında dövlət dəstəyi.

Birinci prioritet istiqamət üzrə aşağıdakı məsələlər öz həllini tapmalıdır:

- iqlim dəyişikliklərinin ərzağa əlçatanlığa təsirini müəyyənləşdirən bazanın yaradılması;
- iqlim dəyişikliklərinin ərzağa əlçatanlığa riskli təsirini azaldan mexanizmlərin işlənib hazırlanması;
- ərzaq təhlükəsizliyi və qidalanma problemlərinin idarə olunması ilə bağlı kadrların kvalifikasiyasının artırılması və treninqi ilə bağlı çevik sistemin yaradılması;
- ərzaq təhlükəsizliyi və qidalanma ilə bağlı informasiyaya girişin yaxşılaşdırılması.

Hesab edirik ki, ikinci prioritet istiqamətdə aşağıdakı məsələlərin öz həllini tapması vacibdir:

- daxili bazarda ərzaq məhsulları üzrə qiymətlərin dəyişməsinin dövlət tərəfindən tənzimləyənməsinin effektivliyini artırmaq;
- ərzağın qiymətinin artmasını qabaqcadan proqnozlaşdıran dövlət sistemini yaratmaq;
- ərzaqla yardıma ehtiyacı müəyyənləşdirmək üçün ərzaq təhlükəsizliyinin vəziyyətini qiymətləndirmək;

- ərzağın qiymətinin artdığı dövrlər üçün dövlət dəstəyinin işlə-məsi;

- ərzaq yardımını çatdırmaq üzrə mexanizminin şəffaflığını tə-min etmək;

- əhalinin az təminatlı hissəsi üçün ərzaq əldə etmək imkanlarını yaxşılaşdırmaq üçün onların gəlirlərini stimullaşdırmaq.

Ölkənin hər bir vətəndaşının normal qidalanması və qidalanma-ması səbəbindən xəstəliklərin yaranması və yayılması labüddür.

Buna görə də aşağıdakı prioritet istiqamətlər müəyyənləşdiril-mişdir:

- qida rasionunun müxtəlifliyinin təmin edilməsi və fizioloji nor-madan aşağı qidalanma hallarının aradan qaldırılması, xüsusilə əhalinin həssas qruplarında (uşaq dünyaya gətirəcək yaşda olan qa-dınlar, uşaqlar, yaşlı insanlar və az təminatlı ailələr);

- əhalidə sağlam qidalanmaya dayanıqlı tələbatın sağlamlığın saxlanması və möhkəmləndirilməsi üçün qida rasionunun müxtə-lifliyi barədə adekvat informasiyanın çatdırılması yolu ilə forma-laşdırılması;

- balanlaşdırılmış qidalanma və keyfiyyət indikatorunun izlən-məsi sisteminin yaxşılaşdırılması.

Professor E.A.Quliyev qeyd edir ki, bu qeyd edilən problemlərə mühüm qida məhsulları istehsalı ilə məşğul müəssisələrdə, ilk növ-bədə, qida sənayesi müəssisələrində daha çox diqqət yetirmək məq-sədəuyğundur. Bu tip müəssisələrdə məhsuldarlıq və istehsalın həc-minin artırılması əksər hallarda daha çox prioritetlik təşkil edir və belə bir yanaşma son nəticədə istehsal olunan qida məhsullarının keyfiyyət parametrlərinə mənfi təsir göstərir. Ölkədə sosial-demoq-rafik proseslərin xüsusiyyətləri, perspektivləri, mühüm qida məh-sullarının istehsalının strukturunun təkmilləşdirilməsi, bu məhsul-ların istehsal proseslərindən istehlak bazarına - əsas istehlakçılara çatdırılmasının təmin edilməsi bir-birilə qarşılıqlı təsir konteksində baxılmalı və uzunmüddətli dövr üçün bu problemlərin həlli yolları

müəyyənləşdirilməlidir [79, s. 37- 42].

İnkişaf etmiş ölkələrdə qida məhsullarının istehlak dəyərinin artırılması proseslərinəxüsusi önəm verilir. Belə ki, həyat şəraitinin yüksəlməsi, insanların tələblərinin atrması, əksər insanların gəlirlərinin çoxalması daha yüksək keyfiyyətli, orijinal təbii qida məhsullarına tələbatı artırır. Deməli, əhalinin gəlirlərinin aqrar-ərzaq məhsullarının həcminə təsirini analiz etmək marketinq araşdırmaları nöqteyi nəzərindən çox vacibdir.

Azərbaycanda 2009-2021-ci illər ərzində əhalinin gəlirləri və aqrar - ərzaq məhsullarının həcminin dinamikasını təhlil etsək, (Cədvəl 2.1.2) cədvəlin məlumatlarından aydın olur ki, 2009-2020-ci illər ərzində əhalinin gəlirləri və aqrar-ərzaq məhsullarının həcminin dinamikası artan surətlə yüksəlmişdir.

**Cədvəl 2.1.2**

**Azərbaycanda 2009-2021-ci illər ərzində əhalinin gəlirləri və aqrar-ərzaq məhsullarının həcminin dinamikası**

| İllər | Gəlirlər- cəmi, mln. man, x1 | Cəmi aqrar-ərzaq məhsulları, mln. man, y |
|---|---|---|
| 2009 | 22601.10 | 1617.30 |
| 2010 | 25607.00 | 1746.20 |
| 2011 | 30524.60 | 2167.40 |
| 2012 | 34769.50 | 2371.70 |
| 2013 | 37562.00 | 2857.20 |
| 2014 | 39472.20 | 2809.50 |
| 2015 | 41738.60 | 2921.20 |
| 2016 | 45395.10 | 2741.90 |
| 2017 | 49487.90 | 2851.60 |
| 2018 | 53103.70 | 2979.90 |
| 2019 | 57080,00 | 3260.10 |
| 2020 | 57035,00 | 3884,30 |
| 2021 | 57181,50 | 4495,60 |

*Mənbə: [221]. www.azstat.org – Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı*

Belə ki, əhalinin gəlirləri 2009-cu ildə 22601,10 milyon manat olmuşdursa, 2020-ci ildə bu rəqəm 2.5 dəfə artaraq 57035.00 milyon manat təkil etmiş, 2021-ci ildə isə 57181,50 milyon manat təkil etmişdir. Müqayisə olunan 2009-2021-ci illər ərzində aqrar-ərzaq məhsullarının həcminin dinamikası 1617.30 milyon manat-dan 4495.60 milyon manata çataraq 2,8 dəfə artmışdır.

Cədvəl 2.1.2 –də illər üzrə qeyd edilən gəlirləri x1, aqrar-ərzaq məhsullarının həcmini y-lə işarə edək. Bu göstəriciləri loqarifmlə-yərək nəticələri cədvəl 2.1.3-də xarakterizə edilir.

**Cədvəl 2.1.3**

**Azərbaycanda 2009-2021-ci illər ərzində əhalinin gəlirlərinin və aqrar-ərzaq məhsulları həcminin qiymətlərinin natural üstlü loqarifmləri**

| İllər | lnx1 | Lny |
|---|---|---|
| 2009 | 8.995115 | 7.120283 |
| 2010 | 9.229996 | 7.199006 |
| 2011 | 9.585911 | 7.287219 |
| 2012 | 9.939598 | 7.388513 |
| 2013 | 10.02575 | 7.465197 |
| 2014 | 10.15062 | 7.681284 |
| 2015 | 10.32629 | 7.771362 |
| 2016 | 10.4565 | 7.957597 |
| 2017 | 10.53375 | 7.940762 |
| 2018 | 10.58335 | 7.979755 |
| 2019 | 10.65910 | 7.916065 |
| 2020 | 10.63918 | 7.916406 |
| 2021 | 10,61728 | 7,954778 |

Cədvəl 2.1.3-dəki göstəricilər Eviews proqram paketində işlən-miş və aşağıdakı nəticələr alınmışdır (cədvəl 2.1.4):

**Cədvəl 2.1.4**

**Eviews proqramlar paketində reqressiya təhlilinin nəticələri**

Asılı Dəyişən: LNY
Metod: Ən az kvadratlar
Tarix: 20.11.22 Saat: 17:05
Nümunə: 2009 2021
Müşahidələr daxildir: 11

| Dəyişən | Əmsal | Std. Xəta | t-Statistik | Prob. |
|---|---|---|---|---|
| LNX1 | 0.757218 | 0.004253 | 178.0303 | 0.0000 |

| | | | |
|---|---|---|---|
| R-kvadrat | 0.81277 | Orta asılı var | 7.609762 |
| Düzəldilmiş R kvadratı | 0.81277 | S.D. asılı var | 0.327856 |
| S.E. reqressiya | 0.141864 | Akaike məlumat meyarı | -0.981393 |
| Cəmi kvadrat şəklində qalıq | 0.201253 | Schwarz meyarı | -0.945220 |
| Giriş ehtimalı | 6.397659 | Hannan-Quinn kriteri. | -1.004194 |
| Durbin-Watson stat | 0.554936 | | |

Cədvəl 2.1.4-də alınan nəticələrə əsasən y-in x1-dən asılılığı aşağıdakı kimi olacaqdır:

$$y = x_1^{0.757} \qquad (2.1.1)$$

Cədvəl 2.1.4-ün məlumatlarından göründüyü kimi, determinasiya əmsalı $R^2 = 0.81277$ -dir. Deməli, alınmış (2.1.1) reqressiya tənliyi adekvatdır.

(2.1.1) reqressiya tənliyi Azərbaycan üçün göstərilən nəticələri çıxarmağa imkan verir: Bütün digər amillər dəyişmədikdə, əhalinin gəlirləri 1% artdıqda, aqrar-ərzaq məhsullarının istehsalının həcmi 0,757% artar.

Şəkil 2.1.2-də isə Azərbaycanda 2010-2021-ci illər üçün aqrar-ərzaq məhsullarının istehsalının həcminin statistik qiymətləri ilə model qiymətləri müqayisəli şəkildə əhalinin gəlirlərindən asılılıq qrafiki verilmişdir.




**Şəkil 2.1.2. Azərbaycanda 2010-2021-ci illər üçün aqrar-ərzaq məhsullarının istehsalının həcminin statistik qiymətləri (göy nöqtə) ilə model qiymətləri (qırmızı nöqtə) müqayisəli şəkildə əhalinin gəlirlərindən asılılıq qrafiki**

2021-ci ildə müxtəlif tədbirlərin həyata keçirilməsi ilə əlaqədar bütün kateqoriyalar üzrə təsərrüfat subyektlərində müqayisəli qiymətlərlə aqrar istehsalın artım surəti 2020-ci ilə nisbətən 3,4%, o cümlədən bitki istehsalında 4,0%, heyvandarlıqda 2,8% olmuşdur. Onu da qeyd edək ki, 2021-ci ildə kənd təsərrüfatı məhsullarının istehsal indeksi 106,5%, həmçinin bitki istehsalında 105,5%, heyvandarlıqda 107,4% təşkil etmişdir [11, s. 217].

Aqrar sahənin inkişafı ilə bağlı görülən tədbirlər, Dövlət Proqramları tətbiq edilən müvafiq tənzimlənmə və dəstək mexanizmləri həmçinin bir çox layihələr, qabaqcıl texnologiyaların mərhələ-

mərhələ tətbiqi sahənin inkişafın geniş imkanlar yaradıb. Görülən ardıcıl tədbirlər nəticəsində son illərdə respubilkamızda bütün kənd təsərrüfatı məhsullarının istehsal həcmi artmışdır.

Statistik məlumatların təhlilindən görsənir ki, 2021-ci il ərzində dənlilər və dənli paxlalı bitkilər (qarğıdalısız) üzrə 955,4 min ha əkin sahəsindən 2935,2 min t. məhsul yığılıb ki, bu da 2019-cu ilə nisbətən 9,8% azdır. Ortalama hər ha-dan 30,7 s. məhsul yığımı təmin olunub [22; 221].

2020-ci ildə taxıl istehsalının azalmasının əsas səbəblərindən biri ölkədə quraqlığın olması idi. Quraqlıq və su qıtlığından bitkiçilik sektoru ciddi şəkildə zərər çəkməyə başlamışdır. Xüsusən də son 10 ildə bu problem özünü daha qabarıq göstərir.

2021-ci il ərzində 33,7 min ha dən üçün qarğıdalı sahəsi üzrə 321,9 min t. məhsul toplanıb ki, bu da 2019-cu illə müqayisədə 13,5% çoxdur. Qarğıdalı daxil olmaqla ölkədə taxılın istehsalı 3363,0 min tona çatıb (cədvəl 2.1.5.). Dənlilər və dənli paxlalı bitkilər üzrə payızlıq və yazlıq buğdanın payı əsas yerə malikdir. İstehsal edilmiş taxıl məhsulu üzrə 57,3%-ni (1867,3 min t.) buğda, 31,3%ni (1020,1 min t.) arpa, 9,9%-ni (321,9 min t.) qarğıdalı, 0,3%-ni (9,9 min t.) çəltikdir. 2021-ci ildə sahələrdən 1815,5 min ton tərəvəz (əvvəlki ilə nisbətən 4,4 faiz çox), 1062,0 min ton (2,4 faiz çox) kartof, 459,9 min ton (2,6 faiz çox) bostan məhsulları yığılmışdır.

Cədvəl 2.1.5-də olan məlumatlardan görsənir ki, 2021-ci ildə əkin sahələrindən 1815,5 min t. və yaxud əvvəlki ilə nisbətən 4,4% çox tərəvəz, 1062 min t. (1,9% az) kartof, 459,9 min t. (2,6% çox) bostan məhsulları, 1204,9 min t. (6,3% çox) meyvə və giləmeyvə, 209,8 min t. (0,9% çox) üzüm, 1180 t. (26,6% çox) yaşıl çay yarpağı, 25,2 min t. (1,6% çox) dən üçün günəbaxan, 177,3 min t. (30% az) şəkər çuğunduru, 287 min t. (14,7% az) pambıq və 6,4 min t. (7,2% az) tütün yığılıb [22; 221].

**Cədvəl 2.1.5.**
**Azərbaycanda 2000-2021-ci illərdə bitkiçilik məhsullarının istehsalı (min ton)**

| İllər | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2021 | 2021/2005 |
|---|---|---|---|---|---|---|---|
| Dənli bitkilər cəmi | 1540,2 | 2126,7 | 2000,5 | 2999,4 | 3257,1 | 3 363,0 | 158,1 |
| Kartof | 469,0 | 1083,1 | 953,7 | 839,8 | 1037,6 | 1 062,0 | 98,1 |
| Bostan məhsulları | 261,0 | 363,8 | 433,6 | 484,5 | 448,1 | 459,9 | 126,4 |
| Tərəvəz | 780,8 | 1127,3 | 1 189.5 | 1275,3 | 1738,9 | 1 815,5 | 161,0 |
| Meyvə | 477,0 | 625,7 | 729,5 | 888,4 | 1133,1 | 1204,9 | 192,6 |
| Üzüm | 76,9 | 79,7 | 129,5 | 157,1 | 208 | 209,8 | 263,2 |
| Şəkər çuğunduru | 46,7 | 36,6 | 251,9 | 184,3 | 253,3 | 177,3 | 4,8 d. |
| Dən üçün günəbaxan | 3,7 | 16,1 | 15,5 | 18,4 | 24,8 | 25,2 | 156,5 |
| Çay yarpağı | 1,08 | 0,73 | 0,54 | 0,58 | 0,93 | 1,18 | 161,6 |
| Pambıq | 91,5 | 196,6 | 38,2 | 35,2 | 336,5 | 287,0 | 146,6 |
| Tütün | 17,3 | 7,1 | 3,2 | 3,5 | 6,9 | 6,4 | 90,1 |

*Mənbə: Cədvəl DSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanıb [22; 221].*

Statistik rəqəmlər onu göstərir ki, bu dövrlərdə məhsuldarlıq göstəriciləri də davamlı olaraq yaxşılaşmışdır. Belə ki, cədvəl 2.1.6 -dan da göründüyü kimi, arpa üzrə məhsuldarlıq 2021-ci ildə 2015-ci illə müqayisədə 3,7%, bostan bitkiləri üzrə 31,0%, buğda üzrə 4,8% və s. olmaqla artmışdır [22].

Həmçinin, hektarın orta məhsuldarlığı 2015-2021-ci illərdə tərəvəz üzrə 32 sentner, kartof üzrə 48 sentner, bostan məhsulları üzrə 54 sentner artmış və həmin məhsullar üzrə 2021-ci ildə məhsuldarlıq uyğun olaraq 190, 184 və 228 sentner təşkil etmişdir (Cədvəl 2.1.6).

Cədvəl 2.1.6

**Azərbaycanda 2015-2021- ci illər bitkiçilikdə məhsuldarlıq göstəriciləri (hek., sen.)**

| Məhsulla-rın adı | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | Məhsuldar-lığın dəyiş-məsi-2021-ci ildə 2015-ci illə müqayi-sədə %, |
|---|---|---|---|---|---|---|---|---|
| Buğda | 31,3 | 31,4 | 30,5 | 30,2 | 32,5 | 31,7 | 32,8 | 104,8 |
| Arpa | 29,6 | 26,9 | 25,6 | 28 | 29,7 | 29,6 | 30,7 | 103,7 |
| Dən üçün qarğıdalı | 59,2 | 60,1 | 60,9 | 57,7 | 59,5 | 63,6 | 61,6 | 104,1 |
| Bostan bitkiləri | 174 | 176 | 187 | 191 | 209 | 223,6 | 228 | 131,0 |
| Kartof | 136 | 140 | 150 | 149 | 169 | 174,3 | 184 | 128,2 |
| Meyvə və gi-ləmeyvəlilər | 71,4 | 65,7 | 68,4 | 68 | 71 | 70,3 | 71,5 | 100,1 |
| Tərəvəz | 158 | 159 | 155 | 162 | 176 | 188,2 | 190 | 120,3 |
| Vələmir (yulaf) | 24 | 25,7 | 22,2 | 23,2 | 24,7 | 19,2 | 18,3 | 76,3 |
| Çay | 12,4 | 14,1 | 11,1 | 11,1 | 14,7 | 15 | 16,9 | 136,3 |
| Çəltik | 24,5 | 22,5 | 31,7 | 30 | 29,9 | 31 | 32,8 | 133,9 |
| Üzüm | 86,6 | 74,4 | 84,1 | 92,8 | 104,8 | 99,4 | 98,2 | 113,4 |
| Pambıq | 18,8 | 17,3 | 15,3 | 17,6 | 29,5 | 33,6 | 28,5 | 151,6 |
| Tütün | 25,4 | 15,2 | 16,6 | 19 | 19,3 | 22,1 | 21,3 | 83,9 |

*Mənbə: Cədvəl Dövlət Statistika Komitəsi məlumatları müəllif tərəfindən hazırlanmışdır [22; 221].*

Lakin onu da qeyd etməliyik ki, bitkiçilik məhsullarının ixrac potensialının artırılmasına nail olmaq məqsədi ilə, intensiv təsərrüfatçılığın inkişaf etdirilməsi və məhsuldarlıq göstəricilərinin artırılması zəruridir. Bu baxımdan, kənd təsərrüfatının bitkiçilik sektorunda qabaqcıl texnologiyalar tətbiq edən Çin, Almaniya, Hollandiya, Bolqarıstan, İsrail və Qətər kimi ölkələrin təcrübələrinin öyrə-

nilməsi faydalı olardı.

Ölkə iqtisadiyyatının inkişaf etdirilməsi və ixrac potensialının artırılması baxımından heyvandarlıq məhsulları da müəyyən əhəmiyyətə malikdir. Xüsusi ilə də, son illərdə bu sahədə istehsalın artması ixrac potensialının da artırılması üçün əlavə imkanlar formalaşdırır. Aşağıdakı cədvəl 2.1.7-dən də göründüyü kimi, ölkədə heyvandarlıq məhsullarının istehsalı bir neçə dəfə artmışdır. Belə ki, 2010-cu illə müqayisədə 2021-ci ildə ölkədə ət (kəsilmiş çəkidə) istehsalı 1,46 dəfə, süd 1,45 dəfə, yumurta 19,7%, yun (fiziki çəkidə) 3,2%, barama 72,9 dəfə və bal istehsalı isə 3,7 dəfə artmışdır. Qeyd edək ki, 2022-ci ildə də artım meyli davam etmişdir.

**Cədvəl 2.1.7.**

**Azərbaycanda 2010-2021-ci illər əsas heyvandarlıq məhsullarının istehsalı (bütün təsərrüfat kateqoriyaları üzrə)**

| İllər | Ət (kəsilmiş çəkidə), min ton | Süd, min ton | Yumurta milyon ədəd | Yun (fiziki çəkidə), min ton | Barama ton | Bal, min ton |
|---|---|---|---|---|---|---|
| **2010** | 244,9 | 1535,8 | 1178,6 | 15,6 | 6 | 1,9 |
| **2015** | 298,6 | 1924,5 | 1552,9 | 17,0 | 23,6 | 2,6 |
| **2016** | 302,2 | 2009,9 | 1609,8 | 16,7 | 70,8 | 2,7 |
| **2017** | 316,8 | 2024,1 | 1714,0 | 16,0 | 245,2 | 3,0 |
| **2018** | 326,0 | 2080,4 | 1676,2 | 15,8 | 513,9 | 5,0 |
| **2019** | 335,7 | 2150,8 | 1827,1 | 16,1 | 643,7 | 5,8 |
| **2020** | 346,0 | 2192,5 | 1906,2 | 16,1 | 446,6 | 6,6 |
| **2021** | 357,6 | 2223,4 | 1838,8 | 16,1 | 497,4 | 7,1 |
| 2021-ci il 2010-cu illə müqayisədə, % | 146,0 | 144,8 | 119,7 | 103,2 | 72,9 d. | 3,7 d. |

*Mənbə: Cədvəl Dövlət Statistika Komitəsi məlumatları müəllif tərəfindən hazırlanmışdır [22; 221].*

2021-ci ildə 357,6 min t., yaxud əvvəlki ilə nisbətən 3,4% çox diri çəkidə ət, 2223,4 min t. (1,4% çox) süd, 1838,8 mln. ədəd (3,5% az) yumurta, 16,1 min t. (artım yox) yun, 497,4 t. (11,5% çox) barama istehsal olunub [22; 221]. Lakin qeyd edək ki, ölkənin qeyri-neft məhsulu ixracının artmasına və ölkənin inkişafına mühüm töhfə verə bilən məhsullardan olan barama və balın istehsalında son illərdə sabit artım müşahidə edilməkdədir.

Araşdırmalar göstərir ki, son illərdə aqroemal sahəsində də yeni təsərrüfat formaları yaradılmış, məhsul emal edən zavodların, sexlərin sayı çoxalmış, xammal emalının səviyyəsi artmış, yeni tenologiyaların tətbiqi ilə əlaqədar olaraq istehsal olunan emal məhsullarının ceşidi, keyfiyyəti yüksəlmiş və xarici bazarlarda rəqabət aparma qabiliyyətli məhsullar istehsalına və icrasına başlanmışdır.

Son dövrlərdə ASK məhsullarının emalı sənayesində, xüsusən də qida məhsulları və içkilərin emalı sahələrində əsaslı artımlar baş verib. 2021-ci ildə 2020-ci ilə nisbətən məhsul istehsalı təkcə aqroemal sənayesi üzrə bəzi sahələrdə deyil, digər qeyri-neft emalına aid sahələrdə də artım qeydə alınıb (cədvəl 2.1.8.).

**Cədvəl 2.1.8.**

**Azərbaycanda 2005-2021-ci illər emal sənayesi məhsullarının istehsal həcmi, mil. manat**

| Məhsulların adı | 2005 | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|
| Qida məhsullarının istehsalı | 1094,5 | 1924,6 | 2307,6 | 2999,8 | 3050,8 | 3584,8 | 3884,3 | 4495,6 |
| İçki istehsalı | 72,5 | 170,2 | 197,7 | 263,4 | 295,0 | 433,1 | 427,6 | 490,9 |
| Tütün məmulatlarının istehsalı | 30,5 | 22,3 | 27,2 | 39,2 | 56,1 | 248,9 | 436,0 | 677,9 |

*Mənbə: Cədvəl DSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır [22; 221].*

Cədvəl məlumatları göstərir ki, 2021-ci ildə qida, tütün məhsullarının və içkinin istehsalı 5,7 mlrd. manata çatıb. 2021-ci il ərzində 2020-ci ilə nisbətən tütün məmulatlarının istehsalında 55,5%, içki istehsalında 14,8%, qida məhsullarının istehsalında isə 15,7% azalma müşahidə olunub. Bu sahələrin əsas məhsullarından kolbasa məmulatları 3,2%, marqarin istehsalı 5,6%, kərə yağı istehsalı 1,2%, duru bitki yağları 0,5% artıb, cem və marmelad istehsalı 13,6%, qənd və şəkər tozunun istehsalı isə 9,0% azalıb [221].

Beləliklə aparılan təhlillər onu deməyə əsas verir ki, aqrar sahədə istehlak bazarının inkişafı və əhalinin ərzaq məhsulları ilə təminatı sahəsində aqrar-ərzaq məhsullarının keyfiyyəti onun istehlak xüsusiyyətlərinin toplusu kimi, istər cəmiyyət, istərsə də kollektiv tərəfindən konkret şəraitə uyğun olaraq irəli ön plana çıxan bu və ya digər şərtlərin ödəniş səviyyəsi göstəricisinə pozitiv təsr edən amillərdəndir. Ona görə ki, aqrar sahənin məhsulları üzrə keyfiyyət yüksəldikcə onların istehsalının iqtisadi effektivliyi artır, əlavə xərclərə qənaət edilir, məhsul itgisinə yol verilmir, istehsalçı və istehlakçı maraqları təmin edilir və cəmiyyətin tələbatının ödənilməsi sayəsində idxaldan asılılıq olmur, ölkədən valyuta çıxımının qarşısı alınır [59, s. 525-529].

Aqrar sahə inkişaf etmiş ölkələrin təcrübəsindən də bunu görmək olar. Belə ölkələrdə, xüsusən də aqrar-ərzaq mallarının qiymətlərini dəstəkləmək, daxili tələbatdan artıq istehsaldan çıxmış malları dempinq qiymətlərindən istifadə etməklə dünya bazarında tanıtmaq və ixracı müdafiə siyasətini tanıtmaq kimi stimullaşdırıcı addımlar üstünlük təşkil edir.

Dövlət tərəfindən qəbul edilən bu tədbirlər aqrar istehlak bazarının inkişafına, əhalinin ərzaq məhsulları ilə təminatına, həyat səviyyəsinin yüksəlməsinə və istehsalçı – istehlakçı maraqlarının təmin olunmasına əhəmiyyətli dərəcədə təsir göstərəcəkdir.

Bütün bu qeyd edilənlər aqrar sahənin inkişafı, istehlak mallarının artırılması və əhalinin ərzaq məhsulları ilə təminatının əsas

mənbəyi kimi çıxış edir. Bu baxımdan ərzaq məhsulları istehsalçılarının dövlət dəstəklənməsi və iqtisadi tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi əsas vəzifə olmalıdır ki, əhalinin aqrar-ərzaq məhsulları ilə təminatı yüksək səviyyədə olsun.

## 2.2. Aqrar-ərzaq məhsullarının idxalı və ixracının mövcud durumu və dövlət dəstəklənməsi

Azərbaycanın kənd təsərrüfatı məhsullarının ixracı son illərdə bir neçə dəfə artmasına baxmayaraq bu sahənin potensialı hələ tam reallaşdırılmamışdır. Aqrar sahə məhsullarının ixracında Azərbaycanın ən zəif daxili amillərindən biri logistika xərclərinin yüksək olması və inkişaf etmiş Qərb ölkələrinə birbaşa dəniz nəqliyyatı çıxışının olmamasıdır. Dünya Bankının apardığı qiymətləndirmələr də Azərbaycanın bu istiqamətdə nisbətən zəif göstəricilərə malik olduğunu göstərir. Qurumun nəqliyyatlogistika imkanları üzrə 2018-ci ildə açıqladığı ən son “Logistika Performans İndeksi” hesabatına əsasən Azərbaycan nəqliyyat-logistika imkanlarına görə 167 ölkə arasında 123-cü yerdə qərarlaşmışdır [239].

Azərbaycan Respublikasında aqrar sahənin inkişafına yönəlmiş tədbirlərin uğurla icrası nəticəsində qarşıdakı illərdə də kənd təsərrüfatı məhsullarının ixracının artacağı gözlənilir. Statistik rəqəmlərə əsaslanaraq hazırladığımız proqnozlar göstərir ki, qeyri-neft ixracında mühüm paya malik olan aqrar sahə məhsullarının ixracı, xüsusən meyvə-tərəvəz məhsullarının ixracının 2020-ci illə müqayisədə 2025-ci ilə kimi 40-50 faiz artacaqdır. Bu isə öz növbəsində qarşıdakı 5 ildə ixrac məhsullarının bazarlara çatdırılması üçün prosedurların asanlaşdırılmasını, nəqliyyat-logistika sisteminin inkişafını şərtləndirir.

Dünyada Azərbaycanın aztorpaqlı ölkələr siyahısında olması respubilkada kənd təsərrüfatı məhsullarının istehsal həcmində müəyyən həddlərin mövcudluğundan xəbər verir. Bundan əlavə,

respublika ərazisinin 20 faizə qədərinin 30 ilə yaxın müddətdə işğala məruz qalması əkin və otlaq sahələrini xeyli azaltmış, bu da nəticədə aqrar ərzaq malları istehsalının həcminə təsirsiz ötüşməmişdir. Eyni zamanda aqrar sahədə innovasiyalı texnologiyalardan yetərincə istifadə etmək mümkün olmadığından hələ də qida məhsullarının bir qisminin idxal edilməsini qaçılmaz etmişdir.

Dövlət Gömrük Komitəsinin məlumatlarına görə, aqrar ərzaq malları (içki və tütün istehsalı da daxil olmaqla) ixracı 2015-ci ildə 0,77 mlrd. dollar, 2016-cı ildə 0,53 mlrd. dollar, 2017-ci ildə 0,59 mlrd. dollar, 2018-ci ildə 0,63 mlrd. dollar, 2019-cu ildə 0,68 mlrd. dollar, 2020-ci ildə 0,71 mlrd. dollar, 2021-ci ildə 1,25 mlrd. dollar olmuşdursa, aqrar ərzaq malları idxalı 2015-ci ildə 1,3 mlrd. dollar, 2016-cı ildə 1,34 mlrd. dollar, 2017-ci ildə 1,57 milyard dollar, 2018-ci ildə 1,54 milyard dollar, 2019-cu ildə 1,76 milyard dollar, 2020-ci ildə 1,73 milyard dollar, 2021-ci ildə 1,93 milyard dollar təşkil etmişdir. Statistik məlumatlardan göründüyü kimi, 2015-2021-ci illər ərzində aqrar ərzaq malları idxalı 48,5 faiz artdığı halda, ixrac 62,3 faiz artmışdır [224].

Aparılan sosial-iqtisadi tədbirlər nəticəsində kənd təsərrüfatının inkişafında və aqrar ərzaq məhsullarının istehsalında uğurlar əldə edilərək idxaldan asılılıq azalmış, bəzi məhsulların ixracı artmışdır. Belə ki, 2018-ci illə müqayisədə 2019-cu ildə kənd təsərrüfatı məhsulları istehsalının 7,2 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalının 3,5 faiz, bitkiçilik məhsulları istehsalının 11,7 faiz artması fonunda kənd təsərrüfatı məhsullarının ixracı 12,2 faiz artaraq 760,3 mln. ABŞ dollara çatmışdır.

2018-ci ilin dekabrında qeyri-neft sektoru üzrə ixracın həcmində xurma (254 mln. ABŞ dolları) birinci pillədə, pomidor (15,2 mln. ABŞ dolları) ikinci, qabığı təmizlənmiş meşə fındığı isə (134 mln. ABŞ dolları) üçüncü yerdə qərarlaşmışsa, 2020-ci ilin müvafiq dövründə birinci pillədə pomidor (201,4 mln. ABŞ dolları), ikinci yerdə meşə fındığı (116,3 mln. ABŞ dolları), üçüncü yerdə xurma

(91,6 mln. ABŞ dolları) dayanır [224].

2017-ci il ərzində Azərbaycana 84,6 mln. dollar məbləğində bərk buğda, 121,0 mln. dollar məbləğində yumşaq buğda və meslin, 21,6 mln. dollar məbləğində qarğıdalı idxal edilmişdir [224].

Bu məhsulların istehsalına görə Azərbaycanın mövcud rəqabət qabiliyyəti aşağıdır. Bunun əsas səbəbi ölkədə yetişdirilən həmin məhsullar üzrə təsərrüfat sahələrinin nisbətən kiçik olması və başlıcası isə təsərrüfatlarda aqrotexniki normaların tətbiqinin zəruri səviyyədə olmamasıdır.

2019-cu ildə ixrac olunan ərzaq malları siyahısında pomidor, xurma və fındıq ön sıralarda olmuşdur ki, bu da ixrac olunan meyvə-tərəvəzin təqribən üçdə biri deməkdir [11, s. 217].

Ümumiyyətlə, 2020-ci il ərzində meyvə-tərəvəz ixracı 607,5 milyon ABŞ dolları təşkil etmişdir ki, bu da 2015-ci illə müqyisədə 1,95 dəfə çoxdur [222].

2021-ci ildə isə Azərbaycan meyvə-tərəvəz ixracını - 6% artırıb. Belə ki, 2021-ci ildə Azərbaycan 630 milyon 367,81 min ABŞ dolları məbləğində 641 min 603,91 ton meyvə-tərəvəz ixrac edib. 2020-ci illə müqayisədə meyvə-tərəvəz ixracı miqdar ifadəsində 5,8%, dəyər ifadəsində 3,8% artıb. 2021-ci ildə ixracın ümumi həcmində meyvə-tərəvəz məhsullarının payı 2,84%, qeyri-neft ixracının strukturunda 23,23% təşkil edib. 2021-ci ildə 160 milyon 228,84 min ABŞ dolları məbləğində (azalma 20,4%) 145,216 min ton pomidor (azalma 22,6%) ixrac edilib. Hesabat dövründə 111 milyon 787,57 min ABŞ dolları dəyərində (azalma 3,9%) 19 min 459 ton meşə fındığı (artım 3%), 125 milyon 895,03 min ABŞ dolları dəyərində (artım 37,5%) 174 min 158,19 ton xurma (artım 38,5%) ixrac edilib. İxracın qalan həcmi digər meyvə və tərəvəz məhsullarının payına düşüb [224; 244].

Respublikada illər üzrə ərzaq balanslarını nəzərdən keçirsək aydın olar ki, strateji məhsul olan buğda cəmi idxalda 2005-cü ildə 1006,1 min ton olmuşdursa da, 2016-cı ildə isə bu göstərici 593,5

min ton artaraq, 1599,6 min tona çatmışdır. 2017-ci ildə isə əvvəlki illə müqayisədə azalaraq, 1274,4 min ton olmuşdur ki, bu da cəmi idxalın 2,6 faizi deməkdir. 2018-ci ildə buğda idxalında azalma baş versə də, 2019-cu ildə 2018-ci illə müqayisədə 46,6 faiz artım, 2020-ci ildə 2019-cu ilə nisbətən isə yenidən 14 faizə yaxın, 2021-ci ildə isə 15,9 faiz azalma olmuşdur (Cədvəl 2.2.1).

**Cədvəl 2.2.1**

**2005-2021 ci illər üzrə buğda ehtiyatları və istifadələri (min ton)**

| | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | **1004,8** | **901,7** | **856,8** | **829,8** | **706,9** | **864,0** | **567,4** |
| İstehsal | 2077,3 | 1272,3 | 1639,8 | 1991,7 | 2114,1 | 1818,7 | 1837,2 |
| İdxal | 1006,1 | 1330,0 | 1353,1 | 1080,9 | 1585,0 | 1365,1 | 1148,1 |
| Ehtiyatların cəmi | **4088,2** | **3504,1** | **3849,7** | **3902,4** | **4406,1** | **4047,8** | **3552,7** |
| Toxuma | 202,6 | 144,7 | 128,3 | 148,0 | 142,2 | 134,0 | 132,7 |
| Mal-qara və quş yeminə | 1333,1 | 422,4 | 467,8 | 483,3 | 545,7 | 501,3 | 762,6 |
| Sənaye ehtiyaclarına | 1505,2 | 1848,3 | 2076,0 | 2211,4 | 2459,4 | 2533,9 | 2062,3 |
| Ərzaq üçün birbaşa istehlaka | 59,2 | 81,8 | 75,2 | 82,0 | 87,5 | 87,2 | 67,4 |
| Qeyr-ərzaq məhsulları istehsalına | - | 48,1 | 37,8 | 38,3 | 43,3 | 39,7 | 143,7 |
| İxrac | 8,5 | - | - | - | 1,5 | - | - |
| İtkilər | | 209,3 | 189,4 | 232,6 | 262,6 | 184,2 | 58,6 |
| İlin sonuna qalıq | 979,6 | 749,6 | 875,3 | 706,9 | 864,0 | 567,4 | 325,7 |
| **Cəmi istifadə** | **4088,2** | **3504,1** | **3849,7** | **3902,4** | **4406,1** | **4047,8** | **3552,7** |

*Mənbə:* [221]. www.azstat.org *– Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.*

Buğda balansında 2015-ci il ərzində ilin əvvəli üçün qalıq 856,8 min t. və ilin sonuna qalıq 875,3 min t. olmaqla 18,5 min t., 2020-ci ildə ilin əvvəlinə qalıq 864,0 min t., ilin sonuna qalıq isə 567,4 min t., 2021-ci ildə ilin əvvəlinə qalıq 567,4 min t., ilin sonuna qalıq isə 325,7 min t. olub.

Buğda bitkisi üzrə istehsalın həcmi 2005-ci ildə 2077,3 min t., 2010-cu ildə 1272,3 min t., 2020-ci ildə 1818.7 min t., 2021-ci ildə isə 1837,2 min t. olub. Dinamikadan görsənir ki, keçən dövrdə buğda istehsalı sahəsində 2010-cu ildə 2005-ci ilə nisbətən 38,8% və ya 805 min t. azalma baş versə də, 2017-ci ildə 2010-cu illə müqayisədə 39,1% və ya 497,3 min t. artım müşahidə olunub. 2020-ci idə isə 2017-ci ilə nisbətən 2,8 faiz və ya 49,1 min ton artım olsa da, 2018 və 2019-cu illərlə müqayisədə 8,7 faiz və ya 18,1 min ton və 14,0 faiz və ya 295,4 min ton azalma müşahidə edilmişdir. 2021-ci ildə 2020-ci illə müqayisədə buğda istehsalında artım cəmi 1 faiz olmuşdur.

Buğdanın sənaye ehtiyacları üçün sərf olunan hissəsinin də artımı özünü göstərməkdədir. Belə ki, təhli edilən dövrdə bu göstərici 2 dəfəyə yaxın artmış, nəticədə bütövlükdə buğda ehtiyatlarında xüsusi çəkisi 2005-ci ildəki 36,8 faizdən 2017-ci ildə 54,7 faizə, 2020-ci ildə 62,6 faizə yüksəlmiş, 2021-ci ildə isə 58,1 faizə enmişdir.

Lakin bununla belə, göründüyü kimi, ölkə əhalisinin tələbatı tam ödənilmir. Təhlil edilən dövrdə əkin sahəsi 29,3 faiz artsa da, istehsal 12,4 faiz azalsa da, 2020-2021-ci illərdə idxalın 14-16 faiz azalması baş vermişdir (Cədvəl 2.2.2).

Ona görə də hesab edirik ki, istehsalın artırılması təmin etmək məqsədilə bu sahədə əkin sahələrini artırmaqla yanaşı, məhsuldarlığın da artırılması vacibdir.

Bu gün ölkəmizin ərzaq təhlükəsizliyi və əhalinin ərzaq təminatı ilə bağlı əsas hədəfləri strateji ərzaq məhsullarının istehsalının genişləndirilməsi, taxıl-buğda istehsalında məhsuldarlığın artırılması,

**Cədvəl 2.2.2**

**2005-2021 ci illər üzrə buğdanın əkin sahəsi, istehsalı və idxalı**

| | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| Əkin sahəsi (mln.ha) | 454,8 | 573,1 | 539,7 | 679,1 | 670,0 | 588,4 | 572,3 |
| İstehsal (mln. ton) | 2077,3 | 1272,3 | 1639,8 | 1991,7 | 2114,1 | 1818,7 | 1837,2 |
| İdxal (mln. ton) | 1006,1 | 1330,0 | 1353,1 | 1080,9 | 1585,0 | 1365,1 | 1148,1 |

*Mənbə:* [221]. www.azstat.org *– Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.*

onun tədarükündə daxili tələbata yönələn hissənin keyfiyyətinin yüksəldilməsidir. Bu hədəf, əhalinin həyat səviyyəsinin və ərzaqla etibarlı təminatının bazarların səmərəli fəaliyyətindən bilavasitə asılı olduğu nəzərə alınaraq, ərzaq bazarının səmərəli təşkili və tənzimlənməsi daim diqqət mərkəzində olmalıdır.

Belə ki, işğal altında olunmuş ərazilərdə kənd təsərrüfatına yararlı torpaqların 207,0 min hektarı (30,4%) əkinçilikdə, 54,7 min hektarı (8,0%) çoxillik əkmələr altında, 380 min hektardan çoxu (55,9%) heyvandarlığın inkişafında xüsusi əhəmiyyətə malik örüş-otlaq sahələri kimi istifadə oluna bilər [101, s.39].

Müəyyən olunmuşdur ki, işğal altında olmuş kənd təsərrüfatına yararlı torpaqlar məhsuldarlıq qabiliyyəti, həmçinin, keyfiyyət xüsusiyyətlərinə görə respublikanın digər regionları ilə müqayisədə daha yüksək xüsusi çəkiyə sahibdir. Ərazinin torpaq-iqlim xüsusiyyətləri burada kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq sahələrinin yüksək və səmərəli inkişafına imkan verir [101, s. 43].

Eyni təhlili 2005-2021-ci illər üzrə kartof ehtiyatları və istifadələri üzrə aparsaq aydın olar ki, ölkə üzrə kartofun istehsalı 2005-ci ildə 1083.1 min ton olmuşdursa 2021-ci ildə 2% azalaraq 1062.0 min ton olmuşdur. Bu illər ərzində kartof idxalı 2021-cı ilə qədər

artan sürətlə davam etmiş, 2005-ci illə müqayisədə 5,4 dəfədən çox artaraq 2021-cı ildə 226,9 min ton, təşkil etmişdir (cədvəl 2.2.3).

**Cədvəl 2.2.3**

**2005-2021-ci illər üzrə kartof ehtiyatları və istifadələri (min ton)**

| | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | **681,4** | **590,6** | **541,7** | **609,4** | **572,9** | **613,6** | **636,2** |
| İstehsal | 1083,1 | 953,7 | 839,8 | 898,9 | 1004,2 | 1037,6 | 1062,0 |
| İdxal | 41,9 | 65,0 | 139,2 | 158,3 | 201,3 | 189,4 | 226,9 |
| **Ehtiyatların cəmi** | **1806,4** | **1609,3** | **1520,7** | **1666,6** | **1778,4** | **1840,6** | **1925,1** |
| Toxuma | 208,8 | 197,4 | 182,9 | 198,0 | 170,8 | 171,0 | 168,3 |
| Mal-qara və quş yeminə | - | 47,6 | 28,8 | 39,0 | 42,2 | 44,0 | 55,5 |
| Ərzaq üçün birbaşa istehlaka | 755,3 | 648,7 | 682,1 | 721,4 | 814,6 | 830,7 | 843,7 |
| İxrac | 39,1 | 69,9 | 36,7 | 66,7 | 61,8 | 81,4 | 92,4 |
| İtkilər | 10,0 | 93,6 | 55,9 | 61,9 | 67,7 | 70,9 | 57,8 |
| İlin sonuna qalıq | 793,2 | 552,2 | 534,3 | 572,9 | 613,6 | 636,2 | 700,4 |
| **Cəmi istifadə** | **1806,4** | **1609,3** | **1520,7** | **1666,6** | **1778,4** | **1840,6** | **1925,1** |

*Mənbə:* [221]. www.azstat.org – *Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.*

Kartofun ixracında da 2018-ci illərdə xeyli irəliləyiş baş vermişdir. Belə ki, kartof ixracı 2005- ci ildə 39,1 min ton olmuşsa, 2010-cu ildə iki dəfəyə yaxın artaraq 69,9 min ton təşkil etmiş, 2015 ci ildə azalaraq 36.7 min ton olmuş, 2018-ci illərdə yenidən

artaraq müvafiq surətdə 66,7 , 61.8, 81.4 və 2021 ci ildə 92,4 min tona çatmışdır. 2020-ci və 2021-ci illərdə ölkədən kartof ixracı müvafiq olaraq 31,7% və 13,5% artmış və 81,4 min ton və 92,4 min ton təşkil etmişdir.

Onu da qeyd edək ki, kartofun əkin sahəsində son illər bir qədər azalma baş versə də, 2016-cı ildən başlayaraq məhsul istehsalında nisbətən artım müşahidə edilir (cədvəl 2.2.4).

**Cədvəl 2.2.4**

**2005-2021 ci illər üzrə kartofun əkin sahəsi, istehsalı və idxalı**

| | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| Əkin sahəsi (min.ha) | 70,7 | 65 | 61 | 59,3 | 56,9 | 57,0 | 56,1 |
| İstehsal (mln. ton) | 1083,1 | 953,7 | 839,8 | 898,9 | 1004,2 | 1037,6 | 1062,0 |
| İdxal (mln. ton) | 41,9 | 65,0 | 139,2 | 158,3 | 201,3 | 189,3 | 226,9 |

*Mənbə:* [221]. www.azstat.org *– Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.*

Bu əsasən məhsuldarlığın artması hesabına baş vermişdir. Belə ki, 2017-ci ildən etibarən kartof üzrə məhsuldarlıq hər hektardan 150 sentner civarında olmuşdur ki, bu da 2014-cü ilə nisbətən 10-15 faiz artıqdır. Kartofun bir sentnerinin satış qiyməti 2015-2016-cı illərdə 64-65 manat təşkil etmişdirsə, 2018-2019-cu illərdə bu rəqəm əvvəlki illərlə müqayisədə təxminən 1,3 dəfə azalaraq 49-50 manata, 2020-ci ildə isə daha 35-36 faiz azalaraq 31.5 manata bərabər olmuşdur.

Bütün növ tərəvəz məhsullarının idxalı 2005-ci ildə 24,3 min ton, 2010-cu ildə 84,9 min ton, 2015-cü ildə 42,0 min ton, 2016-cı ildə isə 61,2 min ton, 2017-ci ildə isə 45,9 min ton olmuşdur (cədvəl 2.2.5).

**Cədvəl 2.2.5**

**2005-2021 ci illər üzrə bütün növ tərəvəzin ehtiyatları və istifadələri** (min ton)

| | **2005** | **2010** | **2015** | **2018** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | **155,0** | **201,8** | **179,5** | **205,2** | **219,8** | **263,9** | **275,2** |
| İstehsal | 1491,1 | 1189,5 | 1275,3 | 1521,9 | 1714,7 | 1738,9 | 1815,5 |
| İdxal | 24,3 | 84,9 | 42,0 | 36,8 | 39,8 | 56,0 | 64,0 |
| **Ehtiyatların cəmi** | **1670,4** | **1476,2** | **1496,7** | **1764,0** | **1974,3** | **2058,8** | **2154.7** |
| Toxuma | | 1,4 | 1,3 | 1,2 | 1,2 | 1,1 | 1,2 |
| Mal-qara və quş yeminə | - | 33,4 | 32,4 | 38,1 | 42,7 | 44,5 | 112,6 |
| Sənaye ehtiyaclarına | 10,3 | 45,8 | 58,4 | 59,9 | 66,6 | 62,7 | 39,8 |
| Ərzaq üçün birbaşa istehlaka | 1447,2 | 1054,1 | 1052,4 | 1109,0 | 1264,3 | 1337,7 | 1385,5 |
| İxrac | 45,3 | 56,0 | 84,1 | 235,3 | 223,0 | 220,2 | 175,6 |
| İtkilər | 6,1 | 86,1 | 78,9 | 100,6 | 112,6 | 117,4 | 127,9 |
| İlin sonuna qalıq | 161,5 | 199,4 | 189,3 | 219,8 | 263,9 | 275,2 | 313,0 |
| **Cəmi istifadə** | **1670,4** | **1476,2** | **1496,7** | **1764,0** | **1974,3** | **2058,8** | **2154.7** |

*Mənbə:* [221]. *www.azstat.org – Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.*

2018-2019-cu illərdə bu rəqəm 37-40 min ton civarına qədər azalsa da, 2020-ci ildə ölkəyə tərəvəzin idxalı artım baş vermişdir. Tərəvəz məhsullarının ötən dövr ərzində idxal dinamikasından göründüyü kimi son illərdəki azalma yenidən artımla müşahidə olunmaqdadır. İdxal 2020-ci ildə 2010-cu illə müqayisədə 35 min tona qədər azalsa da, 2021-ci ildə 2020-ci ilə nisbətən tərəvəz məhsullarının idxalı 14,3% artmışdır.

İxracda isə xeyli artım müşahidə olunur. Belə ki, 2017-ci ildə bütün növ tərəvəz məhsullarının ixracı 2017-ci ildə 231,5 min ton təşkil etmişdir ki, bu da 2005, 2010, 2015 və 2016-cı illərlə müqayisədə müvafiq olaraq 5,1 dəfə, 4,1 dəfə, 2,8 dəfə və 1,8 dəfə çoxdur. 2018-ci ildə ixracda artım davamlı olsa da, 2019-2020-ci illərdə 2018-ci illə müqayisədə 6-7 faiz civarında azalma, 2021-ci ildə 2020-ci ilə nisbətən daha 20%- dən artıq eniş müşahidə edilmişdir.

Təhlil edilən dövrdə təxminən 70 min hektar ərazidə becərilən tərəvəz məhsullarının istehsal dinamikasında azalma müşahidə olunsa da, son illərdə bu istiqamətdə xeyli canlanma nəzərə çarpır (cədvəl 2.2.6).

**Cədvəl 2.2.6**

**2005-2021 ci illər üzrə bütün növ tərəvəzin əkin sahəsi, istehsalı və idxalı**

| | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| Əkin sahəsi (min.ha) | 70,7 | 65 | 61 | 69,5 | 69,4 | 66,6 | 68,3 |
| İstehsal (mln. ton) | 1083,1 | 953,7 | 839,8 | 898,9 | 1004,2 | 1738,9 | 1815,5 |
| İdxal (mln. ton) | 24,3 | 84,9 | 42,0 | 36,8 | 39,8 | 56,0 | 64,0 |

*Mənbə:* [221]. www.azstat.org *– Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.*

2.2.6-ci cədvəldən göründüyü kimi, tərəvəz məhsullarının istehsalı 2021-ci ildə 1815,5 min ton təşkil etmişdir ki, bu da 2020-ci illə müqayisədə 4,4% çoxdur.

Meyvə, giləmeyvə və üzüm ehtiyatları və istifadələri balansının göstəricilərinə əsasən qeyd etmək olar ki, 2005-ci ildə idxal 33,2 min ton, 2010-cu ildə 166,2 min ton, 2015-ci ildə 88,3 min ton, 2016-cı ildə 115,8 min ton, 2017-ci ildə 112,0 min ton olmuşdur (cədvəl 2.2.7).

**Cədvəl 2.2.7**

**2005-2021 ci illər üzrə meyvə, giləmeyvə və üzüm ehtiyatları və istifadələri (min ton)**

| | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | **38,0** | **37,6** | **42,1** | **49,0** | **58,5** | **61,4** | **63,7** |
| İstehsal | 705,4 | 859,0 | 1045,5 | 1178,4 | 1301,5 | 1341,1 | 1414,7 |
| İdxal | 33,2 | 166,2 | 88,3 | 155,0 | 157,9 | 168,2 | 189,8 |
| **Ehtiyatların cəmi** | **776,6** | **1062,8** | **1176,0** | **1382,4** | **1518,0** | **1570,8** | **1668,2** |
| Mal-qara və quş yeminə | - | 3,0 | 3,3 | 76,6 | 94,7 | 97,4 | 105,6 |
| Sənaye ehtiyaclarına | 31,0 | 115,6 | 135,5 | 137,9 | 162,4 | 77,3 | 149 |
| Ərzaq üçün birbaşa istehlaka | 502,5 | 659,0 | 787,2 | 828,6 | 914,8 | 991,1 | 954,3 |
| İxrac | 180,3 | 206,0 | 184,0 | 331,6 | 352,1 | 317,6 | 391,4 |
| İtkilər | 6,9 | 21,3 | 17,8 | 20,9 | 23,0 | 23,8 | 16,3 |
| İlin sonuna qalıq | 55,9 | 58,0 | 48,2 | 58,5 | 61,4 | 63,7 | 41,2 |
| **Cəmi istifadə** | **776,6** | **1062,8** | **1176,0** | **1382,4** | **1518,0** | **1570,8** | **1668,2** |

*Mənbə:* [221]. www.azstat.org *– Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.*

2018-2021-ci illərdə isə idxalın həcmi xeyli artaraq 155-190 min ton civarında olmuşdur. Bunun əsasında qeyd etmək olar ki, 2010-2019-cu illər ərzində idxalda nisbi azalma müşahidə olunsa da, 2020-2021-ci illərdə 6-13% həddində artım baş verib.

Meyvə, giləmeyvə və üzümün ixracında isə 2005-ci ildə 180,3 min ton, 2010-cu ildə 206,0 min ton, 2015-ci idə 184,0 min ton, 2016-ci ildə 223,9 min ton, 2017-ci ildə 280,8 min ton, 2018-ci ildə

331,6 min ton, 2019-cu ildə 352,1 min ton, 2019-cu ildə 317,6 min ton, 2020-ci ildə 317,6 min ton, 2021-ci ildə isə 391,4 min ton təşkil etmişdir. Göründüyü kimi, ən çox ixrac 2021-ci ildə müşahidə edilmişdir. Bütövlükdə isə özündən əvvəlki illərlə müqayisədə artım müşahidə edilir.

Əkin sahəsi 2005-ci illə müqayisədə artmağa doğru meyl etsə də, daha doğrusu, meyvə, giləmeyvə və üzümün əkin sahəsi 2020-ci ildə 2005-ci ilə nisbətən 2,2 dəfə artsa da, istehsalın həcmi 1,9 dəfə artmışdır (cədvəl 2.2.8).

**Cədvəl 2.2.8**

**2005-2021 ci illər üzrə meyvə, giləmeyvə və üzümün əkin sahəsi, istehsalı və idxalı**

| | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| Əkin sahəsi (mln.ha) | 102,6 | 166,2 | 160,2 | 215,8 | 226,5 | 229,9 | 234,7 |
| İstehsal (mln. ton) | 705,4 | 859,0 | 1045,5 | 1010,8 | 1099,7 | 1341,1 | 1414,7 |
| İdxal (mln. ton) | 33,2 | 166,2 | 88,3 | 138,1 | 141,5 | 168,2 | 189,8 |

*Mənbə:* [221]. www.azstat.org *– Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.*

Onu da qeyd edək ki, 2013-2015-ci illər ərzində Azərbaycandan Rusiyaya ixrac edilən üzümdən alınan spirt məhsulunun dövriyyəsində 60 faiz artım olması, ümumi ixrac dövriyyəsində üçüncü yer tutması deməyə əsas verir ki, ölkədə üzümçülük sahəsində kifayət qədər yüksək potensial mövcuddur.

Şəkər ehtiyatları və istifadələri balansının göstəricilərinə nəzər salsaq görərik ki, ölkəyə şəkər idxalı 2005-ci ildən 2016-cı ilə qədər azalmaqda olsa da, 2017-ci ildə 2016-cı illə müqayisədə 4 dəfəyə yaxın artaraq 221,3 min ton təşkil etmişdir (cədvəl 2.2.9).

**Cədvəl 2.2.9**

**2005-2021 ci illər üzrə şəkər ehtiyatları və istifadələri (min ton)**

| | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | **0,8** | **49,5** | **56,9** | **298,7** | **295,1** | **394,6** | **498,0** |
| İstehsal | - | 335,5 | 332,1 | 201,0 | 271,0 | 258,4 | 339,6 |
| İdxal | 161,7 | 92,0 | 64,1 | 93,3 | 160,9 | 179,9 | 63.0 |
| **Ehtiyatların cəmi** | **162,5** | **477,0** | **453,1** | **593,0** | **727,0** | **832,9** | **900,5** |
| Ərzaq üçün birbaşa istehlaka | 161,6 | 221,9 | 206,6 | 248,8 | 260,8 | 267,8 | 273,7 |
| İxrac | - | 211,9 | 224,1 | 48,2 | 70,4 | 65,7 | 65,3 |
| İtkilər | - | 0,8 | 0,8 | 1,0 | 1,2 | 1,4 | 1,5 |
| İlin sonuna qalıq | 0,9 | 42,5 | 21,7 | 295,1 | 394,6 | 498,0 | 560,0 |
| **Cəmi istifadə** | **162,5** | 477,0 | 453,1 | **593,0** | **727,0** | **832,9** | **900,5** |

*Mənbə:* [221]. www.azstat.org *– Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.*

2018-ci ildə idxalda xeyli azalma (2 dəfədən çox) olsa da, 2019 və 2020-ci illərdə bu rəqəm müvafiq olaraq 1,7 dəfə və 1,9 dəfə artaraq, 160,9 min ton və 179,9 min ton olmuşdur.

Buna uyğun olaraq 2017-ci ildə şəkərin əkin sahəsinin 2016-cı ilə nisbətən 2 dəfəyə yaxın artmasına rəğmən şəkər istehsalı və ixracında əvvəlki illə müqayisədə 1,8 dəfə və 1,7 dəfə azalma müşahidə edilmişdir (cədvəl 2.2.10).

**Cədvəl 2.2.10**

**2005-2021 ci illər üzrə şəkərin əkin sahəsi, istehsalı və idxalı**

| | **2005** | **2010** | **2015** | **2018** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|---|---|
| Əkin sahəsi (min.ha) | 0,3 | 8,5 | 4,9 | **8,6** | **7,4** | **5,0** | **5,1** |
| İstehsal (mln. ton) | - | 335,5 | 332,1 | 201,0 | 271,0 | 258,4 | 339,6 |
| İdxal (mln. ton) | 161,7 | 92,0 | 64,1 | 93,3 | 160,9 | 179,9 | 63.0 |

*Mənbə:* [221]. *www.azstat.org – Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.*

2020-2021-ci illərdə isə 2018-ci illə müqayisədə əkin sahəsinin azalmasına (1,7 dəfə) rəğmən ölkədə şəkər istehsalı 1,7 dəfə artmış, idxalda isə bu dövrdə 32,3 faiz azalma olmuşdur. Strateji Yol Xəritəsində yerli xammal, eləcə də şəkərli qənnadı məmulatları istehsalını artırmaq imkanlarını qiymətləndirmək məqsədilə araşdırmalar zamanı ölkənin əkinəyararlı torpaqları, istehsalın strukturu, aqrar istehsal sahələri üzrə səmərəlilik kimi göstəricilərin təhlil edilməsi, bununla da şəkərli qənnadı məmulatların istehsalını yerli xammal bazası hesabına təmin eməklə bağlı inkişaf planlarının hazırlanması nəzərdə tutulur.

Ölkə üzrə çay ehtiyatları və istifadələri balansının göstəricilərinə diqqət yetirsək görərik ki, son illər ərzində çayın istehsalında baş verən artıma rəğmən çayın illik  idxalı 13-14 min ton civarından kənara çıxmır (cədvəl 2.2.11).

2018-2021-ci illərdə də eyni halı müşahidə etmək olar. Belə ki, bu dövrdə istehsal 2015-ci illə müqayisədə bir qədər artaraq 9-11 min ton, idxal isə 2018-2020-ci illərdə 13-14 min ton civarında olmuş və 2021-ci ildə 2,3 min tona qədər azalmışdır.

**Cədvəl 2.2.11**

**2005-2021 ci illər üzrə çay ehtiyatları və istifadələri (min ton)**

| | 2010 | 2014 | 2015 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 2,6 | 1,8 | 1,7 | 3,1 | 2,9 | 3,0 | 3,1 |
| İstehsal | 10,9 | 8,0 | 6,2 | 9,3 | 9,8 | 10,6 | 10,2 |
| İdxal | 14,5 | 13,2 | 13,5 | 13,0 | 14,1 | 14,0 | 2,3 |
| **Ehtiyatların cəmi** | **27,9** | **23,1** | **21,5** | **25,4** | **26,8** | **27,6** | **15,6** |
| Ərzaq üçün birbaşa istehlaka | 17,4 | 15,8 | 15,9 | 25,4 | 26,8 | 23 | 12,7 |
| İxrac | 8,2 | 5,4 | 4,3 | 1,4 | 1,5 | 1,4 | 1,1 |
| İtkilər | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,0 |
| İlin sonuna qalıq | 2,4 | 1,7 | 1,2 | 2,9 | 3,0 | 3,1 | 1,8 |
| **Cəmi istifadə** | **27,9** | **23,1** | **21,5** | 25,4 | 26,8 | **27,6** | **15,6** |

*Mənbə:* [221]. *www.azstat.org – Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.*

Respubilkada çayçıcılığın inkişafına nail olmaq məqsədi ilə 2016-cı ildən etibarən çayçılığın inkişafına məhsul istehsalçılarının marağının artırılması üzrə tədbirlər icra edilmiş, 2018-2027-ci illəri əhatə edən çayçılığın inkişafına dair ayrıca Azərbaycan Respublikasının Dövlət Proqramı qəbul olunmuşdur [220].

Hazırda respublika əhalisinin çaya olan tələbatı həm də xarici ölkələrdən idxal olunan çay əsasında ödənilir. Aparılan elmi araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, əsas hissəsi Lənkəran iqtisadi rayonunun payına düşmək etibari ilə ölkədə cəmi 21 min hektara yaxın ərazinin iqlim imkanları və torpaqlarının cari vəziyyəti çay bitkisinin becərilməsinə imkan yaradır.

Azərbaycandan çay ixracı isə getdikcə azalır. Əkin sahələrində də 2005-ci illə müqayisədə xeyli azalma (2,6 dəfə) müşahidə edilir (cədvəl 2.2.12).

**Cədvəl 2.2.12**

**2005-2021 ci illər üzrə çayın əkin sahəsi, istehsalı və idxalı**

| | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| Əkin sahəsi (mln.ha) | 2,9 | 0,6 | 1 | 1,1 | 1,1 | 1,1 | 1,0 |
| İstehsal (mln. ton) | 7,5 | 10,9 | 6,2 | 9,3 | 9,8 | 10,6 | 10,2 |
| İdxal (mln. ton) | 16 | 14,5 | 13,5 | 13,0 | 14,1 | 14,0 | 2,3 |

*Mənbə:* [221]. www.azstat.org *– Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.*

Bütün bunları nəzərə alaraq Azərbaycanda çay plantasiyalarını genişləndirilməsini stimullaşdırmaq tədbiri çərçivəsində Strateji Yol Xəritəsində ölkə əhalisinin yerli çay məhsulları üzrə tələbatını müəyyənləşdirmək üçün araşdırmaların aparılması, habelə qiymət, keyfiyyət və s. bu kimi göstəricilər üzrə yerli çayın idxal edilən çay məhsulları ilə müqayisə edilməsi və nəticə olaraq, çay plantasiyalarını genişləndirməklə bağlı optimal göstəricilərin müəyyənləşdirilməsi və müvafiq inkişaf planlarının hazırlanaraq həyata keçirilməsi nəzərdə tutulur [220].

Bütün bunları nəzərə alaraq Azərbaycanda çay plantasiyalarını genişləndirilməsini stimullaşdırmaq tədbiri çərçivəsində Strateji Yol Xəritəsində ölkə əhalisinin yerli çay məhsulları üzrə tələbatını müəyyənləşdirmək üçün araşdırmaların aparılması, habelə qiymət, keyfiyyət və s. bu kimi göstəricilər üzrə yerli çayın idxal edilən çay məhsulları ilə müqayisə edilməsi və nəticə olaraq, çay plantasiyalarını genişləndirməklə bağlı optimal göstəricilərin müəyyənləşdirilməsi və müvafiq inkişaf planlarının hazırlanaraq həyata keçirilməsi nəzərdə tutulur. Ölkədə çayçılığın inkişafı üçün münbit şərait var ölkədə fəaliyyət göstərən şirkətlər, xüsusi ilə də “Azərsun Holdinq” şirkəti çayın təkrar ixracı sahəsində son illər böyük təcrübə qazanmışdır.

Bunlarla yanaşı, çəltikçiliyin inkişafına dair də Dövlət Proqramı

qəbul olunub orada da qeyd olunduğu kimi, 2025-ci ildə çəltik üzrə orta məhsuldarlıq 40,0 s/ha təşkil etməklə, çəltik əkini sahələrini 10 min hektara, istehsalın həcmini isə 40 min tona çatdırmaq imkanları mövcuddur [220].

Lakin araşdırmalarımız onu göstərir ki, aşağıda qeyd edilən istiqamətlər daxil olmaqla geniş miyqaslı tədbirlərin icra olunmasını zəruri hesab edirik:

- ərazilər üzrə məhsuldarlığın yüksəldilməsi;
- normativ bazanın daha da təkmilləşdirilməsi;
- yüksək məhsuldar, xəstəlik və zərərvericilərə davamlı, yerli və rayonlaşdırılmış sortlarının toxumçuluq təsərrüfatlarının formalaşdırılmasının dəstəklənməsi;
- infrastruktur təminatının möhkəmləndirilməsi;
- düyü məhsulunun rəqabət qabiliyyətliliyinin yüksəldilməsi və ixracının təşviq edilməsi;
- düyü məhsulu üzrə idxalın əvəzlənməsi səviyyəsinin artırılması;
- çəltikçilik sahəsində elmi təminat və kadr potensialının möhkəmləndirilməsi.

Heyvandarlıq məhsullarına nəzər salsaq, ərzaq balansının məlumatlarından göründüyü kimi, ölkədə 2018-ci ilə qədərki dövr ərzində süd və süd məhsulları istehsalının artmasına baxmayaraq, onların Azərbaycana idxal həcmində də elə bir azalma müşahidə edilmir (Cədvəl 2.2.13).

Eyni halı 2020-202-ci illərdə də müşahidə etmək olar. Belə ki, bu dövrdə süd və süd məhsulları istehsalının artması fonunda bu məhsulun idxalı artmışdır. Respublikaya çoxlu həcmdə süd məhsullarının idxal edilməsinin əsas səbəbi bir tərəfdən, ölkədə süd emalı müəssisələrinin sayının az olmasıdırsa, digər tərəfdən, sənaye ehtiyaclarına görə təbii süd xammalı istehsalı həcminin zəruri tə ləblərə cavab verməməsi ilə bağlıdır.

**Cədvəl 2.2.13**

**2005-2021 ci illər üzrə süd və süd məhsullarının ehtiyatları və istifadələri (min ton)**

| | **2005** | **2010** | **2015** | **2018** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | **22,0** | **172,6** | **164,8** | **5,7** | **9,6** | **21,8** | **33,0** |
| İstehsal | 1251,9 | 1535,8 | 1924,5 | 2080,4 | 2150,8 | 2192,5 | 2223,4 |
| İdxal | 186,3 | 647,2 | 366,0 | 330,9 | 391,3 | 461,4 | 417,5 |
| **Ehtiyatların cəmi** | **1460,2** | **2355,6** | **2455,4** | **2417,0** | **2551,7** | **2675,7** | **2674,0** |
| Mal-qara və quş yeminə | 22,5 | 47,1 | 46,2 | 25,5 | 28,0 | 30,4 | 70,3 |
| Sənaye ehtiyaclarına | - | 1364,6 | 1951,6 | 2358,9 | 2439,1 | 2569,5 | 2537,9 |
| Ərzaq üçün birbaşa istehlaka | 1407,5 | 2099,7 | 2345,7 | 2025,7 | 2086,7 | 2145,5 | 2074,9 |
| İxrac | 0,3 | - | 6,3 | 12,7 | 49,6 | 27,1 | 17,1 |
| İtkilər | 7,2 | 37,2 | 35,1 | 10,3 | 13,1 | 15,8 | 15,4 |
| İlin sonuna qalıq | 22,7 | 171,6 | 22,1 | 9,6 | 21,8 | 33,0 | 32,9 |
| **Cəmi istifadə** | **1460,2** | **2355,6** | **2455,4** | **2417,0** | **2551,7** | **2675,7** | **2674,0** |

*Mənbə:* [221]. www.azstat.org *– Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.*

Ölkənin Strateji Yol Xəritəsində qeyd olunduğu kimi, ölkədə keyfiyyətli və bazar tələblərinə uyğun böyük həcmdə süd məhsulları istehsalını reallaşdırmaq məqsədilə fəaliyyət göstərən emal müəssisələrinin əhatə dairəsini genişləndirmək və istehsal güclərini artırmaq, eləcə də təbii süd xammalı üzrə istehsal potensialından maksimum istifadəni təmin etmək son dərəcə vacibdir.

Heyvandarlıq sahəsində stabil artım 2020-ci ildə də davam etmişdir. Hesabat ilində diri çəkidə 591,1 min ton ət, 2192,5 min ton süd, 1906,2 milyon ədəd yumurta və 16,1 min ton yun istehsal olunmuşdur [222].

Azərbaycanda ən çox istehsal olunan heyvandarlıq məhsulları kimi bütün mal-qara və quş əti dəyər ifadəsindəki həcminə görə ikinci yeri tutur. Lakin bununla belə, həmin məhsullar heç də yerli bazarın ehtiyaclarını ödəmir və ixrac baxımından da xeyli aşağı səviyyədədir (cədvəl 2.2.14).

**Cədvəl 2.2.14**

**2005-2021 ci illər üzrə bütün növ ət və ət məhsulları ehtiyatları və istifadələri (min ton)**

| | **2005** | **2010** | **2015** | **2018** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | **6,9** | **8,9** | **9,3** | **12,2** | **13,1** | **13,6** | **13,6** |
| İstehsal | 149,6 | 244,9 | 298,6 | 326,0 | 335,7 | 346,0 | 357,6 |
| İdxal | 37,1 | 36,0 | 17,6 | 68,9 | 72,3 | 63,6 | 56,9 |
| Ehtiyatların cəmi | **193,6** | **289,8** | **325,5** | **407,1** | **421,2** | **423,2** | **428,1** |
| Ərzaq üçün birbaşa istehlaka | - | 3,7 | 7,2 | 390,5 | 403,8 | 406,7 | 413,2 |
| İxrac | 0,6 | 1,5 | 0,8 | 0,8 | 1,0 | 0,1 | 0,7 |
| İtkilər | 1,5 | 1,9 | 1,4 | 2,6 | 2,8 | 2,8 | 3,0 |
| İlin sonuna qalıq | 7,3 | 9,0 | 4,1 | 13,1 | 13,6 | 13,6 | 11,4 |
| **Cəmi istifadə** | **193,6** | **289,8** | **325,5** | **407,1** | **421,2** | **169,0** | **163,2** |

*Mənbə:* [221]. www.azstat.org *– Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.*

Ölkədə 2021-ci ildə 2020-ci illə müqayisədə mal əti və ət məhsulları istehsalının 3,1%, quş əti və ət məhsulları istehsalının 7,3%

artımı fonunda idxalın həcmi müvafiq olaraq 9,7% və 45,5% artmışdır. Təhlil edilən dövrdə qoyun əti və ət məhsulları istehsalının 7,8% artımı fonunda idxalın həcmində artım müvafiq olaraq 6,7% təşkil etmişdir.

Baxılan dövr ərzində bütün növ mal-qara və quş əti və yumurtanın idxalı 0-20%-i, süd və süd məhsullarının və balıq və balıq məhsullarının idxalı isə 10-40%-i aşmamışdır. Bütün nov heyvandarlıq məhsulları üzrə ixrac isə sifra yaxın olmuşdur.

Bütün bu təhlillər onu göstərir ki, əsas növ emal (qida) məhsullarının 11 növü və bütün növ heyvandarlıq məhsulları üzrə ehtiyatların 90%-i ətrafında hissəsini daxili istehsal hesabına ödəyə bilirik. Bu 30 ilə yaxın dövrdür ki, müstəqil olan dövlət üçün çox yaxşı bir göstəricidir. Lakin, eyni zamanda ixracın bütün məhsul növləri üzrə çox aşağı olması xarici bazarda çox kiçik bir seqmentə malik olmağımız deməkdir. Bu isə həmin sahələrdə ya marketinq tədqiatlarının zəif aparılması, ya da xarici bazara çıxma meyllərinin az olması ilə əlaqədardır. Problemin həlli üçün aqrar sahənin perspektiv inkişafını təmin edən idxal-ixrac əməliyyatları səmərəli təşkili edilməlidir.

Azərbaycandan əsas etibarilə emal olunmuş və konservləşdirilmiş ət məhsulları ixrac edilir. Əgər nəzərə alsaq ki, ölkədə mövcud emal müəssisələri qabaqcıl və yüksək əmək məhsuldarlıqlı texnologiyalara malikdir, onda tələb edilən ət məhsullarını artırmaq üçün onların əhatə dairəsini genişləndirməyin və fəaliyyətini gücləndirməyin əhəmiyyətli dərəcədə zəruri olduğu meydana çıxmış olar.

Son illər ərzində yumurta idxalı minimum səviyyəyə endirilmiş, istehsal xeyli artmışdır (cədvəl 2.2.15).

Lakin bununla belə 2021-ci ildə 2020-ci ilə nisbətən istehsal 3,5% azalmış, idxal isə demək olar ki, 2018-ci ilin səviyyəsinə qayıtmışdır (17,3 mln. ədəd).

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin məlumatlarına görə, ümumilikdə 2019-cu ildə kənd təsərrüfatı məhsulları arasında meyvə-tərəvəz ixracatı 605,8 milyon, pambıq lifi 124

**Cədvəl 2.2.15**

**2005-2021 ci illər üzrə yumurta ehtiyatları və istifadələri (mln. ədəd)**

| | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | **3,9** | **28,8** | **30,4** | **32,9** | **33,0** | **35,5** | **37,1** |
| İstehsal | 874,6 | 1178,6 | 1552,9 | 1676,2 | 1827,1 | 1906,2 | 1838,8 |
| İdxal | 17,9 | 25,7 | 5,3 | 18,5 | 2,4 | 0,2 | 17,3 |
| **Ehtiyatların cəmi** | **896,4** | **1233,1** | **1588,7** | **1727,6** | **1862,4** | **1941,9** | **1893,2** |
| Mal-qara və quş yeminə | | 19,6 | 23,2 | 27,4 | 29,7 | 30,8 | 30,1 |
| İnkubasiyaya | 69,9 | 76,7 | 88,8 | 107,4 | 115,8 | 120,7 | 117,7 |
| Ərzaq üçün birbaşa istehlaka | 806,7 | 1113,0 | 1462,9 | 1507,2 | 1637,4 | 1743,6 | 1699,9 |
| İxrac | 14,6 | 0,7 | - | 44,0 | 34,9 | - | - |
| İtkilər | 1,1 | 3,7 | 6,4 | 8,6 | 9,3 | 9,7 | 9,4 |
| İlin sonuna qalıq | 4,1 | 19,6 | 7,4 | 33,0 | 35,5 | 37,1 | 36,1 |
| **Cəmi istifadə** | **896,4** | **1233,1** | **1588,7** | **1727,6** | **1862,4** | **1941,9** | **1893,2** |

*Mənbə: [221]. www.azstat.org – Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.*

milyon, pambıq ipliyi 30,2 milyon, şəkər 26,9 milyon, alkoqollu və alkoqolsuz içkilər 23,7 milyon ABŞ dolları təşkil etmişdir. 2018-ci ilə nisbətən 2019-cu ildə pambıq lifi ixracatı yüzdə 54, alkoqollu və alkoqolsuz içkilərin ixracı - yüzdə 46, pambıq ipliyi - yüzdə 27, şəkər - yüzdə 8, meyvə və tərəvəz ixracı yüzdə 8 artıb [224].

2019-cu il dekabr hesabatına görə, pomidor (22,6 milyon dollar) ixracatda qeyri-neft sektorunda birinci, xurma ikinci (20,1 milyon dollar), pambıq toxumları (14,9 milyon dollar) üçüncü yerdə qərarlaşmışdır. [224].

Kənd təsərrüfatı məhsulları üzrə ixracında xüsusən də 2020-ci ildə meyvə-tərəvəz ixracda önə çıxmışdır. Belə ki, 2019-cu ildə Azərbaycandan 605,8 milyon ABŞ dolları dəyərində 628,5 min ton meyvə-tərəvəz ixrac edilmiş və qeyri-neft ixracında 31 faizlik paya sahib olmuşdur. 2020-ci ildə isə ixracın ümumi dəyəri 607,5 milyon ABŞ dolları, həcmi 606,5 min ton, qeyri-neft ixracında payı 32,8, ümumi ixracda payı isə 4,4 faiz təşkil etmişdir [224; 240].

Azərbaycanın aqrar sahə məhsullarının ixracında pomidor, meşə fındığı, alma, xurma, pambıq və digər kənd təsərrüfatı məhsulları xüsusi yer tutur (qrafik 2.2.1).




**Qrafik 2.2.1. Əsas kənd təsərrüfatı məhsullarının 2020-ci il ixracında payı, faiz**

*Mənbə: DSK-nın və DGK-nın məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir [221;224].*

Yuxarıdakı qrafikdən göründüyü kimi, 2020-ci ildə ölkənin ümumi qeyri-neft qaz ixracının 10,88 faizini pomidor, 7,2 faizini

pambıq lifi, 6,28 faizini meşə fındığı, 4,95 faizini xurma, 1,59 faizini isə alma ixracı təşkil etmişdir. Göründüyü kimi təkcə 5 kənd təsərrüfatı məhsulunun ümumi ixracda payı 4,1 faiz, qeyri-neft qaz ixracında xüsusi çəkisi isə 30,9 faiz təşkil edir. Nəzərə aldıqda ki, bu göstəricilərin daha da artırılması potensialı mövcuddur, o zaman gələcəkdə qeyri-neft qaz ixracında aqrar məhsulların payının daha da yüksək olmasına əminlik ifadə etmək olar.

Qeyd edək ki, pomidor ixracı Azərbaycanda son illərin statistik göstəricilərində davamlı olaraq ilk yerlərdə olmuşdur. 2020-ci ildə 201 milyon ABŞ dolları dəyərində 187 min ton pomidor ixracı həyata keçirilmişdir ki, bununla da bu məhsulun ixracı ən yüksək göstərici olmaqla birlikdə, qeyri-neft ixracı üzrə də ən yüksək yeri tutmuşdur.

Aqrar məhsullar üçün xarici bazar imkanlarının ən mühümlərindən biri Azərbaycanın həm Avropa İttifaqı, həm ABŞ, həm də Rusiya ilə ticarət münasibətlərinin əksər hallarda müsbət inkişaf trendləri nümayiş etdirməsi və siyasi münasibətlərin yaratdığı inkişaf imkanlarıdır. Bu baxımdan, Azərbaycanda istehsal edilmiş məhsulların ixracına bu region və ölkələrdə əksər hallarda müsbət münasibət mövcuddur.

Bu istiqamətdə Bakı-Tbilisi-Qars dəmiryolunun işə düşməsi, Çinin planlaşdırılan "Bir kəmər-Bir yol" meqa layihəsi, Avropaya malların ixracı üçün yeni imkanlar yaradır. Digər tərəfdən 2020-ci il fevralın 25-də "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi" imzalanıb ki, bu da Azərbaycan məhsullarının ixracında yeni imkanlar yaradacaqdır. Sazişdə 15 mal qrupu üzrə hər iki ölkə arasında həm kvota, həm də rüsumun sıfıra endirilməsi ilə bağlı mühüm müddəalar əksini tapmışdır ki, bu da qarşılıqlı olaraq, müvafiq siyahı üzrə təsdiq olunmuş mal kateqoriyaları üzrə Azərbaycanın aqrar məhsullarına Türkiyəyə güzəştli şərtlərlə ixrac etmək imkanları yaradır [220].

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin [236] İxrac İcmalının tərtib etdiyi 2019-cu ildə aqrar sektoru üzrə ixracatçılarının reytinqinə baxsaq ilk yerlərdə Global İxrac Meyvələri MMC, Sun Food MMC, Təbii Meyvə MMC, Azərbaycan Şəkər İstehsalat Birliyi MMC, P-Aqro MMC qeyri-dövlət və ixrac əməliyyatları ilə məşğul olan dövlət şirkətlərindən “Azerpambig” Aqrar Sənaye Kompleksi MMC, STS-Aqro MMC, Azərtütün Aqrar Sənaye Kompleksi MMC və s. aqrar ərzaq şirkətləri təmsil olunur. Onların 2017, 2018 və 2019-cu illər üzrə ixracat göstəriciləri cədvəl 2.2.16 və cədvəl 2.2.17-də verilmişdir.

**Cədvəl 2.2.16**

**Azərbaycanın aqrar sahəsində qeyri-dövlət ixracatçılarının reytinqi (milyon ABŞ dolları ilə)**

| Sıra № | İxracatçıların adı | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|
| 1. | “Qlobal İxrac Meyvələri” MMC | 30.9 | 31.4 | 35,2 |
| 2. | “Sun Food” MMC | 28,5 | 28,1 | 32,3 |
| 3. | “Təbii Meyvə” MMC | 24.2 | 26.5 | 30,4 |
| 4. | “Azərbaycan Şəkər İstehsalat Birliyi”MMC | 40,2 | 25,0 | 26,7 |
| 5. | “P-Aqro” MMC | 23,3 | 26,1 | 25,7 |

*Mənbə: [236]. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İxrac Xülasəsi”.*

**Cədvəl 2.2.17**

**Azərbaycanın aqrar sahə üzrə dövlət ixracatçılarının reytinqi (milyon ABŞ dolları ilə)**

| Sıra № | İxracatçıların adı | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|
| 1. | MMC “Azərpambıq Aqrar Sənaye Kompleksi”“ | 0.01 | 0,01 | 23,6 |
| 2. | MMC “CTS-Aqro “ | 14.9 | 19,7 | 25,8 |
| 3. | “Azərtütün Aqrar Sənaye Kompleksi”MMC | 0,07 | 0,07 | 2,5 |

*Mənbə: [236]. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İxrac Xülasəsi”.*

Bitkiçilik məhsullarının ixrac bazarları üzrə rəqabətə tab gətirə bilən şirkətlər sırasında "Azərsun Holdinq"in, "Gilan Holdinq"in, "Aznar"ın, "Az-Granata" MMC-nin və "Aqrar tədarük və təchizat" ASC-nin adlarını çəkmək olar. Bu şirkətlərin emal etdikləri məhsullar özlərinin rəqabətə davamlılığı ilə seçilirlər. Məsələn, "Az-Granata" MMC-nin istehsal məhsulları olan şərab, tünd içkilər, konyak, şirə və nektar, kompot, viski və s. üzrə illik istehsal gücünün 100 milyon paket qablaşdırma təşkil etməsi mühüm əhəmiyyət kəsb edir. Şirkətin məhsulları ABŞ və Almaniya daxil olmaqla dünyanın 20 ölkəsinə ixrac olunur. Yaxın gələcəkdə müasir tipli emal müəssisələrini artırmaqla bərabər, respublikada kartof, pomidor, soğan və s. kimi məhsulların emalı xüsusilə diqqət mərkəzində saxlanılmalıdır [117, s.1580-1590].

Ümumilikdə, 2019-cu ildə Aqrar Tədarük və Təchizat ASC tərəfindən 218,3 ton məhsul ixrac edilmişdir ki, bunun da 123,6 tonu meyvə və giləmeyvə, 95.0 tonu yumurta olub (cədvəl 2.2.18) [237].

**Cədvəl 2.2.18**

**2019-cu ildə "Aqrar Tədarük və Təchizat" ASC məhsullarının ixracatı (tonla)**

| Sıra № | Məhsulun adı | Satış sayı |
|---|---|---|
| 1. | Süfrə üzümləri | 37,5 |
| 2. | Armud | 16,7 |
| 3. | Nar | 32,7 |
| 4. | Qovun | 36,4 |
| 5 | Bütün meyvə və giləmeyvə | 123,3 |
| 6. | Yumurta | 95,0 |
| | Cəmi məhsul | 218,3 |

*Mənbə:[237]. www.att.gov.az - Aqrar Tədarük və Təchizat Açıq Səhmdar Cəmiyyəti*

Azərbaycanın təbii-iqlim şəraitini nəzərə alsaq, burada aqrar sənayenin inkişafı üçün yetərincə imkan vardır. Bunu statistik göstəricilərin təhlili də göstərir. Deməli, Azərbaycanın valyuta gəlirlərini artırmaq üçün ölkədaxili istehlaka xələllik gətirmədən aqroemal məhsullarının xarici bazara çıxarılması əsas hədəflərdən olmalıdır [116, s. 1580-1590].

Xüsusən də emal edilmiş məhsulların ixracda böyük xüsusi çəkiyə malik olması vacibdir. Ona görə ki, emal olunmamış məhsullar əsas etibarilə xammal kimi uçuz qiymətə satılır. Danılmaz faktdır ki, emal edilmiş məhsullardan əldə edilən gəlirlər xammaldan alınan gəlirlərdən dəfələrlə çoxdur. Bütövlükdə bunların reallaşdırılması məqsədilə hər şeydən əvvəl xarici bazarın, beynəlxalq bazarının tədqiqi, başqa sözlə marketinq tədqiqatlarının keçirilməsi həmişə zərurət olaraq davamlı olmalıdır.

## 2.3. Aqrar istehlak bazarının inkişafının zəruriliyi, mövcud durumunun təhlili və qiymətləndirilməsi

Aqrar istehlak bazarını formalaşdırmaq üçün tələb, təklif və qiymət kimi elementlərin qarşılıqlı əlaqəsini və təsirlərini müəyyən etmək, bütövlükdə bazarın ayrı-ayrı komponentləri daxilində vacib olan məlumatları toplamaq lazımdır. Burada yerli, regionlararası, xarici iqtisadi əlaqələr, habelə onun fərqli sistemləri: informasiya-kommunikasiya, tənzimlənmə, təşkilati, logistika, maliyyə-kredit sistemləri kontekstindəki istehlak bazarında mövcud vəziyyət diqqətdə saxlanılmalıdır.

İstehlak bazarının formalaşması və inkişafının kompleks tədqiqi üçün aşağıdakı əsas məqamlar diqqətdən yayınmamalıdır:

*“- istehlak bazarında əsas subyektlər sayılan ticarət, ictimai iaşə və xidmət sahəsində çalışan təşkilatlar və əhalidir;*

*- bazar infrastrukturunun əsas elementləri sayılan topdan və pərakəndə satış şirkətləri, ticarət və satınalma firmaları, yarmarka-*

*lar, sərgilər, bazarlar və s.*

*- istehlak bazarının formalaşması və inkişafında ən başlıca amil ölkə əhalisinin gəlirləri, istehsal sahəsinin inkişafı və yerli qiymətlərdir;*

*- şəhər, rayon və ya respublika üzrə istehlak bazarı ərazisində ən çox qurulmuş sahələr;*

*- regionlararası əlaqələrin üstünlüyü;*

*- əsas tənzimləmə forması qiymətdir"* [67, s.18-19].

Tədqiqatın əsas mərhələsində istehlak bazarının formalaşmasını və inkişafını şərtləndirən əsas amillər müəyyən edilir və təhlil edilir. Belə olan vəziyyətdə, fikrimizcə, sosial, iqtisadi, texnoloji və s. bu kimi amillərin 3 qrupda birləşdirilməsi məqsədəuyğun sayılır:

- fərqli bölgələrin və bütövlükdə respublikanın istehlak bazarına təsir göstərən toplu amillər və s. (idxal və ixracın ölçü və strukturu; bazarın inkişafı üzrə dövlət tənzimlənməsi; ölkə əhalisinin həyat səviyyəsi və alıcılıq qabiliyyəti; qiymətlərin səviyyəsi, inflyasiya və i.a.);
- bazara təsir edən demoqrafik, köçürülmə və şəhərqurma, iqlim;
- milli-tarixi ənənələr və s. bu kimi regional amillər;
- müəyyən növ əmtəə və mallar üzrə istehlak bazarının inkişafını şərtləndirən amillər: dəb, prestij, mənzil təklifinin artması, məişət mallarının xidmət müddəti və s.

Beləliklə, təklif edilən metodoloji yanaşmalar əsasında iqtisadi diaqnostikanın aparılması istehlak bazarının mövcud vəziyyəti və inkişafı barədə məcmu nəticələr əldə etməyə və regional xüsusiyyətlər və idarəetmə üzrə dəyişkən iqtisadi şərait nəzərə alınmaqla onun perspektiv inkişaf istiqamətlərini üzə çıxarmağa imkan verir. [67, s.16-17].

İqtisadi icmalın yekun mərhələsində tədqiqatın nəticələri ümumiləşdirilir, fərqli istehlak bazarlarının inkişafının əsas meylləri, qanunauyğunluqları, xüsusiyyətləri və problemləri müəyyən edilir və onların fəaliyyət səmərəliliyinin artırılması məqsədilə gələcək

inkişaf istiqamətləri işlənib hazırlanır.

İstehlak bazarının, onun məzmununun formalaşması və strukturunun hərtərəfli tədqiqinin aparılmasına ilkin metodoloji yanaşmalar rus alimi A.S.Novoselovun əsərlərində öz əksini tapmışdır. Onun sözlərinə görə, bu prosesdə altı əsas tədqiqat bloku var [152, 88-98]:

1) bazarın inkişafının iqtisadi ekspertizası;
2) rəqabət mühiti üzrə təhlili;
3) bazar infrastrukturunun inkişafı üzrə təhlil;
4) regional sistemdə bazarın qarşılıqlı əlaqəsini müəyyənləşdirilməsi;
5) istehlak bazarının regionlararası və beynəlxalq əlaqələrini təhlil etmək;
6) istehlak bazarını tənzimləməklə əlaqəli forma və üsulları təhlil etmək.

İstehlak bazarının tədqiqi prosesində sosial-iqtisadi inkişaf göstəricilərlə əlaqəli bazarın vəziyyəti və inkişafı barədə müfəssəl məlumatın mövcudluğu vacibdir:

- ölkə əhalisinin pul gəlirləri və xərcləri üzrə tarazlıq səviyyəsi;
- ərzaqla təminatlılıq səviyyəsi;
- istehlak malları və pullu xidmətlər istehsalı üzrə artım;
- tələbin ödənişi səviyyəsi və s.

İstehlak bazarında kompleks tədqiqin əsas məqsədi onun inkişafındakı uyğunsuzluqları və onun gələcək inkişafı proqramının işlənib hazırlanması üçün istifadə olunmamış imkanları üzə çıxarmaqdır. Ölkə iqtisadiyyatında real iqtisadi münasibətlərin inkişafı müasir şərait və onun subyektlərinin regional xüsusiyyətləri nəzərə alınmaqla istehlak bazarında gedən proseslərin iqtisadi tədqiqinin metodoloji təminatına yenidən baxılmasını müəyyənləşdirmişdir.

Fikrimizcə, üç mərhələ: hazırlıq, təməl və nəticə kontekstində müəyyən ardıcıllıqla istehlak bazarının vəziyyəti və inkişafının iqtisadi təhlilinin aparılması məqsədəuyğundur.

Tədqiqatımızda iqtisadi ekspertizanın obyekti istehlak bazarı, subyekti isə onun mövcud vəziyyəti və inkişaf göstəriciləridir.

Müayinə hadisənin təbiətini və mahiyyətini müəyyənləşdirən tədqiqat prosesidir. Müasir iqtisadi ədəbiyyatda "iqtisadi müayinə" anlayışının tərifinə iki əsas yanaşmanı görürük.

Birinci yanaşmaya görə, iqtisadi müayinə iqtisadi siyasətin işlənib hazırlanması obyektinin perspektivli, operativ və hərtərəfli öyrənilməsidir. Eyni zamanda, iqtisadi müayinənin əsas məqsədi elmi-tədqiqat kompleksinin inkişafı üçün ən mühüm problemləri və prioritetləri müəyyən etmək, habelə dövlətin vəziyyətini yaxşılaşdıracaq, elmi-tədqiqat mərkəzi və onun səmərəliliyini təmin edəcək uzunmüddətli və qısamüddətli fəaliyyət proqramı hazırlamaqdır.

İkinci yanaşmada, iqtisadi müayinə kənarlaşmanın xüsusiyyətlərinə əsasən iqtisadi proseslərin normal gedişatının pozulmasının xarakterini öyrənmək metodunu özündə birləşdirən təhlil növlərindən biridir. Eyni zamanda, bu simptomlar haqqında məlumat dərhal dəyişikliklər etmədən sapmaların xarakterini tez və dəqiq müəyyənləşdirməyə imkan verir.

Yuxarıda göstərilən yanaşmalara əsaslanaraq deyə bilərik ki, iqtisadi müayinə istehlak bazarında iqtisadi proseslərin normal gedişatının hərtərəfli öyrənilməsi, pozuntu vəziyyətinin qiymətləndirilməsi və müəyyən edilməsi üçün zəruri metod və üsulları özündə birləşdirən sistemdir. Ümumiyyətlə, istehlak bazarının iqtisadi müayinəsi onların istehlak bazarının inkişafına təsiri üzrə vəziyyət, amillər və dərəcəsi barədə məlumatların toplanması, işlənməsi, təhlili və şərh edilməsi prosesidir. [170, s. 10].

Ümumiyyətlə, istehlak bazarının mövcud vəziyyəti və inkişafının hərtərəfli öyrənilməsinin, habelə istehlak bazarının və ölkə iqtisadiyyatının inkişafı üzrə plan və proqnozların işlənib hazırlanmasının əsas meyil və amillərinin uçotunu aparmaq lazımdır, bu isə onların yaranması ilə bağlı regional xüsusiyyətləri aşkarlamağa imkan yaradır. Hesab etmək olar ki, istehlak bazarının tədqiqinin yu-

xarıda göstərilən yanaşma və üsulları müəyyən məhdudiyyətlərə baxmayaraq, mövcud məlumat bazası nəzərə alınmaqla, yanaşmanın bütün elementlərindən istifadə etməklə istehlak bazarının hərtərəfli öyrənilməsini tam və qismən aparmağa imkan verir. Tədqiqat araşdırma məqsədlərinə çatmaq üçün istifadə oluna bilər [67, s. 21].

Bununla belə, hərtərəfli istehlak bazarı tədqiqatının uğuru bazar iştirakçıları haqqında mövcud statistik məlumatlar və digər bu kimi məlumatlardan asılıdır. Daha mühüm informasiya bazar münasibətlərinin ən mühüm subyekti kimi istehlakçılar üçün informasiyadır. İstehlakçılar tərəfindən mallara tələb olmadıqda, istehlak bazarının digər iştirakçıları münasibətlər sistemində əhəmiyyətini itirmiş olurlar.

Təcrübədə mal və xidmətin satın alınmasına üstünlük verilən yer və motivləri, onların əldə olunmasının dövriliyi motivi və başqa istehlak şərtləri barədə məlumatların olması çox mühümdür. Təəssüflə qeyd olunmalıdır ki, bu məlumatlar rəsmi statistikada mövcud deyil və yerli bələdiyyə səviyyəsində toplanmış məlumat hər bir regionda olduğundan çox az göstərilib. Belə faktlar həm məlumatlara malik təhlil mərhələsini, həm də lazımi statistik məlumatın toplanması və emalı mərhələsini də əks etdirən metodların daxil olduğu istehlak bazarlarının vəziyyəti və inkişafının qiymətləndirilməsi və təkmilləşdirilməsini zəruri edir.

İstehlak bazarlarının iqtisadi müayinə sistemi özündə aşağıda qeyd olunan elementləri əks etdirir [111, s. 71-72]:

- istehlak bazarlarının vəziyyəti və fəaliyyətinin təhlil olunması, həmçinin, bazar iştirakçıları arasında qarşılıqlı əlaqələrinin təhlil olunması, bazardaxili əlaqələrin inkişaf meyllərinin, istehsal və istehlakın inkişafında və yerləşməsində yeni baş verən hadisələrin təsiri altında onlarda olan mümkün dəyişikliklərinin müəyyənləşdirilməsi;
- təkrar istehsal prosesində daxili bazar və bölgələrarası bazar münasibətlərinin inkişafına, həmçinin onun ərazi quruluşunun xü-

susiyyətinə təsirinin təhlil olunması və qiymətləndirilməsi;

- əmtəənin hərəkəti sxemində müsbət və mənfi aspektli müəyyənləşdirmək üçün istehsal və istehlakın yerləşdirilməsinin təhlil olunması, həmçinin, istehsal və istehlakın bölgüsündə nisbətin müəyyənləşdirilməsi.

Aqrar istehlak bazarları əhali ehtiyacları üçün vacib olan geniş, eləcə də çoxçeşidli istehlak mallarının (xidmətlərin) reallaşması məkanıdır. Onların yaradılması vacibdir və bu zaman aşağıda qeyd olunan tədbirlərin icra edilməsi zəruridir:

*"1. Ərzaq və qeyri-ərzaq məhsullarının istehsal və satışında iqtisadi fəaliyyətin inkişaf etdirilməsi.*

*2. Kiçik və orta biznesə dəstəyin verilməsi.*

*3. İstehlak malları (xidmətləri) satan təsərrüfat subyekti üçün çevik fiskal siyasəti və kreditin stimullaşdırılması.*

*4. Mal və xidmətlərə azad qiymətəmələgəlmənin tətbiq olunması"* [152, s.135-136].

Bu fəaliyyətlərin reallaşdırılması aşağıda qeyd olunanları əhatə edən bazar münasibətlərinin tənzimlənməsinin dövlət mexanizminə əsaslanır:

1. İstehlak bazarının tənzimlənməsi mexanizminin modernləşmə və təkmilləşməsi sahəsində qanunvericilik aktının qəbul olunması.

2. Müxtəlif sahə və sahibkarlıq formalarını dəstəkləmək üçün vergi və maliyyə siyasətinin reallaşdırılması məqsədilə təşkilati-iqtisadi mexanizmlərlə təsərrüfat fəaliyyətinin stimullaşması.

3. Əhalinin aztəminatlı təbəqəsinə sosial dəstəyin verilməsi.

4. Məhsulların bazar daxilində təşviqi ilə əlaqədar texnologiyaların tətbiq olunması.

5. Qiymətəmələgəlmə və qiymət tənzimlənməsi zamanı effektiv mexanizmin tətbiq olunması.

6. Məhsulun (xidmətin) standartlaşdırılması və sertifikatlaşdırılması, istehlakçı hüquqlarının müdafiəsi.

7. Antiinhisar qanunvericiliyinin və bazar proseslərinin monito-

rinq olunması və s.

Zənnimizcə, bunlarla bir yerdə aqrar istehlak bazarını təkmilləşdirmək üçün vaxtında onun müayinə olunması zəruridir. Bunun üçün isə aşağıda qeyd olunan istiqamətlərdə tədbirlərin reallaşdırılması tələb edilir [67, s.19]:

- istehlak bazarının inkişafında prioritetlərin müəyyənləşdirilməsi;
- ticarət xidmətlərinin keyfiyyəti, ayrı-ayrı seqmentlərin əhalisini artırmaq;
- müasir ticarət bazaları, kompleksləri, endirimli mağazala və şəbəkə mağazalarının inkişaf etdirilməsi;
- müasir logistik prinsipləri əsas götürülməklə əmtəə axınları və əmtəə dövriyyələrinin optimallaşdırılması;
- istehlak malları bazarının nizamlanması sahəsində hazırki qanunvericiliyin, normativ hüquqi akt və yenilərin inkişafı;
- malların əlverişli topdan satışı və istehlakçılara qədər daşınmasını təmin edən vasitəçi təşkilat şəbəkəsi və terminalların formalaşdırılması;
- istehlak bazarı daxilində innovativ və investisiya fəaliyyəti üçün müvafiq şəraitin formalaşdırılması.

İstehlak bazarının tədqiqi iqtisadi, marketinq, idarəetmə, sosioloji təhlillərin təsiri altında tamamlanaraq təkmilləşdirilmiş Alfred Marşalın [142] iqtisadi prinsipinə əsaslanmalıdır. Bir çox bazarların öyrənilməsi və araşdırılmasına vahid yanaşmanın olmaması səbəbi ilə elmdə istehlak bazarının etibarlı təhlili aparılması çətinliyi mövcuddur. İstehlak bazarlarına bir çox amillər təsir göstərir və onlardan birinin dəyişməsi yalnız bir bazarda bir dəyişənin dəyişilməsinə deyil, bir çox bazara dalğalı təsir edir.

Zənnimizcə, aqrar istehlak malları və xidməti bazarının vəziyyəti və inkişafının tədqiqinin mərhələli şəkildə aparılması daha məqsədə müvafiqdir. İnformasiya resursundan istifadə edərək, hazırki vəziyyət üçün istehlak bazarlarının təhlilinin mərhələlərini

aşağıdakı kimi göstərə bilərik:

*"I. Aqrar istehlak bazarları üzrə təhlilin ilkin mərhələsində hazırlıq işləri:*

*1. İstehlak malları bazarları üzrə iqtisadi təhlilin predmetinin müəyyənləşdirilməsi. Tədqiqat predmeti aşağıdakı məhsullar üzrə aparıla ola bilər:*

*- taxıl; kartof; üzüm; bostan bitkiləri; tərəvəz; digər bitkiçilik məhsulları; meyvə və giləmeyvə;*

*- qoyun əti; quş əti; mal əti; yumurta; süd və süd məhsulları; digər heyvandarlıq məhsulları"* [67, s. 20].

2. Müəyyən bir zamanda məhsulların sahəvi mənsubluğu ilə əlaqədar istehlak bazarlarının iqtisadi təhlilinin məqsədi və vəzifəsinin əsaslandırılması.

Aqrar istehlak bazarı təhlilinin vəzifələrinə aiddir:

- bazar daxilində konyunktur və proqnoz araşdırması;
- potensial və fərdi bazar seqmentinin müəyyənləşdirilməsi;
- SWOT təhlili apararaq analoji məhsulların rəqibləri və onların strategiyalarının öyrənilməsi;
- alıcı və rəqiblərin yeni məhsulların (xidmətlərin) tətbiqi üçün icazə verilən reaksiyaların tədqiq olunması.

3. Kəmiyyət və keyfiyyət tədqiqatının sinergetik təsiri, dərin müsahibə, qrup müzakirəsi, statistik metod əsasında istehlak bazarları təhlilinin əsas üsullarının seçilməsi.

4. Aqrar istehlak bazarlarının iqtisadi təhlilinin aparılması proqramının işlənib hazırlanması:

- istehlak bazarının araşdırılması məqsədləri, vəzifələri və problemlərinin təşviqi;
- təhlilin aparılması üsullarının müəyyənləşdirilməsi;
- dəyişənin seçilməsi, hər dəyişənin dəyişdirilməsi yolları;
- dəyişənin ölçülməsi (qiymət, müştərinin sayı, gəlir);
- müşahidənin təşkili prosedurunun müəyyən edilməsi;
- gələcək məlumatların təhlilinin təsviri;

- tədqiqatın vaxtının müəyyən edilməsi və nəticələrin verilməsi;
- tədqiqatın büdcəsinin müəyyənləşdirilməsi.

5. Reinjiniring köməyi ilə informasiya texnologiyasından istifadə edərək istehlak bazarları üzrə informasiya bazasının hazırlanması.

*"II. Aqrar istehlak bazarının təhlilinin ikinci mərhələsi - əsas mərhələ.*

*1. İstehlak malı və xidməti bazarlarının əsas çətinlikləri və prioritet istiqamətləri.*

*2. İstehlak malları və xidmətləri bazarlarının mikro, makro və mezo səviyyədə inkişafının qiymətləndirilməsi.*

*3. Ərzaq və ayrı-ayrı təhlükəsizlik səviyyəsini müəyyənləşdirmək üçün istehlak bazarı potensialının qiymətləndirilməsi.*

*4. İstehlak bazarlarının mal, xidmət bazarlarının tutumunun tədqiq olunması.*

*5. Topdan və pərakəndə ticarət müəssisələrini fəaliyyətinin səmərəliliyinin təhlili"*[67, s. 20].

III. Aqrar istehlak bazarlarının təhlilinin üçüncü mərhələsi – son mərhələ

1. Bazarın iqtisadi təhlilinin  nəticələri.
2. Təhlilin nəticəsinə aid hesabat.
3. Bazarda mal və xidmətin inkişafının perspektiv istiqamətini ərazi prinsipi üzrə yüksəldilməsi.
4. Mezo səviyyədə istehlak bazarının fəaliyyət problemini həll etmək.

Tədqiqatında yekununda əldə edilən nəticə istehlak bazarlarının idarə edilməsinin və onun müxtəlif elementlərinin  inkişafı  üzrə proqnozların hazırlanmasının əsas məqamlarından biri sayılır. Belə idarəetmə dedikdə, yerli hakimiyyət orqanının (idarəetmə subyektinin) regionun istehlak bazarlarına (idarəetmə obyektlərinə) təsirini nəzərdə tutulur. Belə idarəetmənin əsas məqsədi bölgənin sosial-iqtisadi inkişafının səviyyəsini artırmaqdır. Aqrar istehlak bazarlarının vəziyyətinin təhlili bölgədə bazarın idarəetməsi prosesinin

əsas elementidir [67, s. 19].

İqtisadi ədəbiyyatda istehlak bazarlarının vəziyyətinin toplu qiymətləndirilməsi üçün aşağıda verilən göstəricilərdən istifadə etmək təklifi edilir [111, s. 86-87]:

*"1) adambaşına istehlak malı istehsalının həcmi və satışların həcmi;*

*2) adambaşına düşən xidmətin həcmi;*

*3) ərzaq məhsulunun həcminin və istehlak normasının nisbəti;*

*4) daxili və idxal malları payının nisbəti;*

*5) qeyri-ərzaq malları həcminin və istehlak dərəcəsi nisbəti;*

*6) mallarla davamlı təchizat dərəcəsi;*

*7) satışın ümumi həcminə əsasən keyfiyyətli malların həcmi;*

*8) əhalinin tələbatının ödənilməsi səviyyəsi (təqdim olunan xidmətin (məhsulun) çeşidinin əmsalı (əhalinin ehtiyacı olan növlərin nisbəti);*

*9) təqdim olunan xidmət həcminin və onların aparılması standartının nisbəti;*

*10) qida və qeyri-ərzaq məhsulu istehlakı arasında əlaqələr;*

*11) istifadə olunmuş xidmətlərin istehlak edilən mallarının cəminə nisbəti;*

*12) əhalinin alıcılıq qabiliyyətli tələbi və istehlak mallarının və xidmətinin təklifinə nisbəti;*

*13) istehlak malları və xidmətlərinin istehlak və istehsalına nisbəti;*

*14) pərakəndə ticarət dövriyyəsi həcmi ilə əmtəə ehtiyatı həcminin nisbəti".*

İstehlak bazarlarının təhlili geniş göstəricinin hesablanması və müayinəsi ilə sıx əlaqədardır. Bazarın infrastrukturunu tədqiq edərkən, zənnimizcə, aşağıda qeyd olunan ünsürlərlə qarşılıqlı əlaqədə olan istehlak bazarlarının göstəricilərinə nəzər yetirilməsi məqsədə müvafiqdir [67, s. 21] .

Aqrar istehlak bazarlarının iqtisadi təhlili analitik problemlər

məcmusunu həll etməyə şərait yaradır ki, bunlardan da əsasları aşağıda qeyd olunmuşdur [67, s.15-16]:

- məhdud məlumat şəraitində tədqiqat obyektlərinin vəziyyətinin qiymətləndirilməsi;
- tədqiqat obyektlərinin fəaliyyət rejiminin, onun səmərəliliyi və sabitliyinin qiymətləndirilməsi;
- belə obyektlərin fəaliyyətlərini xarakterizə edən göstəricilər arasındakı əlaqənin mövcud və perspektiv strukturlarına əsaslanaraq tədqiqat obyektlərinin inkişafı üzrə iqtisadi göstəricinin mümkün variantlarını müəyyən etmək;
- tədqiqat obyektlərinin fəaliyyətinin təhlili və perspektiv rejimlərinin müəyyənləşdirilməsi və onun inkişaf konsepsiyalarının formalaşdırılması;
- cari və strateji idarəetmə qərarının reallaşdırılması ilə əlaqədar iqtisadi nəticələrin müəyyən edilməsi və qiymətləndirilməsi.

İqtisadi ədəbiyyatda qeyd olunur ki, *"regional istehlak bazarlarının hərtərəfli təhlili onun inkişafına təsir göstərən proseslərin tədqiqi və proqnozlaşdırılmasının aşağıda qeyd olunan prinsipləri əsasında reallaşdırılır"* [152, s. 75-88]:

1) sistemli yanaşma prinsipləri, 2) dinamik yanaşma prinsipləri, 3) elmi-texnoloji inkişaf və struktur dəyişiklikliyinin nəzərə alınması prinsipləri, 4) regional xüsusiyyəttin nəzərə alınması prinsipləri.

İstehlak bazarlarının inkişafının iqtisadi təhlilinin (diaqnostikasının) reallaşdırılması, zənnimizcə, aşağıda qeyd olunan bir neçə metodiki prinsipə əsaslanmalıdır:

- sistemlilik, yəni istehlak bazarları bir-biri ilə bağlı və qarşılıqlı təsir edən ünsürlərdən ibarət ayrılmaz sistem kimi yanaşılmalı və daha geniş sistemin bir hissəsi sayılmalıdır;
- komplekslilik, yəni hər bir tərəfin və onların bir-biri ilə əlaqə komponentlərinin bazarların iqtisadi təhlili prosesində nəzərə alınması vacibliyinin yaradılması;
- etibarlılıq, yəni istehlak bazarlarının inkişaf etdirilməsi üzrə

tam və adekvat məlumatların alınmasını göstərir;

- obyektivlik, yəni iqtisadi təhlil prosesində subyektivliyin aradan qaldırılma göstəricilərinin, tamlığının təmin olunması;
- fasiləsizlik, dinamik yanaşmalar, yəni istehlak bazarları araşdırması və informasiya tədqiqinin fasiləsiz aparılması;
- elmilik, yəni ayrı-ayrı bilik sahələrindən (sosiologiyadan, psixologiyadan, ekologiyadan və s.) borclanan metodiki üsullar, elmi, analitik-proqnoz metodları əsasında iqtisadi təhlilin aparılması;
- məqsədəuyğunluq - istehlak bazarının inkişafının iqtisadi təhlilinin konkret hədəf və vəzifələrə istiqamətləndirilməsi;
- dəqiqlik- istehlak bazarlarına aid məlumatı tapşırıqlara əsasən dəqiq əldə olunması;
- operativlik- tədqiq olunan hadisədən idarəetmə sistemində onlara aid məlumatın alınmasına qədər minimum zaman intervalının təmin olunması;
- müqayisəlilik- ayrı-ayrı dövr ərzində təhlilin nəticəsini müqayisə etməyə şərait yaradan eyni metodika üzrə eyni istiqamətlərdə iqtisadi təhlilin reallaşdırılması;
- şərhçilik - istehlak bazarlarının vəziyyəti və inkişaf istiqamətlərinin tam və dərin qiymətləndirilməsinə şərait yaradan və öz aralarında vacib və birbaşa əlaqələndirici göstəricini birləşdirən mümkün göstəricilər sisteminin təmin olunması;
- səmərəlilik - bir tərəfdən minimum zaman və pul xərcləndiyi məlumatın maksimum dəyəri və təhlilin aparılmasına xərclərin ödənişi zamanı və başqa tərəfdən effektiv idarəetmə qərarlarının qəbulu məqsədilə tələb haqqında toplanan məlumatın kifayətliliyi zamanı informasiyaların maksimum dəyərinin qəbul olunması;
- diferensial yanaşma- istehlak bazarlarının həm ümumi həcmdə, həm də bir neçə həmcins növün ümumi kontekstində araşdırılması;
- bölgələrin xüsusiyyətlərinin nəzərə alınması prinsipləri.

Aqrar istehlak bazarlarında müqayisəli təhlil keçirmək üçün *“onun xassələri nəzərdən keçirilir, təhlilin mərhələləri təklif edilir,*

*bazarların kompleks göstəricilərinin blokunun tədqiq edilməsi vacibliyi ilə təmin olunur. Müəlliflərin təsəvvürlərində istehlak bazarları onun bir neçə iştirakçısı arasında istehsal, satış, istehlak, mallar, xidmətlər (işlər) ilə əlaqədar iqtisadi əlaqələrin məcmusu şəklində tanınır"* [150].

İstehlak bazarlarının vəziyyəti bir çox ünsürlərin tələbi, təklifi, istehsal həcmləri, əmtəənin (xidmətlərin) satışı, ticarət, ictimai iaşə və başqa sahələrdə formalaşan şəxsi, ictimai istehlak göstəriciləri ilə də əlaqəlidir. İstehlak bazarlarında vəziyyət müəyyən bir yerdə malların istehsalı və satışı, həmçinin, əhalinin (uşaqlar, pensiyaçılar və əlillərin) müxtəlif təbəqələrinin fəaliyyət göstərməsi məqsədilə sosial-iqtisadi dəstək tərəfdən istehlak bazarlarında vəziyyət sosial, iqtisadi və təşkilati-idarəetmə münasibəti sisteminin tədqiqi vasitəsi ilə müəyyənləşdirilir. Sadələşdirilmiş şəkildə istehlak bazarı aşağıdakı növləri ilə təmsil edilir (cədvəl 2.3.1).

**Cədvəl 2.3.1**

**İstehlak bazarının növləri**

| **Bazarın növləri** | **Qısa şərhlər** |
|---|---|
| İstehlak malları bazarı | Bura uzunmüddətli istifadə olunn istehlak malları, elektron malları, mebel, ofis avadanlığı, maşın, avadanlıq və s. bazarlar daxildir. |
| Ərzaq məhsulları bazarı | Bu aşağıdakı alt bazarlardan ibarətdir: süd və süd məhsulları, ət və ət məhsulları, çörək, qənnadı, makaron istehsalı, içkilər, və s. |
| Pərakəndə mal bazarları | Supermarketlər, universal, ixtisaslaşdırılmış mağazalar tərəfindən satılan məhsulların bazarları daxildir |
| Xidmət (nəqletmə) bazarları | Poçt xidmətlərindən, otel-restoran, kuryer, logistika və s. xidmətlərdən ibarətdir |
| Kənd təsərrüfatının bioloji aktivlər bazarı | Heyvandarlıq və bitkiçilik üzrə ədalətli dəyərlə ölçülən qısa müddətli və uzun müddətli bioloji aktivlər daxildir |

*Mənbə: [147, s.78; 167, s. 56]*

Yuxarıda qeyd olunan bazarların hər biri öz xassələrinə malikdir ki, bu da bazarlarda qarşılıqlı fəaliyyətdə olan təsərrüfat subyektləri, bazarlarda təklif edilən malların (xidmətlərin) növləri, bu məhsulların (xidmətlərin) nəzərdə tutulan sahə xüsusiyyəti ilə əlaqəlidir. Belə ki, bioloji aktiv bazarları kənd təsərrüfatı məhsullarının istehsalçısına və istehlakçısına yönəldilmişdir. Bioloji aktivlərdə təyinat ət, süd, yun, taxılın və s. aid olunduğu kənd təsərrüfatı məhsulunun istehsalıdır. Bu məhsullar həm öz ehtiyacları üçün, həm də gələcəkdə satış məqsədilə istifadə edilə bilər.

Kənd təsərrüfatı məhsullarıistehsalçıları olan sahibkar və fermerlər bu cür bazarda fəal iştirak edir. Onlar mal-qaraların cins fondu, məhsuldar bitki növləri və toxum fondunun, meyvə ağacı tinglərinin yenilənməsində maraqlıdır. Bu meyl məhsuldarlığın çoxalması imkanı, heyvan və bitkilərin genofonunun yenilənməsi vacibliyi ilə əlaqəlidir.

Fikrimizcə, kənd təsərrüfatının bioloji aktiv bazarının iştirakçıları arasında əlaqənin intensivləşməsi kənd təsərrüfatının inkişaf etdirilməsində əsas göstəricidir və bu da əsasən idxal əvəzlənmələrinin dövlət siyasəti kontekstində zəruridir [67, s.17].

İstehlak bazarları tərkibində müxtəlif əmtəə qruplarından təşkil olunan istehlak xidməti və istehlak malları bazarları vardır. İndiki şəraitdə istehlak bazarının struktur və həcmi şirkətlərin təşkilati səviyyəsindən, milli iqtisadiyyat sahələrinin vəziyyətindən, dövlət siyasəti və makroiqtisadi göstəricilərdən asılıdır.

Ayrı növ istehlak bazarlarının xassələri dövriyyənin strukturunu göstərir, mal və xidmətə tələb və təklifin proqnozlaşmasında istifadə edilən metodları əks etdirir. Müəyyən bir əmtəə və bazarın təchizatı barədə məlumat olmadan mümkün qədər ehtimalı olan tələbin inkişafı perspektivlərini proqnozlaşdırmaq qeyri-mümkündür. Çünki, bioloji aktivlərə olan tələblər müəyyən bir ölkədə və onun bölgələrində və ya böyük kənd təsərrüfatı müəssisələrində məhsul istehsalını genişləndirmək planından, dəyər zəncirlərinin hər bir

mərhələsini əhatə edən aqrobiznes infrastrukturlarının formalaşmasından, kənd təsərrüfatı sahəsində reallaşdırılan inkişaf proqramlarının əlverişliliyindən, idxala məhdudlaşan tədbirlərin ardıcıl olaraq tənzimlənməsindən asılıdır.

Qeyd etmək vacibdir ki, istehlak bazarları müəyyən ünsürlərin təsiri altında elastik dəyişməyə məruz qalır, onu əhaliyə xidmət bazarları (məişət, bank, riyeltor xidməti, mehmanxana və restoran komplekslərinin bazar və xidmətlər, autstaffing, autsorinq bazarları və s.) olmadan təsəvvür etmək mümkünsüzdür.

Aqrar istehlak bazarlarının inkişafı kənd təsərrüfatı məhsulunun istehsal həcmlərinin artırılması və ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. İndiki şəraitdə kənd təsərrüfatı məhsulunun istehsalının inkişafını azaldan amillərdən biri məhsul satışı ilə əlaqədar olan çətinliklərdir. Ona görə ki, kənd təsərrüfatı məhsulu satışı ənənəvi ticarət üsulu ilə həyata keçirilir və bu halda ən az gəlir əldə edən tərəf istehsalçı, qazanan tərəf isə vasitəçi (bazar alverçiləri) olur.

İstehlak bazarlarının ərzaq təminatı və məhsul istehsalının yüksəldilməsi arasındakı əlaqəyə gəldikdə isə qeyd edilməlidir ki, onlar mürəkkəb sayılır və ərzaq təhlükəsizliyinin ayrı-ayrı aspektinə qarşılıqlı təsir edən yolları mövcuddur. Respublikada ərzaq təhlükəsizliyinin təmin olunması xüsusən yerli istehsalın yüksəldilməsi, keyfiyyətinin artırılması və idxaldan asılılıq dərəcəsinin azaldılması hesabına mümükün ola bilər. Buna görə də, biz istehlak bazarları və ərzaq təhlükəsizliyi arasındakı əlaqəni təhlil edərək, ticarətin məhsul istehsalının yüksəldilməsinə təsirini müəyyənləşdirmiş olarıq.

Aqrar istehlak bazarlarının ərzaq təhlükəsizliyinə təsirini aşağıda qeyd olunmuş sxem 2.3.1- də belə ifadə etmək mümkündür.




**Sxem 2.3.1. Aqrar istehlak bazarının ərzaq təhlükəsizliyinə təsiri mexanizmi**

Sxem 2.3.1-də verilmiş sxemdə istehlak bazarlarının ərzaq təhlükəsizliyi göstəricisinə təsir edə biləcəyi ayrı-ayrı istiqamətlərin sadələşmiş bir təsvirini göstərir. Həqiqətdə iqtisadi inkişafda sektoral tərkibdən təsirlənən istehlak bazarları məhsul istehsalı, qiymət, məşğulluq və dövlət büdcəsinin gəliri kimi əsas dəyişənə birbaşa təsir etməklə birgə, uzunmüddətli perspektivdə istehlak bazarlarının rəqabət qabiliyyətliliyinə, infrastrukturun inkişafına, marketinq kanalları və paylayıcı şəbəkələrin genişlənməsinə şərait yaradır.

Həmçinin, bu öz növbəsində dövlət və özəl investisiyanın stimullaşdırılması və yeni iştirakçıların bazara daxil olmasına təsir edir.

Təşkilatlanmış (aktiv) bazar ticarət şəbəkələri, ixtisaslaşmış əmtəə birjası vasitəsilə məhsulunu satır. Bazarların belə tiplərinə birbaşa əhaliyə, həmçinin, birja əməliyyatı və ticarət müqavilələri üzrə istehsal olunan mal və xidmətlərin satışlarını aid etmək vacibdir. Təşkilatlanmamış (kortəbii) bazarlarda mallar fərdi şəxsə satılır. Bu cür bazarlar küçə, meydança və başqa ictimai yerlərdə yerləşdirilir.

Bazar infrastrukturunun elementi, həmçinin, istehlak bazarlarının aktivləşdirilməsində idxaləvəzləyicinin təsiredici vasitəsi ölkəmizdə Azərittifaq çərçivəsində fəaliyyət göstərən istehlak kooperasiya sistemidir. Məhz bu formalaşmada pərakəndə, topdan ticarət, istehsal, satınalma, xidmət, qurumu cəmləşdirən çoxfunksiyalı iqtisadi fəaliyyət sistemi mövcuddur. İndiki şəraitdə istehlakçı əməkdaşlığı kənd təsərrüfatının, emal və sənaye sektorlarının arasında iqtisadi əlaqənin qurulması ilə istehlakçı bazarında idxal əvəz edilməsinə istiqamətləndirilmişdir [136, s. 107-113].

İstehlakçı bazarlarında istehlak kooperasiyalarının fəaliyyəti ilə idxaləvəzləyici strategiyaların əlverişliliyi qarşılıqlı təsirə malikdir. O, məhsulun göndərilmə dərəcəsinin azaldılmasına şərait yaradır və bu zaman hədindən artıq böyük ehtiyat fondu yaratmağa ehtiyac daha az olur. İdxal əvəzlənməsi klaster şirkətlərin resursunu səfərbər etməyə, innovativ texnologiyadan istifadə etməyə, yeni sahələr və istehsal sahələrini yaratmağa və qurulmasına kömək etməyə şərait yaradır. İstehlak bazarının yeni modeli biznes fəaliyyətlərinin aktivləşdirilməsi ilə büdcəyə vergi daxilolmanın artmasına şərait yaradan elmi tədqiqatlara imkan verəcəkdir. Bu zaman respublikanın iqtisadi təhlükəsizliyinin formalaşdırılması üçün platforma yarana bilər.

İndiki şəraitdə respublikada istehlak bazarlarının həcmi 2015-2021-ci illərdə yüksəlməyə doğru meyl etmişdir. Ona görə ki, 2021-ci ildə 2015-ci ilə nəzərən müqayisədə istehlak bazarlarının həcmi 54,5%, həmçinin, pərakəndə ticarət dövriyyəsinin həcmi 72% -dək artmış, iaşə dövriyyəsi 27,3%-dək azalmış, əhaliyə gös-

tərilən ödənişli xidmətin həcmi isə 4% çox olmuşdur. 2015-ci ildə 2014-ə nisbətən istehlak bazarlarının həcmi 9,7%, həmçinin, pərakəndə ticarət dövriyyəsi 10,9 faiz, iaşə dövriyyəsi 14 faiz, əhaliyə göstərilən ödənişli xidmətin həcmi 5,1 faiz artsa da, müvafiq göstərici üzrə 2016-2021-ci illər ərzində illik artım tempində azalma olmuşdur (cədvəl 2.3.1).

**Cədvəl 2.3.1**

**2015-2021 ci illər Azərbaycanda istehlak bazarı üzrə əsas göstəricilər**

| Göstəricilər | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| İstehlak bazarı - cəmi, mlrd. manatla | 34,3 | 45,3 | 47, 8 | 50,7 | 47, 9 | 53,0 |
| əvvəlki ilə nisbətən, faizlə | 109,7 | 102,2 | 103,1 | 103,6 | 91,9 | 110,7 |
| Cəmi, faizlə | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| o cümlədən: pərakəndə ticarət dövriyyəsi | 25,7 | 35,3 | 37,1 | 39,4 | 40,2 | 44,2 |
| əvvəlki ilə nisbətən, faizlə | 110,9 | 102,5 | 103,0 | 103,6 | 98,7 | 110,0 |
| yekuna görə faizlə | 75,0 | 77,8 | 77,7 | 77,7 | 83,9 | 83,5 |
| iaşə dövriyyəsi | 1,1 | 1,4 | 1, 5 | 1,7 | 0,8 | 0,8 |
| əvvəlki ilə nisbətən, faizlə | 114,0 | 103,4 | 106,8 | 106,7 | 45,4 | 100,0 |
| yekuna görə faizlə | 3,2 | 3,1 | 3,2 | 3,3 | 1,7 | 1,8 |
| əhaliyə göstərilən ödənişli xidmətlər | 7,5 | 8,6 | 9, 1 | 9,6 | 7,0 | 7,8 |
| əvvəlki ilə nisbətən, faizlə | 105,1 | 101,2 | 103,0 | 103,1 | 72,1 | 111,4 |
| yekuna görə faizlə | 21,8 | 19,1 | 19,1 | 19,0 | 14,4 | 14,7 |

*Mənbə: [22]; [221]. Cədvəl AR DSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.*

Cədvəl məlumatlarından qeyd olunduğu kimi, 2020-ci ildə respublikamızda pandemiya səbəbindən istehlak bazarlarının həcmində azalma olmuşdur. 2020-ci ildə COVİD-19-la əlaqədar tətbiq olunmuş məhdudiyyətlərə görə istehlak bazarının həcmi 2019-cu ilə nisbətən 11,7 faiz, həmçinin, pərakəndə ticarət dövriyyələri 4,9 faiz, iaşə dövriyyələri 61,3 faiz, əhaliyə göstərilən ödənişli xidmətin həcmi 31,0 faiz azalmışdır.

İstehlak bazarlarının strukturunda da bir çox dəyişikliklər baş vermişdir. Belə ki, istehlak bazarlarının həcmində pərakəndə ticarət dövriyyələrinin payı 2015-ci ildəki 75,0 faizdən 2021-ci ildə 83,5 faizə qədər çoxalmış, iaşə dövriyyələrinin payı 2015-ci ildə olan 3,2 faizdən 2021-ci ildə 1,8 faizə qədər azalmış, əhaliyə göstərilən ödənişli xidmətin həcmi 21,8 faizdən 2021-ci ildə 14,7 faizə qədər azalmışdır.

İstehlak bazarlarının ÜDM-ə təsirini öyrənmək məqsədilə ÜDM-in, istehlak bazarlarının sahələrinin və regionlar kontekstində ev təsərrüfatının istehlak dərəcəsinin asılılığının korrelyasiya tədqiqi aparılmışdır. ÜDM-nin və istehlak bazarlarının həcminin korrelyasiya analizi nəticəsi cədvəl 2.3.2-də qeyd olunmuşdur.

Korrelyasiya analizinin nəticəsi regionun istehlak bazarları ilə ev təsərrüfatları xərci arasında başlıca inkişaf göstəricisi – ÜDM-lə əlaqəni təsdiq edir ki, bu da respublikanın sosial-iqtisadi təhlükəsizliyinin istehlak bazarlarının inkişaf göstəricisi prizmasından təhlil edilməsinin məqsədəmüvafiq olduğunu təsdiq edir.

Bu hesablamalara əsasən respublikamızın əksər bölgələrində ÜDM-ə ən çox təsir edən pərakəndə ticarət və ümumilikdə istehlak bazarının həcmi olmuşdur.

Pərakəndə ticarət istehlak bazarları dövriyyəsi strukturunun 77-78%-ini təşkil edir, buna görə də bu seqmenti adambaşına təkrar hesablama baxımından ayrıca tədqiq etmək məqsədəuyğundur (cədvəl 2.3.3).

**Cədvəl 2.3.2**

**ÜDM və istehlak bazarının həcminin korrelyasiya təhlili**

| ÜDM ilə korrelyasiya | Pərakəndə ticarət | İctimai iaşə | Pullu xidmətlər | İstehlak bazarının ümumi həcmi |
|---|---|---|---|---|
| y | X1 | X2 | X3 | X4 |
| Azərbaycan Respublikası, cəmi | 0,988 | 0,992 | 0,996 | 0,992 |
| Bakı şəhəri | 0,991 | 0,994 | 0,979 | 0,993 |
| Naxçıvan MR | 0,99 | 0,944 | 0,984 | 0,991 |
| Abşeron iqtisadi rayonu | 0,983 | 0,966 | 0,97 | 0,982 |
| Gəncə-Qazax iqtisadi rayonu | 0,998 | 0,982 | 0,991 | 0,992 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 0,96 | 0,981 | 0,991 | 0,973 |
| Lənkəran iqtisadi rayonu | 0,986 | 0,841 | 0,976 | 0,984 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 0,986 | 0,984 | 0,978 | 0,981 |
| Aran iqtisadi rayonu | 0,989 | 0,983 | 0,891 | 0,982 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 0,921 | 0,28 | 0,911 | 0,924 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | - | - | - | - |
| Dağlıq Şirvan iqtisadi rayonu | 0,927 | 0,76 | 0,882 | 0,925 |

*Mənbə: [22]; [221]. Cədvəl AR DSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.*

**Cədvəl 2.3.3**

**2017-2021 ci illər üzrə adambaşına pərakəndə ticarət dövriyyəsi, mln. manatla**

| | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2017/2021 nisbətən % |
|---|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası üzrə | 3 623,2 | 3 777,1 | 3 977,2 | 4 027,5 | 4 413,9 | 121,8 |
| Bakı şəhəri | 8 009,0 | 8 423,1 | 8 924,9 | 9213,7 | 10225,3 | 127,7 |
| Naxçıvan MR | 3 540,5 | 3 603,8 | 3 627,5 | 3 632,1 | 3 730,1 | 105,4 |
| Abşeron-Xızı iqtisadi rayonu | 2 109,1 | 2 233,1 | 2 444,1 | 2 516,9 | 2 865,3 | 135,9 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 2 102,0 | 2 149,1 | 2 210,1 | 2 180,9 | 2 284,4 | 108,7 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 2 376,6 | 2 451,9 | 2 545,6 | 2 546,1 | 2 789,4 | 117,4 |
| Qarabağ iqtisadi rayonu | 1 514,7 | 1 594,3 | 1 675,5 | 1 589,1 | 1 728,9 | 114,1 |
| Qazax-Tovuz iqtisadi rayonu | 2 028,7 | 2 106,4 | 2 217,2 | 2 180,8 | 2 401,9 | 118,4 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 2 220,2 | 2 275,5 | 2 420,8 | 2 409,9 | 2 601,3 | 117,2 |
| Lənkəran-Astara iqtisadi rayonu | 1 851,3 | 1 894,8 | 1 956,6 | 1 873,0 | 2 016,4 | 108,9 |
| Mərkəzi Aran iqtisadi rayonu | 2 640,1 | 2 711,6 | 2 803,0 | 2 726,3 | 2 911,8 | 110,3 |
| Mil-Muğan iqtisadi rayonu | 1 693,0 | 1 748,7 | 1 813,4 | 1 847,2 | 2 034,3 | 120,2 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 1 921,2 | 1 976,4 | 2 060,2 | 2 067,4 | 2 174,0 | 113,2 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | - | - | - | - | - | - |
| Şirvan-Salyan iqtisadi rayonu | 2 353,1 | 2 439,1 | 2 605,9 | 2 566,1 | 2 797,5 | 118,9 |

*Mənbə: [22]; [221]. Cədvəl AR DSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.*

Cədvəl 2.3.3-də qeyd olunduğu kimi adambaşına düşən pərakəndə ticarətin dövriyyəsi də əhəmiyyətli səviyyədə çoxalmışdır (artım surəti baxımından artma 1,5 dəfəyə yaxındır). Həmçinin, artım tempi 2015-ci ildən bu tərəfə hər il çoxalmaqdadır ki, bu da regionlarda əhalinin gəlirinin artması, istehlak bazarı strukturu tərkibində regional iqtisadiyyatda istehlak bazarının mühüm payı ilə əlaqəlidir.

Mənfi tendensiyalar ən açıq şəkildə cədvəl 2.3.4-də təqdim edilən pərakəndə ticarət dövriyyəsinin fiziki həcm indeksi ilə göstərilir.

**Cədvəl 2.3.4**

**2017-2021 ci illər üzrə pərakəndə ticarət dövriyyəsinin əvvəlki ilə nisbətən fiziki həcm indeksləri, mln. manatla**

| | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası üzrə | 102,5 | 103,0 | 103,6 | 98,7 | 103,2 |
| Bakı şəhəri | 103,3 | 103,8 | 104,2 | 100,5 | 104,2 |
| Naxçıvan MR | 101,1 | 100,8 | 100,5 | 99,8 | 102,2 |
| Abşeron-Xızı iqtisadi rayonu | 102,9 | 104,5 | 107,5 | 100,2 | 107,0 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 101,0 | 101,1 | 101,4 | 96,4 | 98,7 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 101,7 | 102,0 | 102,3 | 97,3 | 102,9 |
| Qarabağ iqtisadi rayonu | 101,4 | 102,8 | 102,7 | 92,2 | 102,2 |
| Qazax-Tovuz iqtisadi rayonu | 101,2 | 102,5 | 103,5 | 95,6 | 103,4 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 101,2 | 101,3 | 104,8 | 97,2 | 101,8 |
| Lənkəran-Astara iqtisadi rayonu | 101,1 | 101,2 | 101,8 | 93,5 | 101,6 |
| Mərkəzi Aran iqtisadi rayonu | 101,1 | 101,4 | 101,7 | 94,9 | 100,6 |
| Mil-Muğan iqtisadi rayonu | 101,9 | 102,1 | 102,1 | 99,4 | 103,9 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 100,9 | 101,5 | 102,5 | 97,8 | 99,0 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | | | | | |
| Şirvan-Salyan iqtisadi rayonu | 101,7 | 102,5 | 105,2 | 96,1 | 102,7 |

*Mənbə: [22]; [221]. Cədvəl AR DSK-nın məlumatları əsasında hazırlanıb.*

Bütün regionlarda pərakəndə ticarətin artım tempinin 2015-ci illə müqayisədə 2020-ci ildə nə qədər azaldığını (Abşeron iqtisadi rayonu çıxılmaqla) açıq şəkildə görmək olar. Artım təkcə nəzərdən keçirilən son bir il ərzində müşahidə edilir, ancaq düşmə fonunda belə artım müsbət amil deyildir.

İstehlak bazarlarının inkişafı kənd təsərrüfatının istehsalına əhəmiyyətli dərəcədə təsir edir. Kənd təsərrüfatı məhsulları həcminin təhlilinin nəticəsi cədvəl 2.3.5-də təqdim olunmuşdur.

**Cədvəl 2.3.5**

**2015-2021 ci illər üzrə kənd təsərrüfatı məhsullarının istehlak həcmi, mln. manatla**

| | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2021-ci il 2015-ci ilə nisbətən,%-lə |
|---|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası üzrə | 374,3 | 385,0 | 615,2 | 814,4 | 1001,5 | 2,7 dəfə |
| Bakı şəhəri | 10,7 | 24,6 | 32,1 | 65,2 | 84,8 | 7,9 dəfə |
| Naxçıvan MR | 3,0 | 6,4 | 6,4 | 7,8 | 8,3 | 2,8 dəfə |
| Abşeron-Xızı iqtisadi rayonu | 36,5 | 13,7 | 45,0 | 206,9 | 231,7 | 6,4 dəfə |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 9,9 | 28,0 | 46,9 | 35,8 | 40,2 | 4,1 dəfə |
| Qazax-Tovuz iqtisadi rayonu | 11,5 | 25,0 | 28.2 | 21,1 | 25,7 | 2,2 dəfə |
| Şəki-Zaqatala iqtisadi rayonu | 21,7 | 19,9 | 39,2 | 35,5 | 41,3 | 190,3 |
| Lənkəran-Astara iqtisadi rayonu | 15,5 | 14,9 | 7,9 | 18,6 | 27,9 | 180,0 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 94,7 | 75,8 | 159,0 | 157,8 | 168,6 | 178,0 |
| Mərkəzi Aran iqtisadi rayonu | 12,1 | 29.1 | 36,8 | 30,3 | 32,5 | 2,7 dəfə |
| Mil-Muğan iqtisadi rayonu | 30,0 | 41,1 | 31,7 | 27,9 | 26,0 | 86,7 |
| Qarabağ iqtisadi rayonu | 49,3 | 46,2 | 49.7 | 63,9 | 79,4 | 161,1 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 0,3 | 0,2 | 0,4 | 0,3 | 0,3 | 100,0 |
| Şirvan-Salyan iqtisadi rayonu | 74,8 | 74,9 | 105,7 | 108,9 | 112,5 | 150,4 |

*Mənbə: [22]; [221]. Cədvəl AR DSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.*

Cədvəl məlumatlarında qeyd olunduğu kimi, ölkəmizdə istehlak bazarı həcminin, həmçinin pərakəndə ticarət dövriyyəsinin çoxalması fonunda kənd təsərrüfatı məhsulları həcmində də artım müşahidə olunmuşdur. Belə ki, ölkə üzrə kənd təsərrüfatı məhsulları istehsal həcmi 2,7 dəfə, həmçinin, respublikanın əsas aqrar iqtisadi rayonlarından Abşeron-Xızı regionu üzrə 6.4 dəfə, Mərkəzi Aran regionu üzrə 2,7 dəfə, Qazax-Tovuz regionu üzrə 2,2 dəfə, Quba-Xaçmaz regionu üzrə 78,0%, Gəncə-Daşkəsən regionu üzrə 4,1 dəfə, Şəki-Zaqatala regionu üzrə 90,3%, Şirvan-Salyan regionu üzrə 50,4%, Qarabağ regionu üzrə 61,1% artmışdır. Amma bununla belə, Mil-Muğan regionunda 13,3%-lik azalma müşahidə olunmuşdur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonu üzrə işğaldan azad edilmiş ərazilərdə aqrar sahənin inkişaf etdirilməsi baxımından və yüksək dəyər yaradan heyvandarlıq və bitkiçilik məhsullarının istehsalının artırılmasına nail olmaq məqsədi ilə gömrük və vergi güzəştləri, subsidiyaların ödənilməsi, həmçinin də müxtəlif aqrar dəstək mexanizmlərinin istifadəsinin tətbiq edilməsi kənd təsərrüfatı məhsullarının həcminin dəfələrlə artmasına və aqrar istehlak bazarının səmərəli inkişafına imkan verəcəkdir.

Bu istiqamətdə respublikanın və onun regionlarındakı aqrar istehlak bazarına mənfi təzahürləri minimuma endirmək məqsədilə yerli icra hakimiyyəti orqanları, bələddiyələr böyük pərakəndə ticarət şəbəkələrinin satışını nəzərə alaraq yerli istehsalçını dəstəkləməyə, eləcə də inhisar əleyhinə tədbirləri reallaşdırmağa yönəlmiş tədbirlərin icra edilməsinə nəzarət mexanizmləri gücləndirilməlidir.

# III FƏSİL AQRAR SAHƏDƏ İSTEHLAK BAZARININ MAKROİQTİSADİ TƏNZİMLƏNMƏSİ MƏSƏLƏLƏRİ

## 3.1. Aqrar istehlak bazarının tənzimləməsində qiymət siyasəti və vergi mexanizmi

Aqrar sahənin dövlət tənzimlənməsi dövlətin kənd təsərrüfatı məhsullarının istehsalına, emalına, satışına, xammal, ərzaq və eləcə də aqrar sənaye istehsalının istehsal-texniki və maddi-texniki təchizatı sisteminə effektiv müdaxilənin məcmusu olub bilavasitə ölkənin daxili mənbələr hesabına ərzaq təminatına xidmət edir [23, s. 427].

İstehlak bazarına dövlətin tənzimləyici təsirinin əsas hədəfi bazar iştirakçılarının ehtiyac və maraqlarını optimallaşdırmaq, fiskal, pul-kredit və subsidiya siyasətinin stimullaşdırıcı təsiri vasitəsilə onları aktivləşdirməkdir.

Müasir şəraitdə ölkə iqtisadiyyatının möhkəmləndirilməsində sahələrarası istehlak bazarının inkişafı və onlar arasında istehsal-iqtisadi əlaqələrin tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir. Hər bir belə istehlak bazarı istehsalın bu və ya digər qrup malların, xidmətin istehsalçılara çatdırılmasının əsas mərhələlərini həyata keçirir. Hər bir mühm sahə yanacaq-enerji, aqrar-sənaye, neft-kimya və s. iri istehlak bazarını təşkil edir. Bunlar sahələrarası ixtisaslasdırma və kooperasiyasının yeni forması əsasında təşəkkül tapır və özünün müxtəlif tipli iqtisadi, təşkilat-təsərrüfat, texnoloji əlaqələrin mürəkkəb sisteminə əsaslanır. Aqrar istehlak bazarının inkişaf bazası ərzaq və digər kənd təsərrüfatı mallarının istehsalı, emalı və bölüşdürülməsində iştirak etmiş bütün sahələrin müəssisələri arasında çoxcəhətli istehsal-iqtisadi münasibətlərin düzgün əlaqələndirilməsindən və tənzimlənməsindən ibarətdir.

Aqrar sahədə istehlak bazarının stimullaşdırılması üsulları isteh-

salçı və istehlakçı maraqlarına uyğun olaraq müvafiq tənzimləmə siyasəti ilə həyata keçirilir. Stimul yaratmaq üsulları istehsalçı və istehlakçı davranışına təsr etməklə, onların gəlirlərinin artırılmasına, bazarın əmtəə və xidmət təklifini istehlak səbətinin tərkibinin yaxşılasdırılmasına doğru yönəldilir. İstehlak bazarına stimullar yolu ilə təsirlər dövlətin siyasətini, ərzaq istehsalçılarının təşəbbüsünü və həmçinin obyektiv bazar şəraitində təşkili mexanizmlərinin səmərəli variantları ilə mümkün olur [58, s. 211-212].

Kənd təsərrüfatı istehlak bazarında iqtisadi münasibətlərin tamamilə yeni prinsiplər əsasında formalaşdığı dövrümüzdə hər mərhələdə yaranan problemlərin tənzimlənməsinə və həllinə ehtiyac var. Bu problemlər aqrar-ərzaq bazarının daxili iqtisadi münasibətləri, bazar ilə iqtisadiyyatın digər sahələri arasında iqtisadi əlaqələr, bazarda müəssisələrin təşkili formalarının təkmilləşdirilməsi, ictimai birliklərin yaradılması, dövlət orqanları, agentliklər, onların ixtisaslarının artırılması və s. münasibətlərlə bağlıdır.

Tənzimlənməsi xüsusi əhəmiyyət kəsb edən problemlərə toxunaraq prof. T.Ə.Quliyev yazır: “Kənd təsərrüfatı məhsulları emal edən və aqroservis, tədarük müəssisələrinin fəaliyyətinin uzlaşdırılması, axırıncıların fəaliyyət nəticələri üzrə mənfəət, rentabellik normasının limitləşdirilməsi və bununla da istehsalçılar üzərində soyğunçuluq hallarının aradan qaldırılması” məsələləri [81, s. 462] aqrar istehlak bazarının inkişafı baxımından diqqət mərkəzindən kənarda qala bilməz.

Dövlət cəmiyyət üçün müəyyən iqtisadi funksiyaları yerinə yetirir: bazarı qoruyur və inhisarçılıqla mübarizə aparır, xarici təhlükələri neytrallaşdırır, pul kütləsini tənzimləyir, sosial problemləri həll edir və istehlak mallarının istehsalına kömək edir. Məhz bunlar aqrar istehlak bazarının dövlət tənzimlənməsinin mahiyyətini müəyyən edirlər. Belə tənzimlənməyə bazar mexanizminin vasitəsilə ekoloji və sosial problemlərin həlli üçün normal şəraitin yaradılması məqsədi ilə təsərrüfat subyektlərinin fəaliyyətinə və bazar

konyukturuna dövlətin təsiri kimi baxmaq lazımdır [121, s. 123].

İqtisadiyyatın aqrar istehlak bazarına dövlətin tənzimləyici təsirinin daha mühim prinsiplərini aşağıdakı kimi ifadə etmək olar:

- iqtisadi və sosial hədəflərin vahidliyi prinsipi;
- aqrar-ərzaq bazarının idarəçiliyində indikativliklə direktivliyi əlaqələndirmək;
- aqrar istehlak bazarında mühafizəkarlığın tətbiqi.

Aqrar istehlak bazarının sabitləşdirilməsi prosesində dövlətin iqtisadi tənzimlənməsinin ən vacib prinsipi aqrar sahə ilə sənaye arasında ekvivalent münasibətlərin qurulması sayılır [173, s. 30].

İqtisadçı alim, professor V.H.Abbasovun fikrincə aqrar bazarın iqtisadi tənzimlənməsi geniş təkrar istehsalın subsidiyalaşmasını, vergi və kredit siyasətinin stimullaşdırılmasını özündə əks etdirən dövlət proteksionizm siyasətinə əsaslanır. Aqrar bazarın iqrisadi stimullaşdırma məsələlərinin həlli aşağıdakı istiqamətləri həll etməlidir:

- ölkənin ərzaq təhlükəsizliyinin stimullaşdırılmasına;
- kənd təsərrüfatı ilə sənaye arasında elmi cəhətdən əsaslandırılmış ekvivalent münasibətlərin müəyyənləşdirilməsinə;
- kənd təsərrüfatında əmtəə istehsalçılarının geniş təkrar istehsalını təmin edə biləcək səviyyədə gəlirlərin təmin edilməsinə;
- elmi-texniki tərəqqinin nailiyyətlərinin və istehsalın səmərəliliyinin artırılmasına şərait yaradılmasına;
- yaxın və uzaq xarici ölkələrin bazarlarına çıxmaq və ölkə daxilində vahid iqtisadi sistemin yaradılmasına nail olmaqdan ibarətdir [25, s.149].

Aqrar istehlak bazarında məhsul satışının inkişafı və sahələrarası münasibətlərin tənzimlənməsi bir sıra tədbirlərin: dövlət sifarişləri, vergiqoyma, investisiya qoyuluşu, qiymətlər sistemi, gömrük-tarif sistemi, stimullaşdırma, məhdudlaşdırma metodları və s. vasitəsilə həyata keçirilir.

İqtisadçı alimlər İ.Alıyev və A.Mustafayevin birgə məqaləsində

qeyd edilir ki, müasir dövr üçün iqtisadiyyatın digər sahələrində olduğu kimi, aqrar sferada da dövlət 3 əsas makro-funksiyanı reallasdırmalıdır [28, s. 15]:

- sahələrarası mütənasibliyn optimallaşdırılması üçün resursların yenidən bölgüsünü həyata keçirmək;
- sosial bərabərsizliyin minimuma endirilməsi üçün əhali gəlirlərinin yenidən ədalətli bölgüsünə nail olmaq;
- makroiqtisadi stabilliyi təmin etmək.

Onların fikrincə, dövlət belə tədbirləri həyata keçirərkən aqrar istehlak bazarında mövcud vəziyyəti mütləq nəzərə almalıdır. Bundan başqa, aqrar istehlak bazarının dövlət idarəetməsindəki diferensiasiyasını da mütləq nəzərə almaq lazımdır. Belə ki, başda dövlət olmaqla bələdiyyə strukturu, xüsusi mülkiyyətdə olan təsərrüfat strukturları qarşılıqlı bazar qüvvələrini təşkil etməlidirlər.

Məlum olduğu kimi, kənd təsərrüfatı müəssisələri dövlətlə yanaşı, öz işçilərinə, kooperativlərə, şirkətlərə, eləcə də pərakəndə satış bazarlarında çoxlu sayda müxtəlif məhsullar satırlar. Həmçinin istehsal etdikləri məhsullardan toxum və yem fondları (əsas və sığorta) verir və natural borclarını ödəyir. Belə ki, onların ümumi istehsalı dövlətə satılan malların həcmindən xeyli çoxdur. Aqrarsənaye sisteminin müəssisələri üçün müəyyən edilmiş dövlət sifarişlərində onların bütün məhsulları deyil, yalnız müəyyən müqavilə əsasında dövlətə satılacaq miqdarı əks etdirilir [62, s. 123-132].

Kəndli (fermer) təsərrufatları, kiçik müəssisələr kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan kooperativlər və başqa birləsmələr dövlət sifarişi əsasında fəaliyyət göstərə bilərlər. Eyni zamanda onlar bazarın tələb və təklifi əsasında da öz fəaliyyətlərini qura bilərlər. Lakin dövlət sifarişi onların uzun müddətli fəaliyyətinə, inkişafına, rəqabətqabiliyyətli olmasına təminat verə bilər. Aqrar müəssisələri üçün dövlət tərəfindən verilən sifarişlərin böyük iqtisadi əhəmiyyəti vardır. Beləliklə, yeni şəraitdə dövlət kənd təsərrüfatı istehsalı və xidmətləri sisteminin inkişafında, onların fəa-

liyyətinin tənzimlənməsində onun fəal iştirakını təmin edir. Həmçinin kənd təsərrüfatı müəssisələrinə dövlət sifarişlərinin verilməsi onların məhsullarının bazar iqtisadiyyatı şəraitində olan müəssisələrə satışında uzunmüddətli zəmanətli tərəfdaş tapır. Dövlət satınalmaları sistemi aqrar-sənaye müəssisələrinin iqtisadiyyatının yaxşılaşdırılmasının bütün vasitələri əsasında tədarük olunan məhsulların kəmiyyətinin artırılmasına və keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilməlidir. Azərbaycanda dövlət sifarişi hələlik istehsalçının təsərrüfat fəaliyyətinə çevik təsir imkanına malik deyil. Dövlət sifarişi təkmil forma almadığından istehsalçı müəssisələrin iqtisadi dayaqları kifayət qədər güclü deyil. Çox hallarda onlar bazarın tələblərindən daha çox öz natural tələblərini nəzərə alırlar.

Əsas kənd təsərrüfatı məhsulları istehsalına dair dövlət sifarislərinin, müəssisələr tərəfindən götürülən başqa öhdəliklərin yerinə yetirilməməsinin başlıca səbəbləri yuxarıda söylədiyimiz amillə yanaşı, aqrar sahənin səmərəli istehsal quruluşunun formalasmaması, yerli istehsalçıların mənafelərinin kifayət dərəcədə qorunmamasından irəli gəlir. Bunun nəticəsində kənd təsərrüfatı müəssisələri ilə tədarük təskilatları, emal müəssisələri, həmçinin həmin məhsulların istehlakçıları arasında əvvəlcədən bağlanan razılaşmalar pozulur. Nəticədə, sahələrarası istehsal-iqtisadi münasibətlərin tənzimləyici funksiyası zəifləyir.

Tədqiqatlar göstərir ki, yeni şəraitdə aqrar sahənin intensiv inkişafının təmin olunması və dövlət sifarişləri vasitəsilə onun tənzimlənməsi məqsədilə kənd təsərrüfatında dərin struktur dəyişiklikləri aparılmalıdır. Bu məqsədlə meliorasiya və irriqrasiya tədbirləri həyata keçirmək hesabına respublikada mövcud olan 1,9 milyon hektar əkin sahəsi 2,5 milyon hektara çatdırılmalı (işğaldan azad edilmi. ərazilər nəzərə alınmaqla) taxıl, tərəvəz, üzüm, pambıq, tütün, çay, meyvə və giləmeyvə, bütün növ heyvandarlıq məhsulları istehsalının artırılması dövlətin aqrar siyasətinin əsas xəttini təşkil etməlidir.

Müasir şəraitdə dövlət əsas ərzaq məhsulu olan taxılçılığın inkişafına böyük əhəmiyyət verməkdədir. Bu məqsədlə müvafiq Dövlət Proqramları əsasında ümumi əkin sahələrinin əhəmiyyətli hissəsi taxıl istehsalı üçün istifadə olunmalı, heyvandarlığın yem bazasının möhkəmləndirilməsi üçün yem bitkilərinin sahəsini artırmaq, məhsuldarlığını yüksəltmək üçün mühüm tədbirlər həyata keçirilməlidir. Həmçinin taxıl və heyvandarlıq məhsulları istehsalının artımı müvafiq müqavilə şərtləri əsasında stimullaşdırılmalı və tənzimlənməlidir. Bununla yanaşı pambıq, tütün, üzüm, tərəvəz, bostan bitkilərinin əkin sahəsi, ümumi məhsul istehsalı mülkiyyət formasından asılı olmayaraq bütün təsərrüfat sistemləri üzrə tənzimlənməlidir.

Heyvandarlıq sahələrinin inkişafı regional, sahələrarası istehsal-iqtisadi əlaqələrin dərinləşməsində, əhalinin qiymətli ərzaq məhsullarına tələbatının ödənilməsinə şərait yarada bilər. Qeyd etmək lazımdır ki, hazırda respublika əhalisinn tələbatını ödəmək üçün zəruri ərzaq məhsullarının, xüsusən ət və ət məhsullarının, süd və süd məhsullarının, yumurtanın müəyyən hissəsi kənardan - xarici ölkələrdən idxal olunur. Vəziyyətdən çıxış yolunu respublikada mövcud imkanlardan maksimum istifadə olunmasında, bu sahə ilə məşğul olan regionların heyvandarlıq məhsulları istehsalına maddi marağının artırılmasında axtarmaq lazımdır.

Bununla əlaqədar, istehsal olunan heyvandarlıq məhsulları ərazilərin özündə son - hazır məhsula çevrilməsi məsələsi həll edilməlidir. Bu məqsədlə mövcud emal müəssisələri yenidən qurulmalı, istehsal gücləri regionların xammal ehtiyyatlarına uyğunlaşdırılmalı və müxtəlif çeşiddə, yeni innovativ texnologiyalar əsasında məhsul buraxılması təmin edilməlidir. Bazar iqtisadiyyatının prinsipləri əsasında işləyərkən elə etmək lazımdır ki, emaledici sənayenin kənd təsərrüfatı istehsalına təsiri gücləndirilsin. Ət kombinatları, süd emalı zavodları və digər emaledici müəssisələr ərazi səviyyəsində inteqrator müəssisələrə çevrilsin, yəni özlərini kənd təsərrü-

fatı istehsalından təcrid olunmuş şəkildə deyil, onların bir hissəsi kimi aparsınlar. Belə bir vəziyyət sahələrarası, regional istehsal-iqtisadi əlaqələrinin genislənməsinə, heyvandarlığın inkişafına, onun tənzimlənməsinə şərait yarada bilər.

Məlumdur ki, heyvandarlıqla məşğul olan müəssisələrə nisbətən ət və süd kombinatları əlverişli maliyyə imkanına malikdirlər. Həmin kombinatlar nəzərə alsalar ki, xammal təminatçılarının təsərrüfat fəaliyyətinin yaxşılaşdırılması onların maraqlarına daha çox uyğun gəlir, təbii ki, bu halda xammal təminatçıları ilə iqtisadi əlaqələrini təkmilləşdirəcək, ona daha mükəmməl xarakter verəcək.

Bu əsaslarla da aqrar istehlak bazarının inkişafında aşağıdakı istiqamətlərin nəzərə alınması sahənin dinamik inkişafına təkan verər:

- aqrar istehsalatların dərinləşməsi və inkişafı ilə bağlı hüquqi bazanın daim möhkəmləndirilməsi və mövcud qanunların real işləmə mexanizmlərinin tətbiq edilməsinə nəzarəti təmin etmək;
- yerli aqrar əmtəə istehsalçılarını stimullaşdırımaqla daxili bazarın qorunması;
- daxili bazarın bütünlüklə yerli kənd təsərrüfatı məhsulları istehsalı hesabına təmin edilməsi;
- strateji kənd təsərrüfatı məhsulları üzrə dövlət tədarük və ehtiyatlar fondunun yaradılması;
- kənd təsərrüfatı məhsulları bazarının əlverişsiz xarici təsirlərdən qorunması məqsədi ilə vergi və gömrük sisteminin qarşılıqlı təkmilləşdirilməsinin təmin edilməsi [61, s. 112-115].

Müasir dövrdə aqrar-sənaye sistemi istehsal-iqtisadi əlaqələrin inkişafında, onun istehsalın nəticəsinə təsir gücünün artmasında qiymət mexanizmi böyük rol oynayır. İnzibati-amirlik sistemində aqrar-sənaye müəsissə və birliklərində istehsal olunan məhsulların qiymətinin formalaşdırılması mərkəzləşdirilmiş qaydada həyata keçirilirdi. Belə bir şəraitdə qiymət nəinki təkcə dövlətlə müəssisələr arasında olan iqtisadi münasibətləri, eyni zamanda vahid təsər-

rüfat orqanizmi kimi bu müəssisələrdəki bölmələrdə iqtisadi əlaqələri də tənzimləmirdi. Dövlət tərəfindən mərkəzləşdirilmiş qaydada müəyyən edilən qiymətlər aqrar-sənaye inteqrasiyası şəraitində məhsulların tədarük qiymətlərinin məzmununu əks etdirmirdi. Eyni zamanda onlar iqtisadi vasitəyə çevrilərək istehsal həlqələri arasında alqı-satqı münasibətlərini də təmin etmirdi.

Kənd təsərrüfatı məhsulları ilə sənaye malları arasında hələ də davam edən qiymət disparitetliyi aqrar sahənin inkişafında destruktiv meyllərin artmasına gətirib çıxarır. Qiymət disparitetliyinin mövcud vəziyyətinin Qərb ölkələrindən fərqi ondan ibarətdir ki, bu ölkələrdə kənd təsərrüfatında məhsuldarlıq səviyyəsinin yüksək olması səbəbindən orada bu disparitetlik özünü kəskin şəkildə biruzə vermir [94, s. 137].

Mütəxəssislərin fikrincə, müasir şəraitdə aqrar sahəyə dövlət himayəsinin əsas məqsədlərindən biri kənd təsərrüfatı məhsulları ilə istehsal vasitələrinin qiymətləri arasında paritetliyin ikincinin xeyrinə pozulmasından doğan fəsadların aradan qaldırılmasına yönəlik tədbirlərdən ibarətdir [95, s. 22-29].

Professor V.H.Abbasovun fikrincə qiymət tənzimlənməsi, yaxud da kənd təsərrüfatı məhsulları istehsalına dövlət himayədarlığı müəyyən səviyyəyə qədər qida məhsulları ilə bazarın zənginləşməsinə xidmət etməlidir. Bazarın ərzaq və qida məhsulları ilə zənginləşməsi zamanı isə dövlət maliyyə resurslarını kənd əhalisi ilə şəhər əhalisinin nisbi gəlir paritetliyinin gözlənilməsinə yönəltməyə üstünlük verilməlidir. Qiymət tənzimləmə sistemi əsasən aşağıdakı məqsədlərə yönəlməlidir:

- qiymət sabitliyinin mümkün qədər dar intervalda dəyişməsinə nail olmaq;
- kənd təsərrüfatı istehsalçılarına qiymət himəyadarlığı geniş təkrar istehsalın keçiriməsinə imkan verməlidir;
- qiymətlər sisteminin köməyi ilə istrhsalın həcmini və strukturunu tənzimləmək [25, s.154].

Bazar münasibətlərinin inkişafı ilə əlaqədar aqrar istehlak bazarında qiymətin təkmilləşdirilməsi sahəsində qarşıya bir sıra ciddi tələblər qoyulur. İnteqrasiya prosesinin dərinləşməsi, kənd təsərrüfatında sahələrarası əlaqələrin xüsusiyyətləri təkcə istehsal bölmələri üzrə deyil, eyni zamanda kənd təsərrüfatı və texnoloji cəhətdən onunla bağlı olan sahələri (bütünlükdə aqrar-sənaye sistemi çərçivəsində) bir təsərrüfat orqanizmi kimi nizamlayır.

Qiymət mexanizminin rolunun gücləndirilməsinin təmin olunması və bu problemin aqrar istehlak bazarı daxilində həyata keçirilməsi qiymətin əmələgəlmə mexanizminin ardıcıllıqla təkmilləsdirilməsini tələb edir.

Aqrar istehlak bazarında təsərrüfatçılıq mexanizminin təkmilləsdirilməsi sahəsində söylənilən mülahizələr və toplanmış təcrübə təsdiq edir ki, bazar daxilində sahələrarası məhsullara müəyyənləşdirilən qiymətlər mülkiyyət formasından asılı olmayaraq resurs vahidində (torpağı da daxil etməklə) bərabər yığımı, qarşılıqlı əlaqələrin etibarlılığını təmin etmək və bu sahələrdə geniş təkrar istehsalı həyata keçirməyə lazımi şərait yaratmalıdır. Qiymətin əmələ gəlməsində bu qayda aqrar istehlak bazarı və birliklər çərçivəsində istehsalı bazar münasibətlərinin prinsipləri əsasında təskilində, müxtəlif sahə, təsərrüfat və istehsal bölmələri arasında iqtisadi əlaqələrin gücləndirilməsində, eyni zamanda bu münasibətlərin ardıcıllıqla həyata keçirilməsində xüsusi əhəmiyyət kəsb edir.

Yuxarıda qeyd olunan tələblər baxımından qiymətin əmələ gəlməsi aqrar istehlak bazarı daxilində sahələrarası qiymətin əmələ gəlməsində olduğu kimi vahid prinsip rəhbər götürülməklə kənd təsərüfatı məhsullarına qiymətin müəyyənləşdirilməsi daha məqsədəuyğundur. Bu prinsip əsasında strateji (dövlət inhisarında qalan) kənd təsərrüfatı məhsuluna dövlət alış qiymətinin müəyyənləşdirilməsi nəzərdə tutulmalıdır. Bununla əlaqədar olaraq, aqrar istehlak bazarında, müəssisələrdə təsərrüfatçılıq mexanizminin, qarşılıqlı iqtisadi əlaqələrin genişləndirilməsi regionlararası alış və yaxud

müqavilə qiymətinin təkmilləşdirilməsi yolu ilə həyata keçirilməlidir.

Aqrar istehlak bazarında, birliklərdə kənd təsərrüfatı məhsullarına müəyyənləşdirilən alış qiymətləri o vaxt özünümaliyyələşdirməni təmin edər ki, kənd təsərrüfatı müəssisələrində sənaye emalına verilən məhsul istehsalı həcminin artımını və keyfiyyətinin yüksəldilməsini stimullaşdıra bilsin. Belə stimul o vaxt yaradılır ki, alış, müqavilə qiymətlərinin səviyyəsi kənd təsərrüfatında və sənayedə istehsalın rentabelliyinin artmasına şərait yaratmış olsun.

Buna baxmayaraq, hazırda aqrar istehlak bazarı və istehsal birlikləri arasında üzümün, tərəvəzin, meyvənin, pambığın, tütünün, heyvandarlıq məhsullarının rentabellik səviyyəsində kəskin fərqlər vardır. Bəzi təsərrüfatlarda, həmçinin xüsusi sahibkarlıqla məşğul olan qurumlarda pambıq, tütün, üzüm, tərəvəz, meyvə və sair məhsullar istehsalının zərərlə başa gəlməsinə təsadüf olunur. Deməli, qiymətin mövcud səviyyəsi əksər halda kənd təsərrüfatı sferasında istehsal olunan, sənaye emalına verilən məhsulun və onun keyfiyyətini eyni dərəcədə stimullaşdıra bilmir. Bu baxımdan respublikanın təsərrüfatlarında əsas kənd təsərrüfatı məhsullarına qiymətin əmələ gəlməsi prosesi ardıcıllıqla təkmilləşdirilməli və tənzimlənməlidir.

İqtisadiyyatın bütün sahələrində olduğu kimi, aqrar istehlak bazarında da aparılan qiymət sistemindəki islahatlar qiymətin stimullaşdırıcı funksiyasının gücləndirilməsinə yönəldilməlidir. Hesab etmək olar ki, aqrar istehlak bazarı kifayət dərəcədə qayğıya ehtiyacı olan qurum olmaqla yanaşı, inkişaf etdirilməsi milli maraqlarımızın reallasmasının başlıca vasitələrindən biridir. Ona görə də aqrar istehlak bazarında kənd təsərrüfatı məhsulları üzrə qiymətin əmələ gəlmə mexanizminə dövlət tərəfindən xüsusi qayğı ilə yanaşılmalıdır.

Bütünlükdə aqrar istehlak bazarının həlqələrində onların marağını təmin edən optimal qiymətlərin seçilməsi, onun tənzimləyici

rolunun gücləndirilməsinin zəruriliyi kəskinliyi ilə ortaya çıxır. Yeni şəraitdə birbaşa bazar qiymətlərinə keçirilməsi məqsədəuyğun sayılmamalıdır. Əlalxüsus, bazarın lazımi məhsullarla təmin olunmadığı indiki şəraitdə azad qiymətlərin tətbiq olunması əhalinin həyat səviyyəsinin kəskin surətdə aşağı düşməsinə, iqtisadi əlaqələrin pozulmasına, vəziyyətin daha da dərinləsməsinə gətirib çıxara bilər. Bununla əlaqədar aqrar istehlak bazarında bir neçə qiymətdən istifadə olunması məqsədəuyğundur. Bura satınalma (tədarük), müqavilə (azad), təsərrüfatdaxili hesablaşma qiymətlərini aid etmək olar.

Müqavilə qiymətləri zəif də olsa, tədricən özünü doğrultmaqdadır. Xüsusi ilə pambıqçılıq, tütünçülük və fındıqçılıq sahəsində müqavilə qiymətləri tətbiq edilir. Əvvəlcədən istehsalçılar pambıq zavodları və tütün kombinatları ilə müqavilələr bağlayır. Becərmə dövründə istehsalçılara yanacaq və mineral gübrələrlə təminatda köməklik göstərilir. Müqavilə qiymətinin tətbiqi bir tərəfdən məhsul istehsalının artırılmasında istehsalçılara maddi stimul yaradar, digər tərəfdən aşağı rentabelli təsərrüfatların sayının azalmasına, onların maliyyə vəziyyətinin yaxşılaşmasına şərait yarada bilər.

Respublikamızda iqtisadi islahatların həyata keçirilməsi kənd təsərrüfatı məhsullarının alınmasında müqavilə qiymətinin (inflyasiya səviyyəsi nəzərə alınmaqla) miqyası daha da genişlənməlidir. Hazırda isə azad qiymətlər tətbiq olunur. Yeni şəraitlə əlaqədar qiymətlərin artması obyektiv zərurətdir. Eyni zamanda onun artmasının bir sıra obyektiv və subyektiv səbəbləri vardır.

Qiymətin artması birinci növbədə məhsul istehsalına sərf olunan material-texniki resurslarla bağlıdır. Bununla yanaşı maya dəyərinin tərkibində əmək haqqının xüsusi çəkisi müntəzəm olaraq artmağa meyillənməlidir.

Kənd təsərrüfatı məhsullarının satışı ilə bağlı qeyd edilənləri yekunlaşdırıb, təkmil satış sisteminin, daha doğrusu, “istehsalçı-istehlakçı” mənafelərinin balansını ehtiva edən sistemin formalaşması

üçün aşağıdakı tədbirlərin reallaşmasını lazımlı hesab edirik [68, s. 111-120].

*1)"Kənd təsərrüfatı məhsulları bazarı bəzi həlqələrində dövlət tərəfindən qiymətlərin tənzimlənməsi həyata keçirilsin. Soyuducu anbarlarda məhsulların saxlanılması üçün müxtəlif ticarət nöqtələrində - yarmarkalarda, kənd təsərrüfatı məhsullarının topdansatış mərkəzlərində və pərakəndə satış yerlərində icarə və xidmət haqlarının maksimum məbləği dövlət tərəfindən müəyyən edilsin. Bu qiymətlər barədə ictimaiyyət və kənd təsərrüfatı istehsalçıları KİV-lər vasitəsilə məlumatlandırılsın.*

*2) Aqrar məhsulların ölkədaxili və xarici bazarlara sərbəst çıxışına maneə olan müxtəlif bürokratik əngəllərin qarşısı ən sərt inzibati tədbirlərlə alınsın.*

*3) Aqrar istehsalçıların, xüsusilə, kiçik sahibkarların son istehlakçılara birbaşa çıxış imkanlarını artırmaq üçün kənd təsərrüfatı yarmarkalarının təşkili nümunəsi əsasında böyük sahələrdə ərazini bütövlükdə əhatə edə bilən aqrar satış köşkləri şəbəkəsinin yaradılması məqsədəuyğun olar. Köşklərin yaradılmasını yerli icra orqanları və bələdiyyələr təşkil edə bilər, onlarda icazə və xidmət haqlarının müəyyənləşməsini isə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən həyata keçirilməsi məqsədəuyğun olar. Köşklərin möhtəkir şəbəkəsinə çevrilməməsi üçün yerli bələddiyələrin təqdimatı əsasında Kənd Təsərrüfatı Nazirliyi tərəfindən fermerlərin müraciəti əsasında ünvanlı bölgüsü sistemi - hər bir köşkdə konkret fermer və ya onun nümayəndəsinin ticarətinə icazə verməyi nəzərdə tutan sistem yaradıla bilər. Virtual məlumat sistemi bu sferada lazımlı şəffaflığı da təmin edər.*

*4) Kənd təsərrüfatı məhsullarının emalı müəssisələrində, topdansatış mərkəzlərində, mağazalar şəbəkəsində və s.də inhisarçılığının qarşısının alınması üçün, həm istehsalçıların, həm də istehlakçıların mənafelərinə ciddi ziyan vuran inzibatçılığın qarşısını almaq üçün zəruri qanunverici bazanın yaradılması və ən sərt inzi-*

*bati tədbirlərin həyata keçirilməsi olduqca əhəmiyyətli bir məsələdir".*

Professor, əməkdar elm xadimi B.X.Ataşov qeyd edir ki, bazarlarda qiymətlərin qalxıb-enməsi, digər amillərlə yanaşı, əhəmiyyətli dərəcədə istehsalın mövsümi xarakterindən, təbii amillərdən asılı olur. Odur ki, sahibkarların qeyri-ekvivalent mübadilədə məruz qaldıqları zərəri azaltmaq üçün hökümət paritet qiymətləri dəstəkləməli və həmin qiymətlər sistemi istehsalın rentabelliyinin zəruri səviyyəsinin saxlanmasını təmin etməlidir [32, s. 342].

Bu qeyd edilən bütün istiqamətlər öz növbəsində dövlətin tənzimləmə siyasətini həyata keçirmək üçün müəyyən iqtisadi mexanizmlərdən, vasitələrdən istifadə olunmasını tələb edir. İqtisadi inkişafın hazırkı mərhələsində dövlət tənzimləmə siyasətinin qiymət, pul-kredit, büdcə, vergi, sığorta, gümrük-tarif sistemi və s. kimi iqtisadi vasitələrindən sistem halında, kompleks şəkildə istifadə olunması istehlak bazarının davamlı inkişafına təkan verən əsas mexanizmlərdəndir.

Bunlarla yanaşı, ölkədə kənd təsərrüfatı istehlak bazarının inkişafın və iqtisadi münasibətlərin tənzimlənməsi sahəsində vergi münasibətləri xüsusi əhəmiyyətə malikdir. Vergilər ilk növbədə iqtisadiyyatın dövlət tənzimlənməsinin çox mühüm amili və büdcə gəlirlərinin mənbəyi kimi qiymətləndirilir. O, inkişaf etməmiş regionların iqtisadiyyatının dirçəldilməsi və ölkənin ixrac potensialının artırılması üçün stimul kimi çıxış edir. Lakin hazırda aqrar istehlak bazarında tətbiq olunan vergilər çoxşaxəli, yüksək dərəcəli olduğundan məhsul satışını artırmağa, müxtəlif istehlak şəraitinə malik regionlarda eyni iqtisadi şərait yaratmağa imkan vermir. Qüvvədə olan vergi sistemi aqrar istehlak bazarı müəssisələrinin məhsul satışından və kənara xidmətlərdən əldə etdiyi gəlirlərin müxtəlif kanallara axmasının, onların maliyyə vəziyyətinin pisləşməsinin hələlik tam qarşısını ala bilmir. Bu həm də məhsul istehsalını artırmaqda, səmərəliliyi yüksəltməkdə işçilərin istehsalın nəticəsinə maddi

marağını yetərincə təmin etmir.

Fəaliyyəti zəifləyən kənd təsərrüfatı müəssisələrinin vergi borcları arta bilər. Vergi borclarının kəskin artması müəssisələrdə vəsait çatışmazlığına, debitorların artmasına və istehsalın nəticəsində maddi marağın zəifləməsinə gətirib çıxarır. Yeni iqtisadi şəraitdə vergi sistemi elə tətbiq olunmalıdır ki, aqrar bölmənin istehsal xüsusiyyətləri nəzərə alınsın, xüsusi sahibkarlığın üstün inkişafı təmin edilsin, sahələrarası, regional əlaqələrin tənzimlənməsinə şərait yaratsın.

Səmərəli vergi sistemi olmadan aqrar sahənin tənzimlənməsi mümkün deyil, çünki kənd təsərrüfatının iqtisadiyyatı vergilərin səviyyəsinə və onların birləşməsinə olduqca həssasdır [69, s. 13-20].

Azərbaycanın vergi qanunvericiliyi yalnız fiskal məqsədlərə xidmət etmir, həmçinin ölkə iqtisadiyyatının inkişafına, müxtəlif fəaliyyət sahələrinin tərəqqisinin stimullaşdırılmasına, investisiyaların və yeni texnologiyaların cəlb edilməsinə və bir çox hallarda sosial sahələrin dəstəklənməsinə və s. bu kimi məqsədlərin reallasdırılmasına da imkan verir. Fiskal, sosial və tənzimləyici funksiyaların əsasında həyata keçirilən çevik vergi siyasəti ölkədə aparılan iqtisadi siyasətin əsas tənzimləmə mexanizmlərindən biri sayılır.

Son 15 ildə Vergi Məcəlləsinin təkmilləşdirilməsi prosesində islahatlar prosesinin mərkəzində bu məsələlər dayanıb. Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının artırılması və bu sahədə sahibkarlığın inkişafının sürətləndirilməsi məqsədilə 2001-ci ildə kənd təsərrüfatı məhsulları istehsalçılarına dövri vergi güzəştlərinin verilməsini nəzərdə tutan qanun qəbul edilib. Aqrar sektorda mövcud olan 9 vergi və rüsumdan 8-nin azad edilməsi 2024-cü ilə qədər qüvvədədir. Bu, aqrar sahədə çalışan torpaq mülkiyyətçilərinin gəlirlərini və imkanlarını artıracaq.

2018-ci ilin noyabrın 30-da qəbul edilmiş "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Qanununda Vergi Məcəlləsində edilmiş 241 dəyişiklik əsasən aşağı-

dakı 5 istiqaməti əhatə etmişdir:

1. Sahibkarlığı dəstəkləmək;
2. Vergidən yayınmanı və "kölgə iqtisadiyyatı"nı miqyas baxımından azaltmaq;
3. Vergitutma bazasını genişləndirmək;
4. Vergi inzibatçılığını təkmilləşdirmək;
5. Vergi güzəştlərinin səmərəliliyini yüksəltmək.

Dövlət büdcəsinin xərclərinə (vergi xərclərinə) bərabər olan vergi güzəştləri və əlavə haqlarının həqiqi mütləq məbləğləri barədə məlumatların dövlət büdcəsinin icrası haqqında qanunun icrası barədə hesabatda əks olunması ilə bağlı suallar yaranır. Bildiyiniz kimi, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının büdcəsində və digər müvafiq sənədlərdə nəzərdə tutulan güzəştlər və azadolmalar barədə müvafiq məlumatların verilməsini təmin edir.

2019-cu ildən etibarən vergi güzəştləri və azadolmalarının genişləndirilməsi ilə yanaşı, əksər vergi növləri, əsasən əlavə dəyər, aksiz və torpaq vergisi, həmçinin qismən korporativ gəlir vergisi və fərdi gəlir vergisi üzrə vergi bazası əlavə olaraq (vergi ödəyicilərinin əhatə dairəsi) genişləndirilib və sadələşdirilmiş vergi ödəyicilərinin əhatə dairəsi nisbətən məhdudlaşdırılıb.

2019-cu ildə ölkədə qeyri-neft sektorunu inkişaf etdirmək və sahibkarlıq fəaliyyətini dəstəkləmək üçün aqrar sahə məhsulları istehsalçılarına tətbiq edilən vergi güzəştlərini daha 5 il müddətinə uzatmaq, kiçik sahibkarlıq subyekti təsisçisini dividend gəlirləri üzrə vergidən azad etmək məqsədilə Vergi Məcəlləsində müvafiq dəyişikliklər edilmişdir.

Həmin dəyişikliklərə əsasən kənd təsərrüfatı məhsulları istehsalçılarına tətbiq edilən mənfəət, əlavə dəyər, əmlak və sadələşdirilmiş vergilər üzrə güzəştlərin müddəti 2019-cu ildən 2024-cü ilə qədər uzadılıb. Bundan əlavə, aqrar sahə məhsullarının istehsalı ilə bağlı

müəyyən preparatların idxalı, kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların, onların ehtiyat hissələrinin istehsalı, idxalı və satışı müddətsiz əsaslarla ƏDV-dən azad olunub [13, s. 74].

Kənd təsərrüfatı məhsullarının istehsalçılarına verilmiş vergi azadolmalarının quruluşunda ƏDV-nin payı 2018-cı ildəki 49,2%-dən 2019-cu ildə 41,5%-ə ensə də, 2020-ci ildə bu göstərici 47,6%-ə yüksəlmiş, 2021-ci ildə yenidən azalaraq 43,2% təşkil edib. Mənfəət vergisinin payı isə 2018-cı ildəki 39,6%-dən 2019-cu ildə 45,7%-ə yüksəlsə də, 2020-ci ildə bu göstərici yenidən 9,6 faiz bəndi azalaraq 36,1%, 2021-ci ildə yenidən artaraq 39,2% təşkil edib (cədvəl 3.1.1).

**Cədvəl 3.1.1**

**2015-2021 ci illər kənd təsərrüfatı məhsullarının istehsalçılarına verilmiş vergi azadolmalarının quruluşu**

| Göstəricilər | 2018 | | 2019 | | 2020 | | 2021 | |
|---|---|---|---|---|---|---|---|---|
| | məbləğ, mln. manat | yekuna görə %-lə | məbləğ, mln. manat | yekuna görə %-lə | məbləğ, mln. manat | yekuna görə %-lə | məbləğ, mln. manat | Yekuna görə %-lə |
| ƏDV | 154,3 | 49,2 | 137,7 | 41,5 | 145,5 | 47,6 | 152,3 | 43,2 |
| Mənfəət vergisi | 124,2 | 39,6 | 151,4 | 45,7 | 110,7 | 36,1 | 138,5 | 39,2 |
| Sadələşdirilmiş vergi | 25,7 | 8,2 | 33,2 | 10,0 | 40,2 | 13,1 | 51,4 | 14,6 |
| Gəlir vergisi | 1,1 | 0,4 | 1,1 | 0,3 | 1,0 | 0,3 | 1,1 | 0,3 |
| Əmlak vergisi | 8,2 | 2,6 | 8,3 | 2,5 | 8,9 | 2,9 | 9,6 | 2,7 |
| CƏMİ | 313,5 | 100,0 | 331,7 | 100,0 | 306,4 | 100,0 | 352,9 | 100,0 |

*Mənbə: [222; 224]. AR İqtisadiyyat Nazirliyinin və AR DSK-nın məlumatları əsasında tərtib olunub.*

Kənd təsərrüfatı məhsullarının istehsalçılarına verilmiş vergi azadolmalarının tərkibində sadələşdirilmiş verginin xüsusi şəkisinin 2018-ci ildəki 8,2%-dən 2021-ci ildə 14,6%-ə, əmlak vergisinin payının isə müvafiq olaraq 2,6%-dən 2,7%-ə qalxması qeydə alınmışdır.

Aqrar sektorda, xüsusən də kənd təsərrüfatında mövcud olan çətinlikləri nəzərə alaraq vergitutmanın aşağıdakı variantlarını təklif edirik [68, s.113].

Birinci seçim:

- istehsalın inkişafı, ixracın artması, inflyasiyanın olmaması vergilərlə tənzimlənməlidir, dəqiq vergi mexanizmi yaratmaq lazımdır, vergiləri azaltmaq lazımdır, vergilərdən yayınmaların qarşısını almaq üçün sərt sanksiyaların tətbiqi;
- aqrar sahədə, xüsusilə kənd təsərrüfatında özəl müəssisələrin kənd təsərrüfatının maraqları naminə fəaliyyətinin gücləndirilməsi məqsədilə güzəştli vergilərin, kreditlərin, sığortaların tətbiqi və sahibkarların investisiyalarının müəyyən hissəsinin onların özlərinə qaytarılmasının tətbiqi.
- əmək haqqına görə əhalinin sosial müdafiəsi fonduna ayırmaların azaldılması;
- istehsalın genişləndirilməsi üçün ayrılan gəlirin bir hissəsinin vergilərdən tam azad edilməsi;
- vergilərdən istifadə etməklə sənaye müəssisələrinin rentabelliyinin tənzimlənməsi və bu hesabda büdcə boşluqlarının doldurulması;
- gəlir vergisində istifadə olunan faiz dərəcələri arasında kəskin fərqlərin azaldılması (mənfəətlilik səviyyəsi ilə cəlb edilməsi).

İkinci seçim:

- kənd təsərrüfatı müəssisələrində vergitutmanın çox sadələşdirilmiş formasının tətbiqi (torpaq vahidi üçün minimum əmək haqqının müəyyən məbləğinə qədər müxtəlif fondlara ayırmalar istisna olmaqla) (hamı üçün başa düşülən);

- emal sənayesində müxtəlif fondlardan ayırmalar istisna olmaqla, bütün vergilər ləğv edilməli və əlavə dəyər vergisinə əlavə edilməlidir (verginin məbləği istehsalçının mənafeyinə zidd olmamalıdır);

- barvermə yaşına çatmamış çoxillik bitkilərin əkildiyi torpaqların vergidən azad edilməsi;

- kənd təsərrüfatı maşın və avadanlıqları ilə bağlı xidmət təşkilatlarından (icarədarlar, lizinq təşkilatları və s.) satış qiymətinin 20-35%-i həcmində alınan verginin məbləğini müəyyən etmək.

Fikrimizcə, aqrar istehlak bazarında vergiqoymanın bir maddələr altında mərkəzləşdirilməsi daha faydalı olardı. Bu, bir tərəfdən, vergi sistemində yaranmış mürəkkəbliyi, çoxşaxəliliyi, anlaşılmazlılığı aradan qaldırar, uçot-hesabat və statistika işini sadələşdirər, digər tərəfdən, vergidən yayınma hallarının qarşısını alar, dövlət və yerli büdcələri sabit gəlirlə təmin edilər, məhsul istehsalının artımının tənzimlənməsinə, müəssisələrinin maliyyə vəziyyətinin sabitləşməsinə əhəmiyyətli dərəcədə təsir göstərər.

Aqrar bölmədə tətbiq olunan vergi növlərinin, təbii-iqtisadi, istehsal xüsusiyyətlərini nəzərə alaraq bir vergi növündə birləşdirilməsi (torpaq vergisində) torpaqdan maksimum səmərəli istifadə edilməsinə, mənfəətdən istifadənin yaxşılaşdırılmasına xidmət edə bilər. Həmçinin torpaq vergisinin bu cür tətbiqi zamanı əvvəllər mövcud olan istehsal xatirinə istehsal iş üsulunu da aradan qaldırar, sahə vahidindən, hər sentner məhsul satışından daha çox pul vəsaiti, mənfəət əldə etməyə, istehsalın səmərəliliyini yüksəltməyə şərait yarada bilər [62, s. 129].

Yeni iqtisadi şəraitdə vergi sistemi elə tənzimlənməlidir ki, aqrar bölmənin istehsal xüsusiyyətləri nəzərə alınsın, xüsusi sahibkarlığın üstün inkisafı təmin edilsin, sahələrarası regional əlaqələrin genişlənməsinə şərait yaratmaqla bərabər istehlak bazarının inkişafına təkan versin.

## 3.2. Aqrar istehlak bazarında kənd təsərrüfatı məhsullarının qiymət tənzimlənməsi mexanizmləri

İnkişaf etmiş ölkələrin təcrübəsindən görsənir ki, istehlak bazarında tarazılığın təmini və qiymətlərin səviyyəsində sabitliyin əldə edilməsi ölkənin etibarlı ərzaq təminatını qorumağın ən mühüm ilkin şərti olaraq mövcuddur.

Qiymət tənzimlənməsi və bazar mexanizmlərinin əlaqələndirilməsi üzrə səmərəlilik xeyli dərəcədə ayrı-ayrı ölkələrin bazarlarının inkişafı mühitində yeni informasiya iqtisadiyyatı ilə müəyyənləşdirilir [110, s.1965].

İqtisadi ədəbiyyatda informasiya cəmiyyətinin yeni iqtisadi sisteminin formalaşmasına müxtəlif yanaşmalara rast gəlinir. Fikrimizcə, daha ümumi şəkildə bunlar aşağıdakılardan ibarətdir:

- müasir informasiya sistemlərinin tətbiqi istehsalçılarla digər kommersiya strukturları arasında sahələrarası əlaqələrin inkişafına gətirib çıxarır;

- yeni elektron mühitdə əmək məhsullarının maya dəyəri prinsipi informasiya şəbəkəsi ilə müəyyən edilir. Şəbəkələşdirilmiş informasiya mühitində sabit və marjinal xərclərin azaldılması ilə bağlı proseslər baş verir, informasiyanın istehsalçıdan istehlakçıya ötürülməsi üçün vaxt intervalı azalır;

- yeni şəbəkələşmiş informasiya mühitində səylər kommersiya və sahibkarlıq strukturları üzrə bütün iştirakçılar və işçilər arasında proporsional şəkildə bölüşdürülür, bunun nəticəsində idarəetmə işi daha da effektiv hal alır;

- yeni şəbəkə informasiya sistemində işçilərin birgə işə fəallığı və marağı artır, menecerlərin və marketoloqların motivasiyası yüksəlir və bu fəaliyyət kommersiya və sahibkarlıq strukturları üzrə iş nəticələrindən güclü şəkildə asılıdır;

- ənənəvi materialların beynəlxalq standartlara cavab verən daha texnoloji və müasir materiallarla əvəz edilməsi, ən son informasiya-

kommunikasiya texnologiyalarının tətbiqi ilə bağlı innovativ layihələrin daim təkmilləşdirilməsi;

- yeni şəbəkə informasiya sistemi kommersiya iştirakçılarının yaradıcılıq qabiliyyətlərinin və fərdi qabiliyyətlərinin dəyərinin artırılması əsasında yeni imkanların və orijinal həllərin axtarışını stimullaşdırır [178, s. 943].

Yuxarıda qeyd edilənləri aqrar sahənin istehlak bazarına uyğunlaşdırmağa çalışsaq görərik ki, doğrudan da bazarın təhlili və onun barəsində hərtərəfli informasiya istehlakçı üçün çox vacibdir. Əməkdar elm xadimi, prof. B.Ataşovun fikrincə, *"bu informasiya sayəsində istehsalçılar və ixracatçılar bazarın imkanlarının dəyişməsinə vaxtında uyğunlaşa bilirlər. İqtisadçı alim haqlı olaraq ölkə iqtisadiyyatında istehsalçı və alıcı arasında kommersiya əqdlərinin bağlana bilməsi üçün iki elementin: 1) bazar haqqında informasiyanın və 2) zəruri hüquqi bazanın və bazar infrastrukturunun müvafiq təsisatlarının mövcudluğuna əminliyini bildirir"* [32, s. 346].

Ölkə aqrar sahədə bəzi zəruri resurslardan – xüsusən də, mineral gübrələrdən istifadənin səviyyəsi müxtəli illər üzrə dinamik artım baş versə də, hələ də lazımi səviyyəyə nail olunmayıb. Belə ki, biz 2005-ci ildə dəyəri – tonu 185 doll. olan 77,3 min t. gübrə sərfini heç də məqbul saymaq olmaz. Yaxud hesab etmək olmaz ki, 2014-cü ildə 99,6 min t. gübrə istifadəsi israfçılıqdır. Ona görə ki, hətta 2014-cü il ərzində ölkə üzrə əkilmiş sahələrin cəmi 61%-nə gübrə verilib. Beləliklə, 2015-ci ildə 21 min ton, 2020-ci ildə 86 min ton, 2021-ci ildə 89 min ton olduğunu nəzərə alıb, hesablamalar aparaq (cədvəl 3.2.1).

Beləliklə, ASK məhsulları üzrə qiymət dispariteti barədə müəyyən təsəvvürlərə nail olunub və bu cür vəziyyətin aqrar sahibkarlığın gəlirini azaltması müşahidə edilir.

Aqrar sahibkarlıq qiymət disparitetinin nəticəsi olaraq hansı itkilərlə üz-üzədir? Daha dolğun mənzərəni

$$Q = (i_{res} - i_{kt}) \times \sum P^0_{res} q^1_{res} \qquad (3.2.1)$$

**Cədvəl 3.2.1**

**2010-2021 ci illərdə kənd təsərrüfatı istehsalçılarının alıcılıq qabiliyyətinin qorunması konsepsiyasına əsaslanan qiymət paritetinin müəyyən edilməsi**

| İllər | Dənli bitkilər üzrə | | | Ölkəyə idxal olunan gübrə üzrə | | | Qiymət pariteti |
|---|---|---|---|---|---|---|---|
| | 1 s. satış qiyməti | 2005-ci ildə 1 s. satış qiyməti | Əsas ilin baza ilinə nisbəti, % | 1 t. satış Qiyməti | 2005-ci ildə 1 t. satış qiyməti | Əsas ilin baza ilinə nisbəti, % | |
| 2010 | 22,80 | 13,24 | 1,72 | 404,4 | 185,8 | 2,18 | 0,79 |
| 2012 | 23,90 | 13,24 | 1,81 | 472,8 | 185,8 | 2,55 | 0,71 |
| 2013 | 21,20 | 13,24 | 1,60 | 484,9 | 185,8 | 2,61 | 0,61 |
| 2014 | 21.7 | 13,24 | 1,64 | 517,9 | 185,8 | 2,79 | 0,59 |
| 2015 | 24,17 | 13,24 | 1,83 | 486,8 | 185,8 | 2,62 | 0,70 |
| 2016 | 25,3 | 13,24 | 1,91 | 452,4 | 185,8 | 2,44 | 0,78 |
| 2017 | 26,27 | 13,24 | 1,98 | 309,2 | 185,8 | 1,66 | 1,19 |
| 2018 | 24,47 | 13,24 | 1,85 | 295,8 | 185,8 | 1,59 | 1,16 |
| 2019 | 31,83 | 13,24 | 2,40 | 276,1 | 185,8 | 1,49 | 1,61 |
| 2020 | 35,73 | 13,24 | 2,70 | 293,0 | 185,8 | 1,58 | 1,71 |
| 2021 | 35,99 | 13,24 | 2,72 | 296,3 | 185,8 | 1,60 | 1,74 |

*Mənbə: [22];[221]. Dövlət Statistika Komitəsinin məlumatları əsasında hazırlanıb.*

*Qeyd: göstəricilər fərdi sahibkar təsərrüfatlarına məxsusdur.*

metodu ilə müəyyən edə bilərik. Burada Q – disparitetdən irəli gələn maliyyə itkiləridir. Öncəki kimi resurs sərfini maya dəyərinə əsasən qəbul edib, hesablamalar aparaq. Ilk olaraq, dənli bitkilərə münasibətdə məsələni aydınlaşdıraq (cədvəl 3.2.2).

Aydındır ki, müxtəlif resursların həm qiymət, həm də məsrəf göstəricilərinin dəqiq müəyyənləşməsi problematikdir və buna görə də metodu qismən modifikasiya edib, Q modelinə əsaslana bilərik.

**Cədvəl 3.2.2**

**2010-2021 ci illərdə dənli bitkilər istehsalı üzrə qiymət disparitetindən yaranan maliyyə itkiləri**

| İllər | Dənli bitkilər istehsalı üzrə | | | | | |
|---|---|---|---|---|---|---|
| | 1 s. maya dəyərinin baza dövrünə nisbəti | 1 s. satış qiymətinin baza dövrünə nisbəti | Maya dəyərinin dəyişməsinin, Satış qiymətinin dəyişimindən fərqi | Baza ilində 1 s. satış qiyməti | Məhsul istehsalının həcmi, mln. t. | Cəmi maliyyə itkisi, mln. manat |
| 2010 | 2,68 | 1,72 | 0,96 | 13,24 | 1,88 | 13,9 |
| 2012 | 2,66 | 1,81 | 0,85 | 13,24 | 2,31 | 14,4 |
| 2013 | 2,24 | 1,60 | 0,64 | 13,24 | 2,61 | 13,8 |
| 2014 | 2,52 | 1,64 | 0,88 | 13,24 | 2,72 | 19,3 |
| 2015 | 2,71 | 1,83 | 0,88 | 13,24 | 2,17 | 13,8 |
| 2016 | 1,97 | 1,91 | 0,06 | 13,24 | 2,73 | 10,1 |
| 2017 | 2,12 | 1,98 | 0,14 | 13,24 | 2,78 | 7,5 |
| 2018 | 2,45 | 1,85 | 0,60 | 13,24 | 3,01 | 6,2 |
| 2019 | 2,54 | 2,40 | 0,14 | 13,24 | 3,38 | 5,3 |
| 2020 | 2,82 | 2,70 | 0,12 | 13,24 | 3,18 | 5,0 |
| 2021 | 3,40 | 2,72 | 0,68 | 13,24 | 3,21 | 4,8 |

*Mənbə: [22]; [221]. Dövlət Statistika Komitəsinin məlumatları əsasında hazırlanıb*

*Qeyd: göstəricilər fərdi sahibkar təsərrüfatlarına məxsusdur.*

Qiymət disparitetindən yaranan maliyyə itkilərinin hesablanması üçün aşağıdakı düsturdan istifadə olunmasını məqsədəuyğun sayırıq:

$$M_i = [(MD_{əsas} : MD_{baza} – SQ_{əsas} : SQ_{baza}) : (SQ_{əsas} : SQ_{baza})] \times SQ_{baza} \times Q_{əsas} \quad (3.2.2)$$

Burada $M_i$ - qiymət disparitetindən yaranan maliyyə itkiləri,

$MD_{əsas}$ və $MD_{baza}$ - əsas və baza dövrlərində məhsulun 1 sentnerinin maya dəyəri, manatla;

$SQ_{əsas}$ və $SQ_{baza}$ - əsas və baza dövrlərində məhsulun1 sentnerinin satış qiyməti, manatla;

$Q_{əsas}$ - əsas dövrdə məhsul istehsalının natural ifadədə həcmi.

Müvafiq metoda əsaslanaraq heyvandarlıq sahəsindəki vəziyyəti aydınlaşdırsaq, görərik ki, ölkənin ət istehsalındakı itkilərini mal əti istehsalı üzrə müəyyən etməklə, qarşıya qoyulan məqsədə çata bilərik (cədvəl 3.2.3).

**Cədvəl 3.2.3**

**2010-2021 ci illərdə mal əti istehsalı üzrə qiymət disparitetindən yaranan maliyyə itkiləri**

| İllər | Mal əti istehsalı üzrə | | | | | |
|---|---|---|---|---|---|---|
| | 1 s. çəki artım maya dəyərinin baza dövrünə nisbəti | 1 s. satış qiymətinin baza dövrünə nisbəti | Maya dəyərinin dəyişməsinin satış qiymətinin dəyişimindən fərqi | Baza ilində 1 s. satış qiyməti, manat | Məhsul istehsalının həcmi, min. t. | Cəmi maliyyə itkisi, mln. manat |
| 2010 | 1,88 | 1,66 | 0,22 | 159,99 | 221,6 | 4,7 |
| 2012 | 2,01 | 1,85 | 0,16 | 159,99 | 223,4 | 3,1 |
| 2013 | 2,11 | 2,00 | 0,11 | 159,99 | 227,2 | 2,0 |
| 2014 | 2,13 | 2,02 | 0,11 | 159,99 | 230,2 | 2,0 |
| 2015 | 2,22 | 2,02 | 0,20 | 159,99 | 225,4 | 3,6 |
| 2016 | 2,25 | 2,01 | 0,24 | 159,99 | 237,7 | 4,5 |
| 2017 | 2,35 | 2,13 | 0,22 | 159,99 | 246,6 | 4,1 |
| 2018 | 2,10 | 2,01 | 0,09 | 159,99 | 265,3 | 4,3 |
| 2019 | 2,69 | 2,66 | 0,03 | 159,99 | 281,4 | 3,9 |
| 2020 | 2,75 | 2,71 | 0,04 | 159,99 | 293,3 | 4,2 |
| 2021 | 2,82 | 2,33 | 0,49 | 159,99 | 294,4 | 4,2 |

*Mənbə Mənbə: [22]; [221]. Dövlət Statistika Komitəsinin məlumatları əsasında hazırlanıb*

*Qeyd: göstəricilər fərdi sahibkar təsərrüfatlarına məxsusdur.*

Cədvəlin məlumatlarından görünür ki, 2021-ci ildə 2010-cu illə müqayisədə 1 s. ətin çəki artımının maya dəyərinin nisbəti 1,5 dəfə, 1 s. ətin satış qiymətinin nisbəti 40,4%, məhsul istehsalının həcmi

32,8% artmış, həmin dövrdə maliyyə itkisi isə 10,6% azalmışdır. Hesablamalardan aydın oldu ki, mal əti istehsalında aqrar sahibkarlıq üçün vəziyyət nisbi qənaətbəxşdir.

İndi isə müvafiq hesablamaları süd məhsulları istehsalı sferası üçün aparaq (cədvəl 3.2.4).

**Cədvəl 3.2.4**

**2010-2021 ci illərdə süd istehsalı üzrə qiymət disparitetindən yaranan maliyyə itkiləri**

| İllər | Süd istehsalı üzrə | | | | | |
|---|---|---|---|---|---|---|
| | 1 s. maya dəyərinin baza dövrünə nisbəti | 1 s. satış qiymətinin baza dövrünə nisbəti | Maya dəyərinin dəyişməsinin satış qiymətinin dəyişimindən fərqi | Baza ilində 1 s. satış qiyməti, manat | Məhsul istehsalının həcmi, mln. t. | Cəmi maliyyə itkisi, mln. manat |
| 2010 | 2,11 | 2,04 | 0,07 | 22,24 | 1,52 | 1,2 |
| 2011 | 2,32 | 2,06 | 0,26 | 22,24 | 1,58 | 4,4 |
| 2012 | 2,30 | 2,05 | 0,25 | 22,24 | 1,68 | 4,6 |
| 2013 | 2,30 | 2,20 | 0,10 | 22,24 | 1,76 | 1,8 |
| 2014 | 2,37 | 2,28 | 0,09 | 22,24 | 1,81 | 1,6 |
| 2015 | 2,45 | 2,30 | 0,15 | 22,24 | 1,86 | 2,7 |
| 2016 | 2,62 | 2,40 | 0,22 | 22,24 | 1,93 | 3,9 |
| 2017 | 2,55 | 2,32 | 0,23 | 22,24 | 1,88 | 2,6 |
| 2018 | 2,41 | 2,28 | 0,13 | 22,24 | 1,81 | 3,7 |
| 2019 | 2,64 | 2,42 | 0,22 | 22,24 | 1,96 | 2,2 |
| 2020 | 2,73 | 2,48 | 0,25 | 22,24 | 2,10 | 2,5 |
| 2021 | 3,27 | 2,91 | 0,36 | 22,24 | 2,56 | 2,8 |

*Mənbə: [22]; [221]. Dövlət Statistika Komitəsinin məlumatları əsasında hazırlanıb*

*Qeyd: göstəricilər fərdi sahibkar təsərrüfatlarına məxsusdur.*

Cədvəlin məlumatlarından görünür ki, 2021-ci ildə 2010-cu illə müqayisədə 1 s. südün maya dəyərinin nisbəti 55,0%, 1 s. südün

satış qiymətinin nisbəti 42,6%, məhsul istehsalının həcmi 68,4% artmış, həmin dövrdə maliyyə itkisi də 2,3 dəfədən çox artmışdır.

Aparılan təhlillərin nəticələrindən görsənir ki, bütövlükdə aqrar sahədəki qiymət disparitetliyi problemi yetərincə aşkara çıxarılıb və ümumən, bu araşdırmaları yekunlaşdırmaq mümkündür. Amma belə görünür ki, qiymət dispariteti özünü daha çox regional kontekstdə büruzə verir. Belə ki, bir çox məhsullar üzrə istehsal və satış qiymətinin regionlarlar arası müqayisəsi zamanı elmi maraq doğuran və qismən izah olunması çətinlik törədən mənzərələr meydana çıxır (cədvəl 3.2.5).

**Cədvəl 3.2.5**

**2010-2021 ci illərdə mal-qara ətinin satış qiyməti və artımının maya dəyəri (sent. man.)**

| İllər | Maya dəyəri | | | | Satış qiyməti | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Azərbaycan üzrə | Gəncə-Qazax | Şəki-Zaqatala | Aran | Azərbaycan üzrə | Gəncə-Qazax | Şəki-Zaqatala | Aran |
| 2005 | 99,41 | 109,55 | 77,32 | 99,19 | 159,99 | 189,0 | 122,64 | 156,3 |
| 2010 | 177,4 | 155,50 | 195,96 | 147,85 | 252,21 | 201,32 | 274,41 | 281,95 |
| 2013 | 186,52 | 181,66 | 200,97 | 150,59 | 266,20 | 248,6 | 268,2 | 243,40 |
| 2014 | 199,57 | 193,57 | 247,26 | 181,92 | 296,10 | 280,6 | 302,4 | 291,6 |
| 2015 | 209,72 | 190,66 | 251,27 | 198,22 | 320,0 | 305,5 | 352,43 | 211,57 |
| 2016 | 211,69 | 214,18 | 271,43 | 188,26 | 322,60 | 321,0 | 361,54 | 212,40 |
| 2017 | 237,70 | 198,46 | 266,98 | 200,42 | 408,31 | 323,50 | 357,59 | 214,45 |
| 2018 | 210,98 | 227,43 | 271,11 | 399,25 | 409,16 | 387,78 | 331,96 | 222,33 |
| 2019 | 270,18 | 308,84 | 342,70 | 422,33 | 429,85 | 434,02 | 378,32 | 224,41 |
| 2020 | 262,38 | 254,19 | 326,06 | 237,23 | 496,50 | 410,84 | 335,13 | 244,93 |
| 2021 | 280,70 | 265,23 | 332,2 | 356,52 | 532,20 | 452,53 | 358,39 | 286,52 |

*Mənbə: [22]; [221]. Dövlət Statistika Komitəsinin məlumatları əsasında hazırlanıb.*
*Qeyd: göstəricilər fərdi sahibkar təsərrüfatlarına məxsusdur.*

Qiymət, o zaman səmərəli hesab olunur ki, hər bir normal fəaliyyət göstərən təsərrüfatda istehsalın həcminin artmasına, keyfiyyətin

yüksəldilməsinə və məhsulun maya dəyərinin azalmasına təkan verir [113, s. 74].

Aqrar sahədə sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və bu sahədə tənzimlənmə tədbirlərinin həyata keçirilməsi vacibdir və bu tədbirlər eyni zamanda kənd təsərrüfatında geniş təkrar istehsal rejiminin uğurla həyata keçirilməsi üçün əlavə vəsait mənbələrinin axtarılmasına da şərait yaradır. Vəsait mənbələrinin seçilməsi bir qayda olaraq kənd təsərrüfatı istehsalının inkişaf etdirilməsi istiqamətlərinin hərtərəfli təhlil edilməsindən və bu sahəyə dövlət yardımı və tənzimləmə sisteminin mövcud vəziyyətinin araşdırılması və qiymətləndirilməsindən bilavasitə asılıdır.

Professor, əməkdar elm xadimi B.X.Ataşov yazır: Aqrar sahibkarlığın rəqabət qabiliyyəti digər mühüm amillərlə yanaşı eyni zamanda qiymət siyasətindən, sənaye və kənd təsərrüfatı arasında mənafelərin uzlaşdırılmasından, yəni qiymətlərin tənzimləyici rolundan birbaşa asılıdır. Ona görə də kənd təsərrüfatının qiymət tənzimlənməsi dərindən əsaslandırılmış paritetlərin tətbiqini tələb edir [32, s. 342].

Təhlillər göstərir ki, bazarlarda qiymətlərin qalxıb-enməsi, digər amillərlə yanaşı, əhəmiyyətli dərəcədə istehsalın mövsümi xarakterindən, təbii amillərdən asılı olur. Odur ki, sahibkarların qeyri-ekvivalent mübadilədə məruz qaldıqları zərəri azaltmaq üçün hökümət paritet qiymətləri dəstəkləməli və həmin qiymətlər sistemi istehsalın rentabelliyinin zəruri səviyyəsinin saxlanmasını təmin etməlidir.

Əgər dövlətin istehlak bazarında qiymət mexanizminə müdaxiləsi yalnız kənd təsərrüfatı məhsullarının qiymətlərinin tənzimlənməsinə yönəlibsə, bu, heç də həmişə gözlənilən nəticəni vermir. Belə ki, enerji kimi daxilolmaların qiymətlərinin artması kənd təsərrüfatı məhsulunun vahid dəyərini 30% artırırsa, qiymətlərə müdaxilənin səmərəsi nədir? Aqrar sahibkarın qiymətlərinin bahalaşmasına dövlət təsir etməsə belə, gəlirlərin artması qaçılmaz deyil. Üstəlik, dünya bazarında qiymət mühiti əlverişsiz olarsa, daxili qiy-

mətlərin qalxması çox çətin olacaq. Bu cür onlarla misal çəkmək olar və aydındır ki, kənd təsərrüfatı sahibkarlığının qiymət mexanizmi ilə dəstəklənməsi kompleks tədbirlər sistemi tələb edir.

A.A.Sidorin "paritet-effektiv qiymətlər" mexanizmi vasitəsilə kənd təsərrüfatı sahibkarlığına dövlət dəstəyinin istiqamətlərini aşağıdakılarda görür:

- məhsulların qiymətlərinə təsiretmə xətti;
- istehsalın resurslarının qiymətlərinə təsiretmə xətti;
- məhsulların enerji qiymətlərinə təsiretmə xətti;
- məhsulların anbar qiymətlərinə təsiretmə xətti;
- məhsulların istehlakçı qiymətlərinə təsiretmə xətti [164, s.14].

Şübhəsiz ki, göstərilən istiqamətlərdəki tədbirlər qiymət mexanizmi vasitəsi ilə aqrar sahibkarlığın dəstəklənməsinə mühüm təsir göstərir, ancaq tədbirlər kompleksi – dünya təsərrüfatçılıq praktikasında tətbiq olunmuş və bu tətbiq olunan tədbirlər sistemi daha rəngarəngdir.

Aparılan tədqiqat araşdırmalarının nəticəsi göstərir ki, istehlak bazarında qiymət mexanizmi və qiymətlərin təkmilləşdirilməsi məsələləri ilə demək olar ki, bazar münasibətlərinin inkişaf etdiyi bütün ölkələrdə məşğul olurlar. Azərbaycan iqtisadiyyatının bazar münasibətləri şəraitində inkişafı və dünya iqtisadi sisteminə sıx inteqrasiyası, aqrar sahədə müxtəlif mülkiyyət və təşkilatı-hüquqi formalı təsərrüfat subyektlərinin yaranması, sahibkarlıq fəaliyyətinin genişlənməsi beynəlxalq standartlara uyğun qiymət mexanizminin formalaşmasını zəruriyyətə çevirmişdir [56, s.76 ].

Eyni zamanda sahibkar istehsal proseslərini reallaşdırmaq üçün müasir təcrübəyə, adekvat kapitala və istehsal gücünə malik olmalıdır. Sahibkar istehsal fəaliyyətini müasir dövrün tələbləri ilə yanaşı, bazar iqtisadiyyatının əsas qanunları sayılan tələb, təklif, qiymət və rəqabət qanunlarına əsaslanmalıdır. Çünki sahibkar istehsal amillərini satın alarkən və istehsal prosesini təşkil edərkən bu qanunların tələbləri əsasında davranır.

# IV FƏSİL. AQRAR İSTEHLAK BAZARININ İQTİSADİ TƏNZİMLƏNMƏSİ VASİTƏLƏRİ

## 4.1. Aqrar istehlak bazarının iqtisadi tənzimlənməsində kreditin rolu

Müasir iqtisadi islahatlar şəraitində kənd təsərrüfatının maliyyələşdirməsi istiqamətində kreditlərlə təminatı və bu kreditlər üzrə risklərin idarə olunması dövlətin həll edəcəyi mühüm vəzifələrdən biridir. Problemin mahiyyətinə baxılması və daha yaxşı anlamaq məqsədilə onun məzmununu açan mahiyyət aparatına müraciət edək. Bu məqsədlə problemin daha dolğun təsəvvürü üçün, ilk növbədə, kreditin mahiyyətini və kənd təsərrüfatı sektorunda onun təzahür xüsusiyyətlərini araşdıraq.

Ümumiyyətlə, elmdə kredit anlayışının müxtəlif izahı və xüsusilə kredit münasibətlərinin mahiyyəti tədricən yaranmışdır. XVIII əsrdə A.Smit və Rikardo tərəfindən əsası qoyulan naturalizm nəzəriyyəsində kreditin mahiyyəti natural formada maddi sərvətlərin yenidən bölüşdürülməsi kimi müəyyənləşdirilmişdir.

XX əsrin əvvəllərində Keyns və onun davamçıları kapital verimi nəzəriyyəsinin əsaslarını müəyyən edirdilər və iqtisadiyyatın kredit tənzimlənməsi prinsiplərini əsaslandırırdılar. İstehsal və istehlak bazarını stimullaşdırmaq üçün kredit faizinin azaldılması yolu ilə investisiyaların genişləndirilməsinə kömək etmək lazımdır, bu da son nəticədə istehsal və istehlak tələbatını artırır və işsizliyi azaldır.

Müasir iqtisad elmində kredit nəzəriyyəsinin yenidən bölgü və fond konsepsiyaları yaranmışdır. Birinci halda, kredit münasibətləri pul vəsaitlərinin yığılması və onların kredit təşkilatlarına, təsərrüfat subyektləri və ayrı-ayrı şəxslərə müəyyən olunmuş müddətdə qaytarılması və ödənişin edilməsi məcburi olan müvəqqəti istifadə üçün verilməsi kimi şərh olunur. İkinci konsepsiyanın tərəfdarları

krediti borc fondunun hərəkəti kimi xarakterizə edirlər. Bu nəzəriyyəyə istinadən kreditorla borcalan arasında istehsalın bərpası prosesinin müxtəlif subyektləri var və əgər onlar öz xassələrinə görə bütovlükdə kredit üçün səciyyəvidirsə, onlar arasındakı münasibət kredit münasibətləri olacaq.

Zənnimizcə, özlüyündə kredit yenidən bölüşdürülən dəyərin məbləği kimi onun yaranması baxımından hələ yeni kapitalın mənbəyi deyil, amma istehsalı və müraciət dəyərlərini genişləndirməyə və sürətləndirməyə imkan verilməsi şərti hesab edilir.

Yeni iqtisadi şəraitdə kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyələşmə baxımından dəstəklənməsi ixtisaslaşdırılmış kənd təsərrüfatı kreditləşdirməsi üzrə bank sisteminin yaradılması ilə reallaşdırılır. Bu sistem bir qayda olaraq istehsalın mövsümiliyinin və istehsal dövrünün uzun müddətli olması zamanı yarana bilən riskli vəziyyətlərin səmərəli şəkildə aradan qaldırılmasında mühüm əhəmiyyət kəsb edir. İstehsal fəaliyyətinin reallaşdırılması zamanı qısa müddətli mövsümi kreditləşdirmə kənd təsərrüfatında mövcud olan disproporsiyaların aradan qaldırılmasında əhəmiyyətli rol oynayır. Bu vasitə dövlət, kooperativ və kommersiya strukturlarının fəaliyyətini stimullaşdırır və həmin qurumlar kənd təsərrüfatı əmtəə istehsalçılarının kreditləsdirilməsinə maraqlı olurlar.

Aqrobiznes fəaliyyətində birbaşa mövsümü kreditlər adətən kütləvi xarakter daşımır. Bununla belə, aqrar istehsalın intensiv xarakter daşıdığı regionlarda bu cür kreditləşdirmə sistemi geniş şəkildə yayılmışdır. İxtisaslaşmış kommersiya bankları, bir qayda olaraq dövlət tərəfindən subsidiyalaşmış kreditlərin bölüşdürülməsində fəal iştirak edir və bu zaman onlar xüsusi resursların hesabına bu cür kreditlərin verilməsini təmin edirlər.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatında qısa müddətli kreditləşdirmə formalarının geniş yayıldığı və inkişaf etdiyi üsul kommersiya əsasında kreditləşdirmə sistemidir ki, bu sistem də aqrar ərzaq kompleksində şaquli inteqrasiya münasibətlərinin inkişafı

çərçivəsində öz rolunu oynamaqdadır. Bu baxımdan kommersiya firmalarının geniş yayılmış əmtəə kreditləri bu sahədə mühüm rol oynayır. Təhlil göstərir ki, çoxsaylı kiçik müəssisələr adətən bu və ya digər kənd təsərrüfatı məhsullarının yığımdan sonra xammal formasında tədarük olunmasında daha çox maraqlı olurlar. Həmin qurumlar kənd təsərrüfatı əmtəə istehsalçılarına bu və ya digər resurslara avans verməklə və gələcək məhsulun girov qoyulması yolu ilə müqavilələr əsasında reallaşdırılmasında iştirak edirlər. Dövlətin verdiyi əmtəə kreditlərindən fərqli olaraq bu növ kommersiya əməliyyatları əsas etibarilə kənd təsərrüfatı əmtəə istehsalçılarının tələbatlarına çevik şəkildə uyğunlaşa bilirlər.

Dövlətin iqtisadi siyasəti uzunmüddətli perspektiv üçün istehsal olunan yerli əmtəələrin daxili və xarici bazarda rəqabət qabiliyyətinin yüksəldilməsi, tələbə uyğun istehsalda struktur dəyişikliklərinə şərait yaradılması, iqtisadi təhlükəsizlik baxımından istehsalın səmərəliliyinin yüksəldilməsi, bütövlükdə iqtisadiyyatın sabit və dayanıqlı inkişafına münbit iqtisadi şəraitin yaradılması kimi çox mühüm məsələlərin həllinə yönəlir.

İqtisadiyyatın qloballaşdığı şəraitdə və respublikamızın Ümumdünya Ticarət Təşkilatına üzvlüyü məsələsinə baxıldığı bir vaxtda strateji sahə hesab edilən kənd təsərrüfatında bu problemin reallaşmasını, aqrar-istehsal sisteminin əsas xüsusiyyətləri nəzərə alınmaqla risklərin, o cümlədən bankların verdiyi kredit risklərinin səmərəli idarə edilməsini əsas vəzifələrdən biri kimi aktual edir.

Aqrar sahənin spesifik xüsusiyyətlərini nəzərə alaraq sahənin kreditləşməsində də fərqli yanaşma olmalıdır. Kənd təsərrüfatının inkişafının fərqli cəhəti odur ki, burada əsas vəsait rolunu torpaq oynayır. Digər əsas vəsaitlərlə müqayisədə torpaq köhnəlmir.

İqtisadiyyatın bir çox sahələri ilə müqayisədə aqrar-sənaye müəssisələrində risklər kreditləşmə səviyyəsinə daha çox təsir göstərir. Kənd təsərrüfatında kreditə tələbat bu sahənin spesifik xüsu-

siyətlərinə uyğun olaraq formalaşır. Belə ki, iqtisadiyyatın əsas sferalarından olan kənd təsərrüfatında regionlar üzrə torpaqların keyfiyyət kateqoriyalarının müxtəlifliyi, istehsalın təbii-iqlim amillərindən asılılığı, əksər sahələrdə investisiya qoyuluşunun özünü ödəmə müddətinin uzun dövrü əhatə etməsi məhsulların kreditə tələbatın müxtəlifliyini şərtləndirir.

Professor İ.H.İbrahimov araşdırmalarında qeyd edir ki, *"...aqrar bazarın formalaşmasında dövlətin kənd təsərrüfatını kreditləşdirmə siyasətinin böyük rolu vardır. Kreditlərin güzəştli, qısa və uzun müddətə verilməsi sahibkarların kənd təsərrüfatı məhsulları istehsalı, emal və xidmət müəssisələri yaratmalarına əlverişli şərait yaradır. Kənd təsərrüfatı istehsalçılarına dövlət və qeyri - dövlət bankları tərəfindən verilən kreditlər ildən - ilə artır. Hazırda ölkədə səmərəli fəaliyyət göstərən kredit bazarı yaranmışdır. Dövlət kənd təsərrüfatı və sahibkarlığın inkişafı üçün kredit siyasətini müntəzəm olaraq təkmilləşdirir və bu məqsədlə kreditlərin həcmi artırılır, kredit verilməsinin əhatə dairəsi genişləndirilir. Hesab edirik ki, İAEƏ - in inkişafı üçün həyata keçiriləcək kredit siyasəti öz təsirini qısa müddətdə göstərəcəkdir"* [51, s. 21].

Aqrar sahənin kreditləşdirməsində kommersiya bankları çətinliklərlə rastlaşır ki, bu çətinliklər də əsas etibarilə həmin subyektlərin az gəlirli olması, qoyulan kapitalın verdiyi gəlirin və əmlakın likvidliyinin aşağı olması və ən başlıcası torpaq məsələlərinin qeyri-təkmilliyi ilə sıx bağlıdır. Məlum olduğu kimi, kənd təsərrüfatı investisiyalasdırma prosesinin qeyri-perspektiv və riskli obyekti hesab edilir və bu zaman götürülən vəsaitin ödənilmə müddəti adətən təmin edilmir. Bu baxımdan kommersiya bankları kənd təsərrüfatı üzrə əmtəə istehsalçılarının kreditləşməsində ya maraqlı olmur və ya verilən kreditlər daha çox qısa müdətli xarakter daşıyır.

Faiz dərəcələrinin yüksək olması və kreditləşmə şəraitinin qənaətbəxş səviyyədə olmaması kənd təsərrüfatında sahibkarlıq qurumlarının imkanlarını zəiflədir və nəticə etibarilə, kredit resursları ba-

zarında onların bərabər hüquqlu subyekt kimi çıxış etməsinə mənfi təsir göstərir. Kənd təsərrüfatında fəaliyyət göstərən kiçik müəssisələr əsas etibarilə kreditləşmənin sərt prinsiplərinə də adətən təminat, kreditin məqsədli xarakteri, onların təcili şəkildə ödənməsi, faiz dərəcələrindən yüksək olması və s. şamil edilir. Beləliklə, kreditlərə görə faiz dərəcələrinin yüksək olması, nəticə etibarilə, kreditləsdirmədən səmərəli istifadə edilməsi ilə bağlı məsuliyyətin yüksəldilməsini tələb edir.

B.V.Bazarovun fikrincə, kənd təsərrüfatında ərzaq məhsulları istehsalçılarının dəstəklənməsində kreditləşdirmə amilinin sahənin spesifik xüsusiyyətləri baxımından zəif inkişaf etməsi, nəticə etibarilə, kənd təsərrüfatının investitsiya cəlb ediciliyinin də aşağı düşməsinə və bu sahəyə investisiya qoyuluşlarının zəifləməsinə gətirib çıxarmışdır. Birbaşa investisiyalar əsas etibarilə bilavasirə kənd təsərrüfatı subyektinin öz fəaliyyətinin genişləndirilməsi ilə sıx bağlı olur. Kreditlərin həcmi, faiz dərəcələrinin səviyyəsi onların qaytarılma müddəti və kreditlərdən istifadə ilə bağlı məsuliyyət tədbirləri iqtisadi münasibətlərdə əhəmiyyətli rol oynamaqdadır [105, s.146-150].

Qeyd etmək lazımdır ki, iqtisadi inkişafın dəstəklənməsi üçün müddətli kreditləşdirmə sistemindən də geniş istifadə edilir. Qeyd edilən uzunmüddətli kreditləşdirmə sistemi bir qayda olaraq 3 ildən 5 ilə qədər və daha çox olan müddəti özündə əks etdirir və mahiyyət etibarilə istehsalçıların kənd təsərrüfatı texnikasının lizinq yolu ilə alınmasının dəstəklənməsində geniş şəkildə istifadə edilir. Bu cür texnikaların lizinq yolu ilə alınması əsas etibarilə ixtisaslaşdırılmış lizinq şirkətləri vasitəsilə həyata keçirilir. Lizinqin köməyi ilə kapital qoyuluşunun maliyyələşdirilməsi kənd təsərrüfatı əmtəə istehsalçılarına müvafiq üstünlüklərdən bəhrələnməyə əlverişli şərait yaradır ki, bu da onların xüsusi vəsaitlər hesabına müəyyənləşdirməklə, eləcə də bank kreditləri və qiymətli kağızlardan istifadə ilə müqayisədə geniş üstünlüklər əldə etməsinə gətirib çıxarır. Kənd

təsərrüfatında lizinq sisteminin özünəməxsus üstünlükləri mövcuddur ki, bu üstünlüklərə də aşağıdakıları şamil etmək olar:

a) lizinq əsas etibarı ilə kreditləşdirmənin orta və uzun müddətli əlçatmaz səviy-yəsini özündə əks etdirir;

b) lizinq müqavilələri bir qayda olaraq lizinq əldə edənin imkanlarının qiymətləndirilməsi yolu ilə onların kredit ödəmə qabiliyyətindən bilavasitə asılı olur;

c) lizinqə verilən əmlakın dəyəri ödənildikdən sonra kənd təsərrüfatı əmtəə istehsalçısının mülkiyyətinə keçə bilir;

d) lizinq ödəmələri bir qayda olaraq kənd təsərrüfatı məhsullarının maya dəyərinə uyğun şəkildə müəyyənləşdirilir. Bu zaman sürətli amortizasiya lizinq əməliyyatlarının həyata keçirilməsi üçün daha xarakterik olub,əmlak üzərində əmlakla bağlı vergi ödəmələrinin ixtisar olunmasına imkan verir;

e) lizinq hesabına sadəcə olaraq müəssisənin kapital qoyuluşunun maliyyələsdirilməsi ilə bağlı dövriyyə vəsaitlərinin genişlənməsi təmin edilir.

Aparılan araşdırmalar göstərir ki, son illərdə aqrar sahə müəssisələridə bank kreditləşməsinin köməyi ilə lizinq əməliyyatlarının həcmi kifayət qədər artmısdır.

Belə ki, kənd təsərrüfatı texnikası, maşın və avadanlıqların əldə olunmasına dövlət yardımı ilə bağlı büdcə təchizatlarının həcminin artması müşahidə edilməkdədir. Bu baxımdan müasir şəraitdə lizinq fəaliyyəti kənd təsərrüfatı əmtəə istehsalçılarının texnika və digər avadanlıqlarla təminatında önəmli rol oynayır. Bütövlükdə lizinq əməliyyatlarının genişlənməsi dünya təcrübəsində kənd təsərrüfatı texnikası istehsal edən sahələrin inkişafının stimullaşdırılmasında da əhəmiyyətli rola malikdir.

Sahibkarlıq fəaliyyətinin kreditləşdirilməsinin ən mütərəqqi formaları kimi müasir şəraitdə uzun müddətli ssudalardan, daha doğrusu ipotekalardan istifadə edilməsi mühüm rol oynayır. Bununla yanaşı aqrobiznesin dəstəklənməsinin ən mühüm mənbələrindən

biri kimi, kənd təsərrüfatının ziyanla işləməsinin və kreditlərə görə faiz dərəcələrinin ödənilməsinin ən mühüm forması kimi veksel kreditlərindən istifadə edilə bilər.

Aparılan araşdırmalar göstərir ki, kənd təsərrüfatında aqrar sahibkarlıq fəaliyyətinin dəstəklənməsinin ən mühüm istiqamətlərindən biri də təşkilati resurslar hesabına kənd təsərrüfatında kredit kooperativlərinin yaradılmasıdır. Kənd təsərrüfatında kredit kooperativlərinin yaradılması, xüsusilə kəndin kommersiya kreditləri sistemindən istifadə etməsinə əlverişli şərait formalaşmasına xidmət edir.

Qeyd etmək lazımdır ki, kənd kredit kooperativləri bütövlükdə bank kreditləşdirilməsinə qarşı alternativ ola bilən bir prosesi özündə əks etdirir. Kənd kredit kooperativlərinin yaradılması fermer təsərrüfatlarına xidmətlə bağlı kooperariv bankların regional şəbəkəsi kimi xarakterizə edilir.

Kənd təsərrüfatının kreditləşdirilməsi sisteminin qeyri-əlverişli olması, nəticə etibarilə kooperativ prinsiplər əsasında bu problemin aradan qaldırılmasında əhəmiyyətli rol oynamaqdadır. İnkişaf etmiş ölkələrdə müasir şəraitdə kooperativ əsaslarla bu cür kreditləşdirmə sisteminin yaradılması kifayət qədər primitiv xarakter daşıyır. Belə ki, bu zaman kredit ittifaq yaradılır və birgə borclanma prinsipi əsas götürülür.

Kənd təsərrüfatının özünəməxsus xüsusiyyətləri, ilk növbədə onun təbii-iqlim şəraitindən asılılığı ilə sıx bağlıdır. Buna görə də kənd təsərrüfatında təbii fəlakətin nəticələri məhsuldarlığın səviyyəsinə və istehsalın həcminə öz təsirini göstərir və bütün bunlar kənd təsərrüfatı iqtisadiyyatının digər sahələri ilə müqayisədə riskli sahə kimi səciyyələndirilməsinə imkan verir. Kənd təsərrüfatında risklərin sığortalanması, nəticə etibarilə dövlət tənzimlənməsinin qarşısında duran ən mühüm vəzifələrdən biri hesab edilir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatı istehsalının genisləndirilməsi dövlət, koperativ, kommersiya strukturlarının artmasına gətirib çıxarır.

Aqrar sahənin müasir vəziyyəti, inkişaf dinamakası və müasir meyllərin iqtisadi təhlili göstərir ki, respublikamızda bu sahədə böyük iqtisadi resurslar və imkanlar olmasına baxmayaraq, kənd təsərrüfatında inkişaf səviyyəsi və iqtisadi səmərəlik lazımi səviyyədə deyil, müasir təsərrüfatçılıq və tələblər baxımından geri qalır. Bunun səbəblərdən biri də mövcud iqtisadi mexanizmin və onun ən vacib tərkib hissələrindən olan kreditləşmənin iqtisadi inkişafda yeri və rolu ilə əlaqədardır.

Aqrar sahənin kreditləşmə mexanizmi bu bölmədəki dövlətin kredit siyasəti, investisiya siyasəti və sığorta, aqrolizinq xidməti, subsidiyalar və yardımlar, kənd təsərrüfatında qiymət mexanizmi və s. əhatə edir. Bu amillər kompleks formada aqrar sahə müəssisələrinin kreditləşməsini təşkil edir. Hər bir amil iqtisadi-sosial inkişafda xüsusi əhəmiyyət kəsb edir. Bu sahənin kreditləşməsində risklərin nəzərə alınması zərurəti vardır.

Aqrar sahənin bank kreditləşməsi ilə əlaqədar bazar iqtisadiyyatının tələblərinə uyğun bir sıra iqtisadi qanunlar və qərarlar qəbul edilmiş, yarana biləcək risklərinin aradan qaldırılması məqsədilə, müvafiq normativ-hüquqi sənədlər, əsasnamələr, təlimatlar, tövsiyələr və təkliflər hazırlanmış, həmin sənədlər kompleksinə uyğun iqtisadi və sosial inkişaf proqramları həyata keçirilmişdir.

Kreditləşmə mexanizminin formalaşması və inkişafına səbəb olmuş yeni maliyyələşmə sistemi iqtisadi-sosial inkişafın qarşısında yeni tələblər qoyur. İqtisadi inkişafın indiki mərhələsində aqrar sahənin mövcud kreditləşmə mexanizmi məqsədyönlü aparılmadığından sahənin sosial-iqtisadi inkişafına lazımi şərait yarada bilmir, kommersiya banklarının kreditləşməsinin stimullaşdırıcı xarakteri zəifdir və iqtisadi inkişafın tələblərinə cavab vermir.

Apardığımız araşdırmalardan görsənir ki, yeni yaradılan və inkişaf edən kənd təsərrüfatı müəssisələri və təsərrüfatlar vəsait çatışmazlığı səbəbindən istehsal ehtiyatlarından (xüsusən torpaq, maşın və avadanlıqlardan) effektiv istifadəyə nail ola bilmirlər. Ölkə-

nin əksər iqtisadi rayonlarında kənd təsərrüfatı və emalla məşğul olanların torpaqdan istifadə və emaletmə qabiliyyətinin səviyyəsi çox aşağıdır. Bu, bütün bölgələrdə özünü büruzə verir. Bu baxımdan, ölkənin bütün iqtisadi rayonlarında kənd təsərrüfatı ilə məşğul olan sahibkarlara aşağı faizlə uzunmüddətli bank kreditlərinin verilməsini məqsədəuyğun hesab edirik.

Fikrimizcə, biznes məqsədləri üçün verilən kreditlərin faiz dərəcələrinin aşağı salınması üçün bütün lazımi tədbirləri görmək lazımdır. Mərkəzi bank kommersiya banklarını biznes məqsədləri üçün güzəştli kreditlər verməyə təşviq edən kredit siyasəti aparmalıdır.

Azərbaycan iqtisadiyyatında kreditləşdirilmənin əsas istiqamətlərindən biri özəl investisiyaların dövlət büdcəsindən maliyyələşdirilmə mexanizmini təkmilləşdirilməkdir. Bu məqsədlə ölkədə son illər ərzində bir çox inkişaf institutları formalaşdırılmısdır. Həmin qurumlardan biri ölkə prezidentinin 31 iyul 2018-ci il tarixli Fərmanı ilə yaradılmış Sahibkarlığın İnkişafı Fondudur (SİF) (qeyd edilən tarixə qədər Sahib-karlığa Kömək Milli Fondu kimi fəaliyyət göstərib). Bütövlükdə, bu qurum üçün 2008-2020-ci illər ərzində dövlət büdcəsindən ayrılmış vəsaitin məbləği 1 mlrd. 563 mln. manata çatır [235].

4.1.1 saylı cədvəlin məlumatlarından göründüyü kimi, 2011-2020-cı illərdə SİF-in vəsaitləri hesabına 4407 laiyhə üzrə ildə ortalama 3500-ə yaxın sahibkarlıq subyektinə verilmiş güzəştli kreditin məbləği orta hesabla 374 milyon manatdan çox olub.

Verilmiş kreditlərin sayəsində il ərzində yeni yaradılmış iş yerlərinin sayı 30 minə yaxın olmuşdur. Güzəştli kreditlərdən 65,6%-i aqrar sahənin, 11,9%-i xidmətin (infrastrukturun) inkişafının, 22,5%-i sənayenin müxtəlif məhsullarının istehsalı və emalının payına düşüb. Bu kreditlərdən 84,0%-i respublika bölgələrinin, 16%-i isə Bakı ərazisində inkişafa yönəldilib.

**Cədvəl 4.1.1**

**2011-2021-ci illərdə SİF-in ölkə iqtisadiyyatının müxtəlif sahələri üzrə ayırdığı kreditlər**

| Göstəricilər | Sənayenin müxtəlif məhsulları üzrə cəmi istehsal və emal | Kənd təsərrüfatı məhsulları üzrə emal | Kənd təsərrüfatı məhsulları üzrə istehsal | Xidmət sahələri | Yekun |
|---|---|---|---|---|---|
| | 2011-2021-ci illərdə orta hesabla | | | | |
| Layihə sayı | 173 | 555 | 3965 | 14 | 4707 |
| xüsusi çəki, %-lə | 3,7 | 11,8 | 84,2 | 0,3 | 100,0 |
| Kredit məbləği (min manat) | 84148 | 42237 | 203115 | 44541 | 374041 |
| xüsusi çəki, %-lə | 22,5 | 11,3 | 54,3 | 11,9 | 100,0 |
| Yeni yaradılmış iş yerlərinin satı | 5153 | 1356 | 20585 | 1845 | 28939 |

*Mənbə:[235]. Sahibkarlığın İnkişafı Fondunun hesabat materiallarına əsasən tərtib olunmuşdur.*

Təhlil göstətir ki, SİF-in vəsaitlərində artım baş verdikcə onun aqrar sahəyə kreditlərin verilməsində xüsusi çəkisi də yüksəlir.

SİF-in hesabat materialları üzrə aparılan araşdırmalar göstərir ki, dövlətin güzəştli kreditləri sayəsində maliyyələşdirilən layihələrinin sayı əgər 2011-2015-ci illərdə 19,6 min idisə, 2016-2020-cu illərdə həmin göstərici 1,8 dəfədən çox artaraq 36,2 minə çatmışdır. Təhlil edilən dövrlərdə bu layihələrin sayında aqrar sektorun

Payı 95-97 faiz civarında olmuşdur (cədvəl 4.1.2).

**Cədvəl 4.1.2**

**Dövlətin güzəştli kreditləri vasitəsi ilə maliyyələşdirilən layihələrin iqtisadiyyatın sahələrinə görə bölgüsü**

| | 2011-2015-ci illər | | 2016-2020-ci illər | | 2021-ci il | |
|---|---|---|---|---|---|---|
| | cəmi, min ədəd | xüsusi çəkisi, %-lə | cəmi, min ədəd | xüsusi çəkisi, %-lə | cəmi, min ədəd | xüsusi çəkisi, %-lə |
| Cəmi | 19,6 | 100,0 | 36,2 | 100,0 | 130,6 | 100 |
| O cümlədən aqrar sahə | 18,8 | 95,7 | 34,9 | 96,6 | 73,1 | 56,0 |
| sənayenin müx-təlif sahələri və digər sahələr | 0,8 | 4,3 | 1,3 | 3,4 | 57,5 | 44,0 |

*Mənbə:[235]. Sahibkarlığın İnkişafı Fondunun hesabat materiallarına əsasən tərtib olunmuşdur.*

Cədvəlin məlumatlarından göründüyü kimi, 2021-ci ildə dövlətin güzəştli kreditləri sayəsində maliyyələşdirilən layihələrə (1902 layihə) 130,6 mln. manat təşkil etmişdir ki, bunun da 56 faizi aqrar sahə üçün nəzərdə tutulub.

Dövlətin ayırdığı güzəştli kredit məbləğinin  iqtisadi sahələr üzrə bölgüsündən aydın olur ki, 2016-2020-ci illərdə 2011-2015-ci illərə nisbətən 1,8 dəfə artaraq 2418,7 mln. manat təşkil etmişdir ki, bunun da 67,9 faizi aqrar sahənin payına düşür (cədvəl 4.1.3).

2019-2020-ci illərdə SİF-in köməkliyi ilə ümumi dəyəri 1035,6 mln. manat olan 2481 investisiya layihəsi üçün 301,9 milyon manat güzəştli kreditlər ayrılmış və həmin kreditlərin sayəsində 8,1 min yeni iş yeri açılmışdır [11, s. 261].

2021-ci ildə SİF-in köməkliyi ilə ümumi dəyəri 287,7 mln. manat olan güzəştli kreditlər ayrılmış və bu kreditlər sayəsində 3,2 min yeni iş yeri açılmışdır.

**Cədvəl 4.1.3**

**Dövlətin ayırdığı güzəştli kreditlərin iqtisadi sahələr üzrə bölgüsü**

| | 2011-2015-ci illər | | 2016-2020-ci illər | | 2021-ci il | |
|---|---|---|---|---|---|---|
| | cəmi, mln. manat | xüsusi çəkisi, %-lə | cəmi, mln. manat | xüsusi çəkisi, %-lə | cəmi, min ədəd | xüsusi çəkisi, %-lə |
| Cəmi | 1329,7 | 100,0 | 2418,7 | 100,0 | 287,7 | 100,0 |
| o cümlədən aqrar sahə | 849,9 | 63,9 | 1642,2 | 67,9 | 200,6 | 69,7 |
| sənayenin müxtəlif sahələri və digər sahələr | 479,8 | 36,1 | 776,5 | 32,1 | 87,1 | 30,3 |

*Mənbə:[235]. Sahibkarlığın İnkişafı Fondunun hesabat materiallarına əsasən tərtib olunmuşdur.*

**Cədvəl 4.1.4**

**SİF-in verdiyi kreditlərin iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə bölgüsü (mln. manat)**

| Sahələr | 2010 | 2015 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| Müxtəlif sənaye məhsulları üzrə istehsal və emalın məbləği | 12,9 | 23,5 | 31,7 | 47,3 | 43,5 |
| Kənd təsərrüfatı məhsulları üzrə emalın məbləği | 7,1 | 10,4 | 24,1 | 15,8 | 5,5 |
| Kənd təsərrüfatı məhsulları üzrə istehsal həcmi | 13,0 | 55,8 | 96,3 | 56,5 | 67,6 |
| Turizmin inkişafı üzrə | 1,8 | 2,8 | 9,9 | 0,7 | 4,1 |
| Xidmət sahələrinin inkişafı üzrə | 1,4 | 22,6 | 12,7 | 1,6 | 3,3 |
| Cəmi | 36,2 | 115,1 | 174,7 | 121,9 | 124,0 |

*Mənbə:[235]. Sahibkarlığın İnkişafı Fondunun hesabat materiallarına əsasən tərtib olunmuşdur.*

4.1.4 saylı cədvəlin məlumatları göstərir ki, 2021-ci ildə 2010-cu ilə nisbətən aqrar sahə məhsullarının emalına yönəldilən güzəştli kreditlərin məbləği 22% azalsa da, aqrar sahə məhsulları istehsalı üçün verilən kreditlərin məbləği isə 5,2 dəfə artmış və müvafiq olaraq 5,5 və 56,5 mln. manat olmuşdur.

Onu da qeyd edək ki, aqrar sahə məhsullarının emalına yönəldilən güzəştli kreditlərin maksimum məbləği 2019-cu ildə (24,1 mln. manat), aqrar sahə məhsulları istehsalı üçün verilən maksimum kredit məbləği isə 2021-ci ildə (124,0 mln. manat) olmuşdur.

Ölkədə sahibkarlıq sahəsində görülən tədbirlərin nəticəsi kimi, 2018-ci ildən etibarən Sahibkarllığın İnkişafı Fondunda investisiya layihələri üzrə seçilmə mexanizmində dəyişiliklər olunmuşdur. Belə ki, bundan qabaq güzəştli kredit almaq məqsədilə SİF-ə sahibkarların müraciəti əsasında onların təklif etdikləri investisiya layihələri qiymətləndirilməklə kreditin ayrılması barədə qərar qəbul edilirdi. Belə vəziyyətdə eyni sahə üçün verilən layihələrin müqayisəsi mümkünsüz idi. Hazırkı prosedura görə prioritet sahələr üzrə sahibkarlıq subyektlərindən investisiya təkliflərini qəbul etmək üçün fərqli istiqamətlərdə kütləvi informasiya vasitələrində elanlar gedir, bir istiqamət üzrə verilən müxtəlif təkliflərin qiymətləndirilməsi aparılır və qalib layihələrin Fond tərəfindən yüksək şəkildə (investisiya tələbatının 60-70%-i səviyyəsində) güzəştli şərtlərlə maliyyələşdirilir.

Qeyd edilən mexanizm milli iqtisadi inkişafa təsir baxımından daha səmərəli investisiya layihələrinin seçiminə imkan verir. Sahibkarlığın İnkişafı Fondunun sayəsində 2009-2021-ci illər ərzində bu yolla muasir texnologiyaların tətbiqinə əsaslanan 500-dən artıq investisiya layihəsi maliyyələşdirilib. Həmin layihələrin güzəştli qaydada maliyyələşdirilməsi əsas etibarilə ətlik və südlük istiqamətlərində cins iri buynuzlu heyvandarlıq kompleksləri, logistik və yaşıl market mərkəzləri, müasir tələblərə uyğun meyvə-tərəvəz məhsullarının emal müəssisələri, iri fermer təsərrüfatları, qarışıq

yem istehsalı və innovativ çörək istehsalı, digər bu kimi sənaye (yüngül, maşınqayırma, kimya, tikinti və s.) müəssisələri, müasir istixana kompleksləri, intensiv bağçılıq (alma, üzüm, nar və s.) və ya tingçilik təsərrüfatları yaratmağa, kiçik sahibkarlığın inkişafına yönəldilib [11, s. 261].

Ölkəmizin aqrar sahə müəssisələrinə banklar tərəfindən təqdim edilən kreditlərin məbləği həm çox az, həm də faiz dərəcələri xeyli yüksəkdir.

**Cədvəl 4.1.5**

**2010-2021 ci illədə Azərbaycanda aqrar bölməyə ayrılan kreditin dinamikası**

| Göstəricilər | İ L L Ə R | | | | | | | 2021-ci il 2010-cu ilə nisb., faizlə |
|---|---|---|---|---|---|---|---|---|
| | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | |
| İqtisadiyyatın inkişafı üçün cəmi kredit qoyuluşu həcmi (mln. man) | 9163,4 | 21730,4 | 11757,8 | 13020,3 | 15292,7 | 14530,4 | 17119.8 | 186,8 |
| Aqrar bölmənin inkişafına kredit qoyuluşu həcmi (mln. man) | 441,3 | 508,1 | 429,2 | 470,1 | 543,4 | 566,1 | 591,7 | 134,1 |
| Ümumi kredit qoyuluşunun həcmində aqrar bölmənin payı, faizlə | 4,8 | 2,4 | 3,7 | 3,5 | 3,6 | 3,8 | 3,5 | X |

*Mənbə: [226] Azərbaycan Respublikası Mərkəzi Bankının materialları əsasında tərtib edilmişdir.*

4.1.5 saylı cədvəlin məlumatlarının təhlili göstərir ki, son illərin dinamikasına görə ölkə iqtisadiyyatının inkişafına ayrılmış kreditin məbləği 2021-ci ildə 2010-cu illə müqayisədə 86,8 faiz artmış olduğu halda, aqrar bölməyə yönəldilən kreditin həcmi 34,1 faiz artıb. Nəticədə aqrar bölməyə ayrılmış vəsaitin ümumi kredit qoyuluşu məbləğində payı 2021-ci ildə 3,5 faiz təşkil etmişdir ki, bu da 2010-cu illə müqayisədə 1,3 faiz bəndi azdır. İqtisadi inkişafın hazırkı mərhələsində dövlət təyinatlı kreditin əsaslı şəkildə artırılmasına böyük zərurət yaranıb.

Aqrar sahə müəssisələri üçün ayrılmış kredit məbləğlərinin mövcud vəziyyətinə nəzər salsaq görərik ki, 2017-2021-ci illərdə verilmiş kreditlərin təxminən 93-97 faizi uzun müddətlidir (diaqram 4.1.1 və diaqram 4.1.2).

Lakin bununla belə, 2021-ci ildə daxil olmaqla aqrar sahə müəssisələrinə verilən uzun müddətli kreditlərin 2015-ci illə müqayisədə artım tempində o, qədərdə nəzərə çarpacaq artım olmamış, bunun əvəzində isə qısa müddətli kreditlərin həcmi müvafiq dövr ərzində 20%-dən çox artmışdır.




**Diaqram 4.1.1. Aqrar sahə müəssisələri üzrə qısa və uzunmüddətli kredit qoyuluşlarının dinamikası**

*Mənbə: [226]. Azərbaycan Respublikası Mərkəzi Bankının materialları əsasında tərtib edilmişdir.*




**Diaqram 4.1.2. Aqrar sahə müəssisələri üzrə uzunmüddətli kreditin sahəyə ümumi kredit qoyuluşunda xüsusi çəkisi, faizlə**

*Mənbə: [226]. Azərbaycan Respublikası Mərkəzi Bankının materialları əsasında tərtib edilmişdir.*

Məlumdur ki, aqrar sahəyə yönəldilən kreditlərdə riskin səviyyəsi yüksək olur. Aqrar sahənin spesifik xüsusiyyətlərinə uyğun olaraq bu sahəyə kredit qoyuluşunun məbləği əsas etibarilə uzun müddətli olmalıdır ki, onun maddi-texniki təminatını yetərincə yüksəltmək mümkün olsun. Kredit məbləğinin qısa müddətə verilməsi o deməkdir ki, həmin kredit yalnız cari dövriyyə vəsaitlərinə olan tələbatı ödəmək üçün yetərli olur. Bu səbəbdəndir ki, son dövrlərdə aqrar sahədə əsaslı tikintinin səngiməsi, torpağın melorasiyası və irriqasiyası tədbirlərinin kifayət qədər həyata keçirilməməsi, müasir standartlara uyğun yeni texnika və texnologiyanın az əldə edilməsi müşahidə edilir. Bütövlükdə aqrar sahəyə kredit qoyuluşunun ümumi məbləği, yuxarıda qeyd olunduğu kimi, artmışdır. Uzun müddətli kredit məbləğinin həm nisbət dəyişməsi, həm də ümumi kredit məbləğinin artması hesabına çoxalması müşahidə edilir.

Hazırda banklar tərəfindən verilən istehlak kreditlərinin faiz dərəcəsi 15-20%-dir. Bu da sahənin inkişafına mənfi təsir edir. Fikrimizcə bunu 10-12% dərəcəsi ilə verilməsi daha məqsədəuyğun olardı.

Fikrimizcə, işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafı, istehlak bazarının tənzimlənməsi üçün xüsusi kreditləşmə fondu yaradılmalı, bu vəsait faizsiz istehsal və xidmətin girovsuz maliyyələşdirilməsinə yönəldilməlidir. Tələbata uyğun qısamüddətli və uzunmüddətli kredit müvafiq layihələr əsasında verilsə daha real olardı.

Aparılan araşdırmalara görə, yeni yaradılmış və inkişafda olan aqrar sahə təsərrüfatlarının malik olduqları istehsal resurslarından (xüsusən də torpaq, maşın və avadanlıqlardan) səmərəli istifadə edə bilməməsinin əsas səbəbi maliyyə və pul vəsaitlərinin çatışmazlığıdır. Respublikanın əksər bölgələrində aqrar sahə və onun məhsullarının emalı ilə məşğul olan subyektlərin torpaqdan və emaledici güclərdən istifadənin səviyyəsi xeyli aşağıdır. Bunu ölkənin bütün bölgələrində müşahidə etmək mümkündür. Ona görə də hesab edirik ki, bütün bölgələrdə aqrar sahibkarlara bank kreditlərinin uzun müddətə və aşağı faiz dərəcələrlə  verilməsi vacibdir.

Fikrimizcə, sahibkarlıq məqsədi ilə təqdim edilən kredtilərin aşağı faizlə verilməsi üçün bütün zəruri tədbirlərin görülməsinə ehtiyac vardır. Mərkəzi Bankın kredit siyasəti kommersiya banklarında sahibkarlığın inkişafı məqsədlərinə yönəldilən güzəştli kreditlərin məbləğinin artırılmasına stimul yaratmalıdır.

Emal müəssisələrinin, o cümlədən kənd təsərrüfatı məhsullarını emal edən müəssisələrin əsas istiqaməti maddi resursların texnoloji prosseslər vasitəsilə əlavə dəyərə və yeni istehlak xassələrinə malik olan məhsulların istehsalına çevrilməlidir.

Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 06 dekabr 2016-cı il tarıxli sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsularının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”nin əhəmiyyəti xüsusilə qeyd olunmalıdır [6].

Heç şübhəsiz ki, kənd təsərrüfatı istehsalının təbii-iqlim şəraitindən asılılığı, bu sahədə kapitalın dövriyyə surətinin aşağı olması

öz növbəsində gəlir artmasını da kifayət qədər aşağı salır. Ona görə ictehsalçılar öz vəsaitlərini investisiyaya qoymaq, daha dəqiq desək, risk etmək istəmirlər. Bundan əlavə, onların maliyyə bazarından vəsait cəlb etmək imkanları da yüksək deyil. Bu da müəyyən səbəblərlə bağlıdır. Qeyd etməliyik ki, reqionlarda torpaq və əmlak bazarının zəif inkişafı aqrar kreditlər üzrə zəmanət və qirov mexanizminin qənaətbəxş olmamasını şərtləndirir.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə kredit zəmanət fondunun yaradılması imkanlarına baxılması nəzərdə tutulub. Burada məqsəd kredit təşkilatları tərəfindən verilən kənd təsərrüfatı kreditləri ilə bağlı risklərin azaldılmasından ibarətdir. Bunun üçün risklərin bölgüsü əsasında zəmanət fondu yaratmaq imkanlarının araşdırılması məqsədəuyğun sayılır. Bununla yanaşı, aqrar sahə məhsullarının istehsalçılarına təsir edən quraqlığa və ya ixrac bazarında sabitliyin pozulmasına qarşı müxtəlif risklərin bölgüsü mexanizmlərinin müəyyənləşdirilməsi tələb olunur.

Müvafiq icra hakimiyyəti orqanlarının müştərək fəaliyyəti əsasında, girovsuz və innovativ kreditlər üzrə normativ-hüquqi bazanın formalaşdırılması yönümündə tədbirlərin görülməsinə ehtiyac vardır. Bunun üçün bu sahədə inkişaf etmiş ölkələrin təcrübəsinin öyrənilməsi və təhlillərin aparılması vacibdir.

Aqrar sahədə riskləri qiymətləndirmək və həmin riskləri azaltmaq və ya təsirini yumşaltmaqla bağlı mexanizmləri müəyyənləşdirmək üçün araşdırmaların aparılması vacib məsələlərdəndir. Araşdırmalar zamanı əsas məqsəd risklərin, onların yaranma tezliyinin və dərəcəsinin təhlilinin aparılmasına, eləcə də həmin risklərin milli səviyyədə və sahənin yekunlarına təsiri ilə əlaqədar son nəticələrin müəyyənləşdirilməsinə nail olmaqdır. Həmin araşdırmaların əsasında əldə edilmiş məlumatlarla əlaqədar elektron məlumat bazasının yaradılması təmin edilməlidir ki, bu da gələcəkdə kredit təskilatlarında kənd təsərrüfatı üzrə istənilən fəaliyyətin təhlilinə və

kreditlə əlaqədar qərarların qəbulunda mühüm informasiya mənbəyinə çevrilməsinə imkan verəcəkdir.

Kredit təşkilatlarının aqrar sahəyə ayırdığı kreditlərə görə faiz dərəcələrini optimallasdırmaq vasitəsilə istehsalçıları münasib şərtlərlə maliyyəyə çıxışını yaxşılaşdırmaq və aqrar sahəyə əlavə vəsaitlər cəlb etmək istiqamətində dünya təcrübəsinin öyrənilməsi və təkliflərin hazırlanması məqsədəuyğundur.

Araşdırmalar göstərir ki, dünyanın əksər ölkələrində aqrar sahənin inkişafına maliyyə təsirinin əsas vasitəsi əvəzsiz maliyyələşdirmə deyil, əvəzi ödənilməklə həyata keçirilən kreditləşdirmə aqrar sahəyə dair dövlət proqramlarının çox hissəsi kreditlərin verilməsi ilə bağlıdır. Ölkələrin çoxunda kredit maliyyələşdirmənin müstəqil forması kimi deyil, aqrar sahə istehsalçısının şəxsi kapital qoyuluşunun stimullaşdırma forması kimi çıxış edir.

Avropa ölkələrində fermerlərin kreditləşdirilməsi problemi aktual xarakter daşıyır. AİB ölkələrində fermerlərin 25%-i istehsalı maliyyələşdirmək üçün xüsusi vəsaitlərə malik olmuş, 35%-i qismən kredit resursları almış, 40%-i isə əsasən borc vəsaitlə-rindən istifadə etmişdir. ABŞ-dan fərqli olaraq AİB ölkələrində fermerlər üçün kommersiya kreditləri sərt ödəniş qaydası ilə həyata keçirilir [96, s. 271].

Əksər Avropa ölkələrində dövlət tərəfindən güzəştli investisiya kreditləri gələcəkdə fermer təsərrüfatlarının sayını artırmaq məqsədilə gənc ailələrə verilir. Məsələn, Fransada bu məqsədlə orta müddətli kreditlər 2,75 - 4,0 faiz dərəcəsilə verilir.

Aqrar iqtisadiyyatın dövlət tənzimləməsinin mühüm vasitəsi güzəştli kreditləşmə hesab edilir. İstehsalın optimal şərtlərinin təmin edilməsi məqsədilə ilk növbədə öz vəsaiti və ya borc vəsaiti hesabına maliyyələşə bilməyən təsərrüfatlar güzəştli kənd təsərrüfatı kreditləşməsini həyata keçirirlər.

Bazar iqtisadiyyatlı ölkələrin əksəriyyətində güzəştli kreditləşmənin əsas prinsipi büdcə vəsaitindən mövcud faiz dərəcələrinin

qismən kompensasiyasıdır. Lakin onun tətbiqi mexanizmi ayrı-ayrı ölkələrdə konkret şəraitdən asılı olaraq dəyişir. Avstriyada güzəştli kredit dərəcələrinin və büdcə kompensasiyasının ölçüləri bankın faiz dərəcəsindən birbaşa asılı vəziyyətdədir, Fransada maliyyələşmənin güzəştli faiz dərəcəsi və bank dərəcəsi yalnız büdcə kompensasiyasına təsir göstərir, Almaniyada isə hər iki göstərici stabildir. Rusiyada güzəştli kredit dərəcələrinin və büdcə kompensasiyasının ölçüləri Mərkəzi Bank tərəfindən müəyyən edilən uçot faiz dərəcəsindən birbaşa asılıdır və kənd təsərrüfatı müəssisəsinin növündən asılı deyil. Bu uzunmüddətli dövrdə kənd təsərrüfatı istehsalının proqnozlaşdırılmasını çətinləsdirir. Kreditdən istifadəyə görə son dərəcənin müəyyən edilməsi daha məqbul olardı.

Fikrimizcə, güzəştli kreditləşmə ən perspektivli sahələrin inkişafını və prioritet istiqamətlərini stimullaşdırmaqla kənd təsərrüfatı fəaliyyətinin bütün növlərini əhatə etməlidir.

Kənd təsərrüfatının istehsalında kreditin inkişaf meylləri əsasən Almaniya, ABŞ, Kanada, Böyük Britaniya, Fransa, Hollandıya və Rusiyanın timsalında təhlil edilir. Onların araşdırılması göstərir ki, Azərbaycanın aqrar münasibətlər sistemində kreditin vəziyyəti və perspektivlərinə bu təcrübədən istifadə hərtərəfli yararlanmağa və aqrar sahədə təkrar istehsal şəraitinin təmin edilməsində ən münasib yolların müəyyənləsdirilməsinə imkan yaradır.

Almaniya aqrar sahənin qarışıq kreditləşdirilməsinin həyata keçirilməsi ilə kənd təsərrüfatı istehsalının inkişafını dəstəkləyən ölkədir. Burada kənd təsərrüfatı kreditləşməsi ilə kooperasiya bankları, əmanət kassaları, ixtisaslaşmış banklar, ipoteka bankları, özəl kommersiya bankları məşğul olurlar.

Yerli kooperativ bankların kredit əməliyyatlarına müasir universal banklar tərəfindən verilən kənd təsərrüfatı kreditlərinin bütün növləri daxildir. Həm də kənd təsərrüfatı müəssisələrinə kreditlərin verilməsində rayffayzen bankları ixtisaslaşıb. Rayffayzen bankları həmçinin öz səhmdarlarına dövlət maliyyələşdirilməsi proqramları

üzrə aşağı faizli güzəştli kreditləri təqdim edirlər. Bundan əlavə, Rayffayzen bankları kənd təsərrüfatı məhsullarının alqı-satqısı, aqrar sahədə marketinq tədqiqatları, lizinq əməliyyatları ilə məşğul olurlar.

İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə aqrar istehsalın inkişafının hazırkı mərhələsi xeyli dərəcədə kredit münasibətlərinin tənzimlənməsi mexanizminin konseptual-hüquqi səviyyəsi ilə müəyyən olunur. Bu ölkələrdə kredit münasibətləri həm öhdəlik, həm də mülki (əmlak) hüquq normaları ilə nizamlanır. Məhz bu baxımdan həmin ölkələrin kredit münasibətləri öhdəlik və əmlak münasibətlərinin formalaşması və müdafiəsinin mürəkkəb mexanizmi ilə səciyyələnir.

Avropa ölkələrində tez bir zaman ərzində kooperativlər və kənd təsərrüfatı kredit təşkilatları aqrar istehsalın sütun və inkişaf səviyyəsini müəyyən edən nüfuzlu və mötəbər maliyyə qüvvəsinə çevrildilər. Odur ki, Avropanın demək olar ki, bütün dövlətləri öz yerli kənd təsərrüfatında mövcud olan kredit sistemlərini və onların fəaliyyətini öz nəzarəti altında saxlayırdı.

Araşdırmalar göstərir ki, Fransada kredit münasibətləri digər ölkələrə nisbətən daha çox dövlət nəzarətinə verilmiş və aqrar istehsalın yenidən təşkili və iqtisadi inkişaf planları ilə uyğunlaşdırılmışdır. Eyni zamanda burada fəaliyyət göstərən kassalar ölkə qanunvericiliyi ilə qabaqcadan təsbit edilmiş zəmanətlər ipoteka, kənd təsərrüfatı krediti üçün xüsusi zəmanətlər əsasında aqrar müəssisələrə qısa, orta və uzun müddətli kənd təsərrüfatı kreditləri verirlər.

Amerikada kənd təsərrüfatına xidmət göstərən kredit sistemi 800 bank və cəmiyyətlərdən təşkil olunmuşdur. Aqrar sahə müəssisələrinin kreditləşdirilməsində xüsusi rola malik kooperativ banklar Amerikada kənd təsərrüfatı kreditinin 20 faizini, Almaniyada 44 faizini təşkil etdiyi halda, Fransada dörddə üçünü təşkil edir. Kənd təsərrüfatının kreditləşdirilməsində kommersiya banklarının xüsusi

çəkisi Amerikada 8%-ə, Fransada isə 2%-ə bərabərdir. [231].

Avropa ölkələrində kredit münasibətlərinin tənzimlənməsi mülki hüquq normaları ilə aparılsa da, aqrar sahənin kreditləşməsi özünəməxsus xarakteri ilə fərqləndiyinə görə, bu ölkələrin demək olar ki, hamısında kənd təsərrüfatının kreditləşməsi haqqında xüsusi qanunlar qəbul edilmiş, əsasən xüsusiləşdirilmiş dövlət maliyyə-kredit idarələrinin timsalında aqrar sahə müəssisələrinin kreditləşdirilməsi sistemi işə salınmışdır.

ABŞ-ın aqrar sahəsində kredit sisteminin formalaşmasının əsas xüsusiyyəti ondan ibarətdir ki, burada dövlət, hər şeydən əvvəl, bank-kredit idarələri sisteminə ilkin kapital qoymaqla, maliyyə-kredit idarələrinin kredit sisteminin yaranmasının təşəbbüskarı kimi çıxış edir.

ABŞ-da aqrar sahəyə dövlət kreditinin verilməsində aparıcı rol "Fermer kredit sistemi"nə məxsusdur. Bu təşkilata dövlət aqrar proqramlarını reallaşdırmaq və bütövlükdə bank fəaliyyətini inkişaf etdirmək məqsədi ilə geniş səlahiyyətlər verilmisdir.

İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə fermerlərin kreditləşdirilməsi mənbələri çoxsaylı olmaqla, əsasən, fermer krediti idarəsini, kommersiya özəl bankları və kredit idarələrinin, sığorta şirkətlərini və s. əhatə edir. Bu ölkələrdə kənd təsərrüfatının kreditləşdirilməsi sistemi kommersiya banklarına və sığorta şirkətlərinə nisbətən daha aşağı faizli tariflərlə və daha uzun müddətə güzəştli kreditlər təklif edirlər. Daha əhəmiyyətlisi isə odur ki, bu cür sistemlərdə öhdəlik altında kreditlərin verilməsi təcrübəsi, eləcə də girovun daşınmaz əmlak, sığorta riski və s. ilə möhkəm təminatı mövcuddur.

Amerikada uzun müddətli kredit girov götürülməklə verilir və adətən onun məbləği girovun dəyərinin 85 faizini təşkil edir. Danimarkada isə xüsusi qanunlarla tənzimlənən ipoteka krediti yalnız kənd təsərrüfatı istehsalına xidmət edir. Burada ipoteka kreditinin məbləği əmlakın dəyərinin üçdə ikisindən çox olmur. İngiltərədə

isə bu məbləğ girov üçün təklif edilən əmlakın dəyərinin yarısına bərabərdir.

Aqrar sahəyə investisiyanın əsasən kredit şəklində verilməsi təcrübəsi həmin əsaslı vəsait qoyuluşlarının yüksək səmərəliliyi haqqında nəticə çıxarmağa imkan verir. Təbii ki, burada kredit təşkilatlarının start (başlanğıc) kapitalı şəklində ayırdığı dövlət vəsaitləri az əhəmiyyət kəsb etmir.

Fikrimizcə, bu bir tərəfdən, aqrar-kredit təşkilatlarının yaranmasını stimullaşdırar, digər tərəfdən isə, dövlət miqyasında investisiyanın planlaşdırılmasına, lokal paylama təcrübəsinin artmasına və onun istifadəsi üzrə nəzarətə kömək edərdi.

Dünya təcrübəsinin ümumiləşdirilməsi Azərbaycan üçün əlverişli elementləri seçmək imkanı verir. Bu elementlər sırasında ABŞ və Qərbi Avropa ölkələri üçün xarakterik olan çoxşaxəli bank sistemini, müxtəlif iqtisadi vasitələrdən istifadə etməklə güzəştli kreditləşməni, kredit müəssisələrinin müxtəlif maliyyə xidmətlərinin - lizinq, faktorinq və s. göstərmək olar.

İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə son onilliklər ərzində kənd təsərrüfatı kreditinin xüsusi institutları və formaları yaranmışdır. Onların əsas xüsusiyyətləri - dövlət dəstəyinin və kooperativ başlanğıcın yüksək səviyyəsidir.

Dünya təcrübəsi göstərir ki, kənd təsərrüfatı kreditlərini təmin edən qurumlara (struktura) daxil olan onların elementlərindən biri kənd təsərrüfatı kredit kooperativləri sayılır. Onların əsas rolu: kənd təsərrüfatı istehsalçılarının, fermer təsərrüfatlarının və digər kənd təsərrüfatı istehsalçılarının kreditləşməsi üzrə işinin yaxşılaşdırılmasından, göstərilən məqsədlərin yerinə yetirilməsi üçün əhalinin pul vəsaitlərinin cəlb edilməsindən ibarətdir.

Bu qeyd edilənlərdən belə nəticəyə gələ bilərik ki, kredit vəsaitlərindən səmərəli istifadə etməklə keyfiyyətli aqrar sahə məhsullarının istehsalına nail olmaq olar bu da öz növbəsində istehlak bazarının davamlı inkişafına əhəmiyyətli dərəcədə təsir göstərər.

## 4.2. Aqrar istehlak bazarının iqtisadi tənzimlənməsində sığortanın yeri

İqtisadi mexanizm sistemində kənd təsərrüfatı sığortasının əsas rolu vardır. "Aqrar sığorta - ölkənin kənd təsərrüfatı və bu sektorda işləyən fermer və sahibkarlara dəstək məqsədilə yaratdığı vacib mexanizmidir. Sığortanın məqsədi fermer təsərrüfatlarını və gəlirlərini mühafizə etmək, hadisə baş verən zaman onların zərərini qarşılayaraq davamlı fəaliyyətlərinə dəstək verməkdir [230].

Kənd təsərrüfatı məhsulları hər ildə riskli hadisələrdən böyük itki verir. Şirkətlərə dəyən iqtisadi zərər, fəaliyyətinin maliyyə nəticələri ilə müqayisə edilməklə yanaşı, onlardan çox da ola bilər. Hazırki dövrdə kənd təsərrüfatı sahələrinin fəaliyyətini dövlət dəstəyi olmadan reallaşdırmaq çətindir. Ayrı-ayrl riskli hadisələrin təsiri ilə, şirkətlərin onların yaratdığı ziyanın öhdəsindən müstəqil formada gələ bilməyəcəyi vəziyyətlər meydana çıxa bilər.

Dünya praktikası göstərir ki, sığorta ayrı-ayrı əlverişli olmayan amilin kənd təsərrüfatının istehsalına mənfi təsir göstərməsi nəticəsində maliyyə itkilərinin minimuma endirilməsi üçün ən təsirli vasitələrdən biri sayılır. Kənd təsərrüfatı müəssisələrinin risklərinin sığortalanmasında dövlət səviyyəsində dəstəyinin artması respublikamızın yaxın zamanlarda Ümumdünya Ticarət Təşkilatın üzvü olacağı ilə əlaqələnir [70, s. 84].

1990-cı ilə qədər respublikamızda əkinçilik və heyvandarlıq məhsulu daxil olmaqla kənd təsərrüfatı müəssisələrinin əmlak riski sığortası məcburi qaydada idi. Demək olar ki, hər bir növ kənd təsərrüfatı məhsulu istehsalçısı bu sahəyə cəlb edilmisdiki, bu da respublikaya əhəmiyyətli maliyyə mənbələri əldə etmək imkanını vermiş və bunların bir çoxu ayrı-ayrı sığorta hadisəsi nəticəsində meydana çıxan zərərlərin ödənilməsinə istiqamətləndirilmişdir.

Bir çox bazar dəyişikliyi icbari sığorta sistemini süquta uğratdı. Həmçinin, buna tələb daha da çoxaldı, sahibkarlıq fəaliyyəti ilə

bağlı risklərdən yeni sığorta növləri meydana çıxdı. Qeyd etmək olar ki, hər bir kənd təsərrüfatı bitkisinin əkinləri, çoxillik əkin, kənd heyvanları, texnika sığortalanmaqdadır.

Aqrar sahədə hər bir kənd təsərrüfat fəaliyyətini əhatə edən, vacib maliyyə mənbələrini təmin edən ümumi risk sığortası sistemi yaratmaq vacibdir. Dövlətin dəstəyi nəticəsində kənd təsərrüfatı müəssisələrinin risklərinin sığortalanmasının başlıca vəzifəsi onu kənd təsərrüfat istehsalındakı riskləri minimuma endirən və kənd təsərrüfatı müəssisələrinin maliyyə sabitliyini çoxalda bilən qabaqcıl və effektiv vasitə formasına gətirməkdir [53, s. 31-42].

Tədqiqatlar göstərir ki, republikamızda kənd təsərrüfatının sığortasının inkişafına olan ehtiyaclar aşağıda qeyd olunan əsas amillərlə müəyyənləşdirilir: respublikamızın kənd təsərrüfatında istehsal riskinin yüksək dərəcəsi; ərazisinin əhəmiyyətli hissəsinin riskin çox olduğu kənd təsərrüfatı zonasında yerləşməsi; ekstremal hava hadisəsi səbəbindən meydana çıxan zərərərə görə kənd təsərrüfatı istehsalçısının maliyyə sabitliyi ehtiyatlarının minimuma düşməsi.

Dünya praktikasına əsasən aqrar sektorda sığorta sistemi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə zərurət vardır. Bu məqsədlə aqrar sektor üzrə sığorta sistemində bölgələr və məhsullar üzrə diferensial yanaşma və bir çox məhsul üzrə icbari sığortanın tətbiq olunmasına müvəffəq olmaq lazımdır [69, s. 13-20]. Aqrar sığortanı genisləndirmək məqsədilə sığorta fondunu formalaşdırmaq məqsədə müvafiq sayılır. Bunun üçün dünya praktikasının öyrənilməsi vacib əhəmiyyət kəsb edir.

Yuxarıda sadalananlardan əlavə istehsalçıların böyük satış mərkəzlərindən uzaqda yerləşməsi, satış bazarlarının giriş hissəsində olan maneə və ən sonda zəmanətli qiymətlər sisteminin tətbiq edilməməsi də istehsalçıları məhsul, vaxt və vəsait itkilərinə məruz qoyur. Bu həmçinin, məhsul istehsalının təsərrüfat ili üzrə bərabərsizliyinə, müxtəlif dövrdə idxaldan asılılığın çoxalmasına səbəb olur. Hətta bir çox təsərrüfat illərində hansısa kənd təsərrüfatı məh-

sullarının sahələrdən yığılmaması hallarına təsadüf edilmişdir. Bu ona görədir ki, həmin illərdə məhsulun bazar qiyməti onun yığılması və bazara çıxarılması xərcindən aşağı olmuşdur.

Əvvəldə qeyd olunduğu kimi, ölkəmizin bəzi bölgələrində yaranan torpaq sürüsmələri, uçqunlar, quraqlıq, ziyanverənlərin yayılması və hücumlarından, həmçinin yoluxucu xəstəliklərin təsirindən meydana çıxan itkilərin sığortalanma mexanizminin yeni prinsipləri əsasında işlənilməsinə tələb vardır.

Payız və qış fəsillərində havaların mülayim keçdiyi zamanlarda əsasən ölkənin aran regionlarında ziyanverici, həmçinin, gəmiricilərin geniş şəkildə yayılması və istehsalçılara saysız-hesabsız miqdarda zərər vurması halı dəfələrlə müşahidə edilmisdir.

Qeyd olunanlarla yanaşı hazırki dövrdə sığorta obyektlərinə yalnız buğdanın, arpanın, qarğıdalının, kartofun, şəkər çuğundurunun, dən üçün günəbaxanın, tərəvəzin (göyərti istisna olunmaqla) meyvənin, satış və üzüm bağlarının daxil olunmasına da tamamilə haqq qazandırmaq düzgün deyil. Fikrimizcə, bu siyahıda kənd təsərrüfatı təyinatlı binalarının, maşın və avadanlıqların, həmçinin, kənd təsərrüfatı heyvanlarının, ev quşlarının və arı ailələrinin də olması vacibdir. Hazırki istehsalın və həmçinin, ixracın respublikamıza daha çox fayda verəcək məhsulun arıçılıq məhsulu olması bunu bir daha təsdiqləyir. Eyni zamanda yaddan çıxartmaq olmaz ki, respublikamızın qeyri - adi bitki örtüyünə malik olması, müasir tələblərə müvafiq olaraq qablaşdırılan və sertifikatlaşdırılan arıcılıq məhsulunun keyfiyyət tərəfdən rəqabətə davamlı olmağını artırır. Bu səbəbdən, postneft dövrünün reallığını nəzərə alaraq bu növ ixrac olunan məhsulların sığortalanması önə çəkilməlidir [54].

Aqrar sektorun sığortalanması çərçivəsində maliyyə-kredit resursu üzrə əlçatanlıq potensialından əlverişli istifadə vasitəsindən biri sektorda formalaşan riskləri sığorta mexanizmi dəstəyi ilə azaltmaqdır. Aqrar sektorun sığortalanması həm təbii-iqlim şəraiti, həm də qiymətlərin durumunun tərəddüdünə görə fermer təsərrüfatı

məhsuldarlığı və gəlirliliyi ilə əlaqədar meydana çıxan riskləri minimuma endirir və kredit borcına görə xidmət imkanlarını artıraraq aqrar sektorun kreditləşmə potensialını maksimum səviyyəyə gətirməyə səbəb olur.

Aqrar sektoru əhatə edən risk sığortalanması xeyli səviyyədə mürəkkəb cəhətlərdən biri kimi sektorun mütəxəsislərinin müəyyən bilik əldə etməsini gündəmə gətirir. Elə bu cəhətdən sığorta təşkilatlarında bu seqment yüksək riski olan fəaliyyət sferası kimi qiymətləndirilir və riskdən uzaqlaşırlar. Qeyd olunan sektorda statistik və tədqiqat informasiyalarının obyektiv və yetərli olmaması sektor üzrə kreditləşdirmədə çətinliklər yaradır.

Aqrar sığorta modelini seçilib tətbiq edilərkən respublika üzrə hazırki sığorta bazarının xarakterik xüsusiyyətləri, aqrar-iqlim mühiti diqqət çərçivəsində olmalı və ölkənin iqtisadi siyasətinə uyğun tərtib olunmalıdır. Aqrar sektorun sığorta mexanizmi kifayət qədər böyük institut olduğu üçün, onun, təşəkkülü və yaradılmasında ölkənin həyata keçirdiyi aqrar sektordakı strateji siyasəti, sahə infrastrukturunun əlverişliliyi və digər amillərin nəzərə alınması vacibdir [54].

Aqrar sektorun inkişafına investisiya yatırımı planlaşdırılarkən ümumi layihələr tərtib olunmalı, iqtisadiyyatın sahələri arasında aqrar sektorun yeri müəyyənləsdirilməli və aqrar sektorun nəzdnində fəaliyyət göstərən sektorlar arasında və sahədaxili qruplarda nisbətlər müəyyən formada nəzərə alınmalıdır. Hal-hazırda bu nisbətlərin düzgün müəyyənləşdirilməməsi nəticədə aqrar sektorun birtərəfli qaydada inkişaf etdirilməsinə, müəyyən istehsal imkanlarından tam istifadə edilməsinə heç də şərait yaratmır. Bütün qeyd olunanlar kənd təsərrüfatı üçün münbit torpaq, işçi qüvvəsi, suvarma suyu, maddi-texniki resurslardan çox zaman pərakəndə şəkildə istifadə edilməsinə gətirib çıxarır. Bütün qeyd edilənlər aqrar sektorun inkişafına istiqamətləndirilən hər hansı bir forma və həcmdə maliyyə resurslarının, ümumilikdə vəsaitlərin sığortalanmasını qarşıya məqsəd qoyur.

Sığortalanma hadisəsi şirkətin onun maliyyə risklərinin hər bir növü üzrə sığorta müdafiəsini təmin edir. Bu halda sığortaçı tərəfindən maliyyə riskinin neqativ nəticəsinin ödəmə həcmi məhdudlaşmır, yəni, o, sığorta obyektinin hazırki dəyəri (onun qiymətləndirmə sığortasının kəmiyyəti ilə), sığorta dəyərinin məbləği və ödəniləcək sığorta mükafatının ölçüsü ilə müəyyənləşdirilir.

Sığorta xidmətindən yararlanarkən, təşkilar birinci növbədə sığorta obyektini müəyyənləşdirməlidir. Yəni, maliyyə riskinin o növünü ki, o, bu risk üzrə xarici sığorta müdafiəsini yerinə yetirmək niyyətində olur. Aqrar sahənin maliyyə risklərinin bu cür tərkibi bir sıra prinsiplərlə müəyyənləşdirilir [53] (sxem 4.2.1).




**Sxem 4.2.1. Aqrar sahənin maliyyə risklərinin sığortalanmasının əsas prinsipləri.**

*Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.*

Ziyanın məbləği barədə tərəflərin qarşılıqlı surətdə razılığı əldə edildikdən sonra əmlak sığortası üzrə sığortanın ödənişi sığortaçının seçimi əsasında aşağıda qeyd olunan formalarda reallaşdırıla bilər:

- ziyan məbləğinin pul dəyərində fiziki və ya hüquqi şəxslərə ödənilməsi;
- sığorta hadisəsi zamanı dəyən ziyanın aradan qaldırılması məqsədilə sığortalıya göstərilən xidmətlər və ya əşyaların satışından yaranan dəyərin xidmət göstərən və ya satıcıya ödənişi;
- sığorta predmeti olan, və ya zərərçəkmiş üçüncü şəxsə aid əmlakın təmiri və ya bərpa olunması;
- sığorta müqaviləsində qeyd olunarsa, bu müqavilədə müəyyənləşdirilən şərtlərə görə sığorta predmeti olan əmlakların dəyişdirilməsi.

Risk sığortalanması sığorta təşkilarının və müxtəlif sığorta əməliyyatlarının maliyyə dayanıqlığına ilə əlaqədardır. Təşkilatın maliyyə dayanıqlığı sığorta edənin gəlirinin onun xərcini üstələməsini göstərir.

Sığorta həm də konkret dəqiq səviyyələrdə gəlir axınlarını qorumağa və ya sabitləsdirməyə şərait yaradır. Bu səbəbdən risklərin hansı növünün sığortaya məruz qalması barədə məsələnin hər zaman uğurlu yolla həllinə çalışmaq zəruridir.

Son zamanlarda qlobal iqlim dəyişiklikləri aqrar sektorda çox ciddi itkilərin yaranmasına səbəb olmuşdur. Bu hallar aqrar məhsulların qiymətlərində ciddi tərəddüdlərə səbəb ola bilər və aqrar sahibkarlıq gəlirlərindəki, aqrar məhsul qiymətlərindəki çox ciddi dəyişikliklərin qarşısını almaq, bütövlükdə, aqrar sektorda uzunmüddətli böhranın yaranmasına əngəl olmaq məqsədilə ən effektiv mexanizmi kimi sığorta sisteminin formalaşmasını qeyd etmək olar. Kənd təsərrüfatı məhsulunun qiymət mexanizminin yenidən təşkili və sahibkarlıq gəlirlərinin itkilərinin minimuma endirilməsinə imkan verən sığorta sisteminin hazırki dövrdə formalaşdırılması

bir çox obyektiv çətinliklərlə üzbəüz qalır. Ən əsası, özəl sığorta əlaqələri əsasında real və davamlı sığorta sisteminin formalaşdırılması ümumilikdə mümkünsüzdür. Əlbəttə ki, əsas problem kənd təsərrüfatı məhsulu istehsalçılarının sığorta mexanizmi haqqında lazımi biliklərə malik olmamasında, yaxud bütövlükdə, sığorta sisteminə maraqlarının olmamasında deyil. Problem hətta istehsalçıların bir çoxu üçün əlavə xərclərin - sığorta ödənişinin əlavə maliyyə yükləri olmasında da deyil. Əsas problem budur ki, özəl sığorta sahəsində də kənd təsərrüfatı sektorundakı sığortalanma əməliyatına ciddi maraq yoxdur və bu əslində beynəlmiləl bir təzahür sayılır. Əslində "sistem riskləri kənd təsərrüfatında özəl sığortanın inkişafının ən ciddi maneəsi sayılır" [177].

Ona görə ki "nəqliyyat vasitələri və yaxud yanğından başvermə meyllərinə görə müstəqil olan hadisədən fərqli olaraq aqrar məhsulların itkisi risklərinin böyük sahədə yaranması ehtimalının korrelyasiyası dərəcəsi çoxdur" [233].

Həqiqətən də, quraqlıqlar, daşqınlar və s. hadisələr böyük ərazi və yüzlərlə, minlərlə təsərrüfatı əhatə edir və bu hallarda sığorta təşkilatları üçün müvafiq ödənis reallaşdırmaq çox çətin, bəzi zamanda isə mümkünsüz olur. Doğrudur, bəzi təhlillərə əsasən "sığorta təşkilatlarının kənd təsərrüfatında qarşılaşdığı sistem riski çətinliyi qlobal bazarda təkrar sığortanın köməkliyi ilə həll edilə bilər"[193].

Lakin təhlil aparanların böyük əksəriyyətinin rəylərinə əsasən, dövlətin dəstəyi olmadan sistem riskləri olan sığorta və kapital bazarı adekvat sığortalana bilməz". [233].

İnkişaf etmiş dövlətlərin təcrübəsi də sübuta yetirir ki, kənd təsərrüfatında sığorta işləri ölkənin fəal dəstəyi olmadan həyata keçmir. Birinci dəfə, 1750-ci ildə Fransa Respublikasında reallaşan kənd təsərrüfatı sığortası bu gün həmin dövlətdə xüsusi bir fondun - Təbii Fəlakətlər Fondunun köməyi ilə reallaşır. Fondun vəsaitləri əmlak sığortası müqaviləsinə əlavə mükafatlar müəyyən edilməsi

hesabına formalaşdırılır.

İtaliya Respublikasında aqrar istehsalın sığortalanması ilk olaraq özəl sığorta şirkətləri hesabına həyata keçsə də, maliyyələşmə zamanı dövlətin fəal dəstəyi vardır. Belə ki, sığorta mükafatı ödənişi zamanı xərclərin 50%-i dövlət, qalanı isə fermerlər tərəfindən reallaşır.

AR Nazirlər Kabinetinin 27 noyabr 2020-ci il tarixli imzalanmış qərarına əsasən, kənd təsərrüfatı bitkisi və bitkiçilik məhsulları (çoxillik əkmə və onların məhsulları da aid edilməklə) üzrə, həmçinin, kənd təsərrüfatı heyvanları, kənd təsərrüfatı üçün yetisdirilən heyvanlar üzrə, həm də akvakultura məhsulları üzrə də sığorta haqlarının 50%-inin dövlət büdcəsi ilə ödənilməsi müəyyənləşdirilmişdir.

Fermerlərin becərdiyi məhsullar üçün sığortalanma ilə əlaqədar qanuni əsaslar fonunda ölkə tərəfindən bu siyasətin həyata keçirilməsi üzrə kommersiya mexanizmi təklif edilmiş, kənd təsərrüfatı sektorunda çalışan vətəndaşların əməyinin sığortalanması ilə birlikdə sığorta təşkilatlarının də riskləri minimuma enmişdir. Bundan başqa, fermer təsərrüfatı və sığorta təşkilatlarının arasında aqrar sığorta ilə əlaqədar əməkdaşlığın stimullaşması, fermer himayəsinin gücləndirilməsi, aqrar sektorda risklərin minimum səviyyəyə endirilməsi, gəlirlilik dərəcəsinin artırılması təmin ediləcək. Həmçinin, daha çox investisiya yatırılması və daha çox mal və xidmət istehsalı məqsədilə imkanların genişləndirilməsi, qeyd olunmuş aqrar-ərzaq məhsulunun fermerlər üçün ən səmərəli şərtlər çərçivəsində sığortalanmasına imkan yaradacağı ehtimal edilir. Bu qərarda qeyd olunan tədbirlərin həyata keçirilməsi nəticəsində həm bitkiçilik və heyvandarlıq, həm də balıqçılıq və başqa bu kimi faydalı su məhsulu (akvakultura) üzrə istehsalın yüksəlməsinə şərait yaradacaqdır.

Bu günə qədər Aqrar Sığorta Fondu tərəfindən respublika üzrə 13 min ha. əkin sahəsi və 2500-dən çox iribuynuzlu mal-qara sığortalanmışdır. 2021-ci ilin iyunundan bu günə qədər aqrar sığorta üzrə ödənişlərə də başlanılıb [230].

Ancaq real və işlək aqrar sığortadan danışmaq qeyri-mümkündür. Çünki, Azərbaycan Sığortaçılar Assosiasiyası məlumatına əsasən, son vaxtlarda kənd təsərrüfatında sığorta ödənişinin payı ümumilikdə 0,02 % olmuşdur. İndiki dövrdə ümumi sığorta portfeli daxilində kənd təsərrüfatı sektoru üzrə sığorta paylarının az olması aqrar sığorta sektorunda çox ciddi çətinliklərdən biri sayılır. Çünki, son zamanlarda illər üzrə ortalama müəssisələrdən yığılan sığorta haqqının ümumi dəyərinin ümumi sığorta haqqlarında sığortanın xüsusi çəkisi, həm də ödənilən ümumi sığortada payı 1 faizə də çatmır. Respublikanın fermerləri arasında maarifləndirmə məsələsinin zəif təşkil olunması və ya aşağı formada aparılması, onların maddi imkanının azlığı, həm də vəsait çatısmamazlığı sığorta xidmətinə meyllərinin az olmağının əsas səbəbi sayılır. Fikrimizcə, respublikanın kənd təsərrüfatında əlverişli sığorta sisteminin tətbiq olunması üçün sığortaolunanlar arasında real islahatların həyata keçirilməsinə ehtiyac yaranmısdır. Bu cəhətdən, hər şeydən öncə, aqrar sığorta sektorunda beynəlxalq təcrübələrin öyrənilməsi və onun respublikamızda tətbiq olunması variantlarının araşdırılması vacibdir.

Respublikada birinci dəfə olaraq dövlətin dəstəyi əsasında tətbiq olunan aqrar sığortanın mexanizmi daxilində müstəqil mütəxəssislər hazırlanır. İnkişaf etmiş dövlətlərdə aqrar sığorta mexanizmi müstəqil aqrar sığorta mütəxəssisi peşəsi çox gəlirli fəaliyyət sahəsidir [230].

Bununla da, işlək aqrar sığorta sistemi formalaşdırılmasına zərurət var və ayrı-ayrı tədqiqatçılar və peşəkar ekspertlərin yürütdüyü təkliflərin bir çoxu - sığorta şirkətlərini, kənd təsərrüfat sığoratası üzrə gəlirin vergidən azad edilməsi, sığorta təskilatlarının müəyyən səviyyə zərərlərinin (aqrar sığortailə bağlı meydana çıxan zərərlərin) dövlətin hesabına ödənilməsi, bu təşkilatların bəzi xidmət üzrə ödənişinə güzəşlərt, və ya fermer maarifləndirilməsi işinin təşkil olunması - bu cəhətdən əsaslı və tam faydalı tədbirlər sayılmır. Bu təklif çeşidinin təhlili aparılarkən əvvəlcə bir vacib məqamı

qeyd etmək lazımdır. Aqrar sığorta sistemlərinin əsas məqsədləri sığorta şirkətinin gəlirini yüksəltmək yox, aqrar sahibkarlığın gəlirini stabilləşdirmək sayılır.

Qeyd olunanları nəzərə alsaq, aqrar sığorta zamanı tarifin 0,3-0,8%-ədək azaldılması vacibdir və bu mümkün ola bilər. 100 min manat məhsul üçün 6 min manatlıq sığorta haqqı ödənilməsi reallıqda sığortanın mahiyyətcə təhrif olunmasıdır.

Bu cür mahiyyətli aqrar sığorta sistemi yaradılması cəhətdən yəqin ki, aşağıda qeyd olunan tədbirlərin həyata keçirilməsi məqsədəmüvafiqdir [70 s.78-87]:

*"- qanunverici təşəbbüslər və düzəlişlərlə aqrar məhsul üzrə icbari sığorta sisteminin təsis edilməsi;*

*- sığorta haqqlarının 50%-i dövlət büdcə vəsaitinin hesabına ödənilən məhsulun çeşidinə meyvə-tərəvəzlərin bir çox növünün, heyvan və ev quşlarının da əlavə olunması;*

*- aqrar məhsu sığortalanması qaydasında çox ciddi yeniliklər aparılması və sığorta tarifinin dəfələrlə minimuma endirilməsi;*

*- beynəlxalq bazarda təkrar sığorta işinin həyata keçirilməsinə cəhd göstərməklə birgə, respublikada aqrar məhsul üzrə Təkrar Sığorta Fondunun təsis edilməsi;*

*- kənd təsərrüfatı istehsalçılarının məhsul itkiləri riskinin sığortalanması ilə birlikdə qiymət konyukturası riskindən sığortalanması mexanizminin yaranması".*

Deməli, real şəraitə uyğun sığorta sisteminin formalaşdırılmasının əsas istiqamətləri təklif olundu və bu təkliflər aqrar sahibkarlıq gəlirlərinin stabilləşdirilməsi və aqrar istehlak bazarının inkişafında vacib rol oynaya bilər.

## 4.3. Aqrar istehlak bazarının tənzimlənməsində investisiyalarin rolu

Hazırda Azərbaycan iqtisadiyyatının ayrı-ayrı sahə və regionlarında kənd təsərrüfatının investisiya imkanları, xarici investisiyaların ölkənin aqrar sahəsinə cəlb edilməsinin mənbələri və imkanları araşdırılmaqla investisiya mexanizmindən istifadə və sahənin maliyyə resurslarına əlçatanlığının təmin edilməsi istiqamətlərinin müəyyən edilməsinin böyük əhəmiyyəti vardır.

Professor, əməkdar elm xadimi A.Ş.Şəkərəliyev qeyd edir ki, *"iqtisadi inkişaf səviyyəsindən və coğrafi mövqeyindən asəlı olmayaraq bütün ölkələrin investisiya qoyuluşuna ehtiyacı vardır. Yəni bu və ya digər ölkəyə qoyulan investisiyalar, həmin ölkənin iqtisadi inkişafında katalizator rolunu oynayırlar. Ölkə iqtisadiyyatına qoyulan investisiya məqsəd deil, vasitə olmalıdır. Ölkəyə investisiya cəlb etməklə, əvvəl pis istifadə olunmuş təbii, istrhsal və əmək resurslarından daha səmərəli şəkildə istifadə etmək olar. Əgər xarici kapitaldan səmərəli istifadə olunarsa, bu kapital milli resurslarla birləşərək zəncirvari reaksiya yarada bilər və yüksək effekt əldə olunar"* [99, s. 290].

Eyni zamanda Azərbaycan iqtisadiyyatının ayrı-ayrı sahə və regionlarında aqrar sahənin inkişafı üçün əsas kapitala investisiyaların və onun strukturunun dinamikası təhlil edilərək qiymətləndirilməsinin iqtisadi mahiyyəti ölkənin yeni şəraitdə qarşısındakı vəzifələrin miqyası ilə şərtlənir. İAEƏ-in inkişafı üçün investisiya cəlb edilməsi mexanizminin işlənməsi ilə bağlı müvafiq təklif hazırlamaq bu zərurətdən irəli gəlmisdir.

Aqrar sahədəki mövcud investisiya potensialından istifadənin təkmilləşdirilməsi ilə bağlı milli iqtisadiyyatın gələcək inkişaf proqramının hazırlanmasınada bu konteksdən baxılmalıdır.

İqtisadçı alimlərin apardıqları elmi araşdırmalar sübut edir ki, öz vəsaitləri və daxili imkanları hesabına kənd təsərrüfatının sabit in-

kişafı mümkün deyildir və bu məsələ hələ problem olaraq qalır. Professor, əməkdar elm xadimi B.X.Ataşov qeyd edir ki, *təbii ehtiyatların qorunub saxlanılmasına, onlardan istifadə səmərəliliyin artırılmasına, kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və istehlakı ilə bağlı bütün mərhələlərdə itkilərin azaldılmasına yönəlmiş sanballı sərmayə qoyuluşu reallaşdırılmadan kənd təsərrüfatı məhsullarının davamlı istehsalının təminatı mümkün deyildir. Ona görə də milli aqrar sahəyə, xüsusilə kənd təsərrüfatına investisiya qoyuluşu məhsul istehsalının artırılması, yoxsulluq səviyyəsinin daha da azaldılması və dayanıqlı ekoloji mühitin formalaşdırılmasına müsbət təsir göstərən ən səmərəli vasitədir* [32, s. 91].

İstehsalın artırılmasında, iqtisadi təhlükəsizliyin təmin edilməsində üstün rola malik kənd təsərrüfatının inkişafının dəstəklənməsi üçün digər maliyyə mənbələrinin səfərbər olunmasına ehtiyac vardır. Kənd təsərrüfatı istehsalına bu və ya digər səbəblərdən investisiyanın axını hələlik, arzu olunan səviyyədə deyil. Sahənin investisiya cəlbediciliyinin yüksəldilməsi üçün, lazımi tarazlıq modelinə uyğun iqtisadi şəraitin yaradılması tələb olunur.

Ümumi tarazlıq modelinə əsasən, bazarda hər hansı məhsulun istehsalında çatışmazlıq yaranarsa, bu zaman subsidiyaların tətbiqi istehsalın optimal səviyyəyə çatdırılmasına xidmət edə bilər [243].

İ.e.d. iqtisadçı alim E.Ə.İbrahimov yazır *investorların həvəsləndirilməsi və investisiyanın sürətləndirilməsi üçün dövlətin istehsal sahələrinə subsidiyalar ayırması siyasəti də mühüm bir metod olmaqla, müsbət nəticələr verər. İnvestisiya, özəl bölmədə stimul yaradaraq iqtisadiyyatdakı sərbəst maliyyə vəsaitlərinin istehsala yönəlməsinə şərait yaradır* [54, s. 83].

İqtisadiyyatın bütün sahələrinə investisiya qoyuluşu imkanlarını genişləndirmək və daha əlverişli investisiya mühitini təmin etmək üçün bütün investorlara azad rəqabət mühitini yaratmaq və bu yöndə mövcud normativ-hüquqi bazanı təkmilləşdirmək investisiya siyasəti sahəsində əsas vəzifələrdən biridir.

İnvestisiya fəaliyyəti uzunmüddətli aktivlərin (əsas kapital) və pul vəsaitlərinin ekvivalentlərinə aid olmayan maliyyə vəsaitlərinin alınması və satışıdır. İnvestisiya fəaliyyəti digər şirkətlərdə (kommersiya məqsədləri üçün pul vəsaitlərinin ekvivalentləri hesab edilən və ya alınmış qiymətli kağızlar istisna olmaqla) alınmış əmlak (əsas vəsaitlər), qeyri-maddi aktivlər və digər uzunmüddətli aktivlər üçün pul vəsaitlərinin investisiyası, müddətli müqavilələr və opsionlar aiddir.

İnvestisiya mühitinin formalaşması mexanizmi dövlətin investisiya prosesini tənzimlədiyi bir vasitədir və buraya ölkədə əlverişli investisiya mühiti formalasdırmaq üçün zəruri fəaliyyət mexanizmlərinin, mühüm tədbirlərin təşkili məqsədilə prioritet sahələr və prinsiplər, habelə investisiya mühitinə təsir göstərən amillər daxildirlər. Eyni zamanda, əlverişli investisiya mühiti formalaşdırmaqda əsas məqsəd investisiya layihələrinə cəlb olunan, investisiya mənbələrinin artmasında ifadə edilən investisiya fəallığını təmin etməkdir. Bu proseslərdə investisiya mühitinə iki əsas element: 1) investisiya fəaliyyəti və 2) investisiya cəlbediciliyi aiddirlər. Belə ki, bu elementlər səmərəli investisiya fəaliyyətinin həyata keçirilməsi barədə obyektiv qərar verməyə imkan yaradır [55, s.58].

İnvestisiya iqtisadi böhrandan çıxmaq, milli iqtisadiyyatdakı struktur dəyişikliklərini, müəssisələrin texniki modernləşdirilməsini və rəqabət qabiliyyətini artırmağın əsas şərtlərini formalaşdıran başlıca vasitə rolunu oynayır. İnvestisiyalar həm də iqtisadi bir kateqoriya olaraq ən vacib funksiyaları yerinə yetirirlər, makro, mezo və mikro səviyyələrdə iqtisadi problemlərin həllinə kömək edir, eyni zamanda iqtisadi islahatlar və iqtisadiyyatın yenidən qurulması üçün əlverişli şərait yaradır. Səmərəli investisiya strategiyası bazar iqtisadiyyatının sabitləşməsinin, normal fəaliyyətinin və inkişafının əsas istiqamətlərindən biri kimi ön plana çıxır.

İnvestisiyaların cəlb olunması, ilk növbədə davamlı şəkildə xarici investisiyaların milli iqtisadiyyatın müxtəlif sahələrinə intensiv

axınının təmin edilməsi iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələrin əksəriyyəti, o cümlədən Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb edir. Professor, əməkdar elm xadimi A.Ş.Şəkərəliyev yazır: *"Ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi və onların səmərəli istifadə olunması olduqca əhəmiyyətlidir. Bu baxımdan ölkədə xarici investisiyaları həcmi elə səviyyədə olmalıdır ki,investisiyanı qəbul edən ölkənin iqtisadiyyatının səmərəliliyi təmin olunsun"* [99, s. 304].

Böyük məbləğdə xarici investisiyaların cəlb edilməsi iqtisadiyyatın sahələrinin modernləsdirilməsinə, müasir texnologiyaların transfer edilməsinə, zəruri avadanlıqların və qurğuların ölkəyə gətirilməsinə və rəqabətqabiliyyətli istehsal sahələrinin yaradılmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Amma potensial investorlar heç də təqdim olunan layihələrə investisiyalar yatırmaqda tələsmirlər və onların bu layihələrə cəlb edilməsindən ötrü böyük səylər göstərmək, biznes-investisiya planları və layihələri hazırlamaq, onların səmərəlilik hesabatlarını əsaslandırmaq lazım gəlir. Bunlardan əlavə, mühüm amillər kimi investisiyaya cəlb olunan ölkədə siyasi-iqtisadi sabitliyin səviyyəsi, makroiqtisadi və makromaliyyə göstəricilərinin adekvatlığı, maliyyə-kredit sisteminin və maliyyə xidmətləri bazarının inkişafı, ən əsası isə ölkədə investisiya mühitinin adekvatlığıdır.

İnvestisiya mühitinin formalaşması və onun səmərəlilik problemlərinin həll edilməsi dövlətin iqtisadi və investisiya siyasətinin başlıca ana xətti kimi çıxış edir. İnvestisiya mühitinin bazis şərtlərinin qlobal dünyamızın yeni çağırışlarına, o cümlədən hazırkı şəraitdə COVİD-19 koronavirus pandemiyasının mənfi təsirindən yaranan vəziyyətə uyğunlaşdırılması, dünya səviyyəsində maliyyə bazarları seqmentlərinin inkişaf səmtləri ilə əlaqəli tənzimlənməsi, investisiyaların qlobal hərəkət trayektoriyasından və beynəlxalq investisiya bazarının həlledici amillərindən, xüsusiyyətlərindən yanaşmaqla, maksimum işlək və məhsuldar investisiya fəaliyyəti mexanizmlərinin hazırlanması və investisiya mühitinin cəlbediciliiliyi-

nin artırılması strateji əhəmiyyət kəsb edir. [55, s. 59-60].

Azərbaycanda investisiya mühitinin formalaşması və müasir dövrün tələblərinə uyğun şəkildə tədbirlərin görülməsi müstəqilliyin bərpasından sonrakı ilk illərdən baslayaraq dövlət səviyyəsində xüsusi diqqət mərkəzində olmuşdur. Başlıca məqsəd ölkədə investisiya fəaliyyəti üzrə qanunvericiliyin yaradılması, xarici investisiyaların qorunması tədbirlərinin görülməsi və bununla da ölkəmizə xarici investisiyaların, o dövr üçün ilk növbədə neft sektoruna vacib olan investisiyaların cəlb edilməsindən ibarət olmuşdur. Həmin mürəkkəb vəzifənin öhdəsindən gəlməkdə ulu öndər Heydər Əliyevin tarixi səylərini də qeyd etmək vacibdir və 1994-cü il sentyabrın 20-də dünyanın iri neft-qaz şirkətlərinin iştirakı ilə bağlanmış "Əsrin müqaviləsi" ölkəmizdə investisiya mühitinin sürətli şəkildə cəlbediciliyinin artırılmasına imkan vermişdir.

Professorlar E.A.Quliyev və B.X.Ataşov qeyd edirlər ki, *investisiya layihələri əsaslandırılarkən xalis gəlir, gəlir əmsalı, onların özünü dogrultma müddəti, daxili gəlir norması, investisiyalaşdırma riskinin qiymətləndirilməsi kimi göstəricilərdən istifadə edilməlidir* [74, s.130].

Aqrar sənaye müəssisələrinin investisiya fəaliyyətini dəstəkləmək istiqamətində məqsədyönlü işlərin həyata keçirilməsi, öz növbəsində müasir istehsal avadanlıqlarının idxalının təsviq edilməsini və xarici investorların bu sahəyə istiqamətlənməyini təmin edər.

"Azərbaycan Respublikasının 2022—2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" nda qeyd edildiyi kimi *"qlobal birbaşa investisiyaların cəlbi üzrə rəqabət kəskinləşir. Bu investisiyalar sağlam və şəffaf biznes mühitinin mövcudluğunu, makroiqtisadi sabitlik və maliyyə sabitliyi tələb edir. Qeyd olunan şərtlər mövcud olmadığı halda, ölkəyə yüksək texnologiya və bilik gətirən birbaşa xarici investisiyaların axınına maneə yarana bilər. Təcrübə göstərir ki, sürətli inkişafın əsas drayveri olan birbaşa xarici investisiyalar ölkədə dayanıqlı yeni iş yerləri yaratmaqla yanaşı, yüksəkkey-*

*fiyyətli insan kapitalı formalaşdıra bilər”* [5, s.10].

Azərbaycan Respublikasında infrastruktur və əlaqəli sahələrin tərəqqi səviyyəsi, ixtisaslı kadrların olması və s. amillər sənayenin tərəqqi etməsini müəyyən edir. Ona görə ki, sənaye ölkə iqtisadiyyatının yalnız bir hissəsi olmaqla, bu sahə aqrar istehsal xidmət və digər sahələr ilə sıx bağlıdır. Həmçinin kənd təsərrüfatının təkmilləsdirilməsi emal sənayesinin formalaşmasına, bu sahəyə xidmət sahələrinin tərəqqisinə əlverişli şərait yaradaraq, onların inkişafına zəmin yaradır. Bu sahələr isə öz növbəsində nəqliyyat, rabitə, maliyyə-kredit sektoru və başqa istehsal və sosial infrastruktur sferaların inkişafına tələb yaradaraq investisiya qoyuluşlarına ehtiyac formalaşdırır. Bu səbəbdən də, ölkədə investisiya qoyuluşlarının maliyyələşmə imkanlarının məhdud olmadığı şəraitdə bir qədər mürəkkəb sahələrarası əlaqələrlə təmsil olunan emal sənayesinin tərəqqi etdirilməsi başqa sahələrdə də buraxılışın həçminin daha da artımına tələb yaradaraq inestisiya fəallığının yüksəlməsinə gətirib çıxara bilər.

Azərbaycan Respublikasında mövcud investisiya potensialını reallaşdırmaq nöqteyi-nəzərindən sahəvi bölümdə milli iqtisadiyyatın gələcək inkişaf proqramının hazırlanması mütləqdir. Bu proqram başlıca sahələrlə onlara xidmət göstərən sahələrin inkişafını uzlaşdırmalı, dövlət və özəl bölmələrin əməkdaşlığı əsasında yerinə yetirilməlidir.

Son illərdə dünya bazarında kənd təsərrüfatı məhsullarına tələbin artması və bununla əlaqədar qiymətlərin yüksəlməsi bu sahəyə investisiya qoyuluşlarının səmərəliliyini artırır.

Azərbaycanın reqionlarında kənd təsərrüfatı və bu sahənin məhsullarının emalı və satışı sahələrində investisiya imkanları böyükdür. Araşdırmalar göstərir ki, kənd təsərrüfatı və bu sahənin emalı sənayesi sahələrinin inkişafının ixrac hesabına inkişaf etdirilməsi mümkündür.

Belə ki, 1991-ci ildə Azərbaycandan 108,7 min ton pambıq mahlıcı, 3355,7 ton yuyulmuş natural yun, 11586,0 ton pambıq çeçəsi,

30090,0 min dal şərab, 36897,0 ton fermentləşdirilmiş tütün, 227249,0 ton təzə tərəvəz, 13192 ton süfrə üzümü, 13772 ton subtropik meyvələr, 4280 ton natural çay ixrac edilmişdir [222].

Son illərdə ölkədə kənd təsərrüfatı məhsullarının ixracı artsa da, bu sahədə ciddi dönüş əldə edilməmişdir. Belə ki, 2021-ci ildə təqribən cəmi 633,8 mln. ABŞ dolları məbləğində kənd təsərrüfatı məhsulu ixrac olunmuşdur [222].

Araşdırmalar göstərir ki, ölkədə kənd təsərrüfatı sahəsinin inkişaf etdirilməsi üçün ilk növbədə bu sahənin maddi-texniki bazası yaxşılaşdırılmalıdır. Belə ki, 1990-cı ildə orta hesabla 1 kombayna 129,8 hektar dənli və dənli paxlalıların əkin sahəsi düşdüyü halda, bu göstərici 2021-ci ildə 269 hektar, 1 kartofyığan maşına orta hesabla müvafiq olaraq 566,7 hektar və 951 hektar kartof sahəsi düşmüşdür [222].

Kənd təsərrüfatı istehsalçılarının müasir texnika ilə təmin olunması, zəruri aqrotexniki tədbirlərin həyata keçirilməsi, bütövlükdə, bu sahənin elmi əsaslarla inkişaf etdirilməsi və burada göstərilən xidmətlərin keyfiyyətinin artırılması, emal sənayesi müəssisələri ilə səmərəli əlaqələrin formalaşdırılması hesabına kənd təsərrüfatı istehsalını artırmaq imkanları mövcuddur. Bunlara nail olmaq üçün isə iri həcmli investisiya qoyuluşları tələb olunur. Bu tələb İAEƏ-in inkişafı ilə əlaqədar daha da artır.

Kənd təsərrüfatı sahəsində investisiya qoyuluşları tələb edən istiqamətlərdən biri çoxillik bitkilərin əkin sahələrinin artırılmasıdır. Belə ki ölkədə, üzüm bağlarının sahələri 1990-cı ildə 181,4 min hektardan 2021-ci ildə 16,0 min hektara, çay plantasi-yalarının sahəsi 13,3 min hektardan 1,0 min hektara qədər azalmışdır [222].

Qeyd etmək lazımdır ki, üzümçülük, kartof istehsalı, meyvə istehsalı və digər bitkilərin yetişdirilməsi xüsusiyyətlərini nəzərə alaraq onların ölkənin ərazisi üzrə yerləsdirilməsinin optimallaşdırılması bazarların nisbətən uzun müddət ərzində təzə məhsullarla təmin edilməsinə səbəb olar. Belə ki, eyni bir məhsulun ölkənin

müxtəlif yerlərində yetişmə vaxtı müxtəlifdir. Fikrimizcə, ölkədə aqrar istehsalın ərazi üzrə optimal yerləşdirilməsi sahəsində dövlətin təsir imkanları genişdir. Belə ki, dövlət ayrı-ayrı bölgələrdə kənd təsərrüfatı istehsalçılarına xidmət edən əsas təşkilat olan "Aqrolizinq" xidməti texnika, gübrələr, toxum, cins heyvanlar gətirərək mülkiyyətçiləri təmin edir. Bununla yanaşı dövlət güzəştlər mexanizmi vasitəsilə aqrar istehsalın ərazi üzrə optimal yerləşdirilməsini stimullaşdıra bilər. Hesab edirik ki, müxtəlif regionların aqrar məhsulları üzrə ixtisaslaşması yönündə tədbirlər sözügedən bölgələrin investisiya imkanının əhəmiyyətli rol oynaya bilər. Misal üçün, Astara-Lənkəran iqtisadi bölgəsində subtropik bitkilərin istehsalı, habelə onların emalı müəssisələrinin yaradılması, Qazax-Gəncə, Şamaxı-İsmayıllı və Cəlilabad iqtisadi rayonunda üzümçülüyün, eləcə də şərabçılığın tərəqqisinə nail olunması, Astara-Lənkəran, Qazax-Gəncə, Xaçmaz-Quba və başqa bölgələrdə tərəvəzçiliyin inkişaf etdirilməsi, Xaçmaz-Quba, Zaqatala-Şəki iqtisadi rayonlarında meyvəçiliyin tərəqqisi və s. sahələrə texnika, avadanlıq və soyuducularla təminində mühüm rol oynaya bilər. Fikrimizcə, dövlətin maliyyə dəstəyinin həcmi məhdud olduğuna görə, bu bölgələrdə təbii amillər nöqteyi-nəzərindən daha səmərəli istehsalların tərəqqisi üçün mühüm infrastrukturun, emal müəssisələrinin formalaşmasına yönlənməlidir.

Misal üçün, Xaçmaz-Quba iqtisadi rayonunda alma istehsalının maksimum həddə çatdırılması üçün alma bağlarının artırılması, bağları becərilmək üçün lazım olan texniki vasitələrin, gübrə və dərmanların əldə edilməsi, almanın saxlanması üçün ixtisaslasmış anbarların inşası, alma emal edən firmaların təşkili, istehsal olunmuş məhsulların nəq edilməsi üçün lazım olan tarlaların istehsalı müəssisələrinin yaradılması, lazım olan ixtisaslaşdırılmış nəqliyyat vasitələrinin alınması və s. kimi məsələlərin həll edilməsi üçün xərclərin bir qismi dövlət tərəfindən maliyyələşdirə bilər. Bundan başqa, məsələn, qeyd edilən regionda alma istehsalının artırılması-

nın potensial imkanları, bu məhsulun istehsalı və emalının potensial həcmi və satış imkanları Kənd Təsərrüfatı Nazirliyinin sifarişi ilə onun qurumları və ya ixtisaslaşdırılmış təskilatlar tərəfindən müəyyənləşdirilə bilər.

Fikrimizcə, bu tədbirlərin digər kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində də nəzərə alınması və bu baxımdan regionun imkanlarının qiymətləndirilməsi mövcud investisiya imkanlarının müəyyən edilməsi və reallaşdırılması baxımından böyük əhəmiyyət kəsb edir.

Azərbaycanda, Abşeron, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları istisna olmaqla, digər iqtisadi rayonlarda adambaşına duşən kənd təsərrüfatı məhsulunun həcmi əhəmiyyətli dərəcədə bir-birindən fərqlənmir. Belə vəziyyətdə bu regionlarda kənd təsərrüfatı xammalına əsaslanan yeyinti və yüngül sənaye sahələrinin inkişaf etdirilməsi zəruridir. Bu məsələ İAEƏ-də də aktuallıq kəsb edir.

Siyasi hədəflərə çatmaq üçün kənd təsərrüfatının inkişafına yönəlmiş dövlət investisiya siyasəti konsepsiyasının tətbiqi mexanizmi təkmilləşdirilməli, həmçinin səyləri beynəlxalq maliyyə qurumları (BYİB, BVF, EİB, AYİB və s.) tərəfindən istehsalın modernləşdirilməsi, ətraf mühitin bərpası, bərk örtüklü asfalt yolların tikintisi layihələrinin maliyyələşdirilməsi, yüksək əlavə dəyərli ixracatın inkişafı, AB və digər təşkilatlardan maliyyə almaq səyləri üçün veriləcək kreditlərin artırılmasına yönəltmək lazımdır.

Kənd yerlərində iri kənd təsərrüfatı təşkilatları ilə yanaşı, mövcud olan müxtəlif təsərrüfat formaları, fermer təsərrüfatları, eyni zamanda əhalinin fərdi köməkçi təsərrüfatları (FKT), təsərrüfat (kəndli) daxil olmaqla iqtisadi prosesin bütün iştirakçılarına təmin ediləcək alternativ investisiya mənbələrinin formalaşdırılmasının zəruriliyini obyektiv şəkildə diktə edir. Kənd təsərrüfatı əmtəə istehsalçılarının obyektiv olaraq kənd təsərrüfatı işinin şaxələndirilməsi forması kimi çıxış edən və itkilərin minimuma endirilməsinə yönəlmiş çox yönlü olması, sahibkarlığın təşkilati və hüquqi əsas-

larından asılı olaraq investisiya strategiyalarındakı fərqləri müəyyənləşdirir. Beləliklə, bir və ya iki növ məhsul istehsalında ixtisaslaşmış təsərrüfatlar əsasən öz mənbələri ilə idarə olunur. 100-150 hektardan çox ərazisi olan və bir neçə sahəni inkişaf etdirən təsərrüfatlar onsuz da borc mənbələrindən vəsait cəlb etmək məcburiyyətində qalırlar.

Beləliklə, hökumət tərəfindən regional tənzimləmənin ölkədə sahə tənzimləməsi ilə səmərəli əlaqələndirilməsi bütövlükdə ölkədə sosial-iqtisadi inkişafın sürətlənməsini təmin edəcəkdir. Son zamanlar kənd təsərrüfatında investisiya fəallığı artsa da, bu sahədə təsərrüfatların sayının az olması onların texniki-iqtisadi istehsal səviyyəsində məhdudlaşdırmalara səbəb olur.

4.3.1 və 4.3.2-dəki diaqramlardan göründüyü kimi 2000-2021-ci illərdə bitkiçilik məhsullarının istehsalında fərdi sahibkarların, ailə kəndlilərinin və təsərrüfatların xüsusi çəkisi orta hesabla 92,2% təşkil edib və bu təsərrüfatların mülkiyyətində olan torpaqların payı 2-3 hektar olub.




**Diaqram 4.3.1. Kənd təsərrüfatı müəssisələri və sair təşkilatları üzrə kənd təsərrüfatının ümumi məhsulunun quruluşu (faktiki qiymətlər ilə, yekuna görə faizlə)**

*Mənbə: [221]. www.azstat.org – Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.*




**Diaqram 4.3.2. Fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları üzrə kənd təsərrüfatının ümumi məhsulunun quruluşu (faktiki qiymətlər ilə, yekuna görə faizlə)**

*Mənbə: [221]. www.azstat.org – Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.*

Bu sahədə təsərrüfatların sayının az olması onların istehsalın texniki-iqtisadi səviyyəsini yüksəltmək və satış kanallarını inkişaf etdirmək həvəsini məhdudlaşdırır. Bu gün ölkədə torpaq bazarının zəif inkişafı nisbətən iri və orta fermer təsərrüfatlarının yaradılması imkanlarını azaldır.

Təsərrüfatların bu cür az olması onların emal sənayesi müəssisələri ilə səmərəli təsərrüfat əlaqələri yaratmasını da mürəkkəbləşdirir.

Beləliklə, həm kənd təsərrüfatı, həm də sənaye sahələrində iqtisadi subyektlərin iqtisadi potensialının aşağı olması ölkədə investisyia resurslarının mənimsənilməsini məhdudlaşdıran əsas amillərdəndir.

Dünya ölkələrinin inkişaf təcrübəsi göstərir ki, bazar transformasiyası prosesində olan ölkələrin iqtisadiyyatlarını dirçəltmək üçün onların daxili investisiya fondları məhdud olduqda xarici in-

vestisiyaları cəlb etmək lazımdır. Eyni zamanda, investisiyaların daxili və xarici bazarların formalaşmasına yönəldiləcəyi göz qabağındadır. Respublika iqtisadiyyatının inkişafı məqsədilə dünyanın hər yerindən sərmayələri cəlb etmək, daha doğrusu, əlverişli investisiya mühiti yaratmaq, sənaye müəssisələrinin rəqabətqabiliyyətli məhsul istehsal etməsi üçün əlverişli şərait yaratmaq gərəkdir.

Xarici investisiyalar ümumi kapital qoyuluşunun yarısını təşkil edir. Deməli, respublikamız xarici investorlar üçün əlverişli şəraitə malik ölkədir. Lakin bu, kənd təsərrüfatına aid deyil. Çünki hazırda respublikamız üçün milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyi mühüm şərtdir. Bundan ötrü iqtisadiyyatda struktur islahatları aparmaq, istehsalın texnoloji cəhətdən modernləşdirilməsini, istehlak mallarının istehsalını təşkil etmək, ölkənin idxal mallarından asılılığını aradan qaldırmaq lazımdır. Beləliklə də, beynəlxalq iqtisadi əlaqələr formalaşacaq, əlaqələrin səmərəliliyi təmin ediləcək, qlobal məkana çıxış daha səmərəli olacaqdır.

Xarici təcrübələrin də göstərdiyi kimi inkişaf etmiş sənaye ölkələri kənd təsərrüfatını konsolidə (birləşdirilmiş) edilmiş büdcədən dəstəkləyirlər ki, bu da FAO-nun tövsiyə etdiyi şirkətin 70%-i qida təhlükəsizliyi səviyyəsini və ehtiyaclarını təmin edir, müəyyən dərəcədə də normalaşdırır. Dünyanın inkişaf etmiş ölkələrində istehsalçıların qorunması, ticarət və satınalma şirkətlərinin təmsil olunduğu dövlət tərəfindən onların məhsullarının zəmanətli həcmini sabit qiymətlərlə almaqla təmin edilir. Bu, istehsalın genişləndirilməsi üçün tələb olunan istehsal səmərəliliyi səviyyəsini saxlamağa imkan verir.

Bundan əlavə, dövlət istehsalçılara bazar şərtləri, ətraf mühitin qorunması tədbirləri və yerli infrastrukturun inkişafı barədə məlumat verməyi maliyyələşdirir.

Azərbaycanda bu xarici təcrübə 2008-ci il maliyyə böhranından sonra istifadə olunmağa başlandı və bu da istehsal və investisiya fəaliyyətinin müsbət dinamikasına səbəb oldu. Aqrar istehsal sahə-

ləri üçün daha əlverişli rəqabət şəraiti yaradılmışdır.

Azərbaycanda aqrar sahənin inkişafına yönəlik investisiyaların həcmi 2019-cu ildə 769,5 mln. manat təşkil etmişdir ki, bu da 2015-ci illə müqayisədə 2,2 dəfə çoxdur. 2020-ci ildə 520,6 mln manat, 2021-ci ildə isə xeyli azalaraq 341,9 mln manat təşkil etmişdir. (Cədvəl 4.3.1).

**Cədvəl 4.3.1**

**2015-2021 ci illər üzrə aqrar sahənin inkişafı üçün əsas kapitala yönəldilmiş investisiyalar (mln. manatla)**

| Göstəricilər | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
| Əsas kapitala yönəldilmiş шnvestisiyalar, cəmi | 15957,0 | 17430,3 | 17244,9 | 18539,5 | 17226,1 | 16815,5 |
| artım sürəti, faizlə | 88,9 | 102,8 | 95,7 | 105,5 | 92,9 | 97,6 |
| Kənd təsərrüfatının inkişafı üçün əsas kapitala investisiyalar, mln. manat | 355,5 | 617,8 | 764,4 | 769,5 | 520,6 | 341,9 |
| artım sürəti, faizlə | 95,8 | 177,3 | 119,7 | 98,8 | 67,7 | 65,7 |
| Kənd təsərrüfatına yönəldilmiş kapital qoyuluşlarının əsas kapitala qoyulmuş investisiyaların ümumi həcminə nisbəti, % | 2,2 | 3,5 | 4,4 | 4,2 | 3,0 | 2,0 |
| o cümlədən: dövlət, mln. manatla | 216,6 | 324,1 | 360,6 | 358,2 | 234,8 | 75,4 |
| dövlət, faizlə | 60,9 | 52,5 | 47,2 | 46,6 | 45,1 | 22,1 |
| qeyri-dövlət, mln. manatla | 138,9 | 293,7 | 403,8 | 411,4 | 285,8 | 266,5 |
| qeyri-dövlət, faizlə | 39,1 | 47,5 | 52,8 | 53,1 | 54,9 | 77,9 |

*Mənbə: [221]. www.azstat.org – Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.*

Azərbaycanda kənd təsərrüfatına yönəldilmiş kapital qoyuluşlarının əsas kapitala qoyulmuş investisiyaların ümumi həcmində payı 2015-ci ildəki 3,8%-dən 2018-ci ildə 6,3%-ə yüksəlsə də, 2019-cu ildə bu göstərici biq qədər (0,5 faiz bəndi) azalaraq 5,8%, 2020-ci ildə isə daha 1,7% bəndi azalaraq, 4,1% təşkil etmişdir. 2021-ci ildə bu azalma davam etmiş və 2,7%-ə bərabər olmuşdur. Təhlil edilən dövrdə kənd təsərrüfatına yönəldilmiş kapital qoyuluşlarında qeyri-dövlət sektorunun xüsusi çəkisi 12,1 faiz bəndi qədər artaraq 2015-ci ildə ki 39,1%-dən 2019-cu ildə 53,1%-ə, 2020-ci ildə 54,9%-ə, 2021-ci ildə 77,9%-ə yüksəlmişdir.

Ölkə iqtisadiyyatın sənaye və kənd təsərrüfatı sahələri üzrə əsas kapitala yönəldilmiş daxili investisiyaların dinamikasına nəzər yetirsək, görərik ki, 2015-2020-ci illərdə sənayedə bu göstərici 1,5 dəfəyə yaxın olsa da, kənd təsərrüfatında artım tempi müvafiq dövr üçün 1,2 dəfəyə yaxın olmuşdur (cədvəl 4.3.2).

Hər iki halda artım tempi ölkə üzrə müvafiq ortalama göstəricisini xeyli geridə qoymuşdur. Nəticədə kənd təsərrüfatı üzrə əsas kapitala yönəlik investisiyaların payı 2015-2019-cu illərdə 3,8%-dən 5,8%-ə qədər artsa da, 2020-ci ildə bu göstərici 1,2%-ə qədər, 2021-ci ildə isə 0,2% qədər azalmışdı. Hesablamalara görə ölkə iqtisadiyyatı üzrə əsas kapitala investisiyaların həcmi 2021-ci ildə 2014-cü ilə nisbətən 0,9%, sənaye və kənd təsərrüfatı sahələri üzrə bu göstərici müvafiq olaraq 28,7% və 42,0% artım təşkil etmişdir. Bunun nəticəsidir ki, sənaye və kənd təsərrüfatının inkişafı üçün yönəldilmiş daxili investisiyaların bütövlükdə ölkə üzrə əsas kapitala yönəlik investisiyalarda payı müvafiq dövrdə sənayedə 26,5%-dən 43,2%-ə, kənd təsərrüfatında isə 2,8%-dən 4,1%-ə qalxmışdır.

Qida emalı sənayesinə yönəlik investisiyaların həcmi 2015-2021-ci illərdə 2,5 dəfəyə yaxın artsa da, cəmi ölkə üzrə daxili investisiyalarda payı 0,7-1,7 faiz civarında tərəddüd etmişdir.

**Cədvəl 4.3.2**

**2014-2021 ci illər üzrə iqtisadiyyatın sənaye və kənd təsərrüfatı sahələri üzrə əsas kapitala yönəldilmiş daxili investisiyaların dinamikası, mln.manat**

| Göstəri-cilər | İllər | | | | | | | artım, nisbət % | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2014 | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2020/ 2015 | 2021 /2020 |
| Əsas kapitala investisiyalar - cəmi | 12715,0 | 9058,5 | 8765,3 | 11874,9 | 12867,1 | 12070,8 | 12561,9 | 133,2 | |
| o cümlədən sahələr üzrə: | | | | | | | | | |
| Sənaye | 3370,7 | 2758,0 | 3620,6 | 4504,1 | 4846,7 | 5219,7 | 4338,2 | 189,3 | |
| əsas kapitala investisiyalarda payı, %-lə | 26,5 | 30,5 | 41,3 | 37,9 | 37,7 | 43,2 | 34,5 | x | x |
| ondan: qida emalı | 92,4 | 87,9 | 93,5 | 180,1 | 127,3 | 206,3 | 197,8 | 234,7 | |
| əsas kapitala investisiyalarda payı, %-lə | 0,7 | 1,0 | 1,1 | 1,5 | 1,0 | 1,7 | 1,6 | x | x |
| Kənd təsərrüfatı | 349,9 | 344,2 | 567,3 | 764,4 | 769,5 | 497,0 | 341,9 | 144,4 | |
| əsas kapitala investisiyalarda payı, %-lə | 2,8 | 3,8 | 6,5 | 6,3 | 5,8 | 4.1 | 2,7 | x | x |

*Mənbə:* [221]. *www.azstat.org – Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.*

İqtisadiyyatın sahələri üzrə xarici kapitalın iştirakı ilə müəssisələrin əsas kapitalına investisiyalara gəldikdə, demək lazımdır ki, bu tip investisiyaların həcmi 2014-cü ilə nisbətən 2015-2020-ci illərdə ölkə iqtisadiyyatı üzrə 29,5%, artmış, 2021-ci ildə isə 2014-

cü ilə nisbətən 13%-ə qədər azalma baş vermişdir. Müqayisə edilən illərdə sənaye üzrə isə 17,0%, kənd təsərrüfatında bu tip investisiyaların həcmi 1,6 dəfə artmışdır (cədvəl 4.3.3).

**Cədvəl 4.3.3**

**2014-2021 ci illər üzrə iqtisadiyyatın sənaye və kənd təsərrüfatı sahələri üzrə əsas kapitala yönəldilmiş xarici investisiyaların dinamikası, mln.manat**

| Göstəricilər | İllər | | | | | | | artım, nisbət % | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2014 | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2020/ 2015 | 2021/ 2020 |
| Əsas kapitala investisiyalar - cəmi | 4903,6 | 6898,5 | 8665,1 | 5370,0 | 5672,4 | 5155,3 | 4253,6 | 74,7 | 92,5 |
| o cümlədən sahələr üzrə: | | | | | | | | | |
| Sənaye | 4268,9 | 5741,9 | 6989,5 | 3993,1 | 4411,2 | 3845,6 | 3169,1 | 67,0 | 82,4 |
| əsas kapitala investisiyalarda payı, %-lə | 87,1 | 83,2 | 80,7 | 74,4 | 77,8 | 74,6 | 74,5 | x | x |
| ondan: qida | - | - | 32,0 | 16,5 | 13,0 | 18,8 | - | - | - |
| əsas kapitala investisiyalarda payı, %-lə | - | - | 0,4 | 0,3 | 0,3 | 0,4 | - | - | - |
| Kənd təsərrüfatı | 14,0 | 11,3 | 50,5 | 12,5 | 20,9 | 23,6 | - | 208,9 | - |
| əsas kapitala investisiyalarda payı, %-lə | 0,3 | 0,2 | 0,6 | 0,2 | 0,4 | 0,5 | - | x | x |

*Mənbə:* [221]. *www.azstat.org – Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.*

Eyni zamanda, kənd təsərrüfatına yatırımlar emal sənayesindən, xüsusən də qida sənayesindən əhəmiyyətli dərəcədə az idi ki, bu da ticarət və yanacaq sənayesindən sonra investisiya üçün ən cəlbedicidir, çünki qida məhsullarına sabit tələb zamanı investisiyaların nisbətən sürətli qayıdışı mövcuddur.

Dövlət başçısının 2016-cı il dekabr ayının 6-da verdiyi Fərmanla imzalanmış "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsulllarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə konkretləşdirilmiş 9 hədəfdən biri də (hədəf 3) maliyyə vəsaitlərinə çıxışın asanlaşdırılmasından ibarətdir [6]. Azərbaycan Respublikasında rəqabətə davamlı aqrar sektoru formalaşdırmaq məqsədilə istehsalçıların maliyyə resursları ilə qarşılamaq, bu aspektdə riskləri qiymətləndirmək, eləcə də mövcud riskləri azaltmaq və yaxud təsirini yumşaltmaqla bağlı alətləri təkmilləşdirilmək zərurəti yaranır.

Yuxarıda sadalananları diqqətdə saxlayaraq, həmin strateji hədəfdə üç aparıcı istiqamət seçilmişdir. Birinci prioritet əsasında aqrar sahənin maliyyələşdirilmə vasitəsini təkmilləşdirmək məqsədilə görüləcək tədbirlər üzə çıxarılır. İkinci prioritetdə respublikada aqrar sığortanı inkişaf etdirməklə əlaqəli tədbirlər planlaşdırılır. Sonuncu prioritetdə isə planlaşdırılan tədbirlər aqrar sahəyə yerli, eləcə də xaricdən investisiyaların cəlb olunaraq stimullaşdırılması məqsədi daşıyır.

Aqrar sahənin ümumilikdə maliyyələşmə vasitələrinin təkmilləşdirilməsi planlasdırılır. Girovsuz, habelə innovativ kreditlərin istifadəsi ilə əlaqəli normativ hüquqi bazanı təkmilləşdirmək vacib məsələ kimi olaraq vurğulanır. Aqrar sahədə mövcud olan işlək olmayan kredit məbləğinin azaldılması qarşılanmalıdır. Aqrar-ərzaq malları istehsalçıları üzrə maliyyə savadlılığının mükəmməl vəziyyətə gətirilməsi və onların əlverisli şərtlərə uyğun maliyyə çıxışının qarşılanması reallaşmalıdır. Bu prioritet kontekstində göstərilən tədbirlərin nəticəsi olaraq əlavə müəyyən maliyyə vəsaitinə çıxış imkanı yaracaq və kredit zəmanət fondunun yaradılması təmin ediləcəkdir [73].

Burada sadalanan tədbirlərin digər prioritetlərini reallaşdırmaq məqsədilə dəstəkləyici rola malik olması, eləcə də real ÜDM-in formalaşmasına təsir göstərəcəyi ehtimal olunur.

Gözlənilən risklərlə bağlı məsələyə gəldikdə, vurğulamaq la-

zımdır ki, fermerlərdə innovativ maliyyələşdirmə vasitələri ilə əlaqəli biliklərin azlığı sözügedən sahəyə maraqların yetərincə olmaması ilə nəticələnə bilər. Bu prioritet üzrə qeyd edilən basqa risk faktoru Azərbaycan Respublikasında fəaliyyətdə olan kredit qurumlarının aqrar sahəyə kreditlər təqdim etməkdə cüzi maraq kəsb etməsidir.

Son dövrlərdə ASK-ya təqdim edilən kredit həcminin artımına rəğmən, bu cür kreditlərin məcmu kredit portfeli tərkibundə, habelə ÜDM-də payı çox azdır. Belə ki, AMB-nin məlumatlarına görə 2021-cu ildə kənd təsərrüfatına yönəlik kreditlərin həcmi 591,7 milyon manat olub. Bu da ümumən Azərbaycan Respublikası iqtisadiyyatına ayrılmış kreditlərin cəmi 3,5 faizi deməkdir. Bunun da əsas səbəblərindən biri olaraq sahənin özünəməxsus xüsusiyyətləri olması qeyd edilir. Bir qədər də dəqiqləşdirsək, bu sahənin təbii-iqlimdən asılılığı, kapitalın dövretmə sürətində aşağı kəmiyyətin mövcudluğu, daha böyük hissəsi xırda təsərrüfatlardan təşkil olunan aqrar sahə məhsulları istehsalçılarına görə girov şərtlərinin əlverişli olmaması, bu sahədə kredit risklərinin azalmasını qarşılaya bilən uyğun mexanizmlərin istisnalığı, habelə istehsalçılarda maliyyə savadlılığının bir qədər aşağı səviyyəsi sözügedən sahəyə sərf edilən kreditlərin ümumən iqtisadiyyatda payının xeyli azalmasına səbəb olub.

Son illərdə Azərbaycan Respublikasında aqrar sahəyə yatırılan sərmayələrin ümumi həcminin yüksəlməsinə rəğmən, ümumən bu sahəyə investisiya yatırımları ölkə iqtisadiyyatının digər sahələri ilə müqayisədə xeyli aşağıdır. Son on beş ildə Azərbaycan Respublikası iqtisadiyyatının sahələri üzrə investisiyaların quruluşuna nəzər salsaq, şahidi olarıq ki, aqrar sahəyə yönlənmiş investisiyaların payı ortalama cəmi-cümlətanı 3,1 faiz də deyil.

Azərbaycan Respublikası iqtisadiyyatına yatırılmış birbaşa xarici investisiya məbləğinin keçən müddət ərzində bir neçə dəfə çoxalmasına rəğmən, respublikada aqrar sahənin inkişafı istiqamətin-

də birbaşa xarici investisiyaların yatırılması hallarına demək olar ki, rast gəlinmir.

Aqrar sahəyə sərmayə yatırımlarının təşviq edilməsi prioritetini reallaşdırmaq məqsədilə aqrar investisiya ehtiyaclarını dəyərləndirmək, eləcə də investisiya layihə-lərini hazırlamaq nəzərdə tutulub. Bunun üçün ilk öncə, aqrar sahənin gələcək inkişaf perspektivlərinə uyğun olaraq bu sahənin investisiya ehtiyaclarını, habelə imkanlarını müfəssəl qaydada qiymətləndirmək məsələsi İqtisadiyyat, Kənd təsərrüfatı nazirliklərinin, eləcə də yerli icra hakimiyyəti orqanlarının birgə fəaliyyəti ilə təmin ediləcəkdir. Bu cür dəyərləndirmə əsasında inzibati rayonlarda və sahələrdə investisiya layihələri və xəritələrinin tərtibatı aparılır. Aqrar sahənin investisiya imkanları nəzərə alınmaqla həm elektron, həm də çap materiallarını işləyib hazırlamaq, ölkədaxili və xaricdə baş tutan sərgilərdə, konfranslarda, forumlarda, milli və xarici biznesmenlərlə ikitərəfli görüşlərdə təqdimatı həyata keçirilir.

Qloballaşma şəraitində tanınmış aqroemal, xüsusən qida məhsulları istehsalçılarının (transmilli şirkətlərin) ölkəmizə sərmayə qoymağa dəvət edilməsi və zərurət yarandıqda, bu cür istehsalçıların respublikaya investisiya yatırımlarına cəlb olunmasının təşviqi üçün xüsusi strategiyaların, habelə proqramların işlənməsi nəzərdə tutulur. Aqrar sahədə əlverişli investisiya mühitini formalaşdırmaq məqsədilə İqtisadiyyat və Kənd Təsərrüfatı nazirlikləri müştərək qaydada sözügedən sahədə müvafiq investisiya mühitinin təhlili aparılmalı və nəicələr ümumiləşdirilməlidir. Araşdırmaların nəticəsinə əsasən, aqrar sahə yönümündə sərmayə mühitini daha da təkmilləsdirmək məqsədilə təkliflərin hazırlanmasına ehtiyac vardır.

İnzibati rayonların hər birində müvafiq investisiya xəritələri və layihələrinin islənib hazırlanması və aqrar sahədə əlverişli investisiya mühitini bərqərar etmək nəzərdə tutulur. Dünyanın tanınmış aqrosənaye, xüsusən qida məhsulları istehsalçılarının sözügedən sahəyə yatırımları ilə ölkəmizin qlobal dəyər zəncirinə inteqrasiya-

sını daha da gücləndirmək planlaşdırılıb. Aqrar sahəyə cəlb olunacaq birbaşa xarici investisiyaların həcminin daha da artırılması qeyd edilir. Həmin prioritetdə sadalanan tədbirlər sayəsində aşağıdakı nəticələrə nail olunması planlaşdırılıb:

- aqrar sahəyə cəlb olunacaq investisiyaların həcminin 2 dəfəyə qədər yüksəldilməsi;
- Azərbaycan Respublikasının inzibati rayonları və sahələrində 100-ə qədər investisiya layihəsinin hazırlanması. Qeyd edək ki, bu layihələr İAEƏ-ni nəzərə alınmaqla 15-20% arta bilər.

Bir çox əmtəə məhsulunda istehsal həcmində əhəmiyyətli bir paya sahib olan FKT, əsasən ev təsərrüfatlarının imkanlarına malikdir, çünki bunlar ya kənd təsərrüfatı məhsullarının əsas istehsalçısı, ya da aqrar sahədə dövlət investisiya siyasətinin prioritetləri hesab edilmir. Bu kateqoriyadan olan əmtəə istehsalçılarının investisiya bazarına məhz kənd təsərrüfatı əmtəə istehsalçısı kimi daxil olmaq üçün real fürsəti yoxdur. Nəzəri olaraq onlar banka müraciət edə, kifayət qədər likvid aktivləri girov qoyaraq lazımi investisiya (o cümlədən kredit) mənbələri əldə edə bilərlər. Lakin praktikada bu kateqoriyadan olan potensial borcalanların kreditləri bankların onlara marağını əhəmiyyətli dərəcədə məhdudlaşdıran yüksək risk qrupuna aiddir. Bu kateqoriyadan olan əmtəə istehsalçılarına borc verilməsinin zəruriliyini başa düşməsinə baxmayaraq, sonuncular (banklar) ölkənin Mərkəzi Bankının təlimatları ilə məhdudlaşır, buna görə borcalanlara verilən malların miqdarı üçün yüksək risk qrupu, bank 100% təqdim edilmiş kredit həcmində ehtiyat yaratmalıdır.

İqtisadiyyatın digər sahələrindən kapital cəlb etməklə kənd təsərrüfatına investisiya qoyuluşu və kənd təsərrüfatı istehsalı sahələri daxilində kapitalın axması problemlidir ki, bunların da hər biri özünə xas olan texnika, texnologiya və istehsalın təskilindən istifadə edən bir çox məhsul alt kompleksi olan çoxşaxəli strukturdur. İnvestisiya mənbələrinin və istiqamətlərinin formalaşmasına həlledici təsir göstərən mühüm cəhət kənd təsərrüfatı prosesinin bioloji

əsasını təşkil edir. Azərbaycanın müxtəlif təbii-iqlim zonalarında bioloji proseslər qeyri-bərabər davam edir, buna görə də investisiyaların prioritetində əhəmiyyətli amil investisiyalara (xarici və digər cəlb olunan) qiymətəmələgəlmə xüsusiyyətlərini, müvafiq risklərin nəzərə alınması zərurətini müəyyən edən kənd təsərrüfatı istehsalının rayonlaşdırılmasıdır. Kənd təsərrüfatında yeni mal cinsləri, bitki sortlarının yetişdirilməsi kimi seqmentlərə uzunmüddətli investisiya qoyuluşu, bu məqsədlə kapital mənbələri yaratmaq üçün əmtəə istehsalçılarının kooperasiyasını obyektiv şəkildə stimullaşdırır.

Kənd təsərrüfatı müəssisələrinin əsas kapitalına qoyulan investisiyaların artması və dövlət tərəfindən göstərilən dəstək son illərdə bir çox kənd təsərrüfatı istehsalçısının fəaliyyətinin səmərəliliyini artırmağa imkan verdi. Azərbaycanın kənd təsərrüfatı müəssisələri müxtəlif maliyyələşdirmə mənbələrindən - əmtəə kreditləşməsindən icarəyə götürülmüş torpaqlarda öz kənd təsərrüfatı istehsalını həyata keçirən şaquli inteqrasiya olunmuş aqro-ərzaq komplekslərinin yaradılmasına qədər istifadə edirlər.

Kənd təsərrüfatına investisiyaların cəlb edilməsinə dair dövlət siyasəti, fikrimizcə, bu sahənin inkişafı üçün məhdud büdcə vəsaitlərinin istifadəsi kimi hədəf funksiyasını həll etmək ehtiyacından irəli gəlməlidir. Bu tapşırığın həyata keçirilməsi müxtəlif tənzimləmə metodlarından istifadə etməklə iki yolla mümkündür.

1) birbaşa - dövlət investisiya infrastrukturunun yaradılması, kənd təsərrüfatının müəyyən sahələri üçün subsidiyalar, məqsədli respublika və regional proqramların dövlət tərəfindən maliyyələşdirilməsi, inzibati-idarəçilk təsərrüfat subyektlərinin prioritet investisiya layihələrinin güzəştli kreditləşdirilməsinə dövlət dəstəyi (müəyyən bir məqsədə çatmaq üçün qarşılıqlı əlaqəli tədbirlər kompleksi məhdud müddətə və məhdud resurslarla);

2) dolayı (dövlət tənzimləməsi) - iqtisadi (çevik kredit, vergi, amortizasiya və qiymət siyasətinin aparılması, investorlara zəmanət və üstünlüklərin verilməsi), hüquqi (investisiya fəaliyyətinin

dövlət hüquqi tənzimlənməsi və dəstəklənməsi, müvafiq tənzimləmə bazasının vaxtında yaradılması, biznes strukturları ilə dövlət qurumları arasındakı münasibətlərin uyğunlaşdırılması), təşkilati (aqro sənaye zənciri - ölkələr, bölgələr, bələdiyyələr orqanların fəaliyyətinin təşkilati-iqtisadi tənzimlənməsinə dair qanunvericilik aktlarının və dövlət orqanlarının qərarlarının icrasına nəzarətin təmin edilməsi) investisiya proseslərinin aktivləşdirilməsi.

Beləliklə, aqrar sahədə investisiya qoyuluşlarının artırılması məsələləri ən vacib prioritetlərdən biri kimi həm istehsalçıların, həm istehlakçıların, həm də hökumət orqanlarının daimi diqqət mərkəzində olmalıdır.

Məhz bu səbəbdən dövlət tərəfindən ölkə regionlarının sosial-iqtisadi inkişafına, infrastrukturun yaradılmasına, ayrı-ayrı iqtisadiyyat sahələrinin dəstəklənməsinə yönəldilən məqsədli dövlət investisiyalarının yükünü azaltmaq üçün ölkəmizdə dünya təcrübəsinə uyğun investisiya mühitinin formalaşdırılması və investisiya cəlbediciliyi mexanizmi yaradılmalıdır.

Bunlarla bərabər, 27 sentyabr 2020-ci ildə başlamış 44 günlük vətən müharibəsinin Böyük Qarabağ Zəfərindən sonra ölkəmizdə investisiya mühitinin yaxşılaşdırılması və onun səmərəlilik problemlərinin həllinə daha çox diqqət yetirilməsi məsələləri xeyli aktuallaşmışdır. 30 ilə yaxın düşmən tapdağı altında olan torpaqlarımız vəhşicəsinə təcavüzə məruz qalmış, bu ərazilərdə yerləşən nə varsa hamısı dağıdılmış və viran qoyulmuşdur. Hazırda işğaldan azad olunmuş ərazilərdə böyük həcmli infrastruktur şəbəkəsi yaradılır, yaşayış massivləri salınır, sənaye sahələrinin inkişaf etdirilməsi üçün tədbirlər görülür. Dünya təcrübəsinə adekvat olan "ağıllı" texnologiyalara söykənmiş layihələr reallaşdırılır, 15 respublika və beynəlxalq əhəmiyyətli yol layihəsi icra edilir, Şuşa şəhərinə çəkilən zəfər yolunun istismara verilməsinə və postkonflikt ərazilərdə böyük köç qayıdışına hazırlıq işləri intensiv mərhələyə keçmisdir. Füzuli Beynəlxalq Hava Limanının istismara verilməsi, Ağdamda

sənaye parkının və Cəbrayılda "Araz Vadisi İqtisadi Zonası"nın yaradılmasına başlanılması, Zəngilan və Laçın rayonlarında beynəlxalq hava limanlarının tikintisi işlərinə start verilməsi, Zəngilan rayonunun Ağalı kəndləri bazasında "Ağıllı kənd" layihəsinin reallaşdırılması, Zəngilan hava limanının istismara verilməsi, nəhayət, təkcə region üçün yox, beynəlxalq səviyyədə mühüm əhəmiyyət kəsb edən Zəngəzur dəhlizinin açılmasına hazırlıq işlərinin görülməsi ölkəmizdə investisiya mühitinin və cəlbediciliyinin yeni bir dövrü, yeni bir mərhələsi kimi qiymətləndirilməlidir [220].

Bu görülən tədbirlər investisiya mexanizminin əlverişli şəkildə formalaşdırılması və onun səmərəlilik problemlərinin həll edilməsi ölkə iqtisadiyyatının, eyni zamanda aqrar sahənin strukturunun təkmilləşdirilməsi baxımından kifayət qədər vacib və əhəmiyyətli hesab olunan məsələlərdəndir.

Fikrimizcə, Azərbaycan iqtisadiyyatının kənd təsərrüfatı sektoruna investisiya cəlb etmək, bu sahənin bütün sosial-iqtisadi, texniki, texnoloji, bioloji və digər xüsusiyyətlərini həqiqətən nəzərə alan müvafiq mexanizm tələb edir. Normal investisiya mühitinin formalaşmasında dövlətin real iştirakı olmadığı təqdirdə kənd təsərrüfatının cəlbediciliyinin artırılması, dünya bazarında Azərbaycan kənd təsərrüfatı sektorunun rəqabət qabiliyyətinin asılı olduğu əsas həll problemlərindən biri olaraq qalacaqdır.

# V FƏSİL. AQRAR İSTEHLAK BAZARININ İQTİSADİ VASİTƏLƏRLƏ TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI VƏ BEYNƏLXALQ BAZARA ÇIXIŞ

## 5.1. Aqrar istehlak bazarının iqtisadi inkişafında rəqabət qabiliyyətli məhsulların rolu

Məlum olduğu kimi, bazar iqtisadiyyatının mühüm daxili hərəkətverici qüvvələrindən biri sayılan rəqabət tələb və təklif qanunlarına əsasən formalaşır. O, bazar iqtisadiyyatının zəruri elementi, daha yüksək gəlir əldə etmək üçün istehsalçılar arasında iqtisadi mübarizə və iqtisadi rəqabət formasıdır. Odur ki, istehsalçılar və istehlakçılar qarşısında kənd təsərrüfatı məhsullarının istehsalı və satışının stimullaşdırılması ön plana çıxır.

İqtisadçı alim V.Qasımlı tədqiqatında göstərir ki, Azərbaycanda 10 milyonluq daxili bazar yetərli tələbi təmin edə bilməz və qlobal dəyər zəncirinə qoşulma zəruridir. O, vurğulayır ki, Azərbaycan qlobal dəyər zəncirinə qoşulanda istehsalın bütün mərhələlərini deyil, rəqabət üstünlüyü olan mərhələsində fokuslaşmalıdır [58, s. 166-167].

Ümumilikdə istehlak bazarı bütün sahələrdə rəqabətin kəskinləşməsi ilə xarakterizə edilə bilər. Başqa sözlə ifadə etsək, informasiya - kommunikasiya texnologiyalarının inkişafı əmtəə və xidmətlərin hərəkətini sürətləndirib ki, bu da həm milli, həm də dünya bazarında rəqabət mühitini daha da mürəkkəbləşdirib. Müasir dövrdə istənilən bazarda üstünlük əldə etməyin ən etibarlı yolu rəqabət qabiliyyətlilikdən keçir. Yəni, hər hansı əmtəə və ya xidmət rəqabət mübarizəsindən qalib çıxdıqdan sonra bazarda uğur qazana bilir. Bütün bunlar, təbii ki, normal yaşayışın əsas amili olan qida məhsulları, qida təminatına da aiddir. Ərzaq məhsulları bazarı nə qədər rəqabət qabiliyyətli məhsullarla zəngin olarsa, qida təminatı və təh-

lükəsizliyi də o qədər etibarlı olar.

Bazar subyektləri daima qarşılıqlı əlaqə və qarşılıqlı təsir şəraitində fəaliyyət göstərirlər ki, bu da azad rəqabət adlanır. Rəqabətin yaranması tarixən mülkiyyət ayrı-seçkiliyi və əmək bölgüsü nəticəsində yaranan əmtəə istehsalının yaranması ilə üst-üstə düşür və əmtəə istehsalının inkişafı ilə iqtisadi inkişafın ən fəal elementinə çevrilir. İstehsal vasitələrinin üzərində xüsusi mülkiyyətin olması rəqabətin mövcudluğunu müəyyən edir. Rəqabət hər zaman bazar iştirakçıları arasında mövcud olan iqtisadi debat formasıdır. Bu danışıqlar əmtəə və xidmətlərin istehsalı, alınması və satışı üçün şəraitin yaxşılaşdırılmasına yönəlib. Başqa sözlə, hər bir bazar subyekti istehlakçıları özünə cəlb etməyə və yüksək gəlir əldə etməyə çalışır. [182, s. 205].

Tədqiqatlar göstərir ki, malların rəqabət qabiliyyətinin təhlili zamanı aşağıdakı texniki parametrlər tətbiq edilir: təsnifat, normativ, konstruktiv, erqonomik və estetik. Təsnifat parametrləri məhsulun müəyyən bir məhsul növünə aid olub olmadığını müəyyən edir. Rəqabət qabiliyyəti yalnız bir sinfə aid olan məhsullar üçün müəyyən edilə bilər. Konstruktiv parametrləri məhsula xas olan texniki və dizayn qərarlarını əks etdirir. Tənzimləyici parametrlər məhsulun standartlara, normalara və qaydalara uyğun olduğunu göstərir. Bu tələblərə uyğun gəlməyən məhsullar satıla bilməz. Öz növbəsində erqonomik təyinatlı parametrlər məhsulun insan orqanizminə uyğunluğunu əks etdirir.

Öz növbəsində iqtisadi təyinatlı parametrlərə aşağıdakı komponentlər daxildir: nəqliyyat xərcləri, işçilərin əmək haqqı, yanacaq xərcləri, xidmətlərin və ehtiyat hissələrinin alınması xərcləri, məhsulun sığortası xərcləri, vergilər və s. xərclər. Təşkilati parametrlərə çatdırılma və ödəniş şərtləri, çatdırılmanın tamlığı, endirimlər sistemi, zəmanət vaxtı və şərtləri daxildir.

Tədqiqatlar göstərir ki, mal və xidmətlərin rəqabət qabiliyyətinə fərqli amillər təsir göstərir. Belə ki, mal və xidmətlərin rəqabət

qabiliyyəti dedikdə onun bazarda uğurunu təmin edən istehlak və maya dəyəri (qiymət) xüsusiyyətlərinin məcmusu başa düşülür və üç amil qrupu ilə müəyyən edilir: 1) malın istehlak xüsusiyyətlərinin amilləri, 2) müəssisələrin daxil olduğu sahənin rəqabət faktorları və 3) marketinq amilləri.

Sahə səviyyəsində rəqabətqabiliyyətlilik aşağıdakı parametrlərdən istifadə etməklə (və ya onların birləşməsi) qiymətləndirilə bilər: əmək məhsuldarlığı, xüsusi əmək haqqı, kapitaltutumu və elmtutumu, istehsalın texniki səviyyəsi, məhsulun özünü inkişaf və bərpası, texniki ehtiyat məbləği üçün lazım olan bilik və elmi potensialının məcmusu, elmi layihə konstruktor işləmələrinin reallaşdırılması üçün texniki ehtiyatların həcmi, ixrac yönümlülüyü dərəcəsi və ya sahənin idxal asılılığı, sahənin inkişafı səviyyəsinin milli iqtisadiyyatın ümumi inkişaf səviyyəsinə uyğunluq dərəcəsi, iqtisadiyyatın müxtəlif sahələrində məhsulun istifadə dərəcəsi. Bu göstəricilər dəsti sahənin xüsusiyyətləri nəzərə alınmaqla dəyişdirilə və ya əlavələr edilə bilər.

Müəyyən bir sahənin rəqabət qabiliyyəti sənayenin innovasiya və modernləşdirmə qabiliyyətindən də asılıdır. Bazarın təzyiqi və tələbləri nəticəsində şirkətlər dünya bazarında ən güclü rəqiblərlə mübarizədə öz üstünlüyünü artırırlar. Mövcud iqtisadi vəziyyətdə, qlobal rəqabət davamlı olaraq artarkən, yüksək səviyyəli lokal proseslər vasitəsilə rəqabət üstünlüyü yaranır və saxlanılır. Hər bir ölkə üçün rəqabətqabiliyyətliliyinin strukturunda çox güclü fərqlər var, çünki heç bir dövlət heç də bütün sahələrdə ya da ən sahələrin əksəriyyətində rəqabət qabiliyyətli ola bilməz. Nəticədə, ölkələr müəyyən sahələdə ona görə uğur əldə edirlər ki, onların daxili şərtləri müvafiq olaraq ən dinamik və perspektivli olur.

Sahənin makro mühiti ümumdövlət səviyyəsində xarici qüvvələrdən: siyasi, sosial, hüquqi, texnoloji və s. ibarətdir.

Xarici mikro mühit bütün sahələr üçün xarakterikdir və təchizatçılardan, istehlakçılardan, rəqiblərdən, vasitəçilərdən, investorlar-

dan ibarətdir.

Daxili mühit sahənin, həm də ayrı-ayrı müəssisələrin, onun komponentlərinin idarəetmə problemlərinin həll olunduğu sahənin mikro mühitidir. Sahənin rəqabət qabiliyyətini müəyyən edən daxili qüvvələrə istehsal, marketinq, kadr, maliyyə resursları və ETTKİ aiddir.

Hər bir regionda müəyyən sahələrin inkişafını müəyyən edən öz xüsusiyyətləri (ərazinin rəqabət çatışmazlıqları və üstünlükləri) vardır. Konkret bir regionda sahənin rəqabətqabiliyyətliliyi, bu regionun sahənin rəqabət üstünlükləriylə birgə nadir sosial-iqtisadi mühitin birləşməsinin nəticəsidir. Əsas vəzifə müəyyən bir bölgənin, onun komponentlərinin rəqabət üstünlüklərinin əsaslarını aşkarlamaq və sahənin inkişafı yolu ilə onları gerçəkliyə çevirməkdir. Eyni zamanda, bir bölgədə sahənin rəqabət qabiliyyətinin təmin edilməsi mexanizmləri digər bir bölgədə lüzumsuz ola bilər. Bizim fikrimizcə, ən vacib olan, qida sənayesinin rəqabətli mövqelərini müəyyən edən amillərdir. Bunlar şəkil 5.2.1-də verilmişdir.




**Şəkil 5.2.1. Sahənin rəqabət mövqeyini müəyyən edən amillər**

1. Hər hansı bir regionun iqtisadi-coğrafi mövqeyi bir sıra göstəricilərlə: ölkənin digər ərazilərinə, eləcə də digər ölkələrə, xammal resurslarına, satış bazarlarına, nəql marşrutlarına çıxış imkanları ilə xarakterizə olunur.

2. Xammal resursları əsasən onların mövcudluğu və istifadə imkanları ilə xarakterizə olunur. Mineral-xammal, torpaq, meşə, su, faunistik və digər resursları ayırırlar.

3. Demoqrafik resurslar əhalinin ümumi sayı, cins-yaş tərkibi, əhalinin sayının dəyişməsi dinamikası ilə xarakterizə olunur. Əmək resursları işçi qüvvəsinin mövcudluğu, ixtisaslaşması və dəyəri ilə xarakterizə olunur.

4. İstehsal potensialı əsas istehsal fondlarının mövcudluğu, istehsal güclərindən və istehsal sahələrindən istifadə əmsalları ilə, əsas istehsal fondlarının sıradan çıxma və təzələnmə əmsalları ilə, əsas fondların köhnəlmə dərəcəsi, istehsal avadanlıqlarının yaş strukturu, əməyin fondla və elektrik enerjisisi ilə silahlanma əmsalları ilə xarakterizə olunur.

5. Maliyyə resursları. İstehsal və maliyyə sektorlarında böhranının qorunması üçün əsas səbəblərindən biri dövriyyə kapitalının çatışmamasıdır. İstehsala investisiyaların ixtisarıinvestisiya proqramlarının dövlət maliyyələşdirilməsinin və müəssisələrin resurslarının həcminin azaldılması ilə şərtlənir.

İstehsalın inkişafı və rəqabətqabiliyyətli məhsulların istehsalının genişləndirilməsi texniki cəhətdən yenidən silahlanmanın yavaşlaması ilə ləngiyir. Əsas fondların aktiv hissəsinin yavaş-yavaş yenilənməsi amortizasiya vəsaitlərinin çatışmaması, əmək vasitələrinə qiymətlərin daha sürətli artması ilə nəticələnir. Amortizasiya qiymətlərin liberallaşdırılması, inflyasiya və kəmiyyət baxımından sıradan çıxmış və mənəvi cəhətdən köhnəlmiş əsas fondları kompensasiya etmək üçün sadəcə olaraq kifayət deyil. Bununla yanaşı, əsas vəsaitlərə sərmayə qoyuluşlarının formalaşma mənbələri müəssisələr tərəfindən cari tələbatlarını maliyyələşdirmək və əmək kollek-

tivlərini maddi cəhətdən stimullaşdırmaq üçün tez-tez istifadə olunur.

6. İnfrastruktur. Sahənin rəqabət qabiliyyəti əsasən infrastrukturun inkişaf səviyyəsinə görə müəyyənləşdirilir. İstehsal, bazar, sosial infrastrukturları mövcuddur. Sahənin istehsal infrastrukturu dedikdə, əsasən istehsal fəaliyyətinin (nəqliyyat, kommunikasiya, energetika sistemləri, maddi-texniki və informasiya dəstəyi) ümumi şərtlərini təmin edən iqtisadi fəaliyyət sahələri başa düşülür.

Bazar infrastrukturu dedikdə, istehsalçıların səmərəli fəaliyyəti və istehsalçıdan istehlakçıya malların irəlilədilməsi üçün ümumi şəraiti təmin edən müxtəlif təşkilat və fəaliyyət sahələrinin sistemi başa düşülür. Y.D. Şmit, qeyd edir ki, inkişaf etmiş bazar münasibətlərinin formalaşması şəraitində iqtisadiyyatda xüsusi kəsişməyən sfera olub, bir tərəfdən, bazar infrastrukturu onun dəyişən tələblərinə uyğunlaşdırmağa "məcbur etməklə" istehsal prosesinə kifayət qədər güclü təsir edir, digər tərəfdən isəistehsal edilmiş məhsulun onun istehlakçılarına uğurlu və səmərəli irəlilədilməsi üçün şərait yaradır [172, s. 142-145].

Azərbaycanın davamlı inkişafı şəraitində infrastruktur həm sahənin istehsalının, həm də əhalinin yaşayış səviyyəsinin artmasını təmin edən sahə bazarının effektiv fəaliyyət göstərməsi üçün şərtlərin məcmusudur. Sahə infrastrukturu məhsulun istehsalı, mübadiləsi və istehlakı sahələrini əhatə edir, onları bir zəncirlə birləşdirir, sahə potensialından (istehsal, maliyyə, təşkilati, kadr, və s.) səmərəli istifadəni təmin edir.

Bir mülkiyyət formasından digərlərinə keçid, istehsalın və idarəetmənin yenidən təşkili, istehsal, tədavül sahəsində əlaqənin bütün formalarının dəyişdirilməsi infrastruktura həlledici təsir göstərir. Bazar münasibətlərinin inkişafı, yeni sahibkarlıq subyektlərinin və onların fəaliyyətinin tənzimləyici orqanların formalaşması şəraitində yeni infrastrukturun formalaşması həyata keçirilir. Bunun nə qədər effektiv baş verməsi, bir çox cəhətdən bu sahənin rəqabət qa-

biliyyətinin artırılması probleminin həllinə də təsir edir. Yüksək, "güclü" rəqabət mövqelərinə nail olunması istehsalın özündə köklü dəyişikliklərin aparılmasını tələb edir.

Azərbaycanda qida sənayesi infrastrukturunun inkişaf səviyyəsini xarakterizə edən göstəricilər sistemi, bizim fikrimizcə, nəqliyyat şəbəkəsinin inkişafı, rabitə xid-mətlərinin inkişafı; topdan və pərakəndə ticarət müəssisələrinin sayının artımı; məişət xidmətlərinin həcmi, informasiya-hesablama xidmətləri, kredit təşkilatlarının sayı kimi göstəriciləri daxil etməlidir;.

7. Bölgənin qida sənayesinin innovativ resursları elmi-istehsal potensialının səviyyəsi və sayı, kadrların hazırlanması və yenidən hazırlanması ilə məşğul olan təşkilatların mövcudluğu və fəaliyyəti ilə müəyyən edilir, habelə innovativ məhsulların, tədqiqat və işləmələrə çəkilən xərclərlə xarakterizə olunur.

8. Tələb şərtləri. Əhalinin tələbi bir növ "piramidal iyerarxiya"dir. Ən yüksək tələb (piramidanın əsası) ərzağa, siqaretə, spirtli içkilərədir. İkinci səviyyə - paltar, ayaqqabı, sonra bahalı davamlı mallara - mebel, avtomobil, daşınmaz əmlak və s. tələb gəlir. Yüngül sənaye mallarına tələb, ərzaq mallarına tələbin ödənilməsindən sonra sərbəst vəsait qaldıqda ödənilir. Ümumiyyətlə, əhalinin yaşayış səviyyəsinin ümumi azalması ilə nəticələnən qida sənayesi məhsuluna əhalinin alıcılıq qabiliyyətli tələbinin azalması müşahidə olunur. Yaşayış səviyyəsini xarakterizə edən göstəricilər arasında: əhalinin adambaşına ÜDM və milli gəlir göstəricisi, əhalinin ümumi istehlak fondu; əhalinin real gəlirləri, adambaşına real gəlirlər; orta əmək haqqı; minimum və orta əmək haqqının nisbəti; minimum istehlak səbətinin dəyəri; yaşayış minimumu; minimum pensiya və digərləri.

Rəqabətqabiliyyətliliyinin məntiqi zəncirini ayırmaq mümkündür. Dövlət səviyyəsində rəqabət qabiliyyəti iqtisadiyyatın sahələrinin uğurlu fəaliyyəti ilə müəyyənləşdirilir. Öz növbəsində, sahənin rəqabət qabiliyyəti, Azərbaycan ərazisinin ölçüləri, bölgələrin

sosial-iqtisadi inkişafındakı fərqlərlə, sahənin özünün xüsusiyyətləri ilə şərtlənən regional aspektə malikdir. Bundan əlavə rəqabət qabiliyyətli məhsullara əsaslanan iyerarxiya müəssisələri seçilir. Bu zəncirdə ikinci dərəcəli həlqə yoxdur. Bütün əlaqələr bütövlükdə milli iqtisadiyyatın rəqabət qabiliyyətini bir-birilə qarşılıqlı əlaqələndirir və qarşılıqlı şəkildə gücləndirir. Rəqabətsiz məhsullar olmadan müvəffəqiyyəti, əsasən, yerləşdiyi bölgənin şəraiti ilə müəyyən edilən müəssisənin fəaliyyəti effektiv ola bilməz. Regional fərqlərin nəzərə alınması sahə səviyyəsində rəqabət üstünlüklərinin əldə edilməsinə kömək edir.

Beləliklə, hər hansı bir səviyyədə rəqabət qabiliyyəti problemlərinin nəzərdən keçirilməsi rəqabət münasibətlərinin bütün göstərilən səviyyələrinə təsirinin nəzərə alınmasını tələb edir. Eyni zamanda, rəqabət sahəsinin hər bir səviyyəsi özünəməxsus amillərə və ya rəqabət üstünlükləri, xüsusi meyarlar, rəqabət qabiliyyətliliyinin qiymətləndirilməsi üsulları və onu əldə etmək strategiyası kimi determinantlara malikdir.

Eyni zamanda araşdırmalar göstərir ki, müasir dövrdə innovasiyalar müəssisələrin və məhsulların rəqabət qabiliyyətinə təsir edən əsas amillərdən biridir. İnnovasiya prosesi əmək məhsuldarlığının artması, tədavül xərclərinin azalması, məhsul satışının keyfiyyətinə tələblərin artması və qiymətlərin aşağı düşməsi ilə müşayiət olunur. İnnovasiyanın dəqiq mexanizminə arxalanaraq, şirkətlər öz mallarının rəqabətə davamlılığını təmin edir və tələbatı formalaşdırmaqda təşəbbüsü öz əllərində saxlayırlar.

Müşahidələr göstərir ki, innovasiya prosesləri bir çox mərhələlərə ayrılır. Dünya təcrübəsindən görsənir ki, innovasiya proseslərinin bu şəkildə mərhələlərə (sinflərə) bölmək dünya bazarında liderliyi itirməmək, kapital qoyuluşları riskini azaltmaq və elmi-texniki inkişaf üzrə idarəetmə strategiyasının formalaşdırılması üçün vaxtdan istifadə etmək üçün zəruridir. Bu prosesin nəticəsi olaraq innovasiyanı iki qrupa bölmək olar: logistik və sosial.

Logistik innovasiyalara maşınlar (avadanlıqlar, cihazlar və s.), texnologiyalar (istehsal prosesləri), sənaye materialları (xammal və hazır məhsullar) aiddir. Öz növbəsində sosial innovasiyalara iqtisadi (yeni vergi sistemi, əmək haqqı sistemi, qiymətləndirmə, göstəricilər və s.), təşkilati-idarəetmə, sosial idarəetmə, hüquqi, pedaqoji daxildir.

Maddi-texniki və sosial yeniliklər müxtəlif nəticələr versə də, bu innovasiyalar arasında sıx qarşılıqlı əlaqələr və əvəzetmələr mövcuddur. Belə ki, müəssisədə əmək məhsuldarlığını yeni texnika və texnologiyaların tətbiqi, habelə təşkilatın və əməyin həvəsləndirilməsinin qabaqcıl formalarının tətbiqi hesabına artırmaq olar. Bəzi hallarda ikinci üsul daha rahat və daha ucuzdur.

İnnovasiya siyasəti ölkə iqtisadiyyatının kommersiya və sahibkarlıq strukturları üzrə ikili qlobal hədəfinə xidmət edir. Belə ki, bir tərəfdən riskləri azaltmalı, digər tərəfdən kommersiya fəaliyyətlərinin səmərəliliyini artırmalı və daha çox qazanc əldə etməlidirlər. Beynəlxalq innovasiyalar bir sıra üstünlüklər yaratmaqla bu hədəflərə nail olmağı hədəfləyir: beynəlxalq innovasiya prosesləri qıt resurslara çıxışı asanlaşdırır.

Elm və texnologiyanın inkişafı mərkəzlərində innovasiya proseslərinin cəmləsməsi kommersiya və sahibkarlıq strukturlarına lazımi kommersiya məlumatlarını tez bir zamanda əldə etməyə və elmi-texniki tərəqqi sahəsindəki inkişaflardan xəbərdar olmaq üçün müasir menecerlərin işindən istifadə etməyə imkan verir [64, s. 207].

Beləliklə, innovasiya prosesinə biznesin müxtəlif sahələrində innovasiyaların, yeni qaydaların yaradılması və onların praktikada tətbiqi kimi baxmaq olar. Sənaye müəssisələri üzrə elmi-texniki tərəqqinin ən son nailiyyətlər əsasında modernləsdirilmə, qabaqcıl texnologiyaların tətbiqi, bazarda sərt rəqabətə tab gətirə bilən yüksək keyfiyyətli mal istehsalının artırılması innovativ biznesin inkişafından asılıdır.

Beləliklə, rəqabət qabiliyyətinin təmin edilməsində mühüm vasitələrdən sayılan innovasiya prosesləri nəticəsində yaradılmış yeni uğurlu məhsul dəqiq toplanmış informasiya fəaliyyətlərinin nəticəsidir. Yeni məhsulların effektivliyi müxtəlif yollarla qiymətləndirilə bilər ki, bu da dolayısı ilə məhsulun rəqabət qabiliyyətini əks etdirir.

Fikrimizcə, istehlak bazarında rəqabət üstünlüyünü artırmaq üçün səmərələşdirmə prinsipini nəzərə almaq lazımdır:

- yerli əmtəə və xidmət istehsalçılarının daxili və dünya bazarlarında rəqabət qabiliyyətinin artırılmasına köməklik;
- yüksək texnologiyalı məhsul və xidmətlərin payının artırılması üçün struktur çevikliyin təmin edilməsi;
- yeni informasiya texnologiyaları əsasında fəaliyyət göstərən kommersiya və sahibkarlıq strukturlarının inkişaf tempinin yüksəldilməsi, qlobal və regional inteqrasiya proseslərinin gücləndirilməsi [63, s.204].

Bu onunla əlaqədardır ki, əksər hallarda səmərəlilik və rəqabətqabiliyyətlilik bir-birini tamamlayan, birbaşa mütənasib göstəricilərdir: ekspert rəyi; gözlənilən gəlir dərəcəsinin müəyyən edilməsi; ehtimala əsaslanan yanaşma; gözlənilən gəlir dinamikasının qiymətləndirilməsi, habelə bəzi amillər nəzərə alınmaqla qiymət şkalasının istifadəsi; çoxölçülü qiymət meyarı; ərazinin cəlbediciliyi: rəqiblərin nüfuz etmə qabiliyyəti; yeni məhsulun və bütövlükdə firmanın rəqabət qabiliyyətinə təsiri; artıq istehsal olunan məhsulların təkmilləşdirilməsi üçün hazırlanmış layihələrdən istifadə etmək imkanı; yeni malların istehsalı və satışının şirkətin maliyyə vəziyyətinə təsiri.

Təbii ki, məhsul nə qədər istehlakçı tələbatını ödəyirsə, bazarda bir o qədər rəqabətədavamlı ola bilər. Başqa sözlə, istehlakçıların yeni məhsulların yaradılmasına cəlb edilməsi innovasiyaları stimullaşdıran mühüm amillərdən biridir.

Kənd təsərrüfatı sektorunun stimullaşdırılması istehsalçıların,

regionların və ölkənin ümumi inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Professor E.A.Quliyev əsaslı olaraq qeyd edir ki, *"ölkədə yüksək rəqabətqabiliyyətli məhsulların istehsalı üzrə müəssisələr şəbəkəsinin yaradılması və mühüm ərzaq məhsulları üzrə ölkə regionlarının ixtisaslaşması, dünya bazarlarında rəqabətqabiliyyətli ərzaq məhsulları ilə möhkəmlənməsi strategiyasının reallaşdırılması və ərzaq məhsulları istehsal edən müəssisələrin və müxtəlif sahibkarlıq sübyektlərinin ərzaq təhlükəsizliyi standartlarına, rəqabətqabiliyyətlilik prinsiplərinə uyğun şəkildə fəaliyyətinin təşkili istiqamətində dövlət dəstəyinin gücləndirilməsi və ərzaq məhsullarının rəqabətqabiliyyətinə təsir edən hər bir detal və amilin ciddi şəkildə araşdırılması, preventiv və sistemli tədbirlərin görülməsinin təmin edilməsi"* kimi amillər rəqabətqabiliyyətliliyin əsas prioritetlərindəndir [78, s. 363].

Fikrimizcə, aqrar-sənaye sahələrinin inkişafı da öz növbəsində emal sənayesi üzrə inkişafı, regionlar üzrə emal müəssisələrinin yaradılmasını tələb edir. Bununla yanaşı, nəqliyyat dəhlizləri boyunca yerləşən ayrı-ayrı rayonlarda emal müəssisələrinin yaradılması, eyni zamanda bu müəssisələrin rentabelli işləməsi məqsədilə aqrar sahə məhsulları istehsalını artırmaq məqsədəuyğun olardı. Müşahidələr sübut edir ki, məhsul istehsalı artımına emal müəssisələrinin tələbi ilə istehsalın artırılması istər istehsalçıların, istərsə də emal müəssisələrinin gəlirliliyinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərə bilər.

Artıq qeyd edildiyi kimi, iqtisadi inkişafda əsas sistemlərdən biri xarici iqtisadi əlaqələri yenidən qurmaq və bu əlaqələrin vasitəsilə dünya iqtisadi sisteminə fəal inteqrasiyadır. Bu baxımdan aqrar sahədəki xarici iqtisadi əlaqələrin inkişafı üçün ciddi ehtiyac var. Müşahidələrə əsasən demək olar ki, cəmiyyətin müasir inkişaf mərhələsində dünya ölkələrinə aqrar-xammal və ərzaq bazarları üzrə sürətli inkişafla bağlı xarici ticarət əlaqələrin genişlənməsi iqtisadi qloballaşmanın və ərzaq təhlükəsizliyinin qarşılanması zərurəti ilə xarakterizə olunur.

İnkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin qurulmasında sənayenin inkişafı mühüm rola malikdir. Lakin emal sənayesinə xammal sayılan kənd təsərrüfatı məhsullarının inkişafına kifayət qədər diqqət yetirilmir. Ölkənin xarici istehlak üçün pambıqçılıq, tütünçülük, tərəvəz və meyvəçilik üzrə ixtisaslaşması, texnoloji inkişafı və müvafiq infrastruktur müasir dünya standartlarına cavab vermir.

Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, əlverişli iqlim-coğrafi şəraitə və iqtisadi potensiala malik Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının ixrac potensialının artırılması, xarici ölkə bazarlarına rəqabətqabiliyyətli və yüksək keyfiyyətli məhsulların çıxarılması üçün aşağıdakı istiqamətlərdə bir sıra tədbirlərin görülməsi məqsədəuyğun olardı:

1. Mövcud daxili resurslardan səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsulları istehsalının artırılması və yerli istehsalçıların stimullaşdırılması mexanizminin işlənib hazırlanması.

2. Emal şirkətlərinin yaradılması, yeni texnologiyaların tətbiqi, rəqabətqabiliyyətli məhsulların hazırlanmasının stimullaşdırılması mexanizminin (kredit, vergi, gömrük və s.) işlənib hazırlanması.

3. İxracın artımı kənd təsərrüfatı və aqrar-sənaye məhsullarının keyfiyyətinin yüksəldilməsi hesabına təmin edilməlidir.

Professor, əməkdar elm xadimi B.X.Ataşov qeyd edir ki, aqrar sahədə geniş miqyaslı istehsalın qurulması, təbii-iqtisadi şəraitin regionlar üzrə müxtəlifliyi, şəhərlə kənd arasında məsafənin uzaqlığı nəzərə alınaraq məhsulun daşınması ilə bağlı xərclərin azaldılmasına, yerli əmtəə istehsalçılarının gəlirlərinin artırılmasına, kənd əhalisinin alıcılıq qabiliyyətinin yüksəldilməsinə aqrar bazar münasibətlərinin inkişafının ən mühüm şərti kimi xüsusi əhəmiyyət verilməlidir [32, s. 85].

Aqrar sahənin dinamik inkişafı üçün biznes mühitinin davamlı olaraq yaxşılasdırılması nəticəsində yüksək keyfiyyətə, ixracyönümlülüyə və rəqabətqabiliyyətliliyə malik məhsulların istehsalı

dövlətin iqtisadi inkişaf strategiyasında əsas prioritetlərdən biridir. Bu sahədə aparılan dövlət siyasəti aqrar sahədə yaradılmış mühitin daha da yaxşılaşdırılmasına, dövlət mühafizəsinin gücləndirilməsinə və dövlətlə sahibkar arasında münasibətlərin yaxşılaşdırılmasına yönəlmişdir [60, s. 242].

Eyni zamanda, istehlak bazarında malların rəqabət qabiliyyətinin artırılması üçün azad rəqabəti stimullaşdıran əlverişli şəraitin yaradılması, bu istiqamətdə məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsi zəruridir. Bunun üçün ölkənin əlverişli şəraitindən istifadə etmək, bu istiqamətdə həyata keçirilən mexanizmləri təkmilləşdirmək lazımdır.

Ümumiyyətlə  həm daxili, həm də xarici bazarlarda rəqabətqabiliyyətli kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə istehsal potensialının gücləndirilməsi, idxalı əvəz etmək potensialı olan kənd təsərrüfatı və emal sənayesi məhsulları istehsalının artırılmasının təşviqi, kənd təsərrüfatında fermer tərəfdaşlığının formalaşdırılması və kooperasiyanın inkişafı, kompleks layihələrin həyata keçirilməsi üçün dövlət-özəl tərəfdaşlığının inkişafı, aqrobiznesin inkişafına dəstək infrastrukturunun formalaşdırılması istiqamətində istehsal potensialının dəyər zənciri üzrə artırılması prosesi aqrar bazarin formalaşmasına əhəmiyyətli dərəcədə öz təsiriunin göstərməkdədir.

Ümumiyyətlə, apardığımız araşdırmalar onu göstərir ki, son illərdə aparılmış siyasət nəticəsində ölkədə bir çox ənənəvi kənd təsərrüfatı məhsullarının istehsal və məhsuldarlıq göstəriciləri yaxşılaşmışdır. Bununla yanaşı, təhlillər onu da göstərir ki, müvafiq sahələrdə Azərbaycanın daha geniş imkanları və potensialı mövcuddur. Eyni zamanda müvafiq dövlət proqram və sənədlərində nəzərdə tutulmuş hədəflərə nail olunması üçün kənd təsərrüfatının intensiv əsaslarla inkişaf etdirilməsi, ixtisaslaşmaya gedilməsi, intensiv texnologiyadan daha geniş istifadə edilməsi kimi məsələlər ön plana çəkilməlidir. Belə olduğu təqdirdə həm ölkənin kənd təsərrüfatı

məhsulları üzrə daha yüksək məhsuldarlıq və istehsal göstəricilərinə çatması təmin olunar, həmçinin də xarici bazarlarda ixrac məhsullarının rəqabət qabiliyyətliliyinin artırılmasına nail olmaq olar.

İxracyönümlü dəyər zənciri qurulması istiqamətində "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda göstərilir ki, *"işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası təmin ediləcək. İqtisadiyyatın qurulması məqsədilə iqtisadi fəaliyyətin canlanmasının sürətləndirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması təmin ediləcək. Ərazilərə yüksək texnoloji tutumlu investisiyaların cəlbi nəticəsində ixracyönümlü dəyər zənciri qurulacaq və dayanıqlı iş yerləri yaradılacaq. Regionda dairəvi iqtisadiyyata əsaslanan "ağıllı" biznes modelləri yaradılacaq. Faydalı qazıntı və mineral xammal mənbələri nəzərə alınmaqla iqtisadi fəaliyyətdə dəyər zənciri üzrə ixtisaslaşma təşviq ediləcək. Rəqabətqabiliyyətli, qabaqcıl infrastrukturla təmin edilmiş aqrar istehsal və aqrar emal formalaşdırılacaqdır. İlkin mərhələdə, bərpa və quruculuq prosesinə paralel olaraq özəl layihələr dəstəklənməklə ticarətxidmət-logistika mərkəzləri şəklində iqtisadi zonaların, müasir istehsal infrastrukturu olan sənaye parkları və məhəllələrin yaradılması istiqamətində işlər görüləcək. İqtisadiyyatın sürətli bərpası və dayanıqlı inkişafı, o cümlədən rəqabətli istehsal və emal sahələrinin fəaliyyəti müasir infrastrukturla dəstəklənəcək, prioritet sahələrdə sahibkarlara geniş çeşidli stimullar veriləcək, vergi-gömrük azadolmaları və güzəştli maliyyələşmə alətləri geniş tətbiq olunacaq, kreditlərin və investisiyaların sığortalanması mexanizmi yaradılacaqdır. Ekoloji təmiz və iqtisadi cəhətdən səmərəli bərpa olunan enerji mənbələrindən istifadə genişləndirilməklə "yaşıl enerji zonası" konsepsiyası tətbiq ediləcək. Nəticədə, ümumi məhsul buraxılışında, ixracda və məşğulluqda işğaldan azad edilmiş ərazilərin payı davamlı artacaq"* [5, s.19].

## 5.2. Aqrar istehlak bazarının inkişafı istiqamətində yaşıl aqrar-ərzaq təchizatı zəncirlərinin tətbiqi zəruriliyi

Respubilkamızda son zamanlarda qabaqcıl texnologiyaların aqrar sahəyə tətbiqi müşahidə olunur, bunu əmək məhsuldarlığının artması və üzvi əkin sahələrinin genişlənməsi sübut edir. Aqrar sahədə məhsuldarlıq (üzvi əkinçilik də daxil olmaqla) nəqliyyat-logistika və saxlama sahələrinin inkişafına qoyulan investisiyaların həcmi ilə birbaşa əlaqəlidir.

Yaşıl aqrar-ərzaq təchizatı zəncirlərinin tətbiqi və idarə edilməsinin əsas lokomotivi kimi logistika infrastrukturunun inkişafını zəruri edir. Sahənin inkişafını əngəlləyən mənfi amillər müasir anbarların, nəqliyyat infrastrukturunun, aqrar sahə isteh-salçılarına dövlət dəstəyinin kifayət qədər olmaması, tədarük zəncirinin idarə olunması üçün informasiya texnologiyalarının və aqrar sahə məhsulları istehsalçıları arasında əməkdaşlığın sıx olmamasıdır.

Müasir dövrdə bütün iqtisadi fəaliyyət növlərinin yaşıllaşdırılması məsələləri xüsusilə aktuallaşır. Yaşıl tədarük zəncirləri bir moda meyli deyil, tədarük zəncirinin bütün elementlərinin qarşılıqlı təsirinə müasir bir yanaşmadır. Aqrar sahə çox böyük miqdarda təbii ehtiyatlardan (xüsusən də torpaqdan və sudan) istifadə edir və demək olar ki, həyatın bütün sahələrini əhatə edir; beləliklə, o, "yaşıl fəlsəfə" prinsiplərinə uyğundur.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin [6] əsas məqsədi dünya ərzaq və kənd təsərrüfatı bazarına ekoloji cəhətdən təmiz məhsulların ixracının artması ilə əlaqəlidır. Burada, əsasən texnoloji cəhətdən ərzaq məhsullarının dərin emal prosesində robotlaşdırma texnologiyalarının tədbiqi, yüksək məhsuldar cins heyvanların, bitki sortlarının və biotexnologiyaların istifadəsi nəzərdə tutulur. Bu istiqamətdə dövlət tərəfindən böyük dəstəyə ehtiyac vardır. Burada güclü elm və təhsil komplekslərinin yaradılması, kənd tə-

sərrüfatı məhsullarının və ərzaq tullantıları dərin və kompleks emal texnologiyaların tədbiqi və sair nəzərdə tutulur.

Respubilkamızda aqrar sahənin inkişafı strategiyası ölkə əhalisinin ərzağa əlçatanlığının və ərzaq təhlükəsizliyinin təmin edilməsinə, yoxsulluğun azaldılmasına, yeni iş yerlərinin yaradılmasına və yerli istehsalın artırılmasına yönəldilmişdir. Eyni zamanda, Azərbaycanda aqrar sahənin inkişafı strategiyası aşağıdakı vəzifələrin həllini də əhatə edir [219, s. 527-535]:

- sənayenin rəqəmsallaşdırılmasının artırılması;
- müasir texnologiyaların tətbiqi;
- müştəri mərkəzləri şəbəkəsinin genişləndirilməsi.

Aqrar sahəyə diqqət sənayenin inkişafı və müasir yanaşma nöqteyi-nəzərindən idarə olunmasının ölkə iqtisadiyyatının lokomotivi ola bilməsi ilə əlaqədardır. Ölkənin aqrar qida məhsullarına tələbatı yüksəkdir və ixracatçı ölkələr yüksək səviyyədə inkişaf etmiş iqtisadiyyata malik olmalıdırlar [206]. Bu səbəbdən aqrar sahə yüksək əlavə dəyərli məhsulların istehsalını artırması lazım olan logistika, nəqliyyat, aqrar maşınqayırma və qida sənayesinin inkişafının lokomotivi ola bilər.

Üstəlik, aqrar sahənin və tədarükün müasir idarəetmə metodlarının tətbiqi Azərbaycan üçün yüksək logistika xərcləri ilə xarakterizə olunduğundan xüsusilə aktual məsələdir.

Aparılan araşdırmalardan görünür ki, Azərbaycanda aqrar sahə məhsullarının tarladan satış məntəqəsinə çatdırılması üçün logistik xərclər bütün xərclərin 18-20 %-ni təşkil edir, Fransa, Almaniya və ABŞ-da bu göstərici müvafiq olaraq 8% və 6%-dir [206].

Dünya ölkələri üzrə aqrar sahədə iqtisadi, sosial və ekoloji aspektləri əhatə edən davamlı inkişaf prinsiplərinə əsaslanan yeni iqtisadi məkan formalaşır [196]. Yaşıl tədarük zənciri idarəçiliyinin tətbiqi sənaye fəaliyyətinin sinerji effektini əldə etməyə və bütün iştirakçıların maraqlarını birləşdirməyə imkan verir. Yaşıl tədarük zəncirinin idarə edilməsi konsepsiyası xidmət, maddi, maliyyə və

informasiya axınının optimallasdırılmasını əhatə edir və mütəxəssislərə idarəetmə xüsusiyyətləri nəzərə alınmaqla aqrar sahə müəssisəsinin maddi-texniki təminatını yaxşılaşdırmaq, həyata keçirmək və daha da inkişaf etdirmək üçün real imkanlara imkan yaradır.

Yaşıl tədarük zənciri aqrar istehsalı müxtəlif iqtisadi alətlər vasitəsi ilə stimullaşdıran mexanizmdir. Nəzəri olaraq mərkəzləşdirilmiş dövlət satınalmalarının təşkili və kəmiyyət-keyfiyyət göstəricilərinin yüksəldilməsi makroiqtisadi tənzimləmədə mühüm əhəmiyyət kəsb edir. Bu sistemdə dövlət özü birbaşa alıcıdır və tələb-təklifin strukturunu formalaşdırır. Dövlətin nəzarətində olan müəssisələr böyük həcmdə ərzaq təlabatına malikdir, digər tərəfdən bazarlarda tez-tez baş verən "qiymət artımları"na dolayı yolla müdaxilə etmək, intervensiya yaratmaq üçün tədarük sistemi uğurlu modeldir.

Bu zəncirə ilkin istehsalçılar, tədarükçülər, topdansatışçılar, istehlakçılar kimi geniş seqmentli kütlələr daxildir, özündə məhsul və xidmətlərin başlangıc mərhələdən tutmuş son istehlakçıya çatdırılması, bu prosesdəki çoxsaylı fəaliyyətləri, insan resurslarını, texnologiyaları, şirkətləri və digər resursları ehtiva edir. Prosesdəki mərhələlər sistemli halda bir-birini izləyir: istehsal, logistika-anbarlama, təchizat prosesi, marketinq kimi proseslər sistemin dövriliyini təmin edir. Müasir yanaşmalarda tədarük zəncirinin hədəfləri bunlardır:

- yerli istehsalın davamlılığının təmin edilməsi;
- aqrar sahədə sığorta, kooperasiya, maliyyə təminatı kimi iqtisadi mexanizmləri formalaşdırmaq;
- dövlətin istehsalçı, istehsalçının isə dövlət qarşısında məsuliyyətini artırmaq;
- qiymət dəyişmələri və süni qiymət artımı zamanı bazarlara müdaxilə;
- resurslardan səmərəli istifadə və s. [230].

Ölkəmizin müasir inkişaf konsepsiyası aqrar sahənin xüsusi çəkisini yüksəldərək iqtisadiyyatın şaxələndirilməsini və davamlı-

lığını təmin etməkdir [207, s. 42-61].

Şərq Tərəfdaşlığının bir hissəsi olaraq, ölkə yaşıl iqtisadiyyata keçid barədə öhdəlik götürüb, əsasən bunlara aiddir:

- təbii kapitalın ölçülməsini və qiymətləndirilməsini yaxşılaşdırmaq;
- ətraf mühitin infrastrukturunu tətbiq etmək;
- ekoloji şüurlu istehlakçı davranışını inkişaf etdirmək;
- yaşıl iqtisadiyyat və yaşıl təchizat zəncirinin idarə edilməsi prinsiplərinə əsaslanan ticarətin inkişafına kömək etmək.

Hazırda, Azərbaycanın aqrar sahəsində ekoloji problemlər yaşanır və iqlim dəyi-şiklikləri, hava şəraiti (quraqlıq, yüksək temperatur, erkən şaxta və / və ya daşqınlar) səbəbindən bəzi illərdə məhsulun azalması ehtimalı mövcuddur [183].

Su ehtiyatlarının ekoloji istehlakı, suyun mühafizəsi texnologiyalarının istifadəsi, aqromeşə təsərrüfatı, mühafizəkar böyümək texnologiyalarının istifadəsi, əhalinin məlumatlılığının artırılması və yaşıl tədarük zənciri idarəetmə konsepsiyasının tətbiqi aqrar sahə üçün xüsusi əhəmiyyət kəsb edir [195, s. 306-321].

Bu yanaşmalar ölkə səviyyəsində, o cümlədən beynəlxalq donor təşkilatların köməyi ilə həyata keçirilir (məsələn, USAID tərəfindən maliyyələşdirilən AMDA layihəsi) [207, s. 42-61].

Bununla birlikdə, ölkədəki təsərrüfatların təxminən 83% -i kiçik həcmli (10 ha-ya qədər) olduğu üçün əksər təsərrüfatlar istənilən gəliri gətirmir və yaşıl tədarük zəncirinin idarə edilməsi prinsiplərini tətbiq etmir. Azərbaycanda aqrar sahənin idarəedilməsi aşağıdakı amillərlə xarakterizə olunur [185, s. 13-16;]:

- maliyyəyə zəif giriş, idarəetmə proseslərinin zəif işıqlandırılmaması və məhsuldarlığın torpaqdan həddən artıq asılılığı yenilik imkanlarını azaldır;
- aşağı səviyyəli texnologiyaların tətbiqi;
- az sayda orta və iri miqyaslı təsərrüfatlar bazar prinsipləri ilə işləyir və qabaqcıl aqrotexniki metodlarından və yeniliklərindən sə-

mərəli istifadə edir [197, s. 31-35].

Azərbaycanda yaşıl aqrar-ərzaq təchizatı zənciri üzrə idarəetmə sistemi aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur [192]:

- müasir şəraitə uyğun olmayan anbar infrastrukturu;
- nəqliyyat vasitələrinin həddindən artıq yüklənməsindən yaranan yolun pisləsməsi, bu da çatdırılma müddətinin artmasına səbəb olur;
- logistika proseslərinin müasir tələb və standartlara uyğun olmaması;
- satış partiyalarının formalaşdırılması və logistik xərclərinin azaldılması üçün fermerlərin zəif əməkdaşlığı;
- aqrar sahədə qida təhlükəsizliyi və keyfiyyət standartlarının ləng tətbiqi.

Bu vəziyyətdə aqrar sahədə sistem-ekoloji və fərdi amillərin birləşdirilməsi yolu ilə yeniliklər tətbiq edilə bilər. İnnovasiya bir neçə amilin birgə qarşılıqlı əlaqəsi olduqda baş verir: yeniliyin özünün texnoloji parametrləri (məsələn, maliyyə giriş maneələri, xərclərin miqyası, ümumi mənfəət), şəxsi amillər (qəbul) və struktur amillər (təsərrüfat ölçüsü, kreditə çıxış, bürokratiyaya yaxınlıq). Bu vəziyyətdə kreditə çıxış təmin etmək, dəyər zəncirlərini inkişaf etdirmək və ya fermerlərin məlumatlılığını artırmaq kimi bir faktorun təsadüfi yaxşılaşdırılması problemin mürəkkəbliyi səbəbindən davamlı nəticələrə gətirib çıxara bilməz [185].

Hal-hazırda yaşıl tədarük zəncirlərinin tətbiqi fərdi fermerlər üçün müvafiq məsələ deyil. Bununla yanaşı, iqtisadiyyatın şaxələndirilməsi və neft sənayesinin əhəmiyyətinin azaldılması üçün hərtərəfli tədbirlərin həyata keçirilməsinə imkan verdiyi üçün bütövlükdə dövlət üçün əhəmiyyətlidir [203, s.1314-1315].

Aqrar sahədə yaşıl tədarük zəncirlərinin tətbiqi yüksək məhsul keyfiyyəti ilə əlaqələndirilir, xüsusilə inkişaf etmiş ölkələrdən (AB, ABŞ və digər inkişaf etmiş iqtisadiyyatlar) müştərilərin cəlb edilməsinə kömək edən üzvi ekoloji təmiz məhsulların istehsalı ilə [192].

Aqrar sahədə, xüsusilə Avropa Birliyi ölkələrinin nümunəsində yaşıl tədarük zəncirlərinin tətbiqi aşağıdakı rəqabət üstünlüklərini təmin edir [219, s. 527-535]:

- ətraf mühitə müştəriləri cəlb etməklə emal sənayesinin cəlbediciliyini artırır;
- səmərəli logistika idarəetməsi (nəqliyyat, anbar, saxlama, təmir, azaldılmış boş vaxt və ətraf mühitin çirklənməsi üçün cərimələr) hesabına sahənin gəlirliliyi artır;
- tullantıları minimuma endirəcək; tullantıların təkrar emalı da daxil olmaqla enerjiyə qənaət edən texnologiyalar tətbiq edilir;
- Euro 4 və Euro 5, alternativ yanacaq, daha etibarlı nəqliyyat vasitələri tətbiq ediləcək, həmçinin əsas logistika proseslərinin məhsuldarlığını artırmaqla logistika xidmətlərinin keyfiyyəti yüksəlir;
- yeni aqrar texnologiyalarının tətbiq edilir və kadr potensialından istifadə səmərəliliyi artır, ətraf mühitin qorunmasına xüsusi diqqət yetirilir.

Aqrar sahədə yaşıl tədarük zəncirləri konsepsiyası, bütün növ axınların idarə edilməsinə inteqrasiya olunmuş bir yanaşma ehtiva edir və eyni zamanda layihənin icrası zamanı ortaya çıxan axın proseslərinin tam resurs və funksional spektrini əhatə edir. Bu gün qabaqcıl texnologiyaların aqrar sahəyə tətbiqi tələb olunan sərmayə miqdarı səbəbindən dövlət dəstəyinə ehtiyac duyur. Ətraf mühitə qayğıkeş yanaşmaya əsaslanan istehsal və logistika idarəetməsi ətraf mühitə təsirləri nəzərə alınmaqla sistemli bir proses təşkilini əhatə edir və fərdi sahibkarlar üçün çox vaxt mümkün olmayan əhəmiyyətli investisiyalar tələb edir [186, s. 169].

Yaşıl tədarük zəncirlərinin tətbiqi müasir infrastrukturun mövcudluğunu nəzərdə tutur. Tədqiqatın məqsədi Azərbaycan Respublikası timsalında tədarük zənciri idarəçiliyinin həyata keçirilməsində əsas amilləri və maneələri müəyyənləşdirməkdir.

Aqrar sahədə məhsuldarlıq (üzvi əkinçilik də daxil olmaqla) nəqliyyat və anbarın inkişafına qoyulan investisiyaların həcmi ilə

birbaşa əlaqələndirilir:

- bir işçiyə düşən əlavə dəyər dinamikasının (inflyasiya nəzərə alınmaqla), həmçinin üzvi əkinçilik üçün ayrılmış torpaq sahəsinin nəqliyyatın inkişafına qoyulan investisiyaların həcminə təsirini müəyyənləşdirmək və reqressiya asılılığı quraraq saxlamaq [191, s. 48-58]:

- əldə edilmiş məlumatları digər ölkələrin oxşar məlumatları ilə müqayisə etmək;

- təchizat zəncirinin idarə edilməsinə yanaşmaların təkmilləşdirilməsi üçün nəticələri təhlil etmək.

Azərbaycanın infrastrukturu postsovet ölkələrinə xas olan meyllərlə səciyyələnir Dünya Bankının məlumatlarına görə [189], strateji infrastruktur qaynaqlıdır və onun saxlanılması və inkişafı çox vəsait tələb edir. Eyni zamanda, tədarük zənciri idarəçiliyinin həyata keçirilməsinə təsir edən mənfi amillər infrastrukturun (ilk növbədə müasir anbarlar və nəqliyyat infrastrukturu), təchizat zəncirinin idarə olunması üçün məlumat alətlərinin və ixtisaslı kadrların olmamasıdır.

Səmərəli tədarük zənciri idarəetməsi yaxşı inkişaf etmiş infrastruktur tələb edir. Dövlət qurumları logistika xidmətlərinin keyfiyyətini artırmaq və müxtəlif texniki səviyyəli layihələrin həyata keçirilməsi üçün xarici investisiyaların cəlb edilməsi məqsədilə xarici (dövlət) logistik infrastrukturunu inkişaf etdirirlər.

Azərbaycan logistik infrastrukturu vahid deyil; bu fakt yaşıl tədarük zənciri idarəetməsinin tətbiqinə kömək etmir. Aqrar sahə istehsalçıları kooperativə az əhəmiyyət verirlər ki, bu da aqrar müəssisələrin rəqabət qabiliyyətinə mənfi təsir göstərir. İnfrastruktur bazarı elementlərinin inkişafı, xüsusən də investisiya qoyuluşu ilə intensivləsdirilmək şərtilə aqrar sahədə yaşıl tədarük zəncirləri tətbiq edilə bilər. Son illərdə Azərbaycanda aqrar sahədə məhsuldarlığın artması müşahidə olunur ki, bu da ölkənin inkişafında sənayenin vacibliyini göstərir. Eyni zamanda, üzvi aqrar sahə məhsulları-

nın istehsalındakı kəskin artım, tədarük zənciri idarəçiliyi də daxil olmaqla yaşıl texnologiyanın tətbiq edilməsinin əhəmiyyətinin fərqində olduğunu nümayiş etdirir.

Anbar, nəqliyyat və digər infrastruktura dövlət investisiyaları ölkəyə müasir təchizat zənciri idarəetmə texnologiyalarını tətbiq etməyə və aqrar sahədə davamlı əmək məhsuldarlığı artımına imkan verdi.

Xarici ölkələrin təcrübəsi göstərir ki, logistika xərclərini minimuma endirə bilən və aqrar sahə istehsalçılarının səmərəliliyini artıra biləcək nəqliyyat və logistika mərkəzləri sistemi yaratmaqla yeni bazar tələblərinə cavab vermək mümkündür [190, s. 151-160].

Eyni zamanda nəqliyyat və logistika infrastrukturunun inkişafına şərti olaraq “Avropa” və “Amerika” kimi fərqləndirilə bilən iki əsas yanaşma mövcuddur. Birincisi, vergi güzəştləri, dövlət subsidiyaları və ya qrantlar verməklə yükdaşımaların səmərəliliyinin artırılmasına və logistika mərkəzlərinin inkişafına yönəlmiş aktiv dövlət siyasətinin həyata keçirilməsini nəzərdə tutur. İkincisi, logistika sektorunun bazar tənzimlənməsinə əsaslanır; dövlət müdaxiləsi ehtiyacını minimuma endirir və özəl şirkətləri və investorları logistika infrastrukturunun inkişafına investisiya qoymağa təşviq edir [192].

Aqrar klasterlərin tətbiqi Azərbaycanda aqrar sahədə mütərəqqi tədarük zəncirlərinin tətbiqi amili kimi logistika infrastrukturunun inkişaf etdirilməsinin yollarından biridir. Eyni zamanda yaranmış və formalaşmış klasterlərin dövlətlər tərəfindən müxtəlif tədbirlərlə dəstəklənməsinə dünya təcrübəsində rast gəlinir. Klasterdəki sahibkarlıq subyektlərinin güzəştli maliyyə və inzibati resurslarla təmin olunması ən mühüm dəstək mexanizmlərindəndir. Azərbaycanda aqrar sahədə klaster yanaşması əsasında məhsuldarlığın artırılması, köməkçi fəaliyyət sahələrinin yaradılması və ümumilikdə ölkənin qeyri-neft iracına töhfə verilməsi imkanları mövcuddur.

Dövlət Proqramında da Nazirlər Kabinetinin, Kənd təsərrüfatı

və İqtisadiyyat Nazirliklərinin qarşısına üzüm istehsalı və emalı üzrə klaster yanaşmanın tətbiq olunması ilə bağlı tələb qoyulmuşdur. Şərabçılıq klasterlərinin yaradılması zamanı şərab istehsalçılarının üzüm istehsalçılarına yaxın ərazidə yerləşdirilməsi şərabçılıq klasterinin inkişafı üçün vacib şərtlərdən biridir. Bununla yanaşı, üzüm istehsalçıları üçün üzüm bağlarını hazırlayan, irriqasiya xidməti göstərən, məhsul yığmını zəruri texnika ilə təmin edən, çəllək və etiket istehsal edən müəssisələrin bir-biri ilə əlaqəli sahələrdə yerləşdirilməsi onların sonradan daxili bazarda müasir səviyyəli tələbləri ödədiyi təqdirdə logistika təminatlardan istifadə edərək xarici bazarlara da məhsul ixrac edə bilərlər. Həmçinin, şərab istehsalı klasterini kənd təsərrüfatının digər sektorları, qida, iaşə və turizmi ilə əlaqələndirmək imkanları mövcuddur. Üzümçülüyün və şərabçılığın bütün mərhələlərini bir region üzrə formalaşdırmaq bir çox xərcləri aradan qaldırmaqla regionun bu sahədə rəqabətqabiliyyətini artırmaq imkanı qazanmaq olar [220].

Aqrar sahədə klaster yanaşmasının tətbiqinin daha bir mümkün variantı südçülük üzrə klaster yanaşmasının tətbiqi sayıla bilər. Süd məhsullarının klasterinin məqsədi məhdud ərazidə süd təsərrüfatlarının qruplaşdırılması, emal, ticarət, xidmətlərin öyrənilməsi, genişləndirilməsi və daha səmərəli şəkildə süd istehsalının inkişafı zəncirini yaratmaqdan ibarətdir. Bu da daha keyfiyyətli marketinq məhsullarının təşkilinə gətirib çıxarır və ən əsası kənd təsərrüfatının inkişafı süd klasterinin inkişafında ayrılmaz hissə ola bilir. Süd istehsalının səmərəliliyi üçün süd verən heyvanların yemlənməsi və münbit torpaqların mövcudluğu önəmlidir. Bu qarğıdalı, yonca, arpa, yağlı toxum bitkiləri və digər əkin bitkilərindən əlavə yem məhsulları ola bilər. Südü emal edən süd zavodu şəhər bazarı üçün keyfiyyətli məhsullar təqdim etməlidir və burada istehsaldan əlavə soyutma və nəqliyyatın təşkil edilməsi vacibdir [220].

Burada nəzərə alınması məqam ondan ibarətdir ki, südçülük klasterinə aid olacaq maldarlıq təsərrüfatları bir-birinə yaxın ərazi-

də olmalıdır. Bu məsələ nəzərə alınarsa südçülük klasteri üzrə ailə təsərrüfatlarından ibarət olan geniş miqyaslı fermer təsərrüfatları yaradıla bilər. Həmçinin, işğaldan azad edilmiş ərazilərdə əhali sayının yüksək olacağı rayonlarda südçülük klasterlərinin emaldan sonrakı mərhələsi də həyata keçirilə bilər. Tarixi inkişafı və təsərrüfatçılıq ənənələrini nəzərə alsaq, ölkənin əksər regionlarında südçülük klasterinin son istehlakçıya çatıdırılmasına qədər geniş dəyər zəncirlərini qurmaq mümkündür [220].

Ümumiyyətlə, klasterlərin qurulması kifayət qədər maliyyə və ixtisaslaşma tələb edir. Lakin xüsusi ilə də işğaldan azad olunmuş torpaqlarda südçülük və şərabçılıq kimi mühüm klasterlərin yaradılması imkanları yüksəkdir.

Amillərin aqrar sahənin inkişafına təsirinin təhlili göstərir ki, bir qrup daxilində infrastrukturun inkişafı rəqabət üstünlüklərinə kömək edir. Loqistika infrastrukturunu inkişaf etdirərək dövlət aşağıdakı üstünlükləri əldə edəcəkdir: daha səmərəli aqrar istehsal, şəffaf və açıq aqrar bazar, məhsul keyfiyyətinin monitorinqi, rəqabətqabiliyyətlilik, aqrar məhsulların, xüsusən pərakəndə ticarətdə aqrar sahədə məhsulların nizamlı paylanması, artırılmış büdcə, daha yaxşı yaşayış səviyyəsi əhali. Digər tərəfdən aparılan geniş miqyaslı araşdırmalar da onu göstərir ki, kifayət qədər maliyyə resursları tələb etməsinə baxmayaraq, klaster tipli yanaşmaların tətbiqi, kənd təsərrüfatının dəyər zəncirləri boyunca inkişafının təmin edilməsi ölkələrin inkişafına çox mühüm təsir göstərə bilir. Belə ki, dəyər zənciri boyunca baş verən hər hansı çatışmazlıq kənd təsərrüfatı və aqrar məhsulların ixracı, satışı və yekun nəticədə məhsuldarlıq və istehsal göstəricilərinin də aşağı düşməsinə səbəb olur. Klaster yanaşmasının tətbiq edilməsi isə bu tipli dəyər zəncirlərinin kompleks formada inkişafını təmin edə, ölkədə aqrar sahənin inkişafı üçün yeni imkanlar yaratmış olardı [44, s. 325].

Yüksək keyfiyyətli aqrar-ərzaq məhsulları bazarını formalaşdırmaq üçün xidmət strukturlarının (soyutma, qablaşdırma və nəqliy-

yat) inkişafı və möhkəmləndirilməsinə əlavə olaraq yaşıl tədarükün idarə olunması fəlsəfəsini tətbiq etmək, marketinq xidmətləri, malların keyfiyyətinin araşdırılması və ticarət müəssisələri və sığorta şirkətlərinə xidmət göstərən kommersiya banklarına məlumat verən vasitəçi firmaların fəaliyyətini inkişaf etdirmək lazımdır [219, s. 527-535].

Aqrar sahə istehsalçılarının, emal müəssisələrinin, bank qurumlarının və müxtəlif xarici sahibkarlıq subyektlərinin iştirakı ilə inteqrasiyanı inkişaf etdirmək və müştərək müəssisələr yaratmaq mümkündür. Müasir aqrar sahə istehsalın böyüməsi yolu ilə gedir. Beləliklə, sənaye klasterləşməsi bir zərurətdir. Kiçik istehsalçıların birliyi yeni texnologiyaların tətbiqinə və investisiya cəlb edilməsinə imkan vermir; beləliklə, milli aqrar sahənin inkişafına klaster yanaşmasından istifadə etmək lazımdır.

Aqrar sənayenin dəyər zəncirləri boyunca inkişaf etdirilməsinin formalaşdırılmış metodoloji çərçivəsi əsasında aqrar sahənin inkişafına kompleks yanaşılması və dəyər zəncirlərinin inkişaf etdirilməsi, klasterləşmənin təbiqinə başlanılması əsas hədəf olmalıdır. Apardığımız araşdırmalar nəticəsində kənd təsərrüfatı məhsullarının satış infrastrukturunun inkişaf etdirilməsi üçün ənənəvi bazarlara daha keyfiyyətli alternativ kimi "yaşıl market"lər şəbəkəsi, tələblərə uyğun ət kəsimi və satışı mərkəzləri, pilot "fermer mağazaları"nın formalaşdırılması üzrə tədbirlərin genişləndirilməsi və müxtəlif bölgələrdə kənd təsərrüfatı üzrə ixtisaslaşmış topdansatış bazarlarının yaradılmasına böyük zərurət olduğu qənaətinə gəlinmişdir.

Bazar infrastrukturunun uğurlu fəaliyyətinin vacib hissəsi tədarük zəncirini izləmək və idarə etmək üçün vasitə kimi düzgün məlumat dəstəyidir.

Mövcud infrastruktur (yollar və magistral yollar, su təchizatı, kanalizasiya, məktəblər və xəstəxanalar) əsas məsələdir; infrastrukturun yaxşılaşdırılması üçün yeni istiqamətlərin inkişafı (genişzo-

laqlı internet və simsiz telefon ehtimalı) nəzərə alınmalıdır.

Azərbaycanın kənd təsərrüfatında infrastrukturun inkişafı tərəqqi amilinə çevrilmişdir. Bu, əhəmiyyətli infrastruktur layihələrinin icrası ilə əlaqədardır; məsələn, artıq 2022-ci ilin sentyabr ayına kimi respublika üzrə 51 aqropark (müəyyən məhsul növlərinin istehsalında ixtisaslaşmış Bakı aqroparkı, Ağstafa aqroparkı, Şəmkir aqroparkı, Xaçmaz aqroparkı, Yalama aqroparkı, Ağsu aqroparkı və s.) istifadəyə verilmişdir.

Ən yaxşı aqrar təcrübələrin və yeniliklərin qəbul edilməsi, aqrar sahənin kommersiyalaşdırılması və modernləşdirilməsi üçün vacibdir. Logistik texnologiyalar da daxil olmaqla ən yeni texnologiyaların tətbiq edilməsinə imkan verən müasir aqrar müəssisələrin idarə edilməsində klaster yanaşması tətbiq olunur. Böyük investisiya layihələrinin icrası, həmçinin ŞT öhdəliklərinin və yaşıl tədarükün idarə olunması fəlsəfəsinin icrası dövlətin iştirakını tələb edir.

Klasterləşmə iqtisadiyyatının xarici təcrübəsi, klasterlərin yaradılmasının məqsədəuyğunluğunu və aktuallığını təsdiqləyir; aqrar klasterləşmə ən yaxşı aqrar texnologiyaların tətbiqi üçün mənbələr təmin edir, fermerlər və təchizat zənciri iştirakçıları arasında qarşılıqlı əlaqəni yaxşılaşdırır [206], eyni zamanda bölgədə yoxsulluğu əhəmiyyətli dərəcədə azaldan gəlir əldə etmək imkanları yaradır [216, s. 161-186].

FAO məlumatlarına görə, aqrar sektorda klaster yanaşmasının tətbiqi, istehsalçıların, resurslar və xidmətlərin tədarükçüləri, brokerlərin qarşılıqlı fəaliyyətinin sinerji effekti verir və daha yaxşı çıxış əldə edir [192].

Bununla birlikdə, bu vəziyyətdə inkişaf etməkdə olan ölkələrin, yaşıl tədarük zəncirlərinin işini koordinasiya etmələri üçün vasitəçilərə ehtiyacları var ki, bu da idarəetmə proseslərinin rəqəmsallaşdırılması olmadan mümkün deyil [203, s. 1314-1335].

Rəqəmsallaşdırılmanın yaradılması və tətbiqi istiqamətdə Azər-

baycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə "Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi" (EKTİS) təsdiq edilmişdir.

Görülən tədbirlər, EKTİS-dən səmərəli istifadə bacarığı yaşıl aqrar ərzaq təchizatı zəncirinin inkişafına və səmərəli fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərərək, istehlak bazarının dayanıqlı inkişafına təkan verəcəkdir.

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda göstərildiyi kimi dünya ölkələrinin iqtisadiyyatlarında sürətli rəqəmsallaşma meyilləri və bu əsasda məhsuldarlığın əhəmiyyətli artımı keyfiyyətli inkişaf üçün fürsətlər yaradır. Dünyada davamlı texnoloji inkişaf qlobal dəyər zəncirini sürətlə genişləndirir və onun coğrafiyasını böyüdür. Bu, qlobal əmtəə və xidmətlərin son istehlakçıya vaxtında, keyfiyyətli və aşağı qiymətə çatdırılmasına imkan verir. Rəqəmsal cəmiyyətin istehlakçıları sifariş etdikləri məhsulları bütün dəyər zənciri üzrə izləmə imkanına malikdirlər. Bu meyillərdən faydalanma ölkə iqtisadiyyatının qısa müddətdə qlobal dəyər zəncirinə inteqrasiyasına dəstək olacaqdır [5, s. 9].

Azərbaycanın aqrar sahəsində yaşıl logistika və yaşıl təchizat zəncirinin idarə edilməsi konsepsiyalarına əsaslanan tədarük zənciri idarəçiliyinin həyata keçirilməsinə kömək edən müəyyən şərtlər vardır: müasir aqrar texnologiyalarına giriş, milli əkinçilik ənənələri, investisiya cəlbediciliyi aqrar layihələri, aqrar sahənin inkişafına dövlətin marağı, qeyri-neft sektorunun inkişafının əsas lokomotividir.

Aqrar sahənin klaster modeli ətrafında kiçik müəssisələrin birləşdiyi klaster təskil edən bir müəssisəyə əsaslanır (məsələn, AB ölkələrində populyarlaşan Şotlandiya klaster modeli. Təchizat zənciri iştirakçıları arasında daha çevik qarşılıqlı əlaqəni təmin edən İtalyan klaster modeli də mümkündür. Klaster formalaşmasına Amerika yanasması, yerləşdiyi bölgənin mənbələrindən maksimum

istifadəni və bununla tədarük zəncirlərinin uzunluğunu azaltmaqdan ibarətdir [217].

Çin əkinçilik qruplarının inkişafına yanaşması [190, s. 151-160] klasteri idarə etmək üçün əhəmiyyətli dövlət müdaxiləsini hesabına olub.

Azərbaycanda aqrar klasterlər çərçivəsində yaşıl tədarük zəncirlərinin inkişafına aşağıdakı amillər mane olur:

- kiçik istehsalçılar arasında maraq və əməkdaşlıq olmaması;
- dövlət investisiya proqramlarının həyata keçirilməsinə inamsızlıq;
- klaster üçün dövlət dəstəyinin olmaması;
- aşağı səviyyəli aqrar texnologiyalar;
- potensial aqrar klasterlərin zəif quruluşu;
- elm və istehsal arasında rabitənin olmaması;
- xarici investisiya və riskli kapital çatışmazlığı;
- qrant maliyyələşdirilməsinə çatışmazlıq;
- müasir təchizat zənciri idarəetmə məlumat sistemlərinin olmaması [192].

Apardığımız tədqiqat nəticəsində, yaşıl tədarük zəncirlərinin tətbiqi və idarə edilməsi çərçivəsində aqrar müəssisənin rəqabətqabiliyyətlilik modeli hazırlanmışdır (sxem 5.4.2).

Ümumiyyətlə, klaster modeli səlahiyyətlilərlə səmərəli və koordinasiya olunmuş əməkdaşlığı əhatə edir və çoxlu miqdarda zəruri mənbələrin birgə alınması və araşdırma və ya elmi inkişaf qaydaları ilə miqyasda qənaət etməyə imkan verir. Digər bir üstünlük kollektiv problemləri həll etmək, ortaq bir logistika infrastrukturu qurmaq və məhsulları daxili və xarici bazarlarda tanıtmaqla yanaşı yaşıl aqrar təhcizatı zəncirinin səmərəli fəaliyyətinə rəvac verir.

Asiya ölkələrində tətbiq olunan aqroklaster modeli digər aqrar sahə müəssisələrinin, emal şirkətlərinin, məsləhətləşmələrin, tədqiqat institutlarının, kredit ittifaqlarının, pərakəndə şəbəkələrin və s.

AB-də aşağıdakı aqrar klasterlərinə rast gəlinir: Fransada bir şə-




**Şəkil 5.4.2. Yaşıl tədarük zəncirlərinin tətbiqi və idarəedilməsi çərçivəsində aqrar müəssisənin rəqabət qabiliyyəti modeli**

*Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.*

rab klasteri, Hollandiyada çiçək klasteri, Polşada kənd klasteri və Çinin bu sahə üzrə görkəmli təcrübəsi diqqət çəkir [188, s. 33];

Klaster eyni və ya bənzər sektorda əlaqəli və biri-birini tamamlayıcı fəaliyyət göstərən sahələrin müəyyən coğrafi bölgədə yerləşməsi ilə meydana gələn ümumi infrastruktur, loqistika, texnologiya, vahid bazar, işçi qüvvəsi və xidmətləri paylaşaraq qarşılıqlı iqtisadi əlaqələrin qurulması, birgə fəaliyyər imkanlarına malik olan şirkət və iştirakçılarının əməkdaşlıq modelidir.

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda qeyd olunur ki, yaxın zamanlarda "Abşeron vadisi" innovasiya klasteri yaradılacaqdır. İnnovasiya gündəliyi formalaşdırılacaq və dövlət tərəfindən təşviq ediləcəkdir. İqtisadiyyatın prioritet sahələrində innovasiyalar tətbiq ediləcəkdir. Nəticədə, "Abşeron vadisi" çərçivəsində fəaliyyət göstərən fiziki və hüquqi şəxslərin sayı ilbəil artacaqdır [5, s.18].

Klasterlərin tətbiqinə dövlət orqanları, milli və ya regional hökumətlər tərəfindən başlanılır. Hökumət aqrar sahənin sənayeləşməsini və modernləşdirilməsini davamlı dəstəkləyir. Faydalı Aqrar-Qida Məhsullarının Regional Bölgü Planlaşdırılması üzrə 2 (2003-2007) layihə artıq həyata keçirilmişdir. Mükəmməl layihə planlaşdırması və dövlət dəstəyi daxili bazarın ölkə daxilində istehsal olunan qida məhsulları ilə doldurulmasını təmin edən müasir aqrar texnologiyaların və kompleks informasiya həllinin tətbiqinə kömək etmişdir.

Aqrar sahə əhəmiyyətli risklərlə xarakterizə olunur: istehsal riskləri, xəstəlik riskləri, qiymət dəyişikliyi, bazar tələblərindəki dəyişikliklər, iqlim riskləri, yeni texnologiyaların tətbiqi [194, s. 22]. Bu səbəbdən klaster formalaşmasının ilkin mərhələsində dövlət dəstəyinə ehtiyac var.

Aqrar sahə klasterləri yaratmaq və inkişaf etdirmək üçün aşağıdakılara ehtiyac vardır:

- torpaq və su ehtiyatlarının ekoloji cəhətdən təhlükəsiz və sə-

mərəli istifadəsinə nəzarət etmək üçün yerli hakimiyyət orqanlarının gücünü genişləndirərək aqrar sahənin idarəetmə sistemini təkmilləşdirmək;

- bütün idarəetmə mərhələlərində yaşıl tədarük zənciri menecmentini həyata keçirmək;

- dövlət və regional orqanlar istehsal proseslərində məşğulluğu artırmaq və əhalinin rifah halının artmasına kömək etmək üçün sahibkarlıq fəaliyyətini və kiçik və orta sahibkarlığın inkişafını təşviq etməlidir. Büdcə xərcləri yalnız bu sektorda iqtisadi böyümənin sinergetik təsirini yarada biləcək sahələrə cəmləşdirilməlidir;

- kiçik və orta müəssisələrə aqrotexniki xidmətlər göstərmək üçün xidmət kooperativləri yaratmaq;

- kənd yerlərində istehlakçı əməkdaşlığını inkişaf etdirmək və istehsal olunan məhsulların satışına zəmanət verən aqrar müqavilələr tətbiq etmək;

- iri miqyaslı istehsal və paylayıcı strukturların yaradılması istehsal və xidmət kooperativlərinə, fermer təsərrüfatlarına və kiçik aqrar müəssisələrinə əsaslanan klaster şəbəkələrinin inşasına əsaslanmalıdır ki, bu da hər bir klaster iştirakçısı və potensialının əsas fondların genişləndirilmiş yenilənməsi üzrə resurs potensialından daha səmərəli istifadə etməyə imkan verəcəkdir. Dövlət qurumları, torpaq sahələri, liftlər, emal müəssisələri və s. tələb olunduqda klaster iştirakçısı ola bilərlər;

- təchizat zəncirinin idarə edilməsində informasiya dəstəyinin yaxşılaşdırılması;

- sənayenin investisiya potensialından daha səmərəli istifadəyə imkan verən, qabaqcıl texnologiyaların tətbiqinə, böyük tələbat olan ekoloji təmiz məhsulların istehsalına və satışına kömək edən elmi qurumlar və istehsalçılar arasında vasitəçi kimi məsləhət xidmətinin təkmilləşdirilməsi.

Azərbaycanda pandemiya dövründə qida zəncirinin təhlükəsizliyini təmin etmək üçün dövlət nəzarəti gücləndirilmiş və profilak-

tik işlər aparılmış və indi də aparılmaqdadır. Ölkənin böyük şəhərlərində qida məhsullarının saxlanma şəraitinə və keyfiyyətinə uyğunluq üzərində nəzarət işlərinin aparılması üçün sistemli tədbirlər görülür.

Hazırda, ölkədə əhalinin qida təhlükəsizliyi üçün mərkəzi nəzarət orqanı - Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi mövcuddur. Bu, qida təhlükəsizliyi sahəsində mənfi halların aşkarlanması və açıqlanması, qanunvericilik bazasının möhkəmləndirilməsi, məhsulun keyfiyyətinə görə müasir nəzarət laboratoriyalarının istifadəyə verilməsi və müvafiq infrastrukturun yaradılması üçün kompleks tədbirlərin həyata keçirilməsini təmin edir.

Ölkə əhalisinin qida məhsulları ilə etibarlı təminatı dövlətin sosial – iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir. Bu baxımdan iqtisad elmlər doktoru, profrssor E.A.Quliyev etibarlı ərzaq təminatının təmin edilməsi məqsədilə ekoloji təmiz ərzaq məhsullarının istehsalından süfrəyə qədər hərəkətində adekvat rejimin təmin olunmasını, o cümlədən qida məhsullarının hazırlanmasının, qablaşdırılmasının, daşınmasının və saxlanmasının ekoloji tələblərə uyğunluq səviyyəsinin yüksəldilməsini vacib hesab edir. O, göstərir ki, "Yeyinti sənaye məhsullarının rəqabət qabiliyyəti çoxsaylı amillərdən asılıdır ki, bunların sırasında aparıcı yerlərdən birini kənd təsərrüfatı istehsalının rəqabətə davamlılığı və həmin sahənin məhsullarının rəqabət qabiliyyətidir. Yeyinti məhsullarının və onun istehsalı prosesinin keyfiyyət göstəriciləri hər bir insanın maraq dairəsindədir. Həmin məhsulların rəqabət qabiliyyəti keyfiyyət və qiymət amilində təzahür etməklə, sahədə iqtisadi fəallığın səviyyəsinin yüksəldilməsini nəzərdə tutur" [78, c. 179]. Həmçinin iqtisad elmlər doktoru, professor, əməkdar elm xadimi B.X.Ataşov haqlı olaraq qeyd edir ki, "İnsanların sağlam həyat tərzinin təmin edilməsində, onların uzunömürlüyünə şərait yaradılmasında istehsal olunan ərzaq məhsullarının kəmiyyət göstəriciləri ilə yanaşı keyfiyyət parametrləri də həlledici rol oynayır. Bu mənada istehlak olunan

qida məhsullarının ekoloji cəhətdən təhlükəsiz olmasına dair Milli Strategiya hazırlanıb həyata keçirilməlidir.

Bunun üçün dövlət səviyyəsində qəbul olunmuş Qida Təhlükəsizliyinin Milli Strategiyası ümumi məqsəd və vəzifələri nüəyyən etməli, əsas prinsip və yanaşmaları təyin etməli, qida təhlükəsizliyi sisteminin başlıca həlqələrinin səmərəli fəaliyyətinə nail olmaq üçün ən zəruri prioritetləri üzə çixarmalıdır" [32, c. 108-109].

Son illərdə respubilkamızda qida məhsullarının təhlükəsizliyinin təmin edilməsi, keyfiyyətinin yüksəldilməsi və ixrac potensialının artırılması sahəsində nəzərə çarpan nailiyyətlər əldə edilmişdir.

Eyni zamanda, Azərbaycanda qida təhlükəsizliyi sisteminin səmərəli fəaliyyətinin təşkili üçün məsul işçilərin, mütəxəssislərin peşəkar səviyyəsi artırılır. Əhalinin ekoloji cəhətdən təmiz qida məhsulları ilə təmin olunması məsələləri və problemləri dünyanın hər yerində ən mürəkkəb və aktual qlobal problemlərdən biri hesab olunur [92].

Məlum olduğu kimi, ən təhlükəli xəstəlik növlərinin ortaya çıxmasının kökündə keyfiyyətsiz və təhlükəli qida məhsullarının mənfi nəticələri var. Qlobal COVID-19 pandemiyasının da qida mənbələri ilə əlaqəli olması təsadüfi deyil. Pandemiya indi bütün dünyanı diz çökdürdü, dünya milyonlarla insanın həyatını itirmiş bu ölümcül virusun öhdəsindən hələ gələ bilmir və bu virusa yoluxanların müalicəsi keçənlər hələ də çoxdur. Bu istiqamətdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə birlikdə "Azərbaycanda Davamlı İnkişaf üçün Strateji İnfrastruktur Planlaşdırması" hazırlanmışdır [222].

Eyni zamanda, qida məhsullarının toplanması, istehsalı, saxlanması, daşınması, paylanması, satışına nəzarət sisteminin sərtləşdirilməsi üçün təsirli tədbirlər görülür, davamlı reydlər aparılır, aidiyyəti məmurlar, sahibkarlar məsuliyyəti artırılır və s.

Üstəlik, ölkə əhalisinin qida təhlükəsizliyinin artırılması sahəsindəki reallıqlar və mövcud problemlər nəzərə alınaraq "2019-

2025-ci illərdə Azərbaycanda Qida Təhlükəsizliyinin Təminatına dair Dövlət Proqramı" təsdiq edildi [10].

Bu proqramın məqsədləri ölkə əhalisini yüksək keyfiyyətli qida məhsulları ilə təmin etmək, qida təhlükəsizliyi sisteminin səmərəliliyini artırmaq və bu sahədə əsas idarəetmə mexanizmlərini təkmilləşdirmək üçün müvafiq tədbirlər görməkdir. Bundan əlavə, bütün davam edən fəaliyyətlər ölkənin sənaye müəssisələri tərəfindən istehsal olunan qida məhsullarının keyfiyyətini və təhlükəsizliyini əhəmiyyətli dərəcədə artırmağa və bununla da son qlobal maliyyə böhranından və COVID - 19 pandemiyasından doğan çətinliklər kontekstində artan mənfi qlobal təsirlər şəraitində qida təhlükəsizliyini təmin etmək üçün daha güclü potensialın yaradılmasına yönəldilmişdir.

Müstəqil Azərbaycan dövləti 2021-2030-cu illəri əhatə edən postpandemiya və münaqişədən sonrakı dövrdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Ölkənin ərazi bütövlüyünü bərpa etməklə səciyyələndirilən yeni strateji mərhələdə dərin struktur – institusional islahatlar yüksək iqtisadi artım mənbələrini müəyyən etməklə, yüksək rifah cəmiyyəti yaratmaqla, işğaldan azad edilmiş ərazilərə tarixi qayıdışla Azərbaycan dövlətinin qüdrətini daha da gücləndirəcək və daimi məskunlaşmanı təmin edəcək [11].

Fikrimizcə, yaxın gələcəkdə müasir sosial və biznes infrastrukturunun yaradılması yaşıl aqrar-ərzaq təhcizat zəncirlərinin inkişafının, dövlət tənzimləmə vasitələrilə təkmilləşdirilməsinə, onların idarəetmə mexanizminin səmərəli təşkilinə və məhsulların beynəlxalq səviyyədə yüksək mövqe tutması məsələlərinə ciddi diqqət yetirilməli, qida zəncirinin səmərəliliyinin və təhlükəsizliyinin təmin edilməsi problemləri kifayət qədər aktual olduğuna görə, xüsusilə pandemiya sonrası dövrdə bu sahədə bir çox problemlərin həll edilməsi məsələləri zərurət olacaqdır.

## 5.3. Aqrar istehlak bazarının inkişafı və aqrar məhsulların beynəlxalq bazara çıxışı

Azərbaycanın sosial-iqtisadi inkişafının sabitliyi əsasən dünyada baş verən dəyişiklərə uyğun sistemli iqtisadi islahatlar, onun beynəlxalq iqtisadi sistemə inteqrasiyasına xidmət edən səmərəli xarici iqtisadi əlaqələrin qurulması və əlverişli ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi ilə əlaqədardır. Hazırda ölkəmiz 200-ə yaxın ölkə ilə xarici iqtisadi əlaqələr qurur. Buna görə də aqrar sahədə ixrac potensialının dərindən öyrənilməsinə, məhsulların xarici bazarlara çıxışının obyektiv qiymətləndirilməsinə, onlar üçün adekvat tədbirlərin müəyyənləşdirilməsinə ehtiyac bu gün çox aktual görünür [34, s. 278].

Kənd təsərrüfatı məhsullarının ixracını stimullaşdırmaqla, rəqabətqabiliyyətli məhsulların istehsalını və ixracını artırmaqla, ənənəvi və yeni bazarlara çıxmaqla bu sahədə əlverişli şəraiti daha da genişləndirmək lazımdır [17].

Ölkə Prezidenti İlham Əliyev tərəfindən aqrar sahəyə göstərilən yüksək diqqətin nəticəsidir ki, bu gün iqtisadiyyatda prioritet istiqamətlərdən sayılan aqrar sahə yeni inkişaf dövrünə qədəm qoymuşdur. Aqrar sahədə aparılan uğurlu islahatların nəticəsidir ki, Azərbaycanda bir sıra strateji məhsullar üzrə tələbin yerli istehsal hesabına tam ödənilməsi, ölkənin ərzaq təhlükəsizliyində xarici bazarlardan asılılığın azalması, ixracyönümlü kənd təsərüfatı məhsullarının istehsal həcmini artıraraq regionların inkişafına zəmin yaratmışdır. Fermerlərin dövlət tərəfindən çoxşaxəli subsidiyalar ilə təmin edilməsi aqrar sahədə məşğul olanları daha fəallıqla çalışmağa sövq etməklə bərabər, eyni zamanda onların maddı rifah halını da yüksəltməyə şərait yaratmışdır. Həyata keçirilən islahatların nəticəsində artıq aqrar sahədə dayanıqlı inkişafin reallaşması təmin edilmiş, məhsulların ixracına münbit şərait yaradılmış, aqrar sektorun müxtəlif sahələri üzrə müsbət göstəricilərə nail olunmuşdur.

Aqrar məhsulların xarici bazarlara çıxış imkanlarının ən mühümlərindən biri Azərbaycanın həm Avropa İttifaqı, həm ABŞ, həm də Rusiya ilə ticarət münasibətlərinin əksər hallarda müsbət inkişaf trendləri nümayiş etdirməsi və siyasi münasibətlərin yaratdığı inkişaf imkanlarıdır. Bu baxımdan, Azərbaycanda istehsal edilmiş kənd təsərrüfatı məhsullarının ixracına bu region və ölkələrdə əksər hallarda müsbət münasibət mövcuddur.

Bakı-Tbilisi-Qars dəmiryolunun işə düşməsi, Çinin planlaşdırılan “Bir kəmər-Bir yol” meqa layihəsi, Avropaya malların ixracı üçün yeni imkanlar yaradır. Digər tərəfdən 2020-ci il fevralın 25-də “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi” imzalanıb ki, bu da Azərbaycan məhsullarının ixracında yeni imkanlar yaradacaqdır [220]. Sazişdə 15 mal qrupu üzrə hər iki ölkə arasında həm kvota, həm də rüsumun sıfıra endirilməsi ilə bağlı mühüm müddəalar əksini tapmışdır ki, bu da qarşılıqlı olaraq, müvafiq siyahı üzrə təsdiq olunmuş mal kateqoriyaları üzrə Azərbaycanın aqrar məhsullarına Türkiyəyə güzəştli şərtlərlə ixrac etmək imkanları yaradır.

Hazırda ixrac potensialının artırılması, ərzaq bazarının qorunması dövlətlər arasındakı səmərəli əlaqələri şərtləndirən əsas amillərdəndir. Burada əsas şərt onunla müəyyən edilir ki, hər bir dövlətdə istehsal edilən bütün mallar iqtisadi cəhətdən sərfəli deyil, ölkədə ən ucuz əmtəə istehsal olunsun. Xüsusilə, aqrar sahə məhsullarının satışı və ixracı, kənd təsərrüfatı məhsullarının emalı bir sıra unikal xüsusiyyətlərə malik olduğundan xüsusi diqqət tələb edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 aprel 2016-cı il tarixli № 1944 saylı Sərəncamı ilə yaradılmış “Ərzaq məhsullarının tədarükü və təchizatı” ASC-nin əsas məqsədi aşağıdakıları təmin etməkdən ibarət olmuşdur (Şəkil 5.3.1).

Fəaliyyət göstərdiyi müddətdə Cəmiyyət 12 regionun ərazisində struktur bölmələrinə, 41 rayon ərazisində dayaq məntəqələrinə malik olmaqla, regional bölmə ərazilərində inzibati binalarla və zəruri

avadanlıqlar ilə təchiz edilmişdir. Mərkəzi Bakı şəhəri olmaqla 12 rayon ərazisində xüsusi təyinatlı, 20 min tonluq soyuducu tipli depo-anbarlar icarəyə götürülməklə, respublikada istehsal edilən hər növ ərzaq məhsulları üçün standartlara uyğun şəkildə uzun müddətli, keyfiyyətli saxlanma şəraiti təmin olunmuşdur. Maliyyələşməsi Dövlət büdcəsi hesabına həyata keçirilən satınalan təşkilatları ilə 870-ə yaxın müqavilə imzalanmış, ərzaq tələbatını təmin etmək məqsədilə 1840-a yaxın təchizat nöqtəsində ərzaqla təminat yerinə yetirilmişdir. Cəmiyyət 2017-ci ilin əvvəlindən başlayaraq təhsil müəssisələrinin, körpələr evi-uşaq bağçalarının, xəstəxanaların, hərbi hissələrin və digər satınalan təşkilatlarının təchizatını aparmışdır.




**Şəkil 5.3.1. "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC-nin əsas məqsədi.**
*Mənbə:[237]. www.att.gov.az - Aqrar Tədarük və Təchizat Açıq Səhmdar Cəmiyyətinin rəsmi veb ünvanı.*

Ölkə Prezidentinin 14 dekabr 2018-ci il tarixli fərmanına əsasən "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC-nin bazasında AR Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədarük və

Təchizat" ASC yaradılmışdır.

Şirkət qarşısında qoyulmuş vəzifə ölkə ərazisində aqrar sahə məhsullarının bazar infrastukrturunun inkişaf etdirilməsindən, habelə xırda və orta fermerlərin bazarlara çıxışının asanlaşdırılmasından ibarətdir. "Aqrar tədarük və təchizat" ASC-nin yaradılmasında məqsəd ölkə ərazisində aqrar sahə məhsulları üzrə istehsal və emalı stimullaşdırmaqdan, dövlət sifarişi əsasında aqrar sahə və ərzaq məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada təşkilindən ibarətdir.

Bu addım onu göstərir ki, çevik tədarük sisteminin qurulması dövlətin aqrar siyasətinin başlıca istiqaməti olaraq qalır.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə [6] yeni tədarük strategiyasının vacib elementləri haqqında: sistem bütün kənd təsərrüfatı məhsulları istehsalçılarının bazara çıxışının asanlaşdırılmasına imkan yaratmaqla sahədəki satış qiyməti ilə son istehlakçı bazarındakı qiymət arasındakı fərqin yaxınlaşdırılmasını təmin etməli, kənd təsərrüfatı məhsulları bazarında qiymətlərin əlverişsiz olduğu hallarda tədarük intervensiyalarının həyata keçirilməsini, regionlarda meyvə-tərəvəz, kartof və bostan məhsulları üzrə topdansatış və logistika xidmətlərini həyata keçirən bazar infrastrukturu obyektlərinin qurulmasını təmin etməlidir.

Son illərin təcrübəni nəzərə alaraq bundan sonrakı dövrdə tədarük strategiyasını aşağıdakı istiqamətlərdə müəyyən etmək olar:

1. Ölkə üzrə istehsalın planılaşdırılmasında iştirak: hər il regionlarda bir neçə məhsul üzrə tələbatdan artıq istehsal baş verir. Bunun qarşısını almaq üçün Aqrar Tətqiqatlar Mərkəzi, yerlərdəki DAİM-lərlə birlikdə regionların təsərrüfat xüsusisiyyələrinə uyğun istehsal kvotalarının müəyyən olunması, yerli və xarici bazar araşdırmaları üzrə fermerlərin informasiya təminatının qurulması;

2. "Tarlabaşında tədarük" siyasətini həyata keçirərək mövsümi məhsul bolluğunun qarşısının alınması və paytaxtda keçirilən

yarmarkaların "tədarük yarmarkaları"na çevrilmələrinə nail olmaq;

3. Avans mexanizminin tətbiqi: kənd təsərrüfatı istehsalı mövsümi və iqlim amillərindən asılı olduğu üçün kənd adamlarının ildə bir neçə dəfə ucuz maliyyə vəsaitinə ehtiyacı olur. Bankların yüksək faizlə, bahalı girovlar qarşılığında verdikləri vəsait istehsalçı üçün əlverişli deyil, avans isə faizsiz vəsait olmaqla fermerə böyük dəstəkdir, eyni zamanda, yetişdirilən məhsulun orta bazar qiymətinə alınacağına verilən təminat rolunu oynayır. Avans mexanizmi idxaldan asılı olduğumuz məhsulların yerli istehsalına nail olmağa imkan verərək istehsalın strukturunda ciddi dəyişikliklərin edilməsinə yol açacaq.

4. Saxlama imkanlarının genişləndirilməsi: aydın məsələdir ki, ildə bir neçə dəfə baş verən qiymət dəyişmələrinin əsas səbəbi ölkədə yetərincə saxlama anbarlarının olmamasıdır. Ölkənin kənd təsərrüfatı məhsullarına tələbatını tam ödəmək üçün hər bir məhsul növü üzrə anbarların tikilməsi, ehtiyatların yaradılması lazımdır.

5. Şaxələndirilmiş ixrac siyasəti: kənd təsərrüfatı məhsullarının ixracı ilə bağlı xüsusi yanaşmanın həyata keçirilməsi nəzərdə tutulur. Prioritet bazarların və rəqabətqabiliyyətli məhsulların müəyyənləşdirilməsi, sonra isə həmin bazarlar üzrə marketinq araşdırmalarının həyata keçirilməsi və bazarların tələbinə uyğun məhsul istehsalı və ya tədarükü sisteminin formalaşdırılması ilə bağlı müvafiq hesablamaların (ilkin texniki-iqtisadi əsaslandırmaların) aparılması, bunun nəticəsi olaraq məhsulun əlavə dəyərinin artırılması tədbirlərinin, o cümlədən qablaşdırılması, etiketlənməsi, sertifikatlaşdırılması, brendləşdirilməsi və s. işlərin yerinə yetirilməsi nəzərdə tutulur.

6. Tədarük-emal zənciri: ölkədə hər il istehsal olunan bəzi məhsullar satış perspektivinə malik deyil. Vaxtında fitosanitar tədbirlərin aparılmaması ucbatından məhsulların həm əmtəə, həm də keyfiyyəti aşağıdır. Belə məhsulları tədarük edib, satışa göndərmək mümkün deyil, həmin məhsullarım emalını quraraq dəyər zənciri yaratmaq qaçılmazdır.

7. Fermerlərin maarifləndirilməsi: təcrübələr göstərir ki, regionlarda yaşayan fermerlərin əksəriyyətində biznes yanaşmaları, fərdi təsərrüfatın uçotunun qurulması kimi qabliyyətlər aşağı səviyyədədir. Bu göstəricilərin olmaması fermerlərə tərəfdaş yanaşmaları qurulmasına imkan vermir. Uğurlu tədarük strategiyasının qurulması üçün maarifləndirmə əsas istiqamətlərdən biridir.

8. Elektronlaşma: milyon tonlarla məhsulun hərəkətini izləmək üçün müasir texnologiyaların tətbiqi qaçılmazdır. Ölkə üzrə istehsalçıların vahid bazasının yaradılması, torpaq, məhsuldarlıq haqqında proqnozların toplanması, məhsulların anbarlara giriş-cıxışı haqda uçot sisteminin qurulması dövlət vəsaitlərindən istifadədə şəffaflığı təmin edəcək [230].

Müasir şəraitdə ərzaq və aqrar sahə məhsullarının ticarəti və tədarükü ölkə iqtisadiyyatında mühüm əhəmiyyət kəsb edir. Qeyd etmək vacibdir ki, 2019-cu ildə pərakəndə ticarət şəbəkəsinin vasitəsilə satılmış malların məbləği 39,4 milyard manat təşkil etmişdir ki, bunun da 50,7 faizi (20,0 milyard manatı) ərzaq məhsulları, içki və tütün məmulatlarının, qalan 49,3 faizi (19,4 milyard manatı) qeyri-ərzaq məhsullarının payına düşmüşdür etmişdir.

Ərzaq və aqrar sahə məhsullarının ticarəti və tədarükünün ölkə iqtisadiyyatına müsbət təsiri özünü aşağıdakılarda göstərir:

- ölkə əhalisini arasında məşğulluğu təmin edilməsinə və bu sahədə yeni iş yerlərinin yaranmasına imkan verir;
- dövlət müəsisələrinin və əhalinin ərzaq və aqrar sahə məhsulları ilə davamlı təminatı baş verir;
- aqrar sahənin daha prioritet məhsullarının istehsalı və emalı təşviq edilir;
- dövlət hesabına ərzaq və aqrar sahə məhsullarının satın alınması ölkə iqtisadiyyatının və qiymətlərin tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir;
- qida məhsullarının bazara çıxışı və istifadəsinə stimul yaranır;
- dövlət tərəfindən istehlakçı təşkilatlara (hərbi hissələrə, xəstə-

xanalara, uşaq bağçalarına və s.) davamlı ərzaq təminatı yaradılır.

Onu da qeyd edək ki, son illər ərzində ərzaq məhsullarının alınması üçün dövlət büdcəsindən ayrılan maliyyə vəsaitlərinin həcmi artmaqda davam etməkdədir. Belə ki, 2017, 2018, 2019, 2020 və 2021-ci illərdə ərzaq məhsullarının alınması məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitlərin məbləği müvafiq olaraq 343,4 milyon manat, 299, 2 milyon manat, 412,5 milyon manat, 414,0 milyon manat və 415,2 milyon manat təşkil etmişdir.

"Aqrar tədarük və təchizat" ASC satınalan təşkilatlar üzrə tələbatları öyrənmək üçün **tedaruk.az** portalına elanlar yerləşdirmiş və 163 adda məhsullar üzrə 310 sayda istehsalçı və satıcıdan təklif almışdır. Müvafiq araşdırmalardan sonra həmin təkliflər üzrə 177 sayda istehsalçı və satıcı ilə müqavilələr bağlanmışdır. Dövlət büdcəsindən maliyyələşdirilən 867 müəssisə və təşkilatlarla imzalanmış satınalma müqaviləsinə əsasən 2019-cu il ərzində ümumilikdə 2014 təchizetmə nöqtəsinə 57 937 ton ərzaq təchizatı reallaşdırılmışdır (Cədvəl 5.3.1).

İstehsalçılardan və fermer təsərrüfatlarından aqrar-ərzaq mallarının tədarükü yönümündə:

1. Yerli fermer təsərrüfatlarının və qida məhsulları istehsalçılarının inkişafı, habelə məhsullar üzrə satış bazarlarını genişləndirmək məqsədilə nağdsız ödənişləri aparmağa imkan verən fermer kartları tətbiq edilmişdir.

2. Yerli fermer təsərrüfatlarının və qida məhsulları istehsalçılarının buraxdığı məhsullar üzrə satışı stimullaşdırmaq məqsədilə özəl sektora məxsus şirkətlərin (xüsusən də ictimai iaşə müəssisələrinin, otellərin və xidmət sektorundakı mövcud şirkətlərin) ərzaq məhsulları ilə təchizatı reallaşdırılmışdır.

3. Tədarük mexanizmini təkmilləşdirmək istiqamətində hazırda Cəmiyyət tərəfindən istehsalçılarla satınalan təşkilatların arasında sənəd mübadiləsini optimallaşdırmaq üçün "Asan İmza"nın tətbiqi nəzərdə tutulur.

**Cədvəl 5.3.1**

**2019-cu il ərzində "Aqrar tədarük və təchizat" ASC tərəfindən satınalan təşkilatlara təchiz olunan, istehsalçı və satıcılardan tədarük olunan ərzaq məhsulları kateqoriyaları üzrə satış və alışın miqdarı (tonla)**

| Sıra №-si | Ərzaq məhsullarının kateqoriyaları üzrə | Satınalan təşkilatlara təchiz olunan ərzaq üzrə satış miqdarı | İstehsalçı və satıcılardan tədarük olunan ərzaq üzrə alış miqdarı |
|---|---|---|---|
| 1 | Balıq və balıq məhsulu | 1 438,7 | 1 431, 2 |
| 2 | Bitki konservi | 122,9 | 123, 0 |
| 3 | Bitki yağı | 551,9 | 528,3 |
| 4 | Ədviyyat | 426,3 | 418,6 |
| 5 | Əlavə | 29,9 | 29,8 |
| 6 | Ət məhsulu | 4 413,7 | 4 375,8 |
| 7 | İçki (meyvə şirəsi, kompot, su və s.) | 2 868,8 | 2 861,9 |
| 8 | Meyvə və giləmeyvələr | 3 177,9 | 3 257,1 |
| 9 | Müxtəlif növ yarmalar | 1 656,9 | 1 651,5 |
| 10 | Paxlalı bitki | 794,2 | 773,4 |
| 11 | Qənnadı məmulatı | 2 484,8 | 2 446,2 |
| 12 | Qurudulmuş meyvə | 177,2 | 176,7 |
| 13 | Süd və süd məhsulu | 11 414,5 | 11 336, 3 |
| 14 | Tərəvəzlər | 14 787,6 | 14 564,9 |
| 15 | Yumurta | 772,2 | 854,0 |
| 16 | Turşu | 106,8 | 107, 2 |
| 17 | Un və un məmulatı | 12 711,4 | 12 691,5 |
| 18 | Uşaq qidası | 2,1 | 2,0 |
| | **CƏMİ** | **57 937 642** | **57 629, 1** |

*Mənbə:[237]. www.att.gov.az - Aqrar Tədarük və Təchizat Açıq Səhmdar Cəmiyyətinin rəsmi veb ünvanı*

"Aqrar tədarük və təchizat" ASC-nin regional bölmələri üzrə fəaliyyətin səmərəliliyini artırmaq sahəsindəki tədbirlər aşağıdakılardan ibarət olmuşdur:

1. "Aqrar tədarük və təchizat" ASC-nin fəaliyyətini regionlar üzrə səmərəli təşkil etmək üçün 11 regionda bölmələr təşkil edilmiş, regional bölmələrin olduqları rayon mərkəzlərində 11 regional anbar yaradılmış və 35 rayon üzrə dayaq məntəqələri qurulmuş, regional bölmələrə görə inzibati bina və 15,4 min $m^2$ sahəyə malik anbarlar icarə olunmuş, zəruri avadanlıqlarla, reklam lövhələri ilə təchiz olunmuşdur (Cədvəl 5.3.2). Bununla yanaşı, Bakı şəhəri üzrə 1,05 min $m^2$ soyuducu olmaqla 5,1 min $m^2$ mərkəzi anbar funksiyasını icra edən paylayıcı mərkəzi anbar yaradılıb. Regionlarda becərilən məhsulların keyfiyyətini qoruyub saxlamaq və ilin bütün mövsümlərində istehlakçıları hər növ aqrar məhsullarla təmin etmək üçün 10 regional bölmə anbarlarında bütövlükdə 1,39 min $m^3$ həcmində soyuducu və dondurucu kameralar quraşdırılıb.

**Cədvəl 5.3.2**

**"Aqrar tədarük və təchizat" ASC-nin ofis binaları və saxlanma anbarlarının təyinatı və sahəsi**

| Sıra №-si | Ofis binaları və anbarlar | Ümumi sahə |
|---|---|---|
| | 11 regional idarə və 35 rayon dayaq məntəqələri üzrə tədarük və məsləhət mərkəzlərini yaratmaq məqsədilə icarəyə götürülən ofis binaları və anbarlar | 15,4 min $m^2$ |
| | - Bakı ş. üzrə quru saxlanma və soyuducu anbarı daxil olmaqla Mərkəzi anbarı:<br>ondan soyuducu anbar<br>quru anbar | 5,1 min $m^2$<br>1,05 min $m^2$<br>4,05 min $m^2$ |
| | 10 region bölmənin anbarlarında quraşdırılan soyuducu və dondurucu kameralar | 1,39 min $m^3$ |

*Mənbə:[237]. www.att.gov.az - Aqrar Tədarük və Təchizat Açıq Səhmdar Cəmiyyətinin rəsmi veb ünvanı*

2. Gündəlik tələb edilən ərzaq məhsullarının regional anbarlara, eləcə də oradan dayaq nöqtələrinə qədər çatdırılmasına imkan ve-

rən loqistik infrastruktur qurulmuş və bunun üçün 25 ədəd yük avtomobili alınıb.

3. ASC-nin maddi texniki bazası yaradılmış, peşəkar və təcrübəli kadr heyəti formalaşdırılmışdır.

4. Məhsulların saxlanılması qaydaları ilə əlaqəli müvafiq təlimatlar hazırlanmaqla müvafiq region bölmələrinə və dayaq məntəqələrinə təqdim edilmişdir.

“Aqrar tədarük və təchizat” ASC tərəfindən 2019-cu ildə məhsulların ixracı sahəsində aşağıdakı tədbirlər görülmüşdür:

1. Azərbaycanda formalaşmış azad rəqabət mühiti şəraitində gözlənilən məhsul bolluğu nəzərdə tutulmaqla ənənəvi bazarlardan olan RF-nin bazarlarında satış həcminin artması müşahidə edilmişdir. 20-dən artıq şirkətlərlə müqavilələr bağlanmış, ixrac proseslərində yeni innovativ qablaşmalardan istifadə olunmuş və respublika üçün yeni olan bazarlarla işgüzar əlaqələr qurulmuş, eyni zamanda Azərbaycan məhsullarının ixracı reallaşdırılmışdır.

2. Bu aspektdə ASC tərəfindən seçilmiş əsas strateji hədəf ölkə Prezidenti İ.Əliyevin tapşırıqlarını icra etmək, respublikada sivil ixrac mədəniyyətinin formalaşdırılmasına nail olmaq, sağlam və etibarlı əsaslarla ixrac mexanizmləri qurmaqdır.

3. Əsas məqsəd RF bazarından asılılığı minimumlaşdırmaq və alternativ bazarlarda daha çox üstünlüyə nail olmaqdır. Az bir zaman ərzində əldə edilən nəticələr bunun bariz nümunəsidir. Məsələn: Nigeriya ölkəsinə gilas və nar ixracı, Dubay şəhərinə armud, gilas və yumurta ixrac olunmuşdur. Hazırkı şəraitdə ASC Körfəz ölkələri ilə, Afrika, Mərkəzi və Şərqi Avropa, Sinqapur, Çin, Hindistan və s. dövlətlərlə danışıqlar aparır. Nümunə kimi Cənubi Koreya və Pakistan kimi ölkələrə mürəbbə, düyü, noxud, meyvə quruları və cem göndərilib. Danışıqların nəticəsi olaraq ilk addımlar atılmış və yaxın zaman ərzində ixrac əməliyyatlarının icra ediləcəyi gözlənilir. Vurğulamaq lazımdır ki, Ukrayna Azərbaycana yaxın olsa da bu ölkə ilə ixrac göstəriciləri heç də yüksək deyildir. Bu

aspektdən yanaşdıqda, Ukrayna bazarı Azərbaycan üçün böyük potensiala malik ölkə olduğundan ASC tərəfindən bu ölkəyə sarımsaq üzüm və pomidor ixrac edilmişdir.

4. Bununla yanaşı, Bərdə, Ağcabədi və Ağdam, rayonlarında soğan, Ağsu rayonunda və Quba-Xaçmaz regionunda sarımsaq istehsalçısı olan fermerlər üçün ixrac məhsullarının hazırlanması, saxlanması və qablaşdırması ilə əlaqəli təlimlər keçirilib. Həmin məhsullar üzrə potensial ixrac bazarlarının, bu bazarlara loqistika kanallarının, ixrac üçün sertifikatlar alınması və gömrük sənədləşdirilməsi barədə fermerlərin məlumatlandırılması həyata keçirilib. ASC tərəfindən soğan və sarımsaq məhsullarının Ukrayna və Gürcüstan bazarlarına ixrac olunmasında fermerlərə dəstək verilib. Quba-Xaçmaz iqtisadi rayonunda yerli fermerlərə dəstək olaraq BƏƏ və Nigeriya kimi dövlətlərin yeni bazarlarına gilas ixracı üçün məhsul hazırlamaq, qablaşdırmaq, gömrük sənədləşdirilməsini və göndərilməsini həyata keçirməklə əlaqəli təlimlər aparılıb.

5. Azərbaycanda istehsal edilən mal ətinin Qətərə ixrac olunması üçün fermerlərlə görüşlər aparılıb. Bununla yanaşı, yerli fermerlərə dəstək kimi Hacıqabulda istehsal edilən toyuq məhsullarının BƏƏ-yə ixracı reallaşdırılıb. Fermerlərə Ərəb ölkələri üzrə yeni bazarlara ixrac üçün məhsul hazırlamaq, qablaşdırmaq, gömrük sənədləşdirilməsini və göndərilməsini həyata keçirməklə əlaqədar təlimlər verilib.

Bütövlükdə"Aqrar tədarük və təchizat" ASC tərəfindən 2019-cu ildə 218,3 ton məhsul ixrac edilmişdir ki, bunların da 123,6 tonu meyvə və giləmeyvə məhsulları, 95 tonu isə yumurta məhsuludur [Cədvəl 5.3.3].

Bunlarla yanaşı bütövlükdə, 2019-cu ildə hər həftənin sonuncu və bayram günlərində "Aqrar tədarük və təchizat" ASC-nin bilavasitə təşkilatçılığı əsasında Bakı şəhərinin Yasamal, Nərimanov, Binəqədi, Abşeron və Suraxanı rayonları ərazisində fermerlərin və yerli qida istehsalçılarının iştirakı ilə nəzərdə tutulmuş yarmarkalar

**Cədvəl 5.3.3**

**"Aqrar tədarük və təchizat" ASC tərəfindən 2019-cu ildə məhsulların ixracı (tonla)**

| Sıra №-si | Məhsulların adı | Satışın miqdarı |
|---|---|---|
| 1. | Süfrə üzümü | 37,5 |
| 2. | Armud | 16,7 |
| 3. | Nar | 32,7 |
| 4. | Xurma | 36,4 |
| | Cəmi meyvə-giləmeyvə | 123,3 |
| 5. | Yumurta | 95,0 |
| | Cəmi məhsullar | 218,3 |

*Mənbə:[237]. www.att.gov.az - Aqrar Tədarük və Təchizat Açıq Səhmdar Cəmiyyətinin rəsmi veb ünvanı*

təşkil olunmuşdur. Yarmarkaların təşkili zamanı ölkənin regionlarından birbaşa olaraq istehsalçıların məhsullarının sərgisi və satışı təmin edilmişdir. Yarmarkaların təşkilində əsas məqsəd bazara müdaxilə etməklə süni qiymət artımının qarşısını almaq, qida məhsulları istehsalçılarının bazara çıxışını asanlaşdırmaq, ölkə əhalisini yüksək keyfiyyətli və bazar qiymətlərinə nisbətən aşağı qiymətli qida məhsulları ilə qarşılamaq olmuşdur. Bir çox məhsulların qiymətləri digər bazarlarlardakı qiymətlərlə müqayisədə 20-30% aşağı olmuşdur. Bu yarmarkalarda fermerlərin burada iştirakı ilə bağlı yer haqqı tələb edilməmişdir.

2019-cu il ərzində təşkil olunmuş yarmarkalarda cəmi 38 bölgədən 700-dən çox fermer və qida istehsalçıları öz məhsullarının satışını reallaşdırmışlar. Yarmarkalarda bütövlükdə, 100-dən çox çeşiddə, 2 min tondan artıq çəkidə mal satılmışdır.

Bununla yanaşı, "Aqrar tədarük və təchizat" ASC-nin təşkilatçılığı ilə Bakı şəhərində keçirilmiş iyirminci bal yarmarkasında 317 arıçının iştirakı və burada 110 tona yaxın bal və arıçılıq məhsulla-

rının satışı təmin edilmişdir. Qurban Bayramı münasibəti ilə ilk dəfə olaraq Bakıda 20 məntəqədə, Şamaxıda 1 məntəqədə yarmarka təşkil olunmuş, onlayn sifarişlər də daxil edilməklə, bütövlükdə 6,35 min baş qurbanlıq qoyun satışı reallaşdırılmışdır.

"Kənddən Şəhərə" layihəsinə əsasən istehsal edilmiş yerli fermer və ərzaq mallarının satışını təşkil edən 2 mağazada məhsulların satışı reallaşdırılır. Eyni zamanda, ərzaq mallarının daha sürətli və rahat formada onlayn sifarişi və çatdırılma xidmətinin edilməsi üçün "Kənddən Şəhərə" Elektron Satış Platforması kimi "www.kenddenshehere.az" internet səhifəsi istifadəyə verilib.

2019-cu il ərzində "Aqrar tədarük və təchizat" ASC ölkənin müxtəlif regionlarında keçirilmiş 10-dan artıq festivallarda iştirakçı və təşkilatçı olaraq iştirak etmişdir. Həmin festivallar arasında Gədəbəydə təşkil olunmuş "Yaylaq Festivalı", Qubadakı "Regional Mətbəx Festivalı", habelə "Alma festivalı", Şamaxıdakı "Üzüm və şərab festivalı", Balakəndəki "Xurma festivalı", Zaqataladakı "Fındıq, şabalıd və qoz festivalı", Göyçaydakı "Nar festivalı", Lənkərandakı "Çay, çəltik və sitrus festivalı" xüsusilə fərqlənmişlər. Regionlarda keçirilən bütün festivalların iştirakçısı olmuş yerli və əcnəbi qonaqlara milli qida məhsullarının keyfiyyət xüsusiyyətləri, ASC tərəfindən reallaşdırılmış layihələr barədə məlumatlar çatdırılmışdır.

"Aqrar tədarük və təchizat" ASC tərəfindən 2019-cu ilin sonlarından etibarən "Şəhərdən-Kəndə" layihəsi kontekstində İsmayıllı, Şəki, Şamaxı, Quba, Balakən, Zaqatala, Göyçay və Lənkəran rayonlarına aqroturlar təşkil olunmuşdur. Aqroturlarda 800-dən artıq turist iştirak etmişdir ki, onların da 150-si 12 müxtəlif xarici ölkələrin vətəndaşı olmuşdur. Bütövlükdə, 183 fermerlə infosessiya aparılmış və 158 fermerin layihəyə qoşulması üçün müraciətlər olmuşdur. Hazırkı şəraitdə aqroekoturizm sahəsinin inkişafı ilə bağlı tədbirlər gündəmdədir.

Aqrar sahədə qadın sahibkarların fəaliyyətini təşviq edən AFAQ layihəsi kontekstində 15 region ərazisində 200-dən çox qadın fer-

merlərlə məlumat xarakterli görüşlər aparılmış, 148 qadının layihəyə müraciəti olmuş, dekabr ayında 21 qadın sahibkarın təsərrüfatı nəzərdən keçirilmişdir. Layihəyə uyğun olan qadınlar üçün 2020-2021-ci illər ərzində aqrar fəaliyyəti genişləndirmək, istehsalın təşkili və mal satışı yönümündə texniki və məsləhət dəstəyi edilmişdir.

"Aqrar tədarük və təchizat" ASC 2019-cu ildə Cığır Mənəvi Dəyərlərin İnkişafına Dəstək İB tərəfindən himayə olunan ailələrin uşaqlarından ötrü İsmayıllı rayonuna aqrotur təşkil edib. Bundan əlavə, uşaqlar üçün yeni dərs ili qarşısında 70 ədəd məktəbli çantası hədiyyə olunmuş, uşaqların əylənmələri məqsədilə tədbir hazırlanaraq nahar yeməyi təşkil edilmişdir. Həmçinin, dövri olaraq açılan yarmarkalarda uşaqların əl işlərini satmaq üçün şərait qurulur.

2019-cu il ərzində "Aqrar tədarük və təchizat" ASC mütəmadi şəkildə dünya ölkələrinə ixrac imkanlarını qiymətləndirmək və təşkil etmək, potensial alıcıları axtararaq tapmaq və yerli məhsulları dünya bazarında tanıtmaq üçün müxtəlif xarici ölkələrdə təşkil edilən 10-a yaxın qida məhsulları sərgisində və tədbirlərdə milli məhsulları nümayiş etdirmişdir.

Lakin bununla belə, qeyd etməyi vacib sayırıq ki, hazırda respublikanın aqrar sahə bazarında minlərlə özəl tədarükçü təşkilatlar fəaliyyət göstərməkdədir. ATT ASC-nin ötən 4 ilə yaxın təcrübəsi göstərir ki, ölkə ərazisində dövlət sifarişi əsasında aqrar sahə və ərzaq məhsullarının satın alınmasını mərkəzləşdirilmiş qaydada təşkil etməklə həyata keçirmək heç də öz lazımi effektini vermir. Başqa sözlə desək, bu sahədə təşkilatlanmanın səmərəli fəaliyyətinə yalnız sağlam rəqabət mühiti formalaşdırmaqla nail olmaq mümkündür.

Araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, ölkəmizdə son dövrlər ixrac dəyərində böyük paya malik olan kənd təsərrüfatı və ərzaq məhsulları üzrə kifayət qədər yüksək aşkar rəqabət üstünlükləri mövcuddur. Bu indeks üzrə aparılmış hesablamalar ilkin kənd təsərrüfatı məhsulları üçün əsasən ixrac, emal sektoruna aid olan ərzaq məhsulları üçün isə əsasən idxalın üstünlük təşkil etdiyini

göstərmişdir. Hesablamaların nəticəsində müəyyən olunmuşdur ki, emal sahəsində ölkə ticarətinin ixtisaslaşdığı əsas sahə bitkiçilik məhsullarının ticarətidir ki, bu da aqrar sahəyə son dövrlər göstərilən qayğı və aktiv investisiya siyasətinin nəticəsidir [45, s.12-13].

2015-2021-ci illərdə xarici ölkələrə ixrac olunan əsas kənd təsərrüfatı məhsullarına diqqət yetirək (cədvəl 5.3.5).

**Cədvəl 5.3.5.**

**2015-2021-ci illərdə ixrac olunan əsas kənd təsərrüfatı məhsulları (ümumi ixracda cəmi payı, %)**

| Mal qruplarının adları | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| Bitki mənşəli məhsullar | 2,6 | 3,4 | 3,0 | 3,2 | 4,5 | 4,6 |
| Heyvan mənşəli məhsullar | 0,0 | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,1 |
| Bitki və ya heyvan mənşəli piylər və yağlar və onların parçalanmasından alınan məhsullar; | 1,2 | 0,1 | 0,1 | 0,1 | 0,2 | 0,2 |
| Hazır qida məhsulları; Alkoqollu və alkoqolsuz içkilər və sirkə; Tütün və onun əvəzediciləri | 2,2 | 0,7 | 0,5 | 0,5 | 0,7 | 0,7 |
| Emal olunmamış gönlər, aşılanmış dəri, təbii xəz və onlardan hazırlanan məmulatlar və s. | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,1 |

*Mənbə: [221]. Cədvəl DSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəlin məlumatlarından da görünür ki, iqtisadi potensialı məhz aqrar sahənin mövcud imkanlarının artırılması, rəqabətqabiliyyətli məhsulların istehsalı yolu ilə diversifikasiya etmək əsas hədəf olmalıdır. Bu səbəbdən ölkənin aqrar sahəsini inkişaf etdirmək üçün neftdən gələn gəlirlərin əsaslı hissəsi aqrar sahənin inkişaf strategiyalarının hazırlanması və icrasına xərclənməli və sahə iqtisadi tədbirlərlə dövlət tərəfindən mütəmadi dəstəklənməlidir.

Fikrimizcə, ölkə ərazisində istehsal edilən aqrar-ərzaq məhsul

larının dövlət büdcəsi hesabına alışı mərkəzləşdirilmiş şəkildə bir dövlət şirkətinin üzərinə qoyulmamalı, açıq tender üsulu tətbiq edilməlidir. Belə olan təqdirdə dövlət nəinki öz üzərinə düşən funksiyaları yerinə yetirər, həm də xırda və orta sahibkarlara, aqrar sahə istehsalçılarına, bölgələrdəki özəl iaşə müəsisələrinə müsabiqələrdə birbaşa çıxış etmək imkanını təmin edər, onlara lazımi kvotanı müəyyənləşdirməyə və beləliklə də bu sahədə sağlam rəqabət mühitinin yaranmasına gətirib çıxarar.

Hesab edirik ki, dövlət satınalmalarının vahid bir şirkətin yox, çoxsaylı podaratçı şirkətlərin iştirakı ilə müsabiqə və şəffaflıq əsasında reallaşdırılması, dövlət vəsaitlərindən istifadə etməklə dövlət müəssisə və təşkilatlarının ərzaq məhsullarının satın almalarında özəl sektorun iştirakına bərabər rəqabət mühitinin yaradılması büdcə vəsaitindən səmərəli və qənaətlə istifadəsinə, bu sahədə dövlət vəsaitlərinin səmərəli xərclənməsinə və minimum xərclərlə tələb edilən keyfiyyətdə malların satın alınmasına səbəb olar.

Hesab edirik ki, dövlət tərəfindən bölgələrdə kiçik müəssisə və təşkilatlar üçün dövlət büdcəsinin vəsaitləri hesabına ərzaq məhsullarını birbaşa istehsalçılardan satın ala bilməsinə şərait yaradılmalıdır. Tender yolu ilə kiçik və orta kəndli təsərrüfatlarının bu müsabiqələrə cəlb ediməsi halında, xeyli sayda fermerlərə, kəndlilərə yeni bazar imkanı və rərabət mühiti yarana, dövlət satınalmalarına yönəldilən büdcə vəsaitlərindən səmərəli istifadə oluna bilər.

Son illər ərzində yumurta idxalı minimum səviyyəyə endirilsə də, 2021-ci ildə idxal (17,3 mln. ədəd) xeyli artmış və hətta 2020-2021-ci illərdə yumurta ixracı dayandırılmışdır [221].

İmzalalanmış müqavilənin əsasında 2018-ci il ərzində Fransada yerləşən "Bureau Veritas" şirkəti tərəfindən "Aqrar tədarük və təchizat" ASC-nin idarəetmə sistemi üzrə İSO 9001:2015 standartının tələblərinə əsasən sertifikasiya auditi keçirib. Auditin nəticələrinə əsasən ASC İSO 9001:2015 sertifikatını almağa layiq görülüb. Hər bir il üzrə yenilənməsi tələb edilən sertifikatın 2019-cu ilin dekabrın-

da auditi aparılmış və sertifikatın fəaliyyət müddəti uzadılmışdır.

ASC-də İSO standartlarının tətbiqi buraya xarici tərəfdaşların cəlb olunması və müştərək layihələrdə iştirak imkanlarını genişləndirəcək, dövlət proqramlarında, habelə tenderlərdə iştirak prosesində üstünlüyün təmin edilməsinə imkan yaradacaq. 2021-ci ildə Azərbaycana 41,8 min ton həcmində emal edilmiş bitki yağı idxal olunmuş və 2010-cu illə müqayisədə 2,3 dəfə azalmışdır. Bununla yanaşı bitki yağının istehsalında da azalma meyli davam etməkdədir. Lakin bununla belə, ölkə bitki yağı məhsulu üzrə geniş ixrac dövriyyəsinə malikdir. Onu da qeyd edək ki, ixrac edilən bitki yağının yarıdan çox hissəsi günəbaxan/saflor yağıdır. Respublikanın aqroemal sənayesinin müəssisələri tərəfindən ixrac edilən bitki yağlarının, xüsusən də günəbaxan/saflor yağının rəqabətqabiliyyətli olması bizə deməyə imkan verir ki, həmin məhsulların idxalından asılılığı azaltmaq üçün geniş imkanlar vardır.

Bunun üçün ilk öncə, bitki yağlarının istehsalında istifadə olunan yağlı bitkilərin yerli istehsalını artırmaqla bağlı mövcud potensialın araşdırılmasına, onların istehsalının iqtisadi səmərəliliyinin ölkənin ayrı-ayrı ərazilərində qiymətləndirilməsinə və bu yöndə təkliflər hazırlanmasına, xüsusən də ölkənin quraq zonalarında zeytun bağları salmaq və daha sonra zeytun yağının istehsalında istifadə etmək imkanlarının araşdırılmasına ehtiyac vardır. Aparılan araşdırmaların köməyi ilə yerli xammalın emalı və hazır məhsul idxalı üzrə iqtisadi səmərəlilik göstəriciləri müqayisə edilərək, müvafiq inkişaf planlarının hazırlanması məqsədəuyğundur.

Ölkəmizdə xarici iqtisadi əlaqələri təkmilləşdirmək üçün ixrac potensialının sürətli inkişafı, idxaləvəzləyici məhsulların istehsalının stimullaşdırılması, yüksək rəqabət qabiliyyətinin təmin edilməsi üçün texnikaların və texnologiyaların təkmilləsdirilməsi, xarici iqtisadi əlaqələr üzrə əmtəə tərkibinin və coğrafi strukturun təkmilləsdirilməsi, inteqrasiya və kooperasiya əlaqəsinin (birgə və xarici müəssisələrin yaradılması, kooperasiya və s.), qarşılıqlı şərtlərlə

xarici investisiyaların stimullaşdırılması və kadrların ixtisasının artırılması əsas hədəflərdir.

Bunun üçün fikrimizcə, aşağıdakı tədbirləri nəzərə almaq lazımdır:

- emal sənayesində ixrac fəaliyyətini stimullaşdırmaq;
- ixracın kommersiya banklarının və dövlətin iştirakı ilə birgə maliyyələşdirilməsinə nail olmaq;
- milli ixracatçılara krediti təqdim edən banklara dövlət zəmanəti vermək;
- ixracatçılar tərəfindən kreditlərə görə kommersiya bankları üçün ödəniş edilən faizlərin müəyyən hissəsinə dövlət subsidiyalarının verilməsi;
- yerli nəqliyyat tarifləri ilə dünyanın daşıma tarifləri arasındakı fərqin ixracatçılara ödənməsi;
- birbaşa dövlət ixrac sığortası;
- ixrac kreditlərinin dövlət sığortası;
- ixracatçı şirkətlərin əsas vəsaitlər üzrə borcları, əmlak vergilərinin ləğvi;
- ixracatçılar üçün müəyyən əmtəə güzəştlərinin verilməsi (su, qaz, işıq və s. endirimlər) və s.

Təcrübə göstərir ki, ayrılıqda ixracın və ya istehsalın dəstəklənməsinin, stimullasdırılması lazımi nəticəni təmin edəcəyi az ehtimallıdır. Bu istiqamətdə istehsal və ixracın kompleks şəkildə stimullaşdırılması isə daha uğurlu nəticələr vəd edir. Bu baxımdan da, bütün yuxarıda qeyd edilənlərlə yanaşı, istehsal və ixracın birgə, kompleks şəkildə stimullaşdırılması daha məqsədəuyğundur ki, bunun üçün də müvafiq infrastrukturların təmin olması zəruridir.

Həmçinin kənd təsərrüfatı məhsullarının istehsalının və ixracının artırılması, iqtisadi əlaqələrin genişləndirilməsi və xarici bazarlara çıxışın təmin edilməsi məqsədilə aqrar sektorun iqtisadi təhlükəsizliyinin gücləndirilməsi zəruridir. Fikrimizcə, bu istiqamətdə aqrar sahədə aşağıdakı tədbirlərin nəzərdə tutulması məqsədəuyğundur:

- aqrar-sənaye kompleksinin ixrac potensialını və onun inkişaf

istiqamətlərini düzgün qiymətləndirmək;

- biznes ehtiyaclarının real həcmini müəyyən etmək;
- iqtisadiyyatın əvəzedici sahələrinin inkişafı və tədqiqinin perspektivli istiqamətləri;
- aqrar sektorda xarici maliyyə resurslarının inkişafa cəlbi;
- sürətli və irimiqyaslı kənd təsərrüfatı üzrə inteqrasiya mexanizmlərinin işlənib hazırlanması və s.

Araşdırmalar göstərir ki, dünyanın istənilən ölkəsinin iqtisadi uğuru yuxarıda qeyd olunan amillərin nəzərə alınmasından asılıdır. Bundan əlavə, ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalının və ixracının artması bir sıra məsələlərin nəzərdən keçirilməsini tələb edir. Hər şeydən əvvəl, real bazar münasibətləri ilə bağlı iqtisadiyyatın bütün sahələrində olduğu qədər, ölkənin təbii iqliminə, iqtisadi potensialına, habelə daxili tələbatına uyğun olaraq xarici iqtisadi əlaqələrdən düzgün istifadə etmək lazımdır.

Aqrar sahənin sürətli inkişafının və bu istiqamətdə ixracın artırılmasının ilkin şərtlərindən biri düzgün tənzimləmədir. İqtisadi ədəbiyyatda çox vaxt istehsal, ixrac, daxili bazar, ticarət və s. tənzimləmə məsələləri gündəmə gəlir. Onların mahiyyəti iqtisadi siyasətdə münasibətlərin tənzimlənməsinin xüsusiyyətindən və ehtiyacından irəli gəlir. Belə tənzimləmə mexanizmi müxtəlif ölkələrdə seçilmiş məqsədəuyğun olaraq müvafiq tədbirlərlə icra edilir.

İxrac potensialının artırılması və ərzaq bazarının mühafizəsi ölkələr arasında səmərəli münasibətləri şərtləndirən vacib amillərdəndir. Burada əsas şərt kimi istənilən ölkədə istehsal edilən bütün malların istehsalı deyil, istehsalçı üçün daha sərfəli və ucuz olan malların istehsalıdır. Yəni nəzəri cəhətdən məlum olduğu kimi, istənilən ölkə ucuz məhsul istehsal etməli, daha çox tələb xərc olunan məhsulu idxal etməlidir.

Beləliklə, araşdırmalar göstərir ki, aqrar sahə məhsullarının ixracı qloballaşma şəraitində dövlətlərarası inteqrasiyanın mühüm bir istiqamətini təşkil edir. Müasir iqtisadi şəraitdə xarici iqtisadi əla-

qələrin səmərəli inkişafının təmin edilməsi mexanizmlərini, eləcə də ASK-nın və ixrac yönümlü məhsullar istehsalını stimullaşdırmaq vacibdir və bunu üçün:

- aqrar məhsul istehsalı və ixrac potensialından istifadənin hazırki vəziyyətini təhlil etmək və perspektiv imkanları aşkara çıxarmaq;
- ölkədə ixrac yönümlü aqrar məhsul istehsalı imkanlarını nəzərdən keçirmək,

istehsalı ləngidən amilləri aşkara çıxarmaq və inkişafı meyllərini müəyyən etmək;

- ölkənin aqrar bazarının və onunla bağlı olan xarici ticarət əlaqələrinin prioritet inkişaf istiqamətlərini müəyyənləşdirmək;
- aqrar sahə və aqrar-sənaye üzrə xarici ticarət əlaqələrinin hazırki vəziyyətini təhlil etmək və inkişaf meyllərini müəyyənləşdirmək;
- aqrar sahədə məhsul istehsalının, xüsusən idxalı əvəzetmə sahələrində artırılması imkanlarını imkanlarını müəyyən etmək;
- aqrar sahə və aqrar-sənaye məhsullarının səmərəli ixracını təmin etmək üçün müvafiq infrastruktur formalaşdırmaq;
- rəqabət qabiliyyətli aqrar və aqrar-sənaye məhsulları istehsalına nail olmaq.

Aqrar sahədə xarici ticarət əlaqələrinin genişləndirilməsi üçün mühüm məsələlərdən biri xarici şirkətlərlə birgə iri, orta və xırda həcmli birgə müştərək müəssisələrin yaradılması və xaricilər tərəfindən idarə olunmasına dövlətin icazə verilməsi mexanizminin hazırlanmasıdır. İAEƏ-də belə müəssisələrin yaradılmasına diqqət yetirməyi vacib hesab edirik.

Məsələn, ölkəmizdə siqaret, çay, şərab və bir çox məhsulların istehsalı və satışı sahəsində bu problem öz həllini tapmış və dünya bazarında rəqabət aparma qabiliyyətinə malik olan məhsullar istehsalına nail olunmuşdur. Bu sahədə ABŞ, Yaponiya və Avropa Birliyi ölkələrinin iş təcrübələrinin öyrənilməsi və istehsala tətbiq olunması öz iqtisadi səmərəsini verə bilər.

Aqrar bölmədə xarici ticarət potensialını artırmaq üçün başlıca

problemlərdən biri aşağı səviyyəli və qeyri-rentabelli bitkiçilik məhsulları istehsalını dövriyyədən çıxararaq yüksək gəlirli və ixrac yönümlü, bitkiçilik sahələri ilə əvəz olunmalıdır.

Beləliklə, aqrar istehsal məhsullarının ixracının stimullaşdırılması istiqamətində aparılan araşdırmalardan aydın olur ki, bunun üçün ilk növbədə keyfiyyətli məhsul istehsalı həcmi artırılmalıdır. Başqa sözlə desək, aqrar istehsal və sənaye məhsullarının ixracının stimullaşdırılması məsələsinə ixrac və istehsalın birgə (kompleks) dəstəklənməsi şəklində yanaşmaq daha məqsədəuyğndur. Bu istiqamətdə yalnız keyfiyyətli aqrar məhsulların istehsalı, emalı, müasir tələbata uyğun qablaşdırılması, saxlanması, daşınması və s. kimi məsələlərə kompleks yanaşılması ilə müəyyən edilmiş məqsədə çatmaq mümkündür.

Ölkəmizin beynəlxalq ticarət standartlarına uyğunlaşması şəraitində idxal rüsumlarının dəyişməsi ÜDM istehsalının dinamikasına heç də güclü təsir edə bilməz. Belə təsir nəticəsində ÜDM-in mövcud dinamikasını ilk vaxtlar 1-2% aşağı sala bilər. Bu mənada beynəlxalq ticarət standartlarına uyğunlaşma prosesindən sonra Azərbaycanın yeyinti, yüngül, daha çox isə aqrar sahədə ciddi çətinliklərin yarana bilməsi ehtimalı da ola bilər.

Qeyd edilən istiqamətdə Azərbaycanın aqrar sahənin həmin çətinliklərlə üzləşməməsi üçün və bu sahədə ciddi dəyişikliklər edilməsinə diqqəti daha da artırmaq lazım gəlir. Sahənin qarşısında duran əsas çətinliklər kənd təsərrüfatı məhsulları ilə əlaqədar onların idxal-ixrac rüsumlarının səviyyəsinin aşağı salınması məsələlərinin həllidir. Belə ki, fikrimizcə istər Azərbaycana gətirilən və istərsə də Azərbaycandan xaricə göndərilən bir sıra mal qruplarının və qrupdaxili mal növlərinin gömrük tariflərinin artırılması məsələlərinin həlli daha çox problemlər qarşıya çıxarır. Bu isə öz növbəsində beynəlxalq ticarət standartlarına uyğunlaşma prosedurlarına müntəzəm baxılmasını tələb edir və bu tələblər hazırda uyğunlaşmanın prinsip və normaları üzrə ölkələr üzrə aparılan iki və çoxtərəfli danışıqlarda

daim gündəmə gətirilir [68, s.115-116].

Kənd təsərrüfatı məhsullarının intensiv istehsalı, daşınması, saxlanması, habelə onun satışının təşkil edilməsi hal-hazırda xeyli dərəcədə səmərəli fəaliyyət göstərən aqroparkların sayının artırılmasından və onların fəaliyyətinin düzgün təşkilindən asılıdır. Aqrar sahənin məhsulları uzun müddət saxlanıla bilməyən məhsullar olduqlarına görə onların vaxtında satışı təmin edilməlidir. Lakin bir çox hallarda fermerlər öz məhsullarını vaxtında sata bilmədiklərinə görə ziyana düşürlər. Digər tərəfdən, istehsalçı və istehlakçı arasında vasitəçilik edənlər (bazar alverçiləri) yaranan vəziyyətdən öz mənafeləri üçün istifadə edərək məhsulları satış qiymətindən daha ucuz qiymətə alaraq dəfələrlə artıq qiymətə satırlar. Bu kimi hallarda fermerlərin mənfəəti daha da azalır, təkrar istehsala maraq yox olur, sonda isə orta və uzunmüddətli dövrlərdə kənd təsərrüfatı məhsullarının qiyməti artır və ölkədə ərzaq çatışmazlığı təhlükəsi yaranır. Beləliklə, daxili istehlak prosesində idxaldan aslılıq formalaşır, genləri dəyişdirilmiş (GMO) məhsulların ölkə bazarlarına yayılması təhlükəsi artır. İstehsalçılar tərəfindən məhsulların yerli və xarici bazarlara çıxarılması, onların saxlanılması və daşınması infrastrukturu üzündən əksər hallarda ciddi problemlərlə qarşılaşmışdır.

Bu kontekstdən yanaşdıqda aqroparklar müasir texnoloji avadanlıqların tətbiqi ilə istehsal, emal və logistik xidmətləri mərkəzləşdirilmiş vahid məkanda qurmaqla yüksək keyfiyyətli məhsulların əldə olunması, məhsulların satışı və rentabelli sahibkarlıq fəaliyyətinin təşkili üçün geniş imkanlar yaradır. Bundan əlavə, yeni yaradılmış iş yerləri işsizliyin səviyyəsini azaltmağa və regionlarda sakinlərin maddi rifahının yüksəldilməsinə gətirib çıxarır. Aqroparklarda yaradılmış iş şəraiti fermerlərin infrastruktur xərclərini də azaltmağa imkan verir. Eyni zamanda, aqroparklar kənd təsərrüfatı maşınqayırması, tikinti, kimya, bitkiçilik, heyvandarlıq, yeyinti, ticarət, nəqliyyat və s. kimi qeyri-neft sahələrini özündə birləşdirir.

Təsadüfi deyildir ki, kənd təsərrüfatının inkişaf etdrilmisəni sü-

rətləndirmək istiqamətində Azərbaycan hökümətinin apardığı islahatlar, xüsusən istehsalçıların torpaq vergisi istisna olmaqla digər vergilərdən azad olmaları, respublikanının bir çox regionlarında kənd təsərrüfatı məhsulları istehsalı və emalının müasir sənaye bazasına keçirilməsi faktları öz nəticəsini verməkdədir.

Son illərdə Azərbaycanın bir çox regionlarında müasir sənaye bazasına əsaslanan aqroparklar istifadəyə verilir. Bu da Azərbaycanın iqtisadi və sosial inkişafına öz töhfəsini verir. Burada bir çox istiqamətlər üzrə yaxşı işlər yerinə yetirilib - bitkiçilik, heyvandarlıq təsərrüfatları, yem bazası, logistika mərkəzi, emal və satış strukturları yaradılmısdır.

Bunlardan biri də 2016-cı ilin sentyabr ayında Xaçmaz rayonunda istifadəyə verilən aqroparkdır. Son illərdə ölkədə iqtisadi və sosial sahələrdəki nailiyyətləri bu aqroparkın nümunəsində əyani şəkildə görmək olar. Aqroparkda 300 -ə yaxın iş yeri açılıb. Aqroparka 20 milyon manat investisiya qoyulub. İnvestisiyalar həm özəl sektor həm də dövlət sektoru tərəfindən yatırılıb. Azərbaycanda dövlət və özəl sektor tərəfdaşlıq formatında əməkdaşlıq edir. Son illər Azərbaycan şirkətləri xaricə süd və süd məhsulları da ixrac etməyə başlayıblar" [220].

Azərbaycanın kənd təsərrüfatının (milli iqtisadiyyatın vacib sahəsi olmaqla) nəinki sənaye bazasında inkişafı, habelə bütünlükdə kənd yerlərinin sosial-iqtisadi inkişafı ilə bağlı hərtərəfli tədbirlər kompleksi formalaşmaqdadır. Formalaşmanın sürətlənməsi üçün ölkənin aqrar sahəsinə bundan sonra da ediləcək güzəştləri daimi genişləndirmək, kənd təsərrüffatı məhsulları istehsalına və satışına dövlət dəstəyini gücləndirmək lazım gəlir.

Nəzərə almalıyıq ki, ölkədə sənayeləşmə və xidmət sahələrinin sürətli inkişafı heç də aqrar sahənin inkişafını arxa plana keçməsi anlamını daşıya bilməz. Çünki, ölkənin kənd təsərrüfatı istehsalının həcminin artırılması istiqamətində həmin sahə üzrə ixrac olunan nəinki xammal və materialların, daha çox son emal məhsulların

xüsusi çəkisnin artırlmasının potensial imkanları çoxdur.

Bu istiqaməti əsas götürməklə Azərbaycanın yerli istehsalçılarının maraqları ilə beynəlxalq ticarət standartlarının tələbləri arasında (xüsusən, ticarətin liberallaşmasına) uyğunluğun yaradılmasına ehtiyac vardır. Yəni, dövlətin aqrar sahənin dəstəkləmək, ona himayə etmək mexanizmi ilə bazar mexanizmi arasında qarşılıqlı nisbətin yaradılması tələb olunur. Qarşılıqlı uyğunluğun yaradılmasına nail olmaqla Azərbaycanın aqrar sahəsinin beynəlxalq bazarlara səmərəli çıxışı təmin edilə bilər.

Fikrimizcə, Azərbaycanın aqrar sahəsində istehsalın və istehsal məhsulları satışının beynəlxalq ticarət standartlarına uyğunlaşdırmaq üçün səmərəli və sabit tarif sisteminin tətbiqi istiqamətində ardıcıl fəaliyyəti davam etdirilməlidir. Uyğunlaşma heç də aqrar sahəyə subsidiyaların və digər stimullaşdırıcı tədbirlərin həyata keçirilməsini məhdudlaşdırmır. Lakin uyğunlaşma bu sahəyə veriləcək subsidiyaların müəyyən həddinə əməl etməyi tələb edə bilər və çox hallarda aqrar sahənin himayə etməyi məhdudlaşdıra da bilməz, əksinə subsidiyaların dairəsinin qəbul edilmiş normalar daxilində genişləndirilməsinə imkan verir.

Nəzərə almaq lazımdır ki, hazırda Azərbaycanın ÜTT-nın üzv olma imkanları çərçivəsində qarşıya qoyulan tələblərdən biri kənd təsərrüfatı sahəsində Azərbaycanın "İnkişaf etməkdə olan ölkə" statusuna malik olması xüsusi əhəmiyyət daşıyır. Bu statusa görə Azərbaycanın kənd təsərrüfatı məhsulları istehsalının ümumi həcminin 10% miqdarında ölkənin kənd təsərrüfatına təşkilatın fondundan subsidiya ayırmaq hüququ verilə bilər. Diqqətəlayiq cəhət odur ki, uyğunlaşma prosesində əsas istiqamət Azər-baycanın ərzaq təhlükəsizliyinə ölkə regionlarının sosial-iqtisadi inkişafını təmin edəcək subsidiyalaşma siyasətinin əsaslandırılması üçün rəqabətə davamlı və rəqabət qabiliyyətli məhsulların sayının artırılmasına yönəldilir [117, s.1001-1008].

Qeyd edilən proseslər öz növbəsində beynəlxalq ticarətin norma

və prinsiplərinə uyğunlaşmanı sürətləndirməklə nəinki daxili, həmçinin, xarici bazarda formalaşan qiymətlərə də uyğunlaşmağa imkan verə bilir. Dünya bazar qiymətlərini formalaşdıran amillərin öyrənilməsi və nəticə çıxarılması heç də həmin sahədə mövcud olan uyğunlaşma prinsiplərindən istifadə edilməsi mümkünlüyü demək deyildir. Sözsüz ki, müşahidə edilən çoxsaylı iqtisadi proseslər hələ çox zaman ərzində idxal və ixrac məhsullarının daxili və xarici bazarlarda satışından alınan gəlirlərə öz mənfi təsirini göstərəcəkdir.

C.Saksın fikrinə görə, *"hər hansı bir ölkənin iqtisadi həyatındakı irəliləyiş onun xarici ticarətində özünü biruzə verir. Hələlik heç bir ölkəyə, dünya iqtisadiyyatı sistemindən təcrid olunmuş halda sağlam iqtisadiyyat qurmaq nəsib olmayıb. Beynəlxalq ticarət, müxtəlif ölkələrin bir-birlərinə iqtisadi asılılığını və qarşılıqlı əlaqələrini biruzə verir. Hesablamalara görə dünyada beynəlxalq ticarətin həcmi (əmtəə mübadiləsi) istehsalın həcminə nisbətən sürətlə artır. Belə ki, dünya istehsalının hər 10% artımına 16% dünya ticarətinin artımı düşür"* [50, s. 28]

Nəzərə almaq lazımdır ki, Azərbaycanın ayrı-ayrı iqtisadi rayonları özlərinin istehsal-təsərrüfat fəaliyyətinin son nəticələri ilə xarici ticarət əlaqələrinə cəlb olunması heç də qənaətləndirici deyildir. Çünki, son və hazır məhsulların ümumi istehsal mərhələləri qeyri bərabər yerləşmişdir ki, bu da əsasən vahid təkrar istehsal prosesinin pərakəndəliyi ilə izah oluna bilər.

İxrac və idxal olunan malların ümumi nisbətdə yalnız bir neçə iqtisadi rayonda, məsələn, Naxçıvan, Quba-Xaçmaz, Gəncə-Qazax, Lənkəranda ixracatın və idxalatın yerli istehsala və istehlaka təsiri az və çox dərəcədə özünü göstərir. Beynəlxalq ticarətin normalarına uyğunlaşmanın real vəziyyətinə həmin regionlarda həm yerli iş adamları və həm də yerli istehlakçı əhali daha tez nail olacaqlar. Çünki milli iqtisadiyyatın, xüsusən də onun aqrar emal sahələrinin beynəlxalq ticarət normalarına daha tez uyğunlaşa bilmək imkanları yaranmaqdadır. Sözsüz ki, beynəlxalq ticarət müstəvisində mü-

kəmməl iqtisadi rəqabət şəraiti daim mövcud olur və inkişaf edir. Belə şərait tələb edir ki, aşağı istehsal xərcləri ilə beynəlxalq standartlara cavab verə bilən keyfiyyətli məhsullar və xidmətlər istehsal etməklə bazar subyektlərinin gəlirləri müntəzəm artsın.

Son illərin dünya təcrübəsini araşdırdıqda aydın olur ki, Azərbaycanın xarici ticarət dövriyyəsində tətbiq olunan gömrük tariflərinin orta illik dərəcəsi dünyanın bir çox ölkələri ilə müqayisədə hiss olunan dərəcədə aşağıdır. Məlumdur ki, ölkəmizdə tətbiq edilən gömrük tariflərinin illik dərəcəsinin ən yüksək həddi 15%-dir. Bu isə dünyanın bir çox ölkələri ilə müqayisədə aşağı olduğunu göstərir.

Ölkələr arasında elə hallar da ola bilər ki, iki və ya çoxtərəfli razılaşmalara uyğun olaraq gömrük tarifləri yenidən müəyyənləşdirilərək artırılsın və yaxud əksinə azaldılsın. Bu mənada beynəlxalq ticarətin norma və prinsipləri və bununla da ÜTT-nin qaydaları xarici ticarətdə himayəçiliyi bütünlükdə aradan qaldırmır, bəzi hallarda gömrük tariflərinin artmasına imkan verməklə bir çox istehsal və xidmət sahələrinin subsidiyalasdırılmasına necə deyərlər icazə verir. Belə icazə imkanları yalnız ümumi qaydalar və hüquqi normalara əsaslanmaqla həyata keçirilə bilər. Bunlar isə öz növbəsində ölkənin daxili bazarının qorunması məqsədilə müvəqqəti müdafiə tədbirləri kimi həyata keçirilməsini nəzərdə tutur [93, s. 57].

Biz, iqtisadçı alimlərin belə bir fikri ilə razılaşırıq ki, Azərbaycanın milli iqtisadiyyatı daxilində aşağı səmərəli aqrar-sənaye sahələrində istehsal olunan mallara ən aşağı, bütünlükdə ölkə üçün, ayrılıqda isə əhali üçün daha səmərəli olan digər mallara isə elmi cəhətdən əsaslandırılmış dərəcədə idxal gömrük rüsumları tətbiq edilməlidir. Bu istiqamətdə qorunacaq aqrar istehsal və emal sahələrinin iqtisadi təhlükəsizliyini təmin edəcək idxal gömrük tariflərinin yuxarı dərəcələrinin hədləri müəyyən edilməlidir.

Azərbaycanın xarici ticarət dövriyyəsinin beynəlxalq standartlara uyğunlaşdırılması özlüyündə ölkə iqtisadiyyatını tədricən regional və beynəlxalq iqtisadi inteqrasiya proseslərinə səmərəli qoşul-

ması imkanlarını artırır, xarici ticarəti daha da liberallasdırır, ticarət əlaqələrini möhkəmləndirir, qabaqcıl innovasiyalı texnika və texnologiyaları ölkəyə gətirilməsini asanlaşdırır.

Hazırda aqrar sahə və emal sənaye sistemində 650-yə qədər müəssisə fəaliyyət göstərir və bu müəssisələrdə 25 minə yaxın adam işləyir. Bunların sırasına kənd təsərrüfatı və aqrar sənaye məhsullarının çeşidinin və istehsalının genişləndirilməsində rolu olan “Aqrolizinq” xidmətinin, yeni yaradılmış qurumların - “ABAD” publik hüquqi şəxsin və “Ərzaq məhsullarının tədarüki və təchizatı” ASC-nin fəaliyyətini aid etmək lazımdır [43, s. 23-32].

Azərbaycan Respublikasının beynəlxalq iqtisadi münasibətlərdə iştirakını nəzərə almaqla əsas iqtisadi təhlükələr yaradan proseslərdən biri kimi tədiyyə balansının xammal hesabına ixrac yönümlü olması, ərzaq təminatının idxal hesabına təmin edilməsidir. Bu isə milli iqtisadiyyatın sağlam əsaslar üzərində formalaşması və inkişafına, milli sahibkarlığın formalaşmasına, əhalinin həyat səviyyəsinə mənfi təsir göstərən amildir və sosial problemlərin həllinin ləngiməsidir. Dünya təcrübəsi göstərir ki, daxili istehlakın 20-25%- dən çoxu idxaldan asılı olduqda ölkənin müstəqilliyinə təhlükə törədə bilər. Bu problem həmçinin ölkənin valyuta ehtiyatlarının kənara axmasına gətirib çıxara bilər. Bunun özü də iqtisadi təhlükə yaradan vasitələrdəndir.

Müasir dövrdə respublikamız bütün bunlara əsaslanaraq iqtisadi təhlükəsizliyi təmin etmək və beynəlxalq bazarlara maneəsiz çıxışı təmin etmək üçün tarif qiymətlərini yetərincə dəyişdirmişdir. Bu isə ölkə sahibkarlarının ölkə daxili istehsala milli istehsal mallarına, yəni milli “Made in Azerbaijan” brendinin istehsalına yönləndirilməsinə stimul verir, eyni zamanda, kənd təsərrüfatı və aqro-emal məhsullarının xarici bazarlara çıxışının sürətləndirilməsinə zəmin yaradır.

Respubilkada aqrar sahə məhsullarının ixracının stimullaşdırılması və ölkə adının brendləşdirilməsi istiqamətində aparılan tədbirlərin ümumiləşdirilmiş bir qanununvericilik bazası əsasında aparılması Prezidenti İlham Əliyevin 2016-cı il 18 yanvar tarixli “Qeyri-

neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamı ilə başlanmışdır. Bu sərəncamda əsas qarşıya qoyulan məsələlərdən biri "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi olub [220]. Hazırda isə ötən illərdə görülmüş işlərin nəticəsi olaraq "Made in Azerbaijan" brendinin xarici ölkələrdə təşviqi və ixracın stimullaşdırılmasının 10 mexanizmi formalaşdırılmışdır:

*1. "İxrac missiyalarının təşkili;*

*2. Ölkəyə alıcı missiyalarının təşkil olunması;*

*3. Bazar araşdırmasına dəstək verilməsi;*

*4. Beynəlxalq miqyaslı sərgi, yarmarkalarda vahid formada stendlə iştirak olunması;*

*5. Beynəlxalq sərgi, yarmarkalarda fərdi qaydada iştirak olunması;*

*6. Dövlət mülkiyyətində olan və ya səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər vasitəsilə "Made in Azerbaijan" brendinin təşviq olunması;*

*7. Xarici ölkələrdə fəaliyyət göstərən mağazalarda və ya mağazalar şəbəkələrində, o cümlədən "Duty Free"lərdə "Made in Azerbaijan" rəflərinin təşkil olunması;*

*8. Xarici ölkələrin ictimai yerlərində və beynəlxalq mediada təbliğat aparılması;*

*9. "Beynəlxalq sertifikat" alınması;*

*10. Tədqiqat-inkişaf proqram və layihələrinə dəstək"* [220; 241].

Fikrimizcə, müasir dövrdə respublikamız bütün bunlara əsaslanaraq iqtisadi təhlükəsizliyi təmin etmək və beynəlxalq bazarlara maneəsiz çıxışı təmin etmək üçün tarif qiymətlərini yetərincə dəyişdirmişdir. Bu isə ölkə sahibkarlarının ölkə daxili istehsala milli istehsal mallarına, yəni milli "Made in Azerbaijan" brendinin istehsalına yönləndirilməsinə stimul verir, eyni zamanda, kənd təsərrüfatı və aqro-emal məhsullarının xarici bazarlara çıxışının sürətləndirilməsinə zəmin yaradır.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI


### *Azərbaycan dilində*

1. Azərbaycan Respublikasının Mülki məcəlləsi // Bakı, Qanun – 2000.
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi // – Bakı, Qanun – 2018.
3. "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu // – Bakı, – 2015.
4. "İstehlakçı hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu // – Bakı, – 1995.
5. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"// Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir – Bakı, – 2022, – 88 s.
6. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" // Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. – Bakı, – 2016, – 177 s.
7. "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu // – Bakı, – 14 iyun 2016-cı il.
8. "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu // Azərbaycan Respublikası Prezidentinin 27 iyun 2019-cu il tarixli 1617-VQ saylı Fərmanı.
9. "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi" // Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.
10. Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı // Azərbaycan Respublikasi Prezidentinin 29 aprel 2019-cu il tarixli Sərəncamı.

11. Azərbaycan Respublikası Nazirlər kabinetinin 2021-ci ildə fəaliyyəti haqqında hesabat // – Bakı: 2022, - 435s.
12. "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" // Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 iyul tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
13. "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə və dövlət büdcəsinin icrasına dair illik hesabata Azərbaycan Respublikası Hesablama Palatasının Rəyi // – Bakı, – 2020, – 225 s.
14. "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 16 yanvar 2014-cü il.
15. Azərbaycan qəzeti. May, 2022. // – Bakı: 2022.
16. "Qeyri-neft məhsulları ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // 18.01.2016.
17. "Qeyri-neft məhsulları ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidentinin Fərmanı // 01.03.2018.
18. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər // Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir. –Bakı, – 2021.
19. Azərbaycan Respublikasının Mərkəzi Bankı. Statistik bülleten // № 2(204), 3/2017.
20. Azərbaycan Dövlət Statistika Komitəsi. Azərbaycanın statistik göstəriciləri // 2022. – Bakı, – 2022.
21. Azərbaycan Dövlət Statistika Komitəsi. Azərbaycanın ərzaq balansları 2010- 2021 // – Bakı, – 2020.
22. Azərbaycan Dövlət Statistika Komitəsi. Azərbaycanın kənd

təsərrüfatı // – Bakı, 2000-2022-ci illər.
23. Abbasov, A.F. Ərzaq təhlükəsizliyi / A.F.Abbasov. – Bakı: – 2007. – 602 s.
24. Abasov, İ.D. Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı / İ.D.Abasov. – Bakı: Şərq-Qərb, – 2013. – 711 s.
25. Abbasov, V.H. Aqrar-iqtisadiyyat. Bakı, 2017. – 468 s.
26. Abbasov, V.H. Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri / V.H.Abbasov. – Bakı: – 2012. – 424 s.
27. Alıyev, İ.H. Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri / İ.H.Alıyev. – Bakı: – Elm, 2008. – 391 s.
28. Alıyev, İ.H. AZƏRBAYCAN 2020: Aqrar sahənin inkişafının dövlət təminatı problemləri / İ.H.Alıyev, A.Mustafayev // – Bakı: Kooperasiya, – 2012, – № 2 (25).
29. Alıyev, İ.H. F.V.Rüstəmov. Aqrar sahə modernləşdirmə dönəmində / İ.H.Alıyev, F.V.Rüstəmov // – Bakı: – Avropa, – 2015. – 312 s.
30. Alıyev, İ.H. Aqrar sahənin modernləşməsi və rəqabət qabiliyyətliliyinin təmin olunması problemləri / İ.H.Alıyev,İ.Soltanlı //– Bakı: – Avropa, – 2017. – 428 s.
31. Ataşov, B.X. Ərzaq təhlükəsizliyinin aktual problemləri / B.X.Ataşov. – Bakı: Elm, – 2005. – 336 s.
32. Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika) / B.X.Ataşov. – Bakı: – Kooperasiya, – 2017. – 536 s.
33. Ataşov, B.X. Maliyyə bazarları. Ali məktəblər üçün dərslik / B.X.Ataşov. – Bakı: Kooperasiya, – 2016. – 456 s.
34. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası. Monoqrafiya / – Bakı: – Şərq-Qərb, – 2019. – 328 s.
35. Aslanzadə, İ.A. İnvestisiya layihələrinin təşkili və idarə olunması / İ.A.Aslanzadə. – Bakı: Çaşıoğlu, – 2000. – 274 s.

36. Atakişiyev, M.C. Azərbaycan sosial-iqtisadi tərəqqi yolunda / M.C.Atakişiyev. –Bakı, – 2005. – 262 s.
37. Səmədzadə, Z.Ə. Böyük İqtisadi Ensiklopediya: [7 clddə] / Z.Ə.Səmədzadə. – Bakı, 2012-2015.
38. Balayev, R.Ə. Urbanizasiya: Şəhər iqtisadiyyatı və ərzaq problemləri / R.Ə.Balayev. – Bakı: – 2011. – 544 s.
39. Cəbiyev, R.M. Azərbaycanda bazar infrastrukturunun formalaşması və inkişafı / R.M.Cəbiyev. – Bakı: – 2000. – 236 s.
40. Əhmədov, N.H. Azərbaycanda keçid iqtisadiyyatı şəraitində istehlak bazarının formalaşması problemləri / İqtisad elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. / – Bakı, 2006, – 48 s.
41. Əlirzayev, Ə.Q. Azərbaycan dövlətçiliyinin qanunvericilik bazasının təkmilləşdirilməsi üzrə təcrübə və perspektiv düşüncələr. Monoqrafiya / Ə.Q.Əlirzayev. – Bakı: Adiloğlu, – 2006. – 512 s.
42. Əliyeva, A.H. Azərbaycan Respublikasında ərzaq bazarının transformasiya problemləri / İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. / – Bakı, 2013, – 154 s.
43. Əliyev, Ş.T. Azərbaycanda kənd təsərrüfatının və aqrar-sənaye kompleksinin inkişafının strateji aspektləri // – Bakı: İpək yolu, – 2018, № 2, – s. 23-32
44. Əliyev, T.N. Klasterlər: Beynəlxalq təcrübə və innovativ inkişaf / T.N.Əliyev. – Bakı: – 2019. – 536 s.
45. Fikrətzadə, F.F. Azərbaycanın kənd təsərrüfatı və ərzaq məhsulları üzrə müqayisəli üstünlüklərinin qiymətləndirilməsi üzrə tədqiqatın hesabatı / F.Fikrətzadə, P. Əliyev, G.Amanova, N.Ramazanova // Aqrar Tədqiqatlar Mərkəzi, - Bakı: - 2019, 15 s. https://atm.gov.az/pdf/reports/report-1.pdf?v=59
46. Hacızadə, E.M. Dünya iqtisadiyyatı və Azərbaycan / Bakı, “Letterpress” nəşriyyat evi – 2018, – 912 s.

47. Hüseynov, M.C. Kənd təsərrüfatının iqtisadi problemlərinin nəzəri aspektləri. İnnovasiyalı iqtisadiyyat və menecment / M.C.Hüseynov, E.A.Salahov. – Gəncə: 2020, – № 1, – s. 4-12.
48. Aqrar istehsal strukturunun diversifikasiyası (Gəncə-Qazax iqtisadi rayonunun misalında) / M.C.Hüseynov, V.T.Əmrahov, A.M.Qasımov, A.F.Həsənov, N.A.Nərimanov. – Bakı, Elmin İnkişafı Fondu, – 2016, – 168 səh.
49. Hüseyn, R.Z. Azərbaycan Respublikasında bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin artırılması problemləri. / i.e.d. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. / – Bakı, 2017, – 34 s.
50. Gənciyev,G.Ə. Beynəlxalq iqtisadi münasibətlər / G.Ə.Gənciyev. – Bakı: – 2012. – 396 s.
51. İbrahimov, İ.H. Regionların və işğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətləri. Monoqrafiya / İ.H.İbrahimov. – Bakı: – 2022. – 240 s.
52. İbrahimov, İ.H. Aqrar sahənin iqtisadiyyatı. Monoqrafiya / İ.H.İbrahimov. – Bakı: – 2016. –655 s.
53. İbrahimov, K. Azərbaycanın sığorta bazarı: trendlər və inkişafın yeni çağırışları. // – Bakı: İpək yolu, – 2020, – № 2, – s. 31-42
54. İbrahimov, E.Ə. İqtisadiyyatın davamlı inkişafının maliyyə-büdcə tənzimlənməsi və stimullaşdırılması problemləri / E.Ə.İbrahimov. – Bakı: Kooperasiya, – 2018. – 320 s.
55. İbrahimov, E.Ə. Davamlı inkişaf şəraitində xarici investisiyalardan səmərəli istifadə istiqamətləri. // Audit №1, Cild 19, 2018, s. 55-62.
56. Qafarov, N.C. Aqrar sahədə kiçik və orta biznesin iqtisadi səmərəliliyinin artırılması istiqamətləri. Monoqrafiya / N.C.Qafarov. – Bakı: – 2007. – 112 səh.
57. Əsgərov R. Ə. “Aqrar sahədə biznes mühitinin formalaşmasının bəzi məsələləri” AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2021 (sentyabr-oktyabr) Bakı, 2021, s. 83-92.

58. Qasımlı, V.Ə. İqtisadi artım. - Bakı: -2021, -250 s.
59. Qafarov, N.C. Aqrar sahədə iqtisadi səmərəliliyin yüksəldilməsi istiqamətləri // Beynəlxalq elmi-praktik konfransın materialları, – Bakı: 27-28 iyun 2012, – s. 525-529.
60. Qafarov, N.C. Regionların inkişafında istehsal –iqtisadi əlaqələrin rolu // Beynəlxalq elmi-praktik konfransın materialları. – Bakı: 22 noyabr 2014, – s. 241-247.
61. Qafarov, N.C. Aqrar sahənin inkişafının prioritet istiqamətləri // – Bakı: “Kooperasiya” elmi – praktiki jurnalı, – 2017, – № 1(44), – s. 112-115.
62. Qafarov, N.C. Aqrar istehlak bazarının iqtisadi tənzimlənməsinin əsas istiqamətləri // – Bakı: Kənd Təssərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutu Elmi Əsərləri, – 2017, – №-4, – s. 123-132.
63. Qafarov, N.C. İstehlak malları bazarının formalaşmasına sistemli yanaşmanın prinsipləri // – Bakı: AMEA İqtisadiyyat İnstitutu, Elmi əsərlər, – 2017, – №-6 – s. 203-209.
64. Qafarov, N.C. Aqrar sahədə yerli istehsalın artırılması istiqamətləri // – Bakı: “Kooperasiya” elmi – praktiki jurnalı, – 2017, – № 4(46), – s. 37-41.
65. Qafarov, N.C. “Aqrar istehlak bazarının inkişaf problemləri” // – Bakı: “Kooperasiya” elmi-praktiki jurnal, – 2018, – №1(48), – s. 109-117.
66. Qafarov, N.C. Aqrar istehlak bazarının iqtisadi mexanizminin formalaşması və inkişafının elmi-nəzəri əsasları // – Bakı: Kənd Təssərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutu Elmi Əsərləri, – 2018, – № 2, – s. 21-33.
67. Qafarov, N.C. İstehlak bazarının inkişafının iqtisadi müayinəsinə metodoloji yanaşma // – Bakı: Azərbaycan aqrar elmi jurnalı, – 2018, – №5, – s. 15-22.
68. Qafarov, N.C. Aqrar sahədə istehlak bazarının inkişafı və onun genişləndirilməsi istiqamətləri // – Bakı: “Kooperasiya”

elmi – praktiki jurnalı, – 2019, – № 04 (55, – s. 111-120.

69. Qafarov, N.C. Aqrar sektorun iqtisadi mexanizminin formalaşması və fəaliyyətində xarici təcrübə // – Bakı: Azərbaycan aqrar elmi jurnalı, – 2019, – № 4, – s. 13-20.
70. Qafarov, N.C. Müasir şəraitdə aqrar sahə risklərinin sığorta mexanizminin tətbiqi xüsusiyyətləri // – Bakı: İpək yolu jurnalı, – 2021, – №2.s.78-87.
71. Qafarov, Ş.S. Qlobal mühitdə biznes / Ş.S.Qafarov. – Bakı: – 2017. – 263 s.
72. Quliyeva, A.E. Regional sosial-iqtisadi inkişaf proqramları: maliyyə-kredit təminatı və səmərəlilik. Monoqrafiya / A.E.Quliyeva. – Bakı: Kooperasiya, – 2017. – 288 s.
73. Quliyeva, A.E. Azərbaycanda regionların perspektiv inkişafı və maliyyə təminatının gücləndirilməsi problemləri / A.E.Quliyeva. – Bakı: Kooperasiya, – 2021. – 308 s.
74. Quliyev, E.A. Kooperasiya hərəkatı: təkamülü, mövcud durumu və inkişaf meyilləri. Monoqrafiya / E.A.Quliyeva, B.X.Ataşov, E.B.Ələkbərov. – Bakı: Kooperasiya, – 2021, – 344 s.
75. Quliyev, E.A. Aqrar iqtisadiyyat / E.A.Quıiyev. – Bakı: Kooperasiya, – 2015. – 320 s.
76. Quliyev, E.A. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Ali məktəb tələbələri üçün dərslik / E.A.Quliyev, N.C.Qafarov, E.Q.Allahverdiyev. – Bakı: Kooperasiya, – 2020. – 496 s.
77. Quliyev, E.A. Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər / E.A.Quliyev. – Bakı: Kooperasiya, – 2018. – 480 s.
78. Quliyev, E.A. Etibarlı ərzaq təminatı sistemi: kooperasiya və inteqrasiya problemləri. Monoqrafiya / E.A.Quliyev. – Bakı: Elm, – 2013. – 308 s.
79. Quliyev, E.A. Qida təhlükəsizliyi problemləri və strateji istiqamətləri / E.A.Quliyev. – Bakı: Kooperasiya, – 2020. – 467 s.

80. Quliyev, F.V. Ərzaq bazarının tənzimlənməsinin prioritet istiqamətləri / Avtoreferat. / Bakı, – 2006, – 25 s.
81. Quliyev, T.Ə. Menecmentin və idarəetmənin əsasları / T.Ə.Quliyev. – Bakı: –2001.
82. Qurbanzadə, A.A. XXI əsr: Dayanıqlı inkişafın aqrar-sənaye klaster faktoru. Monoqrafiya / A.A.Qurbanzadə. – Bakı: Kooperasiya, – 2015. – 216 s.
83. Məmmədov, Z.F. Maliyyə Sektoru: risklər, yeni çağırışlar və imkanlar // – Bakı: UNEC Ekspert jurnalı, – 2017, 01 [03] may, – s. 44-45.
84. Məmmədov, E.Y. Müasir şəraitdə istehlak malları bazarının formalaşması və inkişafı problemləri / İqtisad elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. / Bakı, 2014. – 51 s.
85. Məmmədov, E.Y. İstehlak bazarının idarə edilməsi. Dərslik // E.Y.Məmmədov. – Bakı: İqtisad Universiteti, – 2019. – 204 səh.
86. Məmmədov, P.H. Ərzaq bazarında çeşid siyasəti mexanizminin təkmilləşdirilməsi // – Bakı: Azərbaycan Aqrar Elmi, – 2013, № 3, – s. 205-210.
87. Musayev, A.F. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırması // – Bakı: “Azərbaycan Universiteti” nəşriyyatı, 2014, -184 s.
88. Musayev, A.F. Proporsional iqtisadi böyümədə inteqral vergi yükünün təyin olunması modeli // – Bakı: Strateji iqtisadi islahatlar: Qabaqlayıcı vergi siyasəti mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları, – 2018. – s. 444-452.
89. Manafov, Q.N. Sahibkarlığın nəzəriyyəsi / Q.N.Manafov. – Bakı: – 2011. – 158 s.
90. Mustafayev, F.F. Keçid iqtisadiyyatında dövlət tənzimlənməsinin makroiqtisadi aspektləri / F.F.Mustafayev. – Bakı: Elm, – 2008. – 540 s.

91. Nadirov, A.A. Azərbaycan iqtisadiyyatının daim yüksələn müstəqillik dövrü / A.A.Nadirov. – Bakı: Elm, – 2012. – 359 s.
92. Nuriyev, Ə.X. Davamlı və tarazlı regional inkişaf. Monoqrafiya / Ə.X.Nuriyev. – Bakı: Avropa, – 2017. – 240 s.
93. Rzayev, P.Q. İqtisadiyyatın vergi tənzimlənməsi mexanizminin stimullaşdırıcı rolunun artırılması istiqamətləri / P.Q.Rzayev. – Bakı: İqtisad Universiteti, – 2013. – 392 s.
94. Salahov, S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri / S.V.Salahov. – Bakı: Nurlar, – 2004. – 504 s.
95. Salahov, S.V. Keçid dövründə aqrar sahənin dövlət tənzimlənməsi // – Bakı: Maliyyə və uçot, – 2004, – № 8, – s. 22-29.
96. Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardim Fondu və Beynəlxalq Özəl Sahibkarlıq Mərkəzi. İslahat təklifləri toplusu. (siyasət yazıları). Bakı: –2017, –364 s.
97. Səmədzadə, Z. Ə. Azərbaycan iqtisadiyyatı keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri. Monoqrafiya / Z.Ə.Səmədzadə. – Bakı: 2010. – 982 s.
98. Sultanova, R. Azərbaycan Respublikasında istehlak bazarının formalaşması ərzaq təhlükəsizliyinin təmin olunmasının mühüm şərtidir // – Bakı: AMEA İqtisadiyyat İnstitutu. Elmi Əsərlər, – 2019, – № 6, – s. 252-259.
99. Şəkərəliyev, A.Ş. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi. Monoqrafiya /A.Ş.Şəkərəliyev.– Bakı: İqtisad Universiteti, – 2011.– 542 s.
100. Verdiyev, Ə.Ç. Aqrar bazarın formalaşmasının iqtisadi problemləri. / Verdiyev, Ə.Ç., Qarayev, İ.Ş. Bakı: – 2000. – 256 s.
101. Vəliyev, A.H. İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafının torpaq-iqlim amilləri // Kənd təsərrüfatının iqtisadiyyatı elmi-praktik jurnal – 2020. № 4 (34), - s.38-44.

### *Rus dilində*

102.Абалкин, Л.И. Избранные труды В 4 т. Т.2 На пути к реформе. Хозяйственный механизм развитого социалистического общества. Новый тип экономическогомышления. Перестройка: пути и проблемы / Л.И.Абалкин. – М.: Экономика, – 2000. –912 с.

103.Анализ рынков в современной экономической социологии: пер. с англ. / Г ос. ун-т - Высшая школа экономики; Отв. ред. В.В.Радаев. – М.: Изд. дом ГУ ВШЭ, – 2008. – 423 с.

104.Астраханцева, А.С. Логистический подход к функционированию регионального потребительского рынка // автореферат на соискание ученой степени кандидата экономических наук. – Иркутск, –2009. –16 с.

105.Базаров, Б.В. Человеческий капитал Монголии в рамках целей развития тысячелетия / Государственная служба. – 2006, № 6, – с.146-150.

106.Беглова, Е.И. Потребительский рынок: проблемы его становления и развития (1992-2000 гг.): монография. / Е.И.Беглова. – Стерлитамак: гос. пед. Академия, – 2005. – 125 с.

107.Безрукова, Е.Л. Социально-экономические аспекты развития корпоративных торговых сетей в инфраструктуре потребительского рынка // автореферат на соискание ученой степени кандидата экономических наук. - Новосибирск: ГОУ ВПО «Сибирский университет потребительской кооперации», – 2007. – 16 с.

108.Борхунов, Н.А. Экономический механизм развития аграрной экономики: необходимы перемены / Экономика сельскохозяйственных и перерабатывающих предприятий. – 2013, – № 12. с. 9-12.

109.Васильев, С.В. Особенности инновационного ценооб-

разования / Т.Н.Рыжикова, Н.Н.Новичкова. – Российское предпринимательство. – 2013, – № 10 (58). – с. 32-37.

110. Гулиев, Э.А. Современные реалии и тенденции глобальной продовольст-венной безопасности // Российское предпринимательство. – 2018. – Том 19. – № 7. – с. 1963- 1978.

111. Галиахметов, Р.А. Развитие регионального потребительского рынка / Е.В.Кутяшова. – Ижевск: Изд-во ИжГТУ, – 2004. – 156 с.

112. Гафаров, Н.Дж. Факторы, обуславливающие повышение экономической эффективности в аграрной сфере / – Москва, "Экономика и предпринимательство"– 2016, – № 10.

113. Гафаров, Н.Дж. Особенности формирования цен в аграрной сфере". (Austria, Vienna 2017), European Journal of Ekonomiks and Management Sciences Scientific journal, – № 2, 2017. – с.70-75.

114. Гафаров, Н.Дж. Пути обеспечения потребительского рынка Азербайджана агропродо-вольственными товарами / – Полтава: Межнародна Науково-Практична Конференция, – 2020, – с. 26-28

115. Гафаров, Н.Дж. Формирование и особенности развития аграрного продовольственного рынка Азербайджана / – Велгород: Российский Экономический вестник, – 2020. – с. 54-60.

116. Гафаров, Н.Дж. Ценовой механизм обеспечения конкурентоспособности экспортно- импортных операций / – Manchester, Great Britain: Science and praktike: implementation modern society, – 2020, – с. 1580-1590.

117. Гафаров, Н.Дж. Необходимостъ и направления облегчения доступа аграрных производителей на международный потребительский рынок / – Италия: Scientific Collection Interconf + Science and praktike:implementation modern

society г. Рим, – 2021, – с. 1001-1008.

118.Гафаров, Н.Дж. Комплексная оценка факторов, определяющих динамику цен на агропродовольственном рынке / – Kiev: Науково –практичний журнал Экономика та держава, – 2021, – № 5. – с. 62-69

119.Герасимова, З.К. Механизм поэтапного восстановления ценового паритета сельском хозяйстве / З.К. Герасимова // Организационно-экономические основы аграрного/ рынка: Сб.' ст. – М. МН: «Армита-Маркетинг, Менеджмент», 1997. – с. 103-107

120.Государство и рынок.: американская модель. Под ред. проф. М.А.Портного. М.Анкил. 209, – с.-13-16

121.Гриценко, Г.М. Экономические проблемы развития АПК: учебно-методические пособие / Г.М. Гриценко. – Барнаул, Изд-во АГАУ, – 2008, – 151с.

122.Гэлбрейт, Дж.К. Экономические теории и цели общества / Дж.К. Гэлбрейт. – М.: Прогресс, –1979. – 480 с.

123.Дворядкина, Е.Б. Локальный потребительский рынок товаров и услуг: теоретические аспекты исследования // Известия Уральского государственного экономического университета. – 2011, № 6. – с. 98-104.

124.Зайкина, К.А. Стратегия ценообразования как инструмент конкурентной борьбы // К.А.Зайкина, Э.С.Насретдинова. Молодой ученый. – 2016, № 11. – с. 742-744.

125.Зейналов, Ф.Н. Проблемы контрольно-надзорной деятельности в сфере потребительского рынка // автореферат на соискание ученой степени кандидата юридических наук. - Орел, – 2007. – 18 с.

126.Ибрагимов, Ш.М. Ценовой фактор роста конкурентоспособности потребительских товаров и его роль в экономическом развитии Азербайджана. // Часопис економичних реформ – №1 (17) /2015 – с.154-158.

127. Иванов, Г.Г. Экономика торговли. – М.: Академия. – 2007, с. 14-20.
128. Иванов, И.Н. Менеджмент корпорации. – М. ИНФРА – М.: –2004, – с. 14-16
129. Инфраструктура муниципальных образований. Под ред. П.В.Кухтина. М.КНОРУС. – 2008, – 308 с.
130. Канапухин, П.А. Система экономических интересов и закономерность ее развития // Журнал «Проблемы современной экономики», – 2008. № 3 (27). – с. 122-127.
131. Кенэ, Ф. Тюрго, А.Р.Ж., Дюпон де Немур. Физиократы. Избранные экономические произведения. - М.: Эксмо, – 2008. – 1200 с.
132. Кожевина, О.В. Определение неравномерности развития экономики АПК на межрегиональном уровне. Монография / О.В.Кожевина. – Барнаул: Аз бука, – 2004. – 151 с.
133. Комарова, И.В. Государственная поддержка аграрного сектора России и Украины: сравнительный анализ с использованием международных показателей // Научный журнал кубгау, № 55 (01), – 2010 г. http://ej.kubagro.ru/2010/01/pdf/09.pd
134. Котлер, Ф., Армстронг Г. и др. Основы маркетинга. Пер с англ. М. СПБ., К.: Вильямс, В.Р. –1999, – с.111
135. Котлер, Ф. Маркетинг – менеджмент. Пер с англ. / Ф.Котлер. – СПБ. Питер: 2012, – 814 с.
136. Кутаева, Т.Н. Современное состояние многоотраслевой деятельности организаций потребительской кооперации Нижегородской области / Т.Н.Кутаева, И.В.Шавандина, Ю.С.Шамин // Вестник НГИЭИ. – 2014. – выпуск 5 (36). – с. 107-113.
137. Лапаева, М.Г. Управление развитием регионального потребительского рынка: социально-экономические особенности: монография / М.Г.Лапаева, О.А.Иневатова. –

Оренбург: ОГУ, – 2010. – 213 с.
138.Лев, М.Ю. Государственное регулирование цен в зарубежных странах: учебное пособие / М.Ю. Лев. – Юнити-Дана, – 2012. – 423 с.
139.Лукашев, Н.И. Ценовая подсистема в экономическом механизме АПК// АПК: экономика, управление. – 2014, – №11, – с.46-51.
140.Ман, Т. Рассуждение о торговле Англии с Ост-Индией: ответ на различные возражения, которые обычно делаются против нее. [Электронный ресурс]. URL: http: /www.sotsium.ru/books/107/129/03%20thomas%20mun_discourse% 20on% 20 trade.html
141.Маркс, К. Капитал: критика политической экономии / том 1. / К.Маркс. – М.: Эксмо, – 2011. – 1200 с.
142.Маршалл, А. Основы экономической науки / А. Маршалл. – М.: Эксмо, –2008. – 832 с.
143.Маскин, Э.С. Конструирование экономических механизмов: как реализовать социальные цели: – Москва: докл. к X Медунар. Науч. Конф. По проблемам развития и общества, 7-9 апреля 2009 г. / Эрик С. Маскин; Гос. ун-т – Высшая школа экономики; пер. с англ. Ю.М. Яновской, ред. пер. Ф.Т. Алескеров. – М.: Изд. дом ГУ ВШЭ, 2009. – 22 с.
144.Маслова, В.В. Воспроизводство и финансовые отношения в аграрном секторе экономики / В.В. Маслова. – М.: ООО «НИПКЦ Восход-А», 2009. – – 364 с.
145.Маслова, В.В. Эффективность использования финансово-кредитных ресурсов в сельском хозяйстве // АПК: экономика, управление. – 2010, №11, – с. 67-71.
146.Методические рекомендации по организации взаимодействия участников рынка сельскохозяйственной продукции с субъектами розничной и оптовой торговли. Коллективная монография. – М.: –2009. –с. 160. http://www.fta-

mo.ru/upload/iblock/201/201de0071089a34e41620b249a3b6c35.pdf
147. Мотышина, М.С. Методы и модели маркетинговых исследований: Учеб. Пособие / М.С.Мотышина – СПб: Изд-во СПбУЭФ, – 2014. – с.78.
148. Назаренко, В.И. Теоретические основы аграрной политики на Западе и Россия: монография / В.И.Назаренко. Учреждение Российской академии наук, Ин-т Европы РАН. – М.: Ин-т Европы РАН: Русккий сувенир, –2009. – 390 с.
149. Наринбаева, А.С. Совершенствование рынка сбыта сельскохозяйственной продукции и продовольствия в Казахстане// Вестник КРСУ. –2014, Том 14. №3, –С.175-178. http://www.krsu.edu.kg/ vestnik/2014/v3/a41.pdf
150. Николенко, П.Г. Характеристика потребительских рынков на современном этапе экономического развития // П.Г.Николенко, А.М.Терехов. Современные научные исследования и инновации. 2016. № 6 [Электронный ресурс]. URL: http://web.snauka.ru/issues/2016/06/69378 (дата обращения: 08.06.2018).
151. Новикова, Н.В. Понятийно-терминологический аппарат исследования локального потребительского рынка // Муниципалитет: экономика и управление. – 2012. №1, – с. 23-29.
152. Новоселов, А.С. Региональный потребительский рынок. Проблемы теории и практики / Отв. ред. В.В. Кулешов. - Новосибирск: Сибирское соглашение, –2002. –364 с.
153. Ушачев, И.Г. Экономические проблемы воспроизводства в АПК России - / И.Г.Ушачев, Н.Н.Бондина, Н.А.Борхунов и др. – Российская академия сельскохозяйственных наук, Всероссийский институт экономики сельского хозяйства. – М.: [б. И.], –2003. –455 с.

154.Плехова, Ю.О. Особенности разработки ценовой политики на инновационную продукцию. // Ю.О.Плехова, О.С.Емелина. Вестник Нижегородского университета им. Н.И. Лобачевского. Серия: Социальные науки, –2015, №1(37), – с.53-57.
155.Ползиков, Д.А. Ценовые пропорции развития сельского хозяйства России в контексте отраслевой и макроэкономической политики. / Диссертация на соискание ученой степени кандидата экономических наук. / – М., 2014. –с. 170.
156.Полли Хилл. Рынки как места торговли. В кн: Экономическая теория. Под ред. Дж. Итуэлла. Пер. с англ. М.ИНФРА-М.: –2004, –с. 517-518.
157.Потребительский рынок города: состояние и перспективы: монография / кол. авт. под рук. Т.В. Усковой. - Вологда: ИСЭРТ РАН, –2012. –111 с.
158.Райзберг, Б.А. Современный социоэкономический словарь / Б.А. Райзберг. – М.: ИНФРА- М.: – 2009. – 358 с.
159.Риккардо, Д. Начала политической экономики и налогового обложения. Избранное // Антология экономической мысли. / Д.Риккардо. – М.: Эксмо, –2008. – 960 с.
160.Румянцева, Е.Е. Новая экономическая энциклопедия. 3-е изд. / Е.Е.Румянцева – М.: ИНФРА-М, –2008. – VI, – 826 с.
161.Стратегическое планирование инфраструктуры для устойчивого развития в Азербайджане – Организация экономического сотрудничества и развития. Париж. 2019. 35 с. - http://www.oecd.org/env/outreach/Item3-Assessment-Azerbaijan-RUS.pdf.
162.Смирнов, А. В. Модель функционирования регионального потребительского рынка: / автореферат дис. ... канд. экон. наук: 08.00.05. – Владимир, 2006. – 23 с.
163.Свободин, В.А. Методологические вопросы определения

эффективности организационно-экономического механизма сельского хозяйства / В. Свободин // АПК: экономика, управление. – 2013, – № 2, – с. 38-42.
164. Сидорин, А.А. Совершенствование государственной поддержки аграрных товаропроизводителей в условиях неэквивалентного межотраслевого обмена: / автореф. дис. на соиск. уч. степ. к.э.н. / – Орёл: орелгау,-2011. –14 с.
165. Сульповар, Л.Б. Социально-экономическое регулирование рынка потребительских товаров и услуг Московской области / Л.Б.Сульповар, А.А.Данилов, В.А.Данилова. – М.: издатель Степаненко, – 2011. – 164 с.
166. Счастливцева, Л.В. Направления совершенствования действующей модели агрострахования // АПК: экономика, управление. – 2014, №3, – с. 42-49.
167. Татаркин, А.И. Региональный рынок: проблемы формирования и функционирования / А.И.Татаркин.– Екатеринбург: изд-во УрО РАН, –2005. –315 с.
168. Терехов, А.М. Рекомендации по трансформации специализированной бухгалтерской отчетности по биологическим активам сельского хозяйства // Агропродовольственная политика России, –2015, № 8, –с. 56-59.
169. Терещенко, Н.Н. Исследование рынка потребительских товаров: Региональный аспект: / автореферат дис. ... канд. экон. наук: 08.00.05 / Красноярск, 2003. – 19 с.
170. Терещенко, Н.Н. Экономическая диагностика развития рынка потребительских товаров (теория, методология, практика) // автореферат на соискание ученой степени доктора экономических наук. - Красноярск: –2009. –31 с.
171. Тимофеева, Т.В. Анализ денежных потоков предприятия: учеб. пособоие/ 3-е изд., перераб. и доп. / Т.В.Тимофеева. – М.: Финансы и статистика; ИНФРА-М, –2010. – 368 с.
172. Федько, В.П. Инфраструктура товарного рынка /

В.П.Федько, Н.Г.Федько. – Ростов Н/Д: Феникс. –2000, – 532 с.
173. Федорова, Н.П. Формирование эффективных экономических отношений в организациях АПК (на материалах Удмуртской Республики) / Диссертация на соискание ученой степени кандидата экономических наук. / Ижевск, –2009, –186с.
174. Филимоненко, И.В. Моделирование оценки состояния локальных рынков региона (на примере Красноярского края): монография. / И.В.Филимоненко. – Красноярск: Сибирский федеральный университет, –2010, –145 с.
175. Черемисина, Т.Н. Регулирование регионального потребительского рынка товаров на основе экономической диагностики: монография / Т.Н.Черемисина. – Тамбов: Бизнес-Наука- Общество, 2012. – 141 с.
176. Чусова, А.Е. Потребительский рынок России: диагностика отраслевых и региональных проблем / Под ред., д.э.н. Г.А. Агарков. - Екатеринбург: Институт экономики УрО РАН, –2012, –280 с.
177. Шарп, У., Инвестиции. Пер. с.англ. / У.Шарп, Г.Александр, Дж.Бейми. – М.: ИНФРА, –2003. –1028 с.
178. Щепакин, М. Б. Классификация методологических подходов к представлению сущности понятия «конкуренция» / М. Б. Щепакин, Ю. В. Баженов // Экономика и предпринимательство. – 2016, №5, –С.941-945.
179. Шнипер, Р.И. Региональные проблемы рынковедения. Экономический аспект. / Р.И.Шнипер, А.С.Новоселов. – Новосибирск: Наука. Сиб. отд-е, –2003. – 442 с.
180. Экономикс: принципы, проблемы и политика: Учебник: Пер. с англ. / К.Р. Макконнелл, С.Л. Брю. - 17-е изд., англ. - М.: ИНФРА-М, –2009. –916 с.:
181. Экономические отношения в сельском хозяйстве в

условиях перехода к инновационному развитию / Под научной редакцией академика РАСХН И.Г. Ушачева и зав. отделом Н.А. Борхунова. – М: ООО «НИПКЦ Восход-А», – 2011. –188 с.
182. Яковлев, Д.П. Конкурентоспособность современного предприятия /Д.П. Яковлев. – М.: Абсолют, – 2014. – 215 с.

### *İngilis dilində*

183. Ahouissoussi, N. Reducing the vulnerability of Azerbaijan's agricultural systems to climate change: impact assessment and adaptation options / N.Ahouissoussi, J.E.Neumann, C.Okan, B.Boehlert, K.Strzepek. The World Bank, –2014.
184. Aksoy, U. Organic Agriculture in Azerbaijan, FAO: / U. Aksoy, İ.Boz, H.Eynalov H., Y.Guliyev Y, Rome, Italy, –2018.
185. Aliyev, B.H. Scientific substantiation of the introduction efficiency of the system of surface improvement of natural hayfields and pastures on the eroded soils of Azerbaijan / B.H.Aliyev, Z.H.Aliyev. International Journal of Agricultural Biotechnology and Food Sciences, Vol 1, No.1, – pp.13-16, – 2020.
186. Aliyev, Z.H. Low-intensity Irrigation Efficiency and their Application in the Conditions of Mountain Agriculture in Azerbaijan / Agrotechnology, Vol 6, – 2017. – p. 169.
187. Azerbaijan - Agricultural value added per employee (constant 2010), https://knoema.ru, Last access 2.06.2020.
188. Yu, M.. Engineering agro-food development: The cluster model in China / M.Yu, J.Calzadilla, J.L.Lopez, A.Villa. Agricultural Sciences, Vol 4, No. 09, – 2013. – pp. 33.
189. de Freitas, Renan, and Ludmila Ribeiro. "Some Current Developments in Brazilian Sociology of Crime:Towards a Criminology?." International Journal of Criminology and

Sociology 3 (2014): 175185.
190.Joffre, O.M. To cluster or not to cluster farmers? Influences on network interactions, risk perceptions, and adoption of aquaculture practices / P.M.Poortvliet, L.Klerkx. Agricultural Systems, Vol 173, –2019. – pp. 151-160.
191.Gale Iles and Oladipupo V. Adegun, Geography and Sentencing: Does Country of Citizenship Influence Sentence Longevity? - International Journal of Criminology and Sociology, 7, 2018, 48-58, DOI:https://doi. org/10.6000/ 1929-4409.2018.07.05.
192.Galvez-Nogales, E. Agro-based clusters in developing countries: staying competitive in a globalized economy / Agricultural Management, Marketing and Finance Occasional Paper (FAO), Rome, –2010.
193.Goodwin, V.K. An empirical analysis of the demand for Multiple Grop Insurance American Journal of Agricultural Economists 1993 vol.75, – pp.425-434.
194.Gulaliyev, M.G. Assessment of agricultural sustainability (Azerbaijan case) / S.T.Abasova, E.R.Samedova, L.A.Hamidova, S.I.Valiyeva, L.R.Serttash. Bulgarian Journal of Agricultural Science, Vol 25, p.2, –2019.
195.Kim, B. (2013). Who's getting cited: Representation of women and non-white scholars in major American criminology and criminal justice journals between 1986-2005 / B.Kim, P.M.Hawkins. International Journal of Criminology and Sociology, 2, –306-321.
196.Mathu, K. Green supply chain management: A precursor to green purchasing / K.Mathu. Green Practices and Strategies in Supply Chain Management. IntechOpen, –2019.
197.Mirzayev, N. The role of effective use of land in grain-growing entrepreneurship in Azerbaijan / N.Mirzayev. *Baltic Surveying,* Vol 31, –2019. – pp.31-35.

198. OECD Agricultural Statis. FAO stat.Land USE database
199. OECD-FAO Agricultural Outlook 2006-2015, http://www.uv.es/ bibsoc / Documentos/08AGRIOUT/2006-2015.pdf
200. Oliver, E. Williamson. Behavioral Assumptions. In: O.E. Williamson. The Economic Institutions of Capitalism. Firms, Markets, Relational Contracting. N.Y.: The Free Press, –1985, –p.44-52.
201. UN biofuels and starving the poor bu driving up food prices mondabay.com –2008, 14.f
202. Major trends and policies in food and agriculture. http://www.fao.org/3/a-x5565e/x5565e05.htm
203. Ramirez, M. Analysing intermediary organisations and their influence on upgrading in emerging agricultural clusters, / M.Ramirez, I.Clarke, L.Klerkx. Environment and Planning A: Economy and Space, Vol 50, No.6, –pp.1314-1335, –2018.
204. Reinert, E. Competitiveness and its predecessors - A 500-years cross national perspective // Structural changes and Economic Dynamics. –1995. №6. –P.23-42.
205. Ping, L.I.U. The Experience of International Agricultural Clusters and Enlightens for China / L.I.U.Ping, W.Koziol. https://www.researchgate.net/profile/Waldema Last access 3.06.2020.
206. Rzayev, A. Azerbaijani Agricultural Exports to EU: Overcoming Cap / A.Rzayev, T.Suleymanov. Available at SSRN 3180484, –2018.
207. Sadigov, T, Adoption of agricultural innovations in Azerbaijan: no prospects for modernization. Caucasus Survey, Vol 6, №1, – 2018, – pp. 42-61.
208. Supply and demand cherry drive. Global Fertiliizer prises. The fec.institute. https://www.silverinstitute.org/site/supply-demand/
209. Scandirro, P., Methodologies for Measuring Agricultural Price

Intervention Effects /World Bank Staff Working Paper No. 394 / P.Scandirro, C.Brucc. http:// documents. worldbank. org/curated/en/572301468741385946/pdf/multi0page.pdf
210. The Common Agricultural Policy After 2013. https: //www. ceps.eu/ system/ files/article/2012/12/Forum.pdf
211. The 2019/08 Agricultural Price Spikes: Causes and Policy Implications. http://www.growthenergy.org/images/reports/UKgov_Ag_Price_Spikes.pdf
212. FAO statistical. http://www.fao.org/economic/ess/ess-publications/ess-yearbook /en/#.WWH6vfkgXIU.2020
213. FAO Statistical Yearbook 2019. http://www. fao.org /docrep /018/ i 3107e/i3107e.PDF
214. Fed Rzime Rate.com FEDERAL WAY, WACRIME RATES
215. FAO. World Agrıculture Towards 2030/2050 http://www.fao.org/3/ap106e/ap106e.pdf
216. Wardhana, D. Agro-clusters and rural poverty: a spatial perspective for west java / D.Wardhana, R.Ihle, W.Heijman. Bulletin of Indonesian economic studies, Vol 53, No.2, –2017, – pp.161-186.
217. Vuillot, C. Ways of farming and ways of thinking: do farmers' mental models of the landscape relate to their land management practices?", / C.Vuillot, N.Coron, F.Calatayud, C.Sirami, R,Mathevet, A.Gibon. Ecology and Society, Vol 21, No.1, –2016.
218. World Bank Group. Doing Business report, 2020. https://www.doingbusiness.org/en/reports/global-reports/doing-business-2020
219. Barriers and Drivers of the Implementation and Management of Green Agri-Food Supply Chainsin Azerbaijan. N.C.Gafarov, İ.Mehdiyeva,V.Kerimli, N.Sultanova. // International Journal of Supply Chain Management (IJSCM).

Exceling Tech Publishers, Великобритания, Лондон, 2020, Vol 9, № 4, 527-535 p.

**İnternet resursları**

220. www.president.az - Azərbaycan Respublikası Prezidentinin rəsmi web ünvanı
221. www.azstat.org – Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi web ünvanı.
222. www.economy.gov.az – AR İqtisadiyyat Nazirliyinin rəsmi web ünvanı.
223. www.taxes.gov.az – AR Vergilər Nazirliyinn rəsmi web ünvanı.
224. www.customs.gov.az - AR Gömrük Komitəsinin rəsmi web ünvanı.
225. www.maliyye.gov.az – AR Maliyyə Nazirliyinin rəsmi web ünvanı.
226. www.nba.az –AR Mərkəzi Bankının rəsmi web ünvanı.
227. www.sahibkar.biz – Sahibkarlara yardım saytı.
228. www.vneshexpertserice.com– AR Qanunvericilik Bazası.
229. www.kitab.az. – Azərbaycan Elektron Kitabxanası.
230. www.agro.gov.az – AR Kənd Təsərrüfatı Nazirliyinin rəsmi web ünvanı.
231. www.kitabxana.org – “Far Centre” Elektron kitabxanası.
232. www.iqtisad.net – İqtisadiyyatla bağlı web ünvanı.
233. http///www. business dictionary.com
234. www.agrarbazar.az
235. www.edf.gov.az – Sahibkarlığın İnkişafı Fondunun rəsmi web ünvanı.
236. www.ecoreforms.az. - İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin rəsmi veb ünvanı.
237. www.att.gov.az – “Aqrar Tədarük və Təchizat” Açıq Səhmdar Cəmiyyətinin rəsmi veb ünvanı.

238. https://www.globalhungerindex.org/ranking.html
239. https://dth.az/index
240. www.azexport.az
241. https://customs.gov.az
242. http: //interfax.az/
243. http://www.fao.org/3/ca8710en/CA8710EN.pdf
244. http://www.FED.Az

**NİZAMİ CƏLAL OĞLU QAFAROV**

**AQRAR İSTEHLAK BAZARININ FORMALAŞMASI VƏ İNKİŞAFININ İQTİSADİ PROBLEMLƏRİ**

**M O N O Q R A F İ Y A**


Nəşriyyatın müdiri: Əhməd Ziyəddinoğlu
Kompyuter tərtibatı: Hacı İsmayılov
Operator: Ufiq Əliyev
Korrektor: Ramin Rəsulov

Yığılmağa verilib: 09.01.2023
Çapa imzalanmış: 14.03.2023
Kağız formatı: 60x84, 1/16
Kağız növü: 70 qr. (ofset)
Fiziki çap vərəqi: 20
Tirajı: 200

Kitab Azərbaycan Kooperasiya Universitetinin
mətbəəsində çap olunmuşdur.
Ünvan: AZ1106, Bakı şəhəri, Nərimanov rayonu,
Nəcəf Nərimanov küçəsi 93.